ADB

Ölkə üzrə Gender Qiymətləndirilməsi

# Azərbaycan



Asiya İnkişaf Bankı

# AZƏRBAYCAN

# ÖLKƏ ÜZRƏ GENDER QİYMƏTLƏNDİRİLMƏSİ

**Asiya İnkişaf Bankı**
**Mərkəzi və Qərbi Asiya Regional Departamenti və**
**Regional və Davamlı İnkişaf Departamenti**

**Dekabr 2005**

Asiya İnkişaf Bankı
Bütün hüquqlar saxlanır.
2005-ci ildə Filippində nəşr edilib.
2006-cı ildə Azərbaycan dilinə tərcümə edilib.

Tərcümə edən: Sənubər Mir Cəfərova
Redaktorlar: Möminat Ömərova
Nərmin Bağırova

Asiya İnkişaf Bankı
AİB-nın inkişaf etməkdə olan üzv dövlətlərdə gender və inkişaf problemlərinə dair tədris məlumatı və təhlili.
1.Asiya İnkişaf Bankı. 2.Gender və inkişaf. 3.Azərbaycan.

Kitabda ifadə edilmiş fikirlər müəllifə məxsusdur və AİB-nın və onun idarə heyətinin nöqteyi-nəzəri və siyasətlərini əks etdirmir.

AİB bu nəşrə daxil edilmiş məlumatların dəqiqliyinə zəmanət vermir və onların istifadə edilməsinin nəticələri üçün məsuliyyət daşımır.

"Ölkə" termininin istifadə edilməsi müəlliflərin və ya AİB-nın heç bir mövcud ərazinin hüquqi və ya digər statusuna dair fikir söyləməsini nəzərdə tutmur.

# Minnətdarlıq

Təqdim edilən Ölkə üzrə gender qiymətləndirilməsi (ÖGQ) Mərkəzi və Qərbi Asiya Regional Departamenti (MQARD) və Regional Davamlı İnkişaf Departamentinin dəstəyi ilə dörd Mərkəzi Asiya respublikasını – Qırğızıstan, Azərbaycan, Qazaxıstan və Tacikistan – əhatə edən regional AİB-nın texniki yardım (TY) layihəsinin bir hissəsi kimi hazırlanıb. Hökumətin gender bərabərliyini təsbit etmək və gender yanaşmasının *(Red. qeydi: Gender yanaşması – gender amilinin bütün proqram, siyasət və layihələrə daxil edilməsidir)* dövlətin yoxsulluğun azaldılması strategiyalarına daxil etmək səylərinə əlavə olaraq, ÖGQ-nin məqsədi AİB-nın müdaxilələrinin ölkədəki gender şəraitinə və təşəbbüslərinə qarşı həssas olduğunu göstərməkdir. Qiymətləndirməni hazırlayanlar ona da ümid edirlər ki, bu məruzə həm hökumət, həm də qeyri-hökumət təşkilatları, eləcə də gender və inkişaf sahəsində işləyən ayrı-ayrı şəxslər üçün faydalı olacaq.

Məruzə məsləhətçi Fabia Şah tərəfindən Şri Veninq Handayaninin (Yoxsulluğun azaldılması sahəsində mütəxəssis) nəzarəti altında və Nərmin Bağırovanın yardımı ilə hazırlanıb. Azərbaycanda yerlərdə materialların toplanmasına böyük kömək göstərən, işə rəhbərlik edən Möminat Ömərovaya (Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsinin (QPDK) sədr müavini) təşəkkür edirik. Məruzə hazırlanan zaman nəzarətçilərin – Şirin Lətif, Həriet Vilkinson, Françesko Tornieri, və Helen Tomasın (beynəlxalq məsləhətçi) da konstruktiv məlumatlarının böyük faydası olub. Monik İşi, Sara Medina və Bonq Reklamado məruzənin redaktə edilməsi və çap olunmasında dəyərli yardım göstəriblər. AİB-nın Azərbaycanda yerləşən missiyasının heyəti maddi-texniki yardım göstərib və layihəyə rəhbərlik edib, AİB-nın ölkə üzrə direktoru Mətyu Vestfol bu təşəbbüsü dəstəkləyib. Şərqi və Mərkəzi Asiya şöbəsinin Sosial sektor bölümünün direktoru Robert Vitol məruzəni hazırlayan heyətə bütün iş prosesi ərzində ümumi rəhbərlik edib.

Azərbaycan Hökumətinin rəsmi işçilərinin, beynəlxalq inkişaf agentlikləri və qeyri-hökumət təşkilatlarının, habelə, Azərbaycanda bir çox QHT-lər və inkişaf sahəsində mütəxəssislərin xüsusi yardımı olmadan bu məruzəni hazırlamaq mümkün olmazdı; adları çəkilən şəxslər və təşkilatlar böyük iltifatla gender və inkişaf məsələlərinə dair məlumat, sənədlər, perspektivlər və məsləhətlərini heyətlə bölüşüblər. 2004-cü ilin oktyabr və 2005-ci ilin aprel ayları arasında keçirilən üç seminarın iştirakçıları xüsusilə qeyd edilməlidirlər: onlar həm genderlə bağlı məsələləri müəyyənləşdirməyə, sonradan isə məruzəni şərh etməyə yardım göstəriblər.

Bu ÖGQ-nın hazırlanması üçün müxtəlif mənbələrdən istifadə edilib. Keyfiyyət göstəricilərinə dair məlumat 2004-cü ilin oktyabr və 2005-ci ilin aprel ayları arasında yerlərə səfərlər zamanı toplanıb; bu dövr ərzində bir sıra səhmdarlarla, o cümlədən, QHT-lər, icma təşkilatları və qadın qrupları, ayrı-ayrı qadın fəalları, alimlər, dövlətin rəsmi şəxsləri və donor təşkilatları ilə birgə məsləhətləşmələr keçirilib. Kəmiyyət göstəriciləri müxtəlif mənbələrdən, o cümlədən, Azərbaycanda kişi və qadınlara dair DSK-nın illik statistik məcmuələri, ev təsərrüfatlarının büdcə müayinələri (2001-2002), UNICEF-in keçirdiyi çoxgöstəricili klaster sorğuları və Dünya Bankı və AİB-nın müxtəlif mənbələrindən, o cümlədən, sektor təhlilindən və müvafiq layihə sənədlərindən götürülüb. Kəmiyyət göstəricilərinə dair məlumatlar ərazidəki digər ədəbiyyatların keyfiyyət nəticələri ilə tamamlanıb.

# Akronimlər

| | | |
|---|---|---|
| AİB | – | Asiya İnkişaf Bankı |
| MAR | – | Mərkəzi Asiya Respublikası |
| İƏT | – | icma-əsaslı təşkilat |
| XNM | – | Xəstəliklərə Nəzarət Mərkəzi |
| CEDAW | – | Qadınlara qarşı Ayrı-seçkiliyin Ləğv edilməsi haqqında Konvensiya |
| ÖGQ | – | Ölkə üzrə Gender Qiymətləndirilməsi |
| MDB | – | Müstəqil Dövlətlər Birliyi |
| EUİ | – | erkən uşaqların inkişafı |
| BQET | – | başçısı qadın olan ev təsərrüfatı |
| kSB | – | keçmiş Sovet İttifaqı |
| ÜDM | – | Ümumi Daxili Məhsul |
| İİİ | – | İnsan İnkişafı İndeksi |
| İİV/QİÇS | – | İnsan İmmunçatışmazlığı Virusu/Qazanılmış İmmunçatışmazlığı Sindromu |
| ETBM | – | Ev Təsərrüfatlarının Büdcə Müayinəsi |
| YÇP | – | yod çatışmazlığı ilə əlaqədar olan pozuntular |
| MK | – | məcburi köçkünlər |
| BMqT | – | Beynəlxalq Miqrasiya Təşkilatı |
| BXK | – | Beynəlxalq Xilasetmə Komitəsi |
| İQS | – | İşçi Qüvvəsinə dair Müayinə |
| MİM | – | Minilliyin İnkişaf Məqsədləri |
| MMİ | – | mikromaliyyə institutu |
| AÖƏ | – | Ana Ölümü Əmsalı |
| QHT | – | qeyri-hökumət təşkilatı |
| MFP | – | Milli Fəaliyyət Planı (Qadın Məsələləri üzrə) |
| ATƏT | – | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| İSX | – | ilkin səhiyyə xidməti |
| RSM | – | Reproduktiv Sağlamlığın Müayinəsi |
| QMKİDK | – | Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi |
| QPDK | – | Qadın Problemləri üzrə Dövlət Komitəsi |
| KOM | – | kiçik və orta müəssisələr |
| SSQ | – | Sektor Siyasəti üzrə Qeydlər |
| YAİİDP | – | Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı |
| YADİDP | – | Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf üzrə Dövlət Proqramı |
| DSK | – | Dövlət Statistika Komitəsi |
| CYYX | – | Cinsi Yolla Yoluxan Xəstəliklər |
| SİQ | – | Sektor İşçi Qrupu |
| BMTİP | – | Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı |

| | | |
|---|---|---|
| BMTƏF | – | Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu |
| UNİCEF | – | Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu |
| UNİFEM | – | Birləşmiş Millətlər Təşkilatının Qadınlar üçün İnkişaf Fondu |
| UNAIDS | – | Birləşmiş Millətlər Təşkilatının İİV/QİÇS üzrə birgə Komitəsi |
| BMTQAK | – | Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı |
| BMTAİK | – | Birləşmiş Millətlər Təşkilatının Avropa üçün İqtisadi Komissiyası |
| ABŞBİA | – | Amerika Birləşmiş Ştatların Beynəlxalq İnkişaf Agentliyi |
| QQZ | – | qadınlara qarşı zorakılıq |
| ÜST | – | Ümumdünya Səhiyyə Təşkilatı |
| ÇGKS | – | Çoxgöstəricili Klaster Sorğusu |

**Valyuta Ekvivalenti**
(6 dekabr 2005-ci ildə)

Valyuta vahidi – manat (AZM)
1,00 = $0,0002
$1,00 = 4613 manat

**Qeyd:**

Bu məruzədə “$” – ABŞ dollara aiddir.

# Mündəricat


Akronimlər ....................v

Xülasə .................... xi

**1-ci fəsil. Azərbaycanda gender və yoxsulluq**

A. Azərbaycanda yoxsulluq ....................1

B. Azərbaycanda yoxsulluğun gender ölçüləri....................4

**2-ci fəsil. Yoxsulluğun azaldılmasına dair milli siyasət və proqramlar**

A. 2003-2005-ci illər üçün YAİİDP ....................11

B. Gender yanaşması və 2006-2015-ci illər üçün YADİDP....................13

C. Minilliyin İnkişaf Məqsədləri:
Milli məqsəd və hədəflərinin inteqrasiyası ....................14

D. Tövsiyələr....................19

**3-cü fəsil. Gender bərabərliyini təmin edən milli qanunlar, institutlar və siyasət**

A. Beynəlxalq öhdəliklər və hüquqi çərçivə....................23

B. Gender bərabərliyini təmin edən institut və siyasətlər ....................24

C. Tövsiyələr....................28

**4-cü fəsil. İqtisadi inkişafın və artımın gender ölçüləri**

A. Formal əmək bazarının gender ölçüləri....................31

B. Qeyri-formal sektorun gender ölçüləri ....................34

C. Qadın sahibkarlığı və kredit ....................35

D. Kənd iqtisadiyyatının gender ölçüləri ....................38

E. Sosial müdafiə proqramları....................41

F. Tövsiyələr....................42

**5-ci fəsil. İnsan inkişafının gender ölçüləri**

A. Təhsildə gender məsələləri....................45

B. Səhiyyədə gender məsələləri ....................51

C. Tövsiyələr....................61

**6-cı fəsil. Gender, siyasətdə iştirak və vətəndaş cəmiyyəti.**

A. Gender və idarəetmə məsələləri ....................65

B. Gender məsələlərinə dair vətəndaş cəmiyyət təşkilatları ....................67

C. Beynəlxalq inkişaf partnyorların töhfləri....................69

D. Tövsiyələr....................71

**7-ci fəsil. Gender bərabərlyinə dair daha bir neçə məsələ.**

A. Daxili/Xarici əmək miqrasiyası....................73

B. Qadın və uşaq alveri ....................74

C. (Yenidən) Ortaya çıxan ənənələr və təcrübələr ....77
D. Gender, ətraf mühit və milli sərvətlər ....78
E. Tövsiyələr ....81

**8-ci fəsil. Gender, yoxsulluq və MK /qaçqın əhali.**
A. Məşğulluq ....86
B. Səhiyyə ....87
C. Təhsil ....88
D. Gender zəminində zorakılıq ....89
E. Tövsiyələr ....90

**9-cu fəsil. Gender yanaşmanın AİB əməliyyatlarına daxil edilməsi**
A. Ölkənin strategiyası və proqramında gender məsələləri ....91
B. Ölkənin strategiyası və proqramında gender yanaşmasının tətbiq edilməsinə dair üçün ümumi tövsiyələr ....91
C. Ölkənin strategiyası və proqramında gender yanaşmasının tətbiq edilməsinə dair sektor tövsiyələri ....92

**İstifadə edilən mənbələr** ....101

**Əlavələrin siyahısı**

1-ci əlavə Gender və YAİİDP ....105
2-ci əlavə Yoxsulluğun gender ölçüləri: 2003-2005 YAİİDP və YADİDP çərçivəsinə daxil olan potensial bəndlər ..107
3-cü əlavə Azərbaycanda Minilliyin İnkişaf Məqsədləri (MİM): Beynəlxalq və milli hədəflər ....115
4-cü əlavə Beynəlxalq və milli MİM-lərin müəyyənləşdirilməsi və onların gender ölçüləri ....120
5-ci əlavə Azərbaycanda gender məsələləri ilə məşğul olan qeyri-hökumət təşkilatları (QHT-lər)....127

**Diaqramların siyahısı**

Diaqram 1 Məşğulluq sahəsində qadın/kişi sektoru (%) ....33
Diaqram 2 Kənd təsərrüfatı sektorunda qadınların məşğulluğu, 1990-2003-cü illər (%-lə) ....39
Diaqram 3 Ölkənin ümumi istehsalına nisbətdə dövlətin təhsil sisteminə ayırdığı xərclərin %-i, 1990-2004-cü illər....45
Diaqram 4 3-5 yaşlı (5 yaşdan az) uşaqların məktəbəqədər təhsil proqramlarına cəlb edilməsi ....47
Diaqram 5 Tələbələrin elm sahələri üzrə ali təhsildə təmsil edilmələri....50
Diaqram 6 Ölkənin ümumi istehsalına nisbətdə dövlətin səhiyyə sisteminə ayırdığı xərclərin %-i, 1990-2004-cü illər ....52

Diaqram 7 Son ildə həkim köməyi ilə doğan 15-49 yaşlı qadınlar (2000)......................53
Diaqram 8 Azçəkili, inkişafdan qalmış və çox zəif uşaqların faiz göstəriciləri (gəlir qruplarına görə)..............................................................57
Diaqram 9 Parlamentin gender tərkibi, 1975-2004-cü illər............................................65
Diaqram 10 Məcburi köçkün/Qaçqın əhalinin gender strukturu, 2001-ci il (%-lə)...........86
Diaqram 11 3-5 yaşlı məcburi köçkün/qaçqın, və eləcə də köçkün/qaçqın olmayan uşaqlar arasında xroniki və kəskin aclıq hallarının yayılması .......................87

**Cədvəllərin siyahısı**

Cədvəl 1 Əhalinin müxtəlif kateqoriyaları arasında yoxsulluq halları (ayrı-ayrı şəxslər)....................................................................2
Cədvəl 2 Dövlət fəaliyyət planı: Strateji məqsədlər və fəaliyyətlər.............................27
Cədvəl 3 İşləmək yaşı çatmış və iqtisadi cəhətdən fəal və qeyri-fəal əhali (%)...........31
Cədvəl 4 Yaş qrupuna görə kişilərin/qadınların qeyri-fəallıq dərəcəsi .........................32
Cədvəl 5 2004-cü ildə qeyri-fəal əhalinin gender tərkibi (%)......................................32
Cədvəl 6 Uşaqlar, yeni doğulmuş və doğuşdan sonrakı dövrdə körpələr arasında ölüm faizi (hər 1 000 diri doğulan uşağa görə): Rəsmi göstəricilərlə Azərbaycan arasında müqayisə Reproduktiv sağlamlığın müayinəsi (2001-ci il) ..........................................54
Cədvəl 7 Hökumətdə qərarqəbuletmə səviyyəsində qadınlar və kişilər .......................67

**Çərçivələrin siyahısı**

Çərçivə 1 Qadınların biznes şəbəkələrinin əhəmiyyəti .................................................37
Çərçivə 2 Lalənin məsələsi...........................................................................................75
Çərçivə 3 Yeddi oğul istərəm, bircə dənə qız, gəlin......................................................78

# Xülasə

Sovet İttifaqının mərkəzdən idarə edilən iqtisadiyyatından yeni bazar iqtisadiyyatına keçid dövrü Azərbaycan üçün bir sınaq meydanı oldu. Keçid dövrünün ilk illərində dövlət müəssisələri bağlandığına görə işlə məşğulluq azaldı, keçmiş səhiyyə sisteminə ayrılan xərclər azaldığı üçün insanların sağlamlıq göstəriciləri aşağı düşdü, dövlətin sosial müdafiə proqramları ya ixtisar edildi, ya da ləğv olundu, və buna görə də yoxsulluğun səviyyəsi qalxdı. Bundan əlavə, Dağlıq Qarabağ ərazisinə görə Azərbaycanla Ermənistan arasında uzun sürən müharibə dövlətin yardımına ehtiyacı olan 800 000-dən çox köçkün və qaçqın əhalinin meydana gəlməsinə səbəb oldu. Bütün bu hadisələrdən sonra bərpa prosesi yaxşı keçdi və son onillikdə Azərbaycan uğurlu iqtisadi yüksəlişə nail oldu. Siyasətdə və struktur dəyişikliklərində həyata keçirilən öhdəliklər və külli miqdarda qaz və neft ehtiyatları bunu düşünməyə imkan verir ki, Azərbaycan davamlı səylər nəticəsində qarşıdan gələn onillik ərzində yoxsulluq həddini aşağı salmaq üçün kifayət qədər potensiala malikdir.

Keçid dövrü Azərbaycanda qadınlar üçün qarışıq və çox vaxt da gender xarakterli nəticələrə gətirib. Qadınların rəsmi məşğulluq səviyyəsi kişilərə nisbətən daha çox aşağı enib. 20-49 yaş həddində olan qadınların üçdə bir hissəsindən çoxu bu gün iqtisadı cəhətdən qeyri-fəal hesab edilir. Formal sektorda (o cümlədən inkişafda olan özəl sektorda) daha az imkanlara malik olan qadınlar ailələrinin ümumi gəlirinə yardım etmək məqsədilə daha çox qeyri-formal sektora müraciət edirlər, həm də belə iş adətən müdafiə olunmur və burada az maaşla uzun müddətli iş nəzərdə tutulur. Kiçik və orta həcmli müəssisələrdə iş axtaıb tapmaq və yeni iş yerləri yaratmaq cəlbedici görünsə də, qadınlar üçün çox vaxt bu gəlir və məşğulluq yaradan imkanları genişləndirməyə və inkişaf etdirməyə kömək edə bilən kredit almaq, təlim keçmək və peşəkarlıqlarını artırmaq imkanlarını əldə etmək kişilərə nisbətən daha çətin olub.

Bundan əlavə, Sovet İttifaqının sona yetməsi ilə qadınların ehtiyaclarına yönəlmiş bir çox proqramlar, o cümlədən, ailə və uşaqlara qayğı sistemi, ləğv edilib və bu məsuliyyət onsuz da özlərinin ödənilən və ödənilməyən iş məsuliyyətlərini balanslaşdırmağa çalışan qadınların öz öhdəsinə buraxılıb. "Üçqat keçid" və yoxsulluq özünü qadınların və uşaqların qidalanma ilə əlaqədar sağlamlıq göstəricilərində də göstərir. Anemiya və yod çatışmazlığının yüksək səviyyədə olması, eləcə də, azyaşlı uşaqların kifayət qədər yeməməsi və inkişafdan qalması göz qabağındadır. Üstəlik, həm dövlət, həm də yerli səviyyədə siyasi rəhbərlikdə gender bərabərsizliyinin artması qadınların dövlətin siyasi (və yoxsulluğun azaldılması) məsələlərinə təsir etmək imkanlarını aşağı salıb. Və sonda, keçid dövrü qadınlar üçün əlverişli olmayan başqa cəhətləri də, məsələn, insan alveri, ənənəvi adət və təcrübələrin yenidən meydana çıxması, sağlamlıq və həyat tərzi ilə əlaqədar təhlükələr, o cümlədən, genderlə əlaqədar zorakılıq hallarını da aşkara çıxardıb.

**Azərbaycanda gender və yoxsulluq: mövcud şərait və əsas problemlər**

Azərbaycanda bir çox qadın üçün Sovet dövrünün sonu imkanların azalması

dövrünün başlanmasına bir işarə oldu. Keçid dövründə geniş miqyasda iş yerlərinin itirilməsi prosesində ən çox uduzan qadınlar işsizlər və "iqtisadi cəhətdən qeyri-fəal" əhali arasında üstünlük təşkil edirlər; onlar əhəmiyyətli dərəcədə üfüqi və şaquli seqreqasiyanın mövcud olduğu formal sektorda ayrı-seçkilikdən əziyyət çəkir, inkişaf etməkdə olan özəl sektorda isə özlərinin get-gedə daha çox sıxışdırıldıqlarını hiss edirlər.

Azərbaycanda işsizlik qadınlara müxtəlif şəkildə təsir göstərib. Çoxları yalnız ev işləri ilə məşğul olmağa məcbur olub. Ev işləri, uşaqların və çox vaxt da yaşlıların qayğısına qalmaq isə ödənilmir və qiymətləndirilmir. Formal sektorda işdən çıxarılanların bəziləri, o cümlədən "ev işçiləri" (xidmətçilər) kateqoriyasına aid edilənlər qeyri-formal sektora müraciət ediblər. Burada onlar həm evdə, həm də evdən kənarda müxtəlif işlərlə məşğul olur, və bunlarla eyni vaxtda uşaqlara baxır və müxtəlif ev işləri də görə bilirlər. Bəziləri mövcud kənd təsərrüfatlarında işləyir; burada isə iş günü uzun, iş çox zəhmət tələb edən və intensivdir, və özlərini və ailələrini maddi cəhətdən düşdükləri şok vəziyyətindən çıxara bilməyə azacıq da olsa kömək etmək üçün pul yığmaq və ya gəlir artırmaq imkanları çox azdır. Çox az sayda qadın, başlıca olaraq bir qədər kapitala malik olanlar, kiçik bizneslə məşğul olmağa başlayıblar; bəziləri ailələrin və kiçik cəmiyyətlərin təqdim etdikləri yardım şəbəkələrinin dəstəyi ilə, o cümlədən uşaqlara qayğının təmin edilməsi ilə, uğur qazanıblar. Lakin bu şəbəkələr də get-gedə artan təzyiq altındadırlar, çünki hər kəs öz başlıca ehtiyaclarını ödəmək yolunda çətin iqtisadi mühitdə mübarizə aparır.

Bu problemlərə müraciət edilməsi mürəkkəb prosesdir və qadınların produktiv və reproduktiv rolunu, həmçinin "səmərəli" iqtisadiyyatda onların mərkəzi rolunu tanıyan və bu işdə onlara yardım edən hərtərəfli yanaşma tələb edir. Əgər qadınların ödənişli əməyə cəlb edilə bilmələri üçün şərait olmalıdırsa, qadınlar üçün yeni imkanlar yaradılması və məşğulluq üzrə müvafiq təlim proqramlarının tətbiq edilməsindən əlavə, kənd və şəhər yerlərində imkan daxilində uşaqlara qayğı göstərilməsinin təmin edilməsi, təhsil və səhiyyədə ictimai əsaslarla birgə xidmətlərdən istifadə edilməsi çox əhəmiyyətlidir. Qadınların iqtisadi resurslardan istifadə edə bilmələrini asanlaşdırmaq və onların kiçik və orta müəssisələrdə iştirakını artırmaq üçün onları dəstəkləyən mühitin (məsələn, biznesi inkişaf etdirməyə xidmət edən məsləhətxanalar, təlim kursları, bazara çıxış) təmin edilməsi; qadınların bərabər hüquqlarla işə düzəlmə imkanlarını müəyyənləşdirən və onu müdafiə edən qanunvericiliyin (eləcə də cinsi zəmində qadınlar üçün çətinlik törədilməsi və işə götürərkən ayrı-seçkiliyə yol verilməsi əleyhinə hüquqi müdafiə tədbirləri) olması; qadınların mülki xidmətlərdə sürətlə irəli çəkilmələrini təmin edən siyasət aparılması qadınların imkanlarını genişləndirmək və onları müdafiə etmək üçün istifadə edilən yollardan bəziləridir. Bütün bu şərtlərin mərkəzində formal və qeyri-formal sektorların gender baxımından daha yaxşı qiymətləndirilməsinə ehtiyac (xüsusilə də sosial xidmətlərin azaldığı bir şəraitdə), eləcə də qadınların kənd təsərrüfatında rolu və iştirak faizi durur.

Səhiyyə sektorunda Azərbaycanda narahatlıq doğuran problem qadınların və qızların pis qidalanmasıdır, və bu problem qadınların uşaq doğurma qabiliyyətlərinə ziyan vurmaqdan əlavə, ümumiyyətlə onların həyatlarının keyfiyyətinə pis təsir göstərir. Uşaqdoğurma yaşında olan qadınlar arasında anemiya halları xüsusilə yüksəkdir: rəsmi statistikaya görə hər altı

qadından biri (17,3%) anemiyadan əziyyət çəkir (DSK 2005: 43). Əlbəttə, güman etmək olar ki, real rəqəmlər bu göstəricilərdən xeyli yüksəkdir. 2001-ci ildə keçirdiyi Reproduktiv Sağlamlığın Müayinəsi aşkar etmişdir ki, hamilə olan və olmayan qadınların üçdə birində anemiya halları aşkara çıxarılmışdı (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 119-120). Uşaqların zəif qidalanmaları da böyük narahatlıq doğurur. Naxçıvanın, ölkənin cənub və cənub-qərb hissələrinin yoxsul rayonlarında hər beş uşaqdan birinin çəkisi normadan aşağıdır və hər dörd uşaqdan biri inkişafda geri qalır. Yod çatışmazlığı qadın və uşaqlar arasında əsas problemdir. Rəsmi statistik məlumatlara əsasən, hamilə qadınların yarıdan çoxu yod çatışmazlığından əziyyət çəkir (AİB, 2003: 2). Ana ölümünün əmsalı 1994-cü ildən bəri aşağı düşsə də, bu sahədə hesabat sisteminin zəif olduğuna görə real vəziyyət düzgün qiymətləndirilmir (DSK 2005: 22).

Təhsil sahəsində ali və peşə təhsili müəssisələrində qeydə alınan gender bərabərsizliyi və bu mərhələdə təhsildə peşə seçimində açıq-aşkar ayrı-seçkilik gələcəkdə qadın və kişilər arasında peşəkarlıqda mövcud olan geriliyi daha da artıra bilər. Həm oğlanlara, həm də qızlara aid olduğu üçün, uşaqlara qayğı göstərməli olan vasitələr və proqramlar müvafiq səviyyədə deyilsə, dövlətin siyasətində prioritet təşkil etməyincə, 5 yaşdan aşağı uşaqların müasir və gələcək nəsillərinin qabilyyətlərinə pis təsir göstərə bilər.

Qabiliyyətlə əlaqədar problemlərdən danışarkən burada bir sıra məsələlərə toxunmaq lazımdır. Səhiyyə sektorunda doğuş zamanı ana və körpələrin ölüm hallarının sayının azaldılması üçün tələb olunan keyfiyyətli səhiyyə xidmətlərindən istifadə etmək imkanlarının yaxşılaşdırılmasına yönəlmiş fəaliyyət kritik səviyyədədir və bu fəaliyyət öndə gedən səhiyyə işçilərinin doğuş zamanı təhlükəsizliyi təmin edə bilmələri və daha çox rast gəlinən diareya və kəskin respirator xəstəliklərin öhdəsindən gələ bilmələri üçün müvafiq təlim keçmələri və onlara daima nəzarət edilmələri yolu ilə dəstəklənməlidir. Bundan əlavə, insanlar icmalarda və məişətdə həm preventiv, həm də müalicəvi səhiyyə məsələləri barədə məlumatlandırılmalıdır ki, uşaqlar arasında xəstəlik və ölüm hallarının əsas səbəbləri aydın olsun. Erkən uşaqlıq dövrü üçün tədris proqramlarını və preventiv səhiyyə xidmətlərinin göstərilməsini (məsələn, immunlaşdırma, xəstəliklərin qarşısının alınması, mikro-qidalanmanın çatışmazlığı və körpələrin və azyaşlı uşaqların qidalanması, habelə əmizdirilməsi təcrübələrinin yayılması) özündə birləşdirən uşaqların vahid inkişaf poqramı da çox əhəmiyyətlidir. Təhsil sektorunda ali təhsil sahəsinə qadınların daha çox cəlb edilməsinə maraq oyadan siyasətin həyata keçirilməsi, azyaşlı uşaqların (o cümlədən, bağça yaşlı) inkişafına yönəlmiş proqramların genişlənməsi və yaxşılaşdırılması üçün əlavə maliyyələşdirmə, və qadın və kişilər haqqında stereotip təsəvvürləri aradan götürmək üçün məktəb proqramlarının və dərsliklərin yenidən işlənməsi yolları ilə qadınların imkanlarını gücləndirmək mümkündür.

Azərbaycanda, keçmiş Sovet İttifaqının digər respublikalarında olduğu kimi, son onillik ərzində qadınlar gəlirlərin təhlükəliliyinin bütün səviyyələrindən keçiblər. Çox sayda qadın və kişilərin daimi iş yerlərini itirmələri və uzün müddət davam edən işsizlik dövrləri onların qənaətlə yığdıqları pulların və əmlakın itirilməsinə səbəb olub; yoxsulların çox az hissəsi gəlir baxımından üzləşdikləri ən kiçik şoka davam gətirə bilir. Sosial müdafiə

sistemlərinin verdiyi maddi yardımın növünün və miqdarının azalması ilə bərabər, təhsil və tibbi xidmət üçün tələb olunan əhəmiyyətli dərəcədə yüksək "qeyri-rəsmi" ödəmələr sistemi bir çox ailənin iqtisadi cəhətdən təhlükəlilik həddinin daha da artmasına səbəb olur. Qadın və qızların alveri hallarının artması gəlir təhlükəsinin başqa bir cəhətidir (BMqT 2002: 36), üstəlik, alver qurbanı olmuş qadınlar və qızlar fiziki təhlükəyə, fiziki və mənəvi zorakılığa və zorlanmaya da məruz qalırlar. Məişət zorakılığının çox geniş yayıldığı məlumdur, lakin Azərbaycanda bu barədə çox məlumat verilmir, çünki bu hələ də "şəxsi iş" hesab edilir və çox vaxt gizlədilir.

Qadınların iş tapa bilmək imkanlarını çoxaltmaq və qadın sahibkarlığını lazımi dəstəklə təmin etməkdən əlavə, qadınların iqtisadi cəhətdən təhlükəsizliyinin artırılması tələb edir ki, sosial müdafiə sistemi qadınları və onların ailələrini gözlənilməz iqtisadi şoklardan qorumağa adekvat müdafiə tədbirləri təqdim edə bilsin. Bundan başqa, sistemin təklif etdiyi islahatlara, xüsusilə də təqaüd məsələləri kimi əsas sahələrdə, mütəxəssislər tərəfindən yenidən baxılmalıdır ki, burada qadınlara qarşı ayrı-seçkiliyə yol verilməsin, onlara zərər vurulmasın, və islahatlarda qadınların iqtisadi təhlükəsizliyinə mənfi təsir göstərə biləcək gender əyintiləri olmasın. Eyni zamanda, qadınların əmlakdan bərabər surətdə yararlanmaq hüququ da təsdiqlənməlidir, özü də təkcə bu bərabərliyi təmin edən qanunvericiliyin həyata keçirilməsi ilə yox, həm də dövlət sektorunda və şəxsi sektorda, eləcə də vətəndaş cəmiyyətində bu hüquqlar barədə məlumatlandırma işi aparmaq yolu ilə. Effektiv hüquqi strukturların öz yerində olmasının və bu strukturların qadınlara qarşı zorakılığa və qadın alverinə qarşı mübarizəyə yönəldilməsinin təmin edilməsi qadınların üzləşdiyi fiziki təhlükələrin səviyyəsinin aşağı endirilməsi üçün əsas şərtdir. Bütün bunlar insan alveri və zorakılıq problemləri ilə məşğul olan məhkəmə və hüquq orqanları, tibb işçiləri, polis və mühacirət xidmətləri, müntəzəm dövlət informasiya kampaniyaları (o cümlədən, məktəblər və universitetlər) tərəfindən aparılan təlimlər, eləcə də təhlükəsiz evlərin, psixoloji yardımın təşkili və hüquqi məsləhətlərin verilməsi yolu ilə həyata keçirilə bilər.

Qadınlar ictimaiyyət arasında inamsızlıqla da rastlaşıblar. Onların siyasi strukturlarda və administrativ qərarqəbuletmə orqanlarında təmsil olunmaları xeyli dərəcədə azalıb, və bu da keçmiş Sovet İttifaqındakı 33%-lik kvota sisteminin ləğv edilməsinin nəticəsidir. 1989 və 2005-ci illər arasında qadınların Parlamentdə iştirak etmələri 40%-dən 6%-ə düşdü (və ya hazırkı Milli Məclisin 125 üzvündən 14-ü). Qadınların yerli səviyyədə də təmsil olunmaları çox aşağıdır; 2004-cü ilin Bələdiyyə seçkilərində seçilmiş üzvlərin yalnız 4%-i qadınlar idi (QPDK 2005; məlumat sorğu ilə əldə edilib). Qadınlar yüksək dövlət vəzifələrində də çox az təmsil olunurlar, bütün nazirliklərin qərarqəbuletmə səviyyələrində gender bərabərsizliyi nəzərə çarpır. 2005-ci ilin göstəricilərinə əsasən, mülki xidmətlərdə yüksək vəzifə tutanların hər on nəfərindən doqquzu kişi olub və 29 Nazir/Komitə başçısının yalnız biri qadın olub, o da Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri.

Qadınların siyasətlə məşğul olma faizinin artırılması qarşıya müəyyən məqsədlər qoymaqla mümkündür, lakin bu iş dövlət səviyyəsində, regional və kəndlər səviyyəsində idarəetmə strukturlarının bütün qatlarında qadınların iştirakını həvəsləndirməyə və artırmağa yönəlmiş müəyyən siyasətin həyata keçirilməsi yolu ilə möhkəmlənməlidir; bundan əlavə,

həmin strukturların bütün qatlarında çalışanlar üçün gender sahəsində təlimat aparılmalıdır. İşə düzəlmə sahəsində bərabər imkanlar verən, daim təzələnən və effektli məcburi xarakterə malik qanunvericiliyin təsdiq edilməsi qadınlar üçün iş yerlərində bərabər hüquqlar təmin edən sanballı bir hüquqi strukturun qarantiyası ola bilərdi. Ərə gedəndən və uşaq doğandan sonra qadınların iş tapmaqlarını və işdə irəli çəkilmə perspektivlərini məhdudlaşdıran ənənəvi münasibət və inancların dəyişilməsi iş yerləində şüurluluğun artırılması və həm dövlət sektorunda, həm də özəl sektorda təlimat aparılmasını nəzərdə tutan uzunmüddətli strategiyanın həyata keçirilməsini tələb edəcək.

**Hökumətin straregiyaları**

Hökumətin bəzi siyasi xətləri və proqramları müəyyən dərəcədə gender məsələlərinə toxunsa da (məsələn, təhsil və səhiyyədə), hal-hazırda strateji siyasətin müəyyənləşdirilməsi və inkişafı səviyyəsində gender yanaşması gündəlik işdə tətbiq edilmir. Hökumətin gender və yoxsulluq problemlərinin bəzi detallarını nəzərdə tutan üç siyasi sənəd bunlardır: Azərbaycan Respublikasının yoxsulluğun azaldılmasına yanaşmasını müəyyənləşdirən əsas siyasi sənəd olan Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf Dövlət Proqramı (YAİİDP); Qadın Poblemləri üzrə Milli Fəaliyyət Planı, 2000-2005 (MFP); Minnilliyin İnkişaf Məqsədləri (MİM) - hədəflər və öhdəliklər.

Doğrudur, 2003-2005-ci illəri əhatə edən ilk YAİİDP-da bu qiymətləndirmənin gender məsələləri üzrə müəyyənləşmiş ayrıca fəslində və təhsil və səhiyyə kimi bəzi sektor proqramları çərçivəsində bir sıra gender problemlərinə baxılır, lakin qeyd edilməlidir ki, sənədin təhlili boyu və yoxsulluğun ölçülərini müəyyən edərkən, və ya siyasətin formasında və büdcədə davamlı olaraq gender yanaşması tətbiq olunmur. Respublikanın gender siyasətini müəyyənləşdirən Milli Fəaliyyət Planı (MFP) Azərbaycanda təxirəsalınmaz gender problemlərini və onların həll edilməsi yollarını göstərir (baxmayaraq ki, çoxunun bunları tətbiq etmək üçün xüsusi vaxt çərçivəsi yoxdur), ya da ki, göstəriciləri və nəticələri müəyyənləşdirir ki, bunların da gedişi üzrə monitorinq aparmaq mümkündür. Hökumətin 2000-ci ildə Minilliyin Bəyannaməsində nəzərdə tutulan səkkiz məqsədinə çatmağa dair götürdüyü öhdəliklər və yanaşma müvafiq milli hədəflər və göstəricilər əlavə etməklə dəyişdirilərək tamamlanır (bax Cədvəl №2). Qəbul edilib ki, bu hədəflər və göstəricilər 2006-2015-ci illər üçün YADİDP-dakılarla vəhdət təşkil etməli və tam halında həyata keçirilməlidir.

Bu qiymətləndirilmə yoxsulluğun azaldılmasına yönəlmiş hökumət strategiyası çərçivəsində gender yanaşmasının yaxşılaşdırmağı nəzərdə tutan bir sıra tövsiyələr təklif edir ki, bunlar da müxtəlif sektorlarda verilən tövsiyələrlə birlikdə götürülərsə, qadınların imkanlarını yaxşılaşdırar, onların qabiliyyətlərini möhkəmləndirər, onlara qərarqəbuletmə institutlarında daha effektiv iştirak etmək və qərarqəbuletməyə təsir göstərə bilmək hüququ verər və öz fiziki və iqtisadi təhlükəsizliklərini artırmaq imkanı yaradardı. Bu tövsiyələr aşağıdakılardır:

- YADİDP-də tətbiq edilməli olan gender yanaşması mexanizmini və fəaliyyətini

müəyyənləşdirmək və inkişaf etdirməzdən əvvəl 2003-2005-ci illərin YAİİDP-də genderə dair təşəbbüslərin tətbiq edilməsinin gedişi və bu proqramın gender məsələlərinə təsiri qiymətləndirilməlidir.

- YADİDP-da gender elə yer almalıdır ki, qiymətləndirmənin hər sektorunda, eləcə də makro səviyyədə gender məsələlərinə müraciət edilsin və onlar nəzərə alınsın. 2006-2015-ci illəri əhatə edən və doqquz sektor üzrə işçi qrup (SİQ) , eləcə də gender üzrə xüsusi qrupun köməyi ilə tərtib edilən YADİDP bütün sektorlarda gender məsələlərinin əhatə edilməsinə geniş imkanlar yaradır və həyata keçirilməli olan siyasət və tədbirlər proqramı üçün lazımi resursların olmasına təminat verir.
- Gender bərabərliyinin məqsədləri və dövlətin başlıca siyasi sənədlərinin vəzifələri elə müəyyənləşdirilməlidir ki, bu məqsəd və vəzifələrin üst-üstə düşdüyü və onların müvafiq, ölçüyə gələ bilən tətbiq edilmə göstəriciləri olduğu aydın görünsün; əldə ediləcək nəticələr müəyyən edilməli və bütün bunların həyata keçirilməsi üçün məsul olan şəxslər və vaxt çərçivəsi dəqiq göstərilməlidir. YADİDP-nin gedişi ona daxil olunan hər bir bəndin bu müxtəlif siyasi sənədlər arasında vəhdət yaratmasını təmin edir.
- Qadın Problemləri üzrə Dövlət Komitəsi ilə Gender məsələləri üzrə məsul işçilər Şəbəkəsinin səlahiyyətləri müəyyən edilməli, və onlar öz mandatları çərçivəsində effektiv surətdə fəaliyyət göstərə bilmələri üçün kifayət edəcək vəsaitlə təmin edilməlidirlər.
- Hər bir hədəf çərçivəsində əsas gender məsələlərini müəyyən etməklə Minnilliyin İnkişaf Məqsədləri toplanmalı, monitorinq keçirmək üçün siyasət və proqram səviyyəsində daxil olan bəndlər və ölçülə bilən göstəricilər ayrılmalıdır.
- Əlaqələndirmə Şurası gücləndirilməlidir ki, o da yeni Milli İnkişaf Planında (MİP), YADİDP prosesində və Minilliyin İnkişaf Məqsədlərinin müəyyənləşdirilməsində iştirak edə bilsin. Çalışmaq lazımdır ki, Şuraya Hökumətin tərkibində müəyyən səlahiyyəti olan, qərarların qəbul edilməsinə təsir göstərə bilən yüksək rütbəli bir şəxs sədrlik etsin.
- Ara-bir genderə dair lazımi məlumatların təhlili aparılmalı, bütün sektorlarda cins zəminində ayrı-seçkiliyə dair statistik məlumatların və göstəricilərin toplanmasının keyfiyyəti və həcmi yaxşılaşdırılmalıdır.

**Asiya İnkişaf Bankının (AİB) gender strategiyası**

AİB-nın Azərbaycanda borc əməliyyatlarının ilk mərhələsi ölkə proqramlarının həm strateji, həm də operativ sahəsində effektiv surətdə gender yanaşmasını həyata keçirmək üçün xeyli imkanlar yaratdı. Bu gün Yeniləşdirilmiş Ölkə Strategiyasını və Proqramları (YÖSP 2005-2006)) dörd strateji focus sahəsini əhatə edir: (i) MK-lara yardım, (ii) kənd təsərrüfatı və kəndlərin inkişafı (daşqınların qarşısının alınması, kənddə inkişafa mikro-maliyyə yardımı), (iii) sosial infrastruktur (su təchizatı və sanitariya şəraitinin yaxşılaşdırılması), və (iv) nəqliyyat. Bundan əlavə, Asiya İnkişaf Bankı (AİB) diqqəti texniki yardımı təmin etməklə YADİDP-nın hazırlanması və həyata keçirilməsinə kömək etməyə yönəldib. Texniki Yardım

Hökumətə Minnilliyin İnkişaf Məqsədlərinin (MİM) nailiyyətlərini öz inkişaf planlarına və bu planları tətbiq etmə prosesinə daxil etməyə kömək göstərəcək. Texniki Yardımın nəticələrindən biri işçi qrupa YADİDP üçün gender fəaliyyət planı hazırlamağa və gender göstəricilərini MİM-nin monitorinq sisteminə daxil etməyə kömək etməsidir .

Bu qiymətləndirilmədə yer alan gender problemləri və gender baxımından narahatlıq doğuran digər məsələlər birbaşa AİB-nın 2006-2010-cu illər üçün (AİB 2004a) Ölkənin Strateji Proqramı (ÖSP) çərçivəsində strateji diqqət sahəsində sektor işi ilə əlaqədardırlar; bu hər imkan şəraitində operativ planlaşdırılmada nəzərə alınmalıdır.

Ölkədə ən yoxsul və ən əlverişsiz qrup hesab edilən MK-lara yardım edilməsi Ölkənin Yeniləşdirilmiş Strateji Proqramında (2005-2006) başlıca strateji diqqət sahəsi kimi müəyyənləşdirilib. Ölkə üzrə Gender Qiymətləndirilməsində (ÖGQ) qeyd edildiyi kimi, MK/qaçqın əhali arasında çox mühüm gender problemləri mövcuddur: bunlar işsizliyin yüksək həddə çatması, qaçqın qadınların və uşaqların səhhətinin pis olması, əlverişsiz məktəb şəraiti üzündən və ya işləmək və ya ərə getmək məcburiyyətindən məktəbi atan qızların sayının artmasıdır.

AİB-nın kənd təsərrüfatının və kəndlərin inkişafı sektorunda diqqət mərkəzində duran əsas sahələri daşqınların vurduğu ziyanın azaldılması və mikro- maliyyə və kəndlərə maliyyə yardımının inkişafıdır. Daşqınların vurduğu ziyanın azaldılması və reabilitasiya layihələrində effektiv gender yanaşmasının həyata keçirilməsi qadınların kənd təsərrüfatı sektorunda çoxşaxəli rolunun və məsuliyyətlərinin tanınmasını və buna müvafiq iş görülməsini tələb edir.

Xeyli sayda qadın formal sektorda müvəffəqiyyətlə mikro-kredit almağa nail olsa da, kənd ərazilərində də qadınlar üçün belə bir imkan yaratmaq və onlara kiçik və orta sahibkarlıqla məşğul olmağa kömək etmək imkanlarını artırmaq üçün əhəmiyyətli dərəcədə əlverişli şərait var. Kənddə inkişafa mane olan az inkişaf etmiş maliyyə xidmətləri probleminə müraciət edən AİB kənd yerlərində və Bakının ətraf icmalarında bank və mikro-maliyyə fəaliyyətlərinin artırılmasına yardım edir. Bu yardım rayonlarının inkişaf etdirilməsinə dair son Fərmanla əlaqədardır; o, yoxsulluğun azaldılmasına yönəlmiş xüsusi bir ölçü kimi YAİİDP-ə daxil edilib və Hökumətin xüsusi prioritet təşkil edən bir məsələsi kimi qəbul edilib.

Su çatışmazlığı və müvafiq sanitariya şəraitinin olmaması yoxsullara, xüsusilə də qadınlara daha çox təsir edir. Su əldə etmək, onu yığıb saxlamaq, daşımaq, anti-gigienik su və sanitariya şəraiti üzündən xəstələnən ailə üzvlərinin qayğısına qalmaq qadınların öhdəsinə düşür. Həm suyun sahibi, həm də istehlakçısı olan qadınlar adətən su ilə bağlı problemləri yaxşı bilirlər və onların bu problemlərin yaxşılaşdırılması üçün konkret təklifləri var. AİB-nın su təchizatı və sanitariya xidməti sahəsində fəaliyyət göstərməsinin məqsədi infrastrukturu genişləndirmək və təkmilləşdirmək, mərkəzləşdirilmiş təchizat xidməti sahəsində nəzərdə tutulan islahatları dəstəkləmək və müvafiq iş və idarətmə qabiliyyətinə malik yeni su qurğuları yaratmaqdır.

AİB-nın Erkən Uşaqlığın İnkişafı (EUİ) yarımsektoru ilə məşğul olması YAİİDP-də uşaqların sağlamlığı və təhsili ilə bağlı narahatlıq doğuran məsələlərə müraciət etməyin prioritet təşkil etməsindən irəli gəlir və bu, EUİ-də pis qidalanma, xəstəliklərə qarşı həssaslıq və ölüm hallarının sayı kimi problemlərə dair MİM-nin sağlamlıqla bağlı əsas məqsədlərinə doğru inkişaf prosesinə kömək edəcək.

# Azərbaycanda gender və yoxsulluq

## A. Azərbaycanda yoxsulluq

Azərbaycan sahəsi təqribən 86 000 kvadrat kilometr olan və Qafqaz regionunun cənub-şərq ərazisində yerləşən müstəqil respublikadır; o, cənubda İranla, qərbdə Ermənistanla, şimalda Gürcüstan və Rusiya ilə, şərqdə isə Xəzər Dənizi ilə həmsərhəddir. 11 inzibati rayondan ibarət olan paytaxt Bakıdan kənarda, ölkə 65 inzibati vahidə (o cümlədən 59 rayon və 6 şəhər) və Naxçıvan Muxtar Respublikasına (6 rayon və paytaxt Naxçıvan şəhərindən ibarət olan) bölünür. Azərbaycan 1991-ci ildə müstəqillik əldə etmişdir. Böyük neft və qaz ehtiyatlarına malik olan Azərbaycan təbii sərvətlərlə də zəngin olan bir dövlətdir və yaxın gələcəkdə həm neftin, həm də təbii qazın əsas ixrac gəlirlərinin mənbəyi olmaqda davam etməsi gözlənilir.

Azərbaycanın əhalisi 8,2 milyondur. Üstünlük təşkil edən etnik qrup olan Azərbaycanlılar əhalinin ümumi sayının 89%-i qədərdir; ruslar (3%), dağıstanlılar (3%) və ermənilər (2%) ən böyük etnik azlıqlardır (ABŞBİA, 2005). Ölkə əhalisinin təqribən 51%-i şəhər ərazilərində yaşayır. Əhalinin təxminən dörddə bir hissəsi 15 yaşdan aşağı və 6%-i 65 yaşdan böyükdür. Qadınlar əhalinin 51%-ni təşkil edirlər. Son iyirmi ildə ömrün uzunluğu artmışdır; 2004-cü ildə kənd/şəhər əhalisi arasında bir o qədər də fərq olmadan, ömrün uzunluğu qadınlar üçün 75 yaş, kişilər üçün isə 70 yaş olmuşdur (DSK 2005a: 14-16).

1991-ci ildə Sovet İttifaqı dağıldıqdan sonra Dağlıq Qarabağ ərazisi uğrunda uzunmüddətli müharibəyə cəlb edilən keçmiş Sovet respublikaları olan Azərbaycan və Ermənistan, 1994-cü ildə atəşkəs razılaşmasına nail oldular. Ermənistan Azərbaycan ərazisinin 20%-ni işğal edib. Müharibənin nəticəsində Azərbaycanda 790 000 məcburi köçkün və qaçqın meydana gəlib; Dağlıq Qarabağ və ətraf işğal olunmuş ərazilərdən köçmüş 570 000 milliyyətcə azərbaycanlı və müharibə başlayanda Ermənistandan qaçmış 220 000 azərbaycanlı Azərbaycanda məskunlaşıblar. Əhalinin təqribən 10%-ni təşkil edən məcburi köçkün/qaçqınlar Qafqaz regionunda bir ölkədə cəmləşmiş MK/qaçqınların ən böyük köçkün/qaçqın əhali kütləsidir (BMTQAK, 1999).

Neft və təbii qaz ehtiyatları ilə zəngin olmasına baxmayaraq, yoxsulluğun azaldılması Azərbaycan üçün əsas problemdir. 2003-cü ildə keçirilmiş Ev Təsərrüfatlarının Büdcə Müayinəsinə (ETBM) əsasən, 3,7 milyon insan və ya təqribən ümumi əhalinin 44,7%-i 2003-cü ildə yoxsulluq içində yaşayırdı, ayda adam başına 178 850 AZM ($36,50) xərclənirdi. Onların 800 000 nəfəri və ya ümumi əhalinin 9,6%-i ifrat dərəcə yoxsul idi, aylıq xərcləri isə 124 137 AZM-dan ($25,50) da aşağı idi (Azərbaycan Respublikası, 2003). Mütləq yoxsulluq içində yaşayan əhalinin nisbəti 2002-ci ildəki 46,7%-dən 44,7%-ə düşsə də, nisbi yoxsulluq[1]

---

[1] “Nisbi yoxsulluq həddi” 2003-cü ilin ETBM-ə görə 129 684 AZM müəyyən edilmişdir və bu da orta istehlak xərclərinini 70%-ni təşkil edir.

2002-2003 illər ərzində 8,8%-dən 12%-ə qalxıb *(Red. qeydi: 2005-ci ildə keçirilmiş ETBM-ə əsasən mütləq yoxsulluq 29,3%, nisbi yoxsulluq 6,1%, ifrat yoxsulluq isə 2,2% təşkil edirdi).*

Yoxsulluq dərəcələri 2001-ci ildən kənd/şəhər əraziləri arasında dəyişilib. 2001-ci ildə keçirilən ETBM şəhər ev təsərrüfatları arasında gəlir yoxsulluğunun daha yüksək olduğunu qeyd etdi, bu tendensiya 2002-ci ildə də davam etdi (şəhərdə 47,8% və kənd yerlərində 45,4%). Lakin 2003-cü ildə ETBM şəhərlər (44,1%) və əhalinin əsas hissəsinin yerləşdiyi paytaxt Bakı (35,4%) ilə müqayisədə kənd yoxsulluğunun bir qədər yüksək olduğunu (45,3%) müəyyən edib. Bu rəqəmlərə əsasən belə nəticəyə gəlmək olar ki, son 2 il ərzində şəhərdə yoxsulluq dərəcəsi azalıb, kənd yerlərində isə yoxsulluğun vəziyyəti dəyişilməyib.

Azərbaycanda yoxsulluğun möhkəm regional ölçüsü var. Naxçıvan (59,2%) və Muğan-Salyan (52,9%) kimi regionlarda mütləq yoxsulluq dərəcəsi Şəki-Zaqatala (40,3%) kimi şimal və ya Lənkəran-Astara (42,3%) kimi cənub regionlarına nisbətən əhəmiyyətli dərəcədə yüksəkdir (Cədvəl 1). 2003-cü ildə Naxçıvanda təqribən beş nəfərdən biri ifrat dərəcə yoxsulluq içində yaşayırdı və həmin müddətdə ifrat dərəcə yoxsulluq həddi Abşeron-Quba, Şirvan və Gəncə-Qazax regionlarında 10%-dən yuxarı, Bakıda isə xeyli aşağı idi (6,8%) (Azərbaycan Respublikası, 2005a: 27).

**Cədvəl 1. Əhalinin (fərdlərin) kateqoriyaları üzrə yoxsulluğun yayılma göstəriciləri**

| Əhalinin kateqoriyaları | Yoxsulluğun səviyyələri (%-lə) | | |
|---|---|---|---|
| | Mütləq yoxsulluq həddi (178,850 AZM) | Nisbi yoxsulluq həddi (129,684 AZM) | İfrat yoxsulluq həddi (124,137 AZM) |
| **Ümumi əhali** | 44.7 | 12.0 | 9.6 |
| **Şəhər** | 44.1 | 13.5 | 11.2 |
| **Kənd** | 45.3 | 10.3 | 7.9 |
| **Naxçıvan MR** | 59.2 | 21.2 | 16.9 |
| **Abşeron-Quba** | 45.7 | 15.2 | 13.9 |
| **Muğan-Salyan** | 52.9 | 10.7 | 8.2 |
| **Gəncə-Qazax** | 49.1 | 13.9 | 10.8 |
| **Şəki-Zaqatala** | 40.3 | 11.5 | 7.8 |
| **Lənkəran-Astara** | 42.3 | 7.4 | 5.4 |
| **Şirvan** | 51.6 | 14.6 | 12.9 |
| **Qarabağ-Mil** | 44.2 | 11.3 | 9.1 |
| **Bakı** | 35.4 | 9.0 | 6.8 |

AZM = Azərbaycan Manatı
*Mənbə:* Azərbaycan Respublikası, 2005a: 27.

Həm mütləq, həm də ifrat yoxsulluq təhlükəsi ailələrin ölçüsünə müvafiq olaraq artır. Ən aşağı yoxsulluq dərəcəsi bir nəfərdən ibarət olan ailələr (5,4%) arasındadır və ailə üzvlərinin sayının artması ilə bu təhlükə də əhəmiyyətli dərəcədə artır, beş üzvdən ibarət ailələr üçün 45,8%, altı və ya daha çox üzvdən ibarət ailələr üçün 57%-dir. Uşaqsız ailələrdə uşaqlı ailələrlə müqayisədə yoxsulluq həddi daha aşağıdır. 3 uşaqlı ailə üçün bu rəqəm 55,4%

və 4 və ya daha çox uşaqlı ailələr üçün 62,7% təşkil edir. ETBM həmçinin aşkar etdi ki, uşaqsız ailələrdəki 23,2% ilə müqayisədə 47,4% uşaqlı ailələr mütləq yoxsulluq həddindən aşağıda yaşayırlar (Azərbaycan Respublikası, 2005a: 28).

Yoxsulluq və ailə başçısının aldığı təhsil arasında bağlılıq var. Orta təhsildən aşağı təhsil alanlar arasında mütləq yoxsulluq içində yaşayanların sayı daha çoxdur (28,6% ali təhsili olanlarla müqayisədə 45%), və onların son dərəcə yoxsulluq içində yaşamaq ehtimalı iki dəfə artıqdır (müvafiq olaraq 10% və 4,4%). Bu rəqəmlər 2001 və 2002 ETBM-də yer alıb.

YAİİDP-nin İcra Hesabatı başçısı kişi və qadın olan ev təsərrüfatları arasında əhəmiyyətli fərqlər qeyd edir. Ailə başçısı kişilər olan ev təsərrüfatlarının BQET (28,5%) ilə müqayisədə mütləq yoxsulluqda (40,3%) yaşama ehtimalı daha böyükdür. İstifadə olunmuş məlumatın tədqiq edilməsi nəticələrin əsas səbəblərindən bəzilərini müəyyən etdi. Birincisi, BQET-lərin yalnız az bir hissəsi (19,4%) ETBM-də nümunə kimi istifadə olunub. İkincisi, BQET-lərin ölçüsü ETBM nümunələrində nisbətən kiçikdir (BQET-lərin 70%-də ailə üzvlərinin sayi üç nəfərdən çox deyil və ümumi yoxsulluğun səviyyəsi də üç nəfərdən ibarət ailələr üçün müvafiq olaraq aşağıdır-- 21,4%) (Azərbaycan Respublikası, 2005a: 28-29). Bu nəticə bir daha sübut edir ki, yoxsulluq təhlükəsini daha çox artıran amil ev təsərrüfatı başçısının cinsi deyil, ailə üzvlərinin sayıdır.

Azərbaycanda gəlir yoxsulluğunun yüksək səviyyəsinə əlavə olaraq, keyfiyyətli xidmətləri əldə edə bilməyin çox vaxt mümkün olmaması nəticəsində meydana çıxan gəlirsiz yoxsulluq get-gedə daha çox narahatlıq doğurur. Azərbaycanda ibtidai təhsil səviyyəsində uşaqların 100% məktəbə cəlb olunmaları yolu ilə təhsil sahəsində nailiyyətlərin yüksək səviyyəsi saxlansa da, hökumətin bu sahəyə ayırdığı xərclər çox aşağıdır və vaxtaşırı tələb olunan xərclər, kitabxana kitabları və digər tədris materialları üçün maliyyə dəstəyi valideynlər tərəfindən təmin edilir. Bu təhsilin "qeyri-rəsmi" xərcləri ailələrin, xüsusilə də yoxsul ailələrin çiyninə ağır yük qoyur. Sağlamlıq sektorunun icmalı göstərir ki, bir çoxları üçün maddi imkanları daxilində keyfiyyətli xidmətlərdən istifadə edə bilmək mümkün olmur və sistem ciddi təzyiqlərə məruz qalır. Səhiyyə sahəsində qeyri-rəsmi xərclərin artması 1995-ci ildən bəri hökumətin bu sahəyə ayırdığı xərclərin durmadan azalması üzündən çətin vəziyyətə düşən sistemin xüsusiyyətidir. Belə vəziyyət istehlakçılar üçün böyük maliyyə çətinlikləri yaradır, bu əlavə xərcləri ödəmək yoxsullar üçün xüsusilə ağır olur.

MK/qaçqınlar həm gəlirli, həm də gəlirsiz yoxsulluğun yaratdığı bir sıra çətinliklərlə daha çox üzləşməli olurlar. Bu yaxınlarda Dünya Bankı/BMT-nin İnkişaf Proqramı (BMTİP) tərəfindən keçirilən Sorğuya əsasən, MK/qaçqınların təqribən hər iki nəfərindən biri işsizdir; işsizlik səviyyəsi Bakıdan kənarda daha yüksəkdir (Dünya Bankı 2003-ə istinadən). Bir çoxları qeyri-rəsmi sektorda işləyirlər, burada onlar istismara və çox vaxt pis şəraitdə uzun saatlarla işləməyə məcbur olurlar. MK/qaçqınlar əhalinin çox az mülkiyyətə malik bir qrupudur; onların kənd təsərrüfatı torpaqlarına sahib olmaq imkanları çox məhduddur; bu adamlar hökumətin ödəmələri və güzəştlərindən yüksək dərəcədə asılıdırlar; mənzil şəraitləri standartlardan çox aşağıdır; sanitariya və birbaşa su təchizatından istifadə edə bilmək imkanları məhduddur;

uşaq neonatal ölümü narahatlıq doğurur; pis qidalanmanın (xüsusilə də qadınlar və uşaqlar arasında) səviyyəsi; və orta təhsil mərhələsində məktəbə cəlb olunmanın azalması bu qrupa daxil olan MK/qaçqın əhalini xarakterizə edən faktorlardır. Bütün bu faktorlar onları xüsusilə həssas edir. Bunları nəzərə alaraq, bir çox inkişaf partnyorları MK/qaçqın icmaları üçün yoxsulluğun azaldılmasına dair ünvanlı proqramları dəstəkləyirlər, lakin son vaxtlar qaçqın olmayan yoxsul əhalinin artan narazılığı yoxsulluğun azaldılması sahəsində vahid fəaliyyət göstərilməsi məsələsini ortaya qoyub.

Yoxsulluğun bütün bu aspektlərinin təsirini öz üzərində hiss edən yoxsulların çoxu, YAİİDP hazırlanması prosesində iştirak edərkən keçid dövrünün onların həyatına təsiri haqqında öz fikirlərini bildirmiş, xüsusilə də məşğulluq imkanlarının, münasib və keyfiyyətli səhiyyə xidmətlərinin azalmasını, həmçinin təmiz su və sanitariya şəraitinin pisləşməsini qeyd etmişdilər. Çox sayda yoxsul, xüsusilə də kənd yerlərində yaşayanlar, ümidsizlik və apatiya hissləri keçirdiklərini və yaxın gələcəkdə onların həyatında hər hansı bir yaxşılaşma olacağı perspektivlərinə inanmadıqlarını söyləmişdi. Məşğulluq şəbəkələrinin itirilməsi və miqrasiya nəticəsi kimi cəmiyyətdə təcrid olunma faktı da qeyd edilmişdi (Azərbaycan Respublikası, 2005a: 143).

## B. Azərbaycanda yoxsulluğun gender ölçüləri

Keçid dövrü Azərbaycanda kişilər kimi, bir cox qadınlara da baha başa gəlmişdir. Çoxları hələ də yoxsulluğun artmasına, yüksək işsizlik səviyyəsinə, keyfiyyətli vacib xidmətlərin əldə edilə bilməsi imkanlarının azalmasına və onların şəxsi, sosial, iqtisadi və siyasi azadlıqlarını məhdudlaşdıran konservativ gender stereotiplərinin yenidən meydana çıxmasına qarşı mübarizəni davam etdirirlər. Bu gender qiymətləndirilməsi Azərbaycanda yoxsulluğun gender ölçülərini (i) qadınların imkanlarının azalması, (ii) qadınların qabiliyyətlərinin məhdudlaşdırılması, (iii) müdafiəsizliyin səviyyəsinin artması və (iv) qadınların səlahiyyətlərinin məhdudlaşdırılmasının artması faktorlarını analitik və konseptual çərçivə daxilində əhatə edir. Aşağıda hesabatda bütün təfsilatı ilə müzakirə olunan bu ölçüləri cəmləşdirən xülasə verilir.

### 1. Qadınların imkanlarının azalması

Azərbaycanda, keçmiş Sovet İttifaqının bir çox ölkələrində olduğu kimi, qadınlar üçün imkanların azalması iş yerlərinin itirilməsi və davamlı işsizlik; həm dövlət, həm də özəl formal işçi qüvvəsi sektorunda artan təcrid olunma; yüksək qərar qəbul etmə vəzifələrinə kişilərə nisbətən qadınların daha az təyin olunması ilə əmək bazarında şaquli və üfüqi seqreqasiya; qeyri-bərabər əmək haqqı və uşaqlara qayğı göstərmə, ev işləri və ödənişli (formal və qeyri-formal) işlər kimi üçqat ağırlıq altında vaxtın itirilməsinin artan səviyyəsi deməkdir. Bundan əlavə, kiçik və ortahəcmli müəssisələrin inkişafına kredit verilməsinin və texniki yardımın məhdud olması, keçid dövründə qadınların öz müəssisələrini yaratmaq və idarə etmək sahəsində nümayiş etdirdikləri güclü potensiallarını həyata keçirməklərinə mane olub.

### a. İş yerlərinin itirilməsi və davamlı işsizlik

Keçid dövrü Azərbaycanda qadınların və kişilərin iş yerlərinin itirilməsi ilə nəticələndi. 1990-cı ildə qadınlar Azərbaycanda rəsmi işçi qüvvəsinin təqribən yarısını təşkil edirdi, 2004-cü ildə vəziyyət dramatik şəkildə dəyişdi, işləmək qabiliyyəti olan hər 6 qadından biri şəhər yerlərində işsiz qalmışdı. 2003-cü ildə İşçi Qüvvəsinin Müayinəsi (İQM) aşkar etmişdi ki, işləmək qabiliyyətində olan kişilərin (yəni 16-61 yaş arasında olan) 83,6%-i ilə müqayisədə işləmək qabiliyyətində olan qadınların (yəni 16-56 yaş arasında olan) yalnız 59,5%-i iqtisadi cəhətdən fəal olmuşdur.

### b. Vəzifə seqreqasiyası və əmək haqqı fərqi

Yeni bazar iqtisadiyyatı genişləndiyi üçün qadınlar daha çox aşağı ödənişli sektorlarda (məsələn, təhsil) işləməyə başlayıblar. Bundan əlavə, qadınların həm özəl, həm də dövlət sektorunda idarəetmənin yüksək səviyyələrində təmsilçiliyi məhdudlaşıb. 2004-cü ildə hökumətdəki yüksək qərar qəbul etmə vəzifələrinin yalnız 11,4%-i qadınlar tərəfindən tutulmuşdu (QPDK: məlumat sorğu ilə əldə edilib). Qadınlar kişilərdən fərqli olaraq, aşağı ödənişli, "qeyri-standart" işlərdə (yəni yarım günlük, müvəqqəti, ev xidmətləri) çalışır, qeyri-formal iş sektorunda onların hüquqları qorunmur, iş şəraiti çox pis və əmək haqqları aşağıdır. 2003-cü ilin İşçi Qüvvəsin Müayinəsinə əsasən, özlərini işlə təmin olunmuş hesab edən qadınların 17%-i qeyri-rəsmi iş sektorunda, "hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sahibkarlıq fəaliyyəti" ilə məşğul olduqlarını bildiriblər (DSK 2004b: 31). Azərbaycanda bərabər iş üçün bərabər əmək haqqı prinsipinin qanunla təmin olunmasına baxmayaraq, qadınların dövlət və özəl sektorlarda aşağı səviyyəli vəzifələrdə (eyni zamanda az ödənişli) çalışması bir çox sektorlarda əmək haqqının əhmiyyətli dərəcədə qeyri-bərabərliyinə səbəb olur. Hətta səhiyyə və sosial xidmətlər kimi qadınların üstünlük təşkil etdikləri sektorlarda (burada qadınların sayı kişilərdən 5,6 dəfə çoxdur) 2003-cü ildə qadınların əmək haqqları kişilərin əmək haqqlarının 54,4%-ni təşkil edirdi, bu isə başlıca olaraq onların çox az hissəsinin yaxşı ödənilən vəzifələri tutması ilə əlaqədar idi (Azərbaycan Respublikası 2005a: 57-58).

### c. Vaxt çatışmazlığı üzündən yoxsulluq

Azərbaycanda qadınlar üçün "vaxt çatışmazlığı üzündən yoxsulluq" konkret reallıqdır, belə ki, onlar haqqı ödənilməyən uşaqlara qayğı, ev işləri və çox vaxt formal və qeyri-formal sektorlarda gəlir gətirən işləri yerinə yetirmək üçün üçqat işləməli olurlar. Bundan əlavə, əhalinin daha həssas hissəsinə, xüsusilə də yaşlılara dövlət tərəfindən dəstəklənən xidmətlərin azalması, uzun müddətli müalicə üçün tələb edilən qeyi-rəsmi xərclərin artması ona gətirir ki, bir çox qadınlar öz adi qayğılarından əlavə yaşlıların və xəstələrin qayğısına qalmağa da məcbur olurlar. Əksər qadınlar üçün, xüsusilə də kənd yerlərində, bu vaxt çatışmazlığı gündəlik istifadə üçün təmiz su tapmaq, daşımaq və su ehtiytı yığmaq problemləri ilə bir az da mürəkkəbləşir. Azərbaycanda qadınların və kişilərin hər gün sərf etdikləri vaxtın sonrakı təhlili vaxt çatışmazlığının ölçülərinin miqyasını müəyyənləşdirməyə kömək edər və qadınların çoxsaylı öhdəliklərini tanıyan, nəzərə alan milli siyasətin yaradılmsına imkan

verə bilərdi.

### d. Qadın sahibkarlığının genişləndirilməsi sahəsində maneələr

Azərbaycanda kiçik və ortahəcmli müəssisələrin yaradılması iqtisadiyyatın fərqli sahələrinin inkişafı və məşğulluq proqramlarının yaranması üçün ən yaxşı üsullardan biri kimi müəyyən olunmuşdur.[2] Rəsmi statistika qadın sahibkarlara xüsusi diqqət yetirməsə də, təkcə çox sayda qadının şəxsi bizneslə məşğul olmasını (17,0%) (DSK 2005a: 90) deyil, eləcə də bu işdən əldə olunan gəlirin qadınların çox böyük hissəsi üçün əsas gəlir mənbəyi olduğunu da müəyyən etmişdi (18,4%) (DSK 2005a: 96).

Son illər kredit mənbələrinin əhəmiyyətli dərəcədə artmasına baxmayaraq, institusional və mədəni maneələr hələ də mövcuddur və onlar qadınlara kredit və xüsusilə də rəsmi bank sektorunda əmanət, pul köçürmələri kimi digər maliyyə xidmətlərindən istifadə etməyə əngəl törədir. Qadınlar əlavə tələblərin öhdəsindən gələ bilməmələrini və danışıqlar vasitəsilə bank qaydaları və tələblərini həll etmək sahəsində çətinlikləri, eləcə də kreditvermə sahəsində çalışan kişi məmurların cox da həvəslə razılığa gəlmək istəməmələrini Azərbaycanda qadınların KOM-in yaradılmasına əngəl törədən faktorlar hesab edirlər. Bunun əvəzində onlar həmin maliyyə yardımını yaxın ailə üzvlərində, qohumlarında və dostlarında axtarmalı olurlar (BƏT 2004). Bu o deməkdir ki, Azərbaycanda qadın KOM-larınıın maliyyələşdirilməsinə dəstək göstərmək üçün müvafiq rəsmi mexanizm yaratmaq və həm mərkəzdə (yəni Bakıda), həm də regional mərkəzlərdə onları əlavə biznes treninqləri və məsləhət xidmətləri ilə təmin etmək lazımdır.

## 2. Qadınların qabiliyyətlərinin məhdudlaşdırılması

Qiymətləndirmədə həmçinin qeyd olunur ki, qadınların qabiliyyətləri müxtəlif yollarla məhdudlaşdırılır. Qidalanma ilə bağlı pozuntuların yüksək dərəcəsi, o cümlədən ana və uşaqlarda anemiya və yod çatışmazlığının çox yüksək həddə olması qadının reproduktiv imkanlarına əhəmiyyətli dərəcədə zərər vurur və xroniki xəstələnmələr nəticəsində ev təssərrüfatları əlavə bilavasitə və dolayı xərclərlə üzləşir. Kontraseptiv vasitələrdən və İİV/QİÇS və CYYX-ə qarşı mübarizə üsullarından xəbərsiz olmaları qadınları öz sağlamlıqlarına nəzarət etmək imkanından məhrum edir və üstəlik də, hamiləliyin qarşısını almaq məqsədilə aborta müraciət etmələri qadınların reproduktiv sağlamlığına ciddi təsir göstərir. Təhsil sahəsində orta məktəbin yuxarı siniflərində qızların davamiyyətinin azalması və peşə təhsili və ixtisasın artırılması səviyyəsində kurslarda gender seqreqasiyasının artması əlamətləri müşahidə olunur.

### a. Zəif qidalanma

Zəif qidalanma Azərbaycanda ən ciddi sağlamlıq problemlərindən biridir, qadın və

---

[2] Dünya Bankı, Beynəlxalq Əmək Təşkilatı, BMT-nin Avropa üçün İqtisadi Komissiyası və BMTİP KOM sektorunun genişləndirilməsini yoxsulluğun azaldılmasının əsas strategiyası kimi müəyyənləşdirmişlər.

uşaqlar bu sahədə daha həssasdırlar. Dövlət Statistika Komitəsi (DSK) müəyyən etmişdir ki, 2003-cü ildə bütün hamilə qadınların 16,4%-i anemiyadan əziyyət çəkirdi (BƏT 2004: 155). Bunun əksi olaraq ölkə üzrə uşaq doğma yaşında olan 1906 qadın arasında keçirilən 2001-ci ilin Reproduktiv Sağlamlığın Müayinəsi (RSM) 40% ümumi: 38,4% hamilə qadınlarda və 40,2% hamilə olmayan qadınlarda anemiya aşkar etmişdi. Ölkənin Mərkəzi və Cənub regionlarında bu göstərici daha yüksəkdir (müvafiq olaraq 54,1% və 49%) (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 119-120). Hamilə qadınlar arasında dəmir çatışmazlığı anemiyası dövlət məlumatlarına əsasən 2001-ci ildə 52,5% olmuşdur (AİB 2003b: 2-ə əsasən).

### b. İİV/QİÇS-ə yoluxma təhlükəsinin artması və cinsi yolu ilə keçən xəstəliklərin yüksək səviyyəsi

Azərbaycanda İİV/QİÇS-in səviyyəsinin aşağı olmasına baxmayaraq (yalnız 596 hal qeydə alınıb və bunların 80%-ni kişilər təşkil edir)[1] *(Red. qeydi: 1 iyul 2006-cı ilin məlumatına görə Azərbaycanda 982 QİÇS xəstəsi var; onların 79%-ni kişilər, 18,8%-ni qadınlar və 2,2%-ni anonimlik saxlamaq istəyən insanlar təşkil edir)*, preventiv tədbirlər həyata keçirilməzsə, bu halların sürətlə arta biləcəyi təhlükəsi mövcuddur. Bundan əlavə, ehtimal olunur ki, məxfi testlərin, məsləhət və dəstək xidmətlərinin catışmazlığı üzündən qadınlar arasında aktiv halların sayı statistikanın təqdim etdiyindən daha çox ola bilər. Rusiya və Türkiyəyə miqrasiyanın yüksək olması (xüsusilə də kişilər), preventiv tədbirlərdən qadınların (həmçinin kişilərin) xəbərdar olmaması qadınları risk altında qoyur. Reproduktiv Sağlamlığın Müayinəsi zamanı müəyyən olunmuşdu ki, qadınların 72%-i İİV infeksiyasından qorunmağın hər hansı bir üsulunu bilmir və qadınların 1%-dən azı üç və daha artıq preventiv üsulun adını qeyd edir (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 282-283). Qadın və qızların alverinin artması da narahatlıq doğurur, belə ki, onların bir çoxu seks işi ilə məşğul olmağa məcbur edilirlər və bu, onları İİV və CYYX-ə daha həssas edir.

### c. Peşə və ali təhsil səviyyələrində gender fərqləri

Çox əhəmiyyətli gender fərqləri peşə və ali təhsili sektorunda da nəzərə çarpır. Qızlarla müqayisədə daha çox oğlan ali məktəblərdə ixtisas əldə etməyə meyl edirlər. Ali məktəbə qəbul olunanlar arasında oğlanlar qızlarla (47,7%) müqayisədə 52,3% təşkil edirlər (DSK 2005b: 60). Peşə məktəblərinə kişilər qadınlara nisbətən iki dəfə çox qəbul olunur (69,6% və 30,4%) (DSK 2005a: 54). Qeyri-dövlət ali təhsil müəssislərində oğlanların təhsil alması da daha yüksəkdir (57% və 43%), bu da oğlanların bu ödənişli təhsil müəssisələrinə daxil olmaq imkanlarının daha çox olmasını göstərir. Ali təhsil səviyyəsində qızlar və oğlanların keçdikləri kurslarda da yüksək dərəcədə gender seqreqasiyası müşahidə olunur, belə ki, qızlar daha aşağı ödənişli sahələri, məsələn, təhsil, səhiyyə, və sosial elmləri, oğlanlar isə geologiya, inşaat, iqtisadiyyat və menecment sahələrini seçirlər.

## 3. Müdafiəsizliyin səviyyəsinin artması

Qadınların öz üzərlərində hiss etdikləri müdafiəsizliyin səviyyəsinin artması gəlirsiz yoxsulluğun ən az tədqiq edilmiş aspektlərindən biri olsa da, o, qadınların imkan və

bacarıqlarına köklü surətdə təsir göstərən faktordur. Üstəlik də, artan iqtisadi müdafiəsizlik ağır nəticələr də verir. Qadınlar azmaaşlı qeyri-formal sektora müraciət etməyə məcbur olur, ailələrdə gərginlik yaranır, gündəlik xərclərin öhdəsindən gələ bilmək üçün ailənin yığıb topladığı pullar xərclənir, evin əmlakı satılır. İnsan alveri hallarının çoxalması da qadınların müdafiəsizlik səviyyəsinin artması ilə əlaqədardır. Qadınların əksəriyyəti buna yoxsulluq üzündən vadar olurlar. Bundan əlavə, Azərbaycanda ailədaxili zorakılığın narahatlıq doğuran səviyyəsi də qadınların və uşaqların fiziki və emosional təhlükəsizliyinə, rifahına və sağlamlığına birbaşa təhlükə yaradır.

### a. İqtisadi həssaslığın artması

Azərbaycan əhalisinin 40%-dən çoxu mütləq yoxsulluq içində və hər 10 nəfərdən birinin ifrat dərəcə yoxsulluq içində (Azərbaycan Respublikası 2005a: 27) yaşadığı bir vaxtda yoxsulluq və iqtisadi həssaslıq bir çox kişi, qadın və uşaqların gündəlik həyatını müəyyən edir. Yoxsulların az bir hissəsi, o cümlədən qadınlar, öz gəlirlərinə dəyən azacıq "zərbələrə" davam gətirmək iqtidarındadır, və hətta yoxsul hesab edilməyən ailələr də müvəqqəti yoxsulluğun artmasını hiss edir, çünki onların kifayət qədər əmlakı və pulu yoxdur ki, iş yerlərini itirmələri və ya ailəyə heç olmasa təqaüdlə yardım edən yaşlı ailə üzvünün vəfat etməsi nəticəsində əmələ gələn çətinlikdən çıxa bilsinlər. Bundan əlavə, ailə və icma qohumluğu öhdəliklərinin pozulması və ənənəvi sosial şəbəkələrin zəifləməsi bir çox yoxsul qadın və kişilərin etibar etdiyi sosial təhlükəsizlik şəbəkəsini zəiflətmişdir.

### b. Zəif və qeyri-adekvat sosial müdafiə

Keçmiş Sovet İttifaqının süqutu dövlət tərəfindən təmin olunan bir çox sosial müdafiə proqramlarının – xüsusilə də səhiyyə xidmətlərinin, hamiləliklə əlaqədar məzuniyyətin təmin olunmasının, uşaq bağçaları və təqaüd sisteminin dağılması demək idi. Bir çox qadın üçün bu müdafiə sistemlərinin məhv olması yalnız onların real gəlirlərinə təsir göstərən sosial mühafiənin itirilməsi demək deyildi, bu vəziyyət keçmiş dövlət öhdəliklərinin bir çoxunu ailələrin öz üzərinə qoyur və burada da ortaya çıxan işlərin böyük bir hissəsi qadınların öhdəsinə düşürdü. Dünya Bankının 2003-cü ildə apardığı qiymətləndirmə belə bir nəticəyə gəlmişdi ki, qarşıya müəyyən bir hədəfin qoyulmaması üzündən, ümumi sosial müdafiə xərcləri yoxsulluğun aradan qaldırılmasına əhəmiyyətli dərəcədə təsir göstərə bilmir (Dünya Bankı 2003: 107).

### c. İnsan alveri hallarının çoxalması

Qadınların və qızların alveri getdikcə artan problemdir. Azərbaycan alver qurbanları üçün mənbə, tranzit və təyinat ölkəsi kimi tanınır. Rayonlardan Bakıya ölkədaxili insan alveri də mövcuddur, xüsusilə də seksual istismar məqsədilə. Beynəlxalq Miqrasiya Təşkilatının insan alverinin qurbanları ilə apardığı müsahibələr zamanı müəyyən olmuşdur ki, yoxsulluq və gələcəyə ümidsizlik bu sahədə başlıca vadar edən amillərdir.

### d. Qadınlara qarşı zorakılığın artması

Keçid dövrü qadınlara qarşı zorakılığın (QQZ) bütün formaları, həmçinin iş yerlərində cins zəminində narahatlıq törədilməsi, təhqir, zorlama, və ailədaxili zorakılığın (fiziki və emosional) artması ilə xarakterizə olunurdu. Bir çox halların qeydə alınmamasına görə bu problemin əhatə dairəsini müəyyən etmək üçün kifayət qədər məlumatın olmamasına baxmayaraq, mövcud məlumatlar heç də ürəkaçan deyil. Dəqiq rəqəmlərin əldə olunmasının çətinliyinə görə 2001-ci ilin Reproduktiv Sağlamlıq Müayinəsi aşkar etmişdi ki, hər 4 qadından biri sorğudan bir ay əvvəl fiziki zorakılığa məruz qalıbmış (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 293). Beynəlxalq Xilasetmə Komitəsinin yerli sakinlər və MK/qaçqın icmaları arasında keçirdiyi sorğu aşkar etmişdi ki, sorğuda iştirak edən evli qadınların 43%-i öz hazırki qohumluq əlaqələrində zorakılığa məruz qalırlar (BXK 2004: 11).

## 4. Qadınların səlahiyyətlərinin məhdudlaşdırılmasının artması

Bir çox keçmiş Sovet Respublikalarında olduğu kimi Azərbaycanda da keçid dövrü qadınların səlahiyyətlərinin məhdudlaşdırılması ilə xarakterizə olunmuşdur, belə ki, onların dövlət səviyyəsində və yerli səviyyələrdə siyasi strukturlarda təmsilçiliyi çətinləşmiş və onların yüksək qərarqəbuletmə vəzifələrinə təyin olunması dramatik şəkildə azalmışdır. Bir çox qadın onu da qeyd edir ki, onların öz ailələri və icmaları daxilində də səlahiyyətləri məhdudlaşıb, belə ki, keçmiş gender stereotipləri və münasibətləri yenidən baş qaldırması və iş tapmaq imkanlarının azalması ilə yanaşı qadının bir həyat yoldaşı, ana və hamının qayğısına qalan bir adam kimi rolunu daha da gücləndirmişdir.

### a. Siyasi liderlik vəzifələrində azalma

Keçid dövründə Azərbaycanda bütün səviyyələrdə qadınlar üçün siyasi liderlik vəzifələrinin əhəmiyyətli dərəcədə azalmışdı. 2004-cü ildə Milli Məclisin üzvlərinin yalnız 10,4%-i (125 nəfərdən 13-ü) qadınlar olmuşdur *(Red. qeydi: 2005-ci il noyabr ayında keçirilmiş parlament seçkilərində 15 qadın seçilmişdir)*, 1989-cu ildə isə Ali Sovetdə qadınların təmsilçiliyi 40% idi (Qadın Problemləri üzrə Dövlət Komitəsi: məlumat sorğu ilə əldə olunub). Yerli hökumət səviyyələrində qadınların nisbəti daha aşağıdır. 2004-cü ilin dekabrında keçirilən bələdiyyə seçkilərində seçilənlərin yalnız 4%-i qadınlar idi. Siyasi partiyalarda da qadınların iştirak səviyyəsi həddindən artıq aşağıdır; gender məsələləri əsas siyasi partiyaların platformalarında sistematik olaraq əks olunmur və səs verənlərin 50%-nin qadın olmasına baxmayaraq, "əsas" seçki məsələsi kimi dərk olunmur.

### b. Hökumətdə qərar qəbuletmə səviyyələrində qadınların az olması

Azərbaycanda hökumət vəzifələrində, xüsusilə yüksək səviyyələrdə işləyən qadınların sayı da kişilərlə müqayisədə çox aşağıdır. 2004-cü ildə hökumətdə bütün yüksək qərar qəbuletmə vəzifələrinin 88,4%-i kişilər tərəfindən tutulmuşdu. Hətta Kənd Təsərrüfatı Nazirliyi kimi "qadın" müştəri qrupları olan Nazirliklərdə də qərar qəbul etmə vəzifələrinin

96%-də kişilər çalışır (QPDK: məlumat sorğu ilə əldə olunub). Bundan əlavə, 29 nazirlik və dövlət komitələrinin rəhbərlərinin yalnız biri qadındır və bu da QPDK-nın sədridir. Qadınlar özləri də Vergilər, Daxili İşlər və Maliyyə Nazirliklərindən daha çox, Səhiyyə, Mədəniyyət və Sosial Müdafiə Nazirlikləri kimi əsasən "qadın" sektorları hesab edilən nazirliklərdə qərarqəbuletmə səviyyəsində rəhbər vəzifələrə təyin edilməyə üstünlük verirlər.

### c. Geniş yayılmış gender stereotipləri və patriarxal münasibətlər

Geniş yayılmış gender stereotipləri və patriarxal münasibətlər Azərbaycanda üstünlük təşkil edir və qadınların səlahiyyətlərinin məhdudlaşdırılması hissini daha da artırır. Müstəqilliyi yenicə əldə etmiş ölkələrin əksəriyyəti, o cümlədən Azərbaycan, ailədə gender bərabərsizliyini aradan qaldıra bilməmiş, onların ictimai həyatda bir fərd və müstəqil fəaliyyət göstərə bilən bir işçi kimi deyil, bir ana və ailəyə qayğı göstərən şəxs kimi qəbul edilmələri fikirlərini gücləndirmişdi. Belə baxışlar Azərbaycanda *de yure* və *de fakto* bərabərlik arasında böyük fərqlərin mərkəzindədir. Bir çox qadın gənc yaşlarında ailə qurmaq, uşaq böyütmək və ailə üzvlərinin qayğısına qalmaq üçün onlara təzyiq göstərilməsini və karyera qurmaq üçün heç bir dəstəyin olmamasını qeyd edirlər. Azərbaycanda keçirilən 2001-ci ilin Reproduktiv Sağlamlıq Müayinəsi zamanı hər 10 qadından 9-u işləmək üçün həyat yoldaşlarından icazə almalı olduqlarını və ailə məsələlərində son söz demək hüququnun kişilərə məxsus olduğunu söyləyirlər (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 205).

Azərbaycan Respublikasının yoxsulluğun azaldılması probleminə yanaşmasını göstərən əsas siyasət sənədi Azərbaycanda Yoxsulluğun Azaldılması Strategiyası Sənədi (YASS), yəni YAİİDP kimi tanınan Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramıdır. İlk YAİİDP (2003-2005) 2003-cü ilin fevralında təsdiq edilmişdir və indiyə qədər 2003 və 2004-cü illəri əhatə edən iki İnkişaf Hesabatı hazırlanmışdır. 2005-ci il üçün yekun İnkişaf Hesabatı 2006-cı ildə hazırlanacaq. YADİDP 2006-2015 kimi tanınan növbəti YAİİDP-in hazırlanması prosesi gedir və proqramın 10-illik müddətə əsas strateji istiqamət və məqsədlərinin hazırlanması üçün məlumat verən geniş əməkdaşlıq prosesini nəzərdə tutur. Bundan əlavə, Hökumət 2005-ci ilin sonunda bitirilməsi nəzərdə tutulan Minilliyin İnkişaf Məqsədləri (MİM-lər) üçün milli məqsəd və hədəflərin müəyyənləşdirilməsi sahəsində genişmiqyaslı prosesə başlayıb. *(Red. qeydi: Artıq bu proses başa çatıb).*

### A. 2003-2005-ci illər üçün YAİİDP

2003-2005 YAİİDP həm hökumətin rəsmi şəxslərinin, həm də vətəndaş cəmiyyətinin nümayəndələrinin geniş əməkdaşlıq prosesinə cəlb edilməsinin nəticəsində yaradılmışdı. Bu proses İqtisadi İnkişaf Nazirliyinin nəzdində olan YAİİDP strateji planlaşdırma, inkişaf, monitorinq və hesabat vermək üçün məsul orqan kimi fəaliyyət göstərmək mandatına malik olan YAİİDP Katibliyi tərəfindən əlaqələndirilirdi. Rəsmi səviyyədə on beş Sektor İşçi Qrupu (SİQ) məsləhət üçün əsas mexanizm təşkil edib və Sektor Siyasəti üzrə Qeydlər (SSQ) ilkin müzakirələrin və ölkə üzrə ardıcıl məşvərət prosesinin əsasını təşkil etmişdilər. Sektor prioritetlərini tədqiq etmək və YAİİDP-in milli strateji çərçivəsini yaratmaq üçün Hökumət və Parlamentin üzvləri ilə inkişaf partnyorları (beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları daxil olmaqla) arasında bir neçə ay ərzində dəyirmi masa müzakirələri keçirilmişdi (Azərbaycan Respublikası 2003: 272-279). Yoxsulluğun təhlili üçün potensialın yaradılmasına ehtiyac olduğunu qəbul edərək, YAİİDP Katibliyində Yoxsulluğun Monitorinq Bölməsi (YMB) yaradıldı və hazırda bu qrup ölkənin hər yerində yoxsulluq tendensiyalarının təhlili və monitorinqində başlıca rol oynamaqda davam edir, eləcə də məlumatların qənaətbəxş olub-olmamasını və boşluqları müəyyən edir.

#### 1. YAİİDP-də strateji istiqamətlər

2003-2005-ci il YAİİDP bu əməkdaşlıq prosesinin məhsuludur. Bu proqram Azərbaycanda yoxsulluğun ölçülərini təhlil etməklə başlayan və özündə demoqrafik vəziyyəti; yoxsulluq hallarının təhlilini, onun kənd/şəhər ölçüləri və sağlamlıq, təhsil, məşğulluq kimi müxtəlif sektorlarda yoxsulluğun özünü büruzə verməsi yolları; və gender və yoxsulluğa dair yarımbəndləri birləşdirən yaxşı tərtib edilmiş bir sənəddir. Daha sonra o, keçid prosesinin zamana göstərdiyi təsirləri, bu günə kimi əldə edilmiş nailiyyətləri və gələcəkdə ortaya çıxacaq əsas çətinlikləri tədqiq edən iqtisadi təhlillə də təmin edilib.

Bu təhlillərə müvafiq olaraq, proqramın əsas məqsədinə - ümumi yoxsulluğun azaldılmasına və iqtisadi inkişafa nail olmaq üçün YAİİDP çərçivəsində altı strateji istiqamət müəyyənləşdirilmişdir:

- gəlir əldə etmək imkanlarının artırılması üçün əlverişli mühitin yaradılmasına kömək edilməsi;
- makroiqtisadi sabitliyin saxlanılması;
- əsas səhiyyə və təhsil xidmətlərinin keyfiyyətinin və onlardan ədalətli şəkildə yararlana bilmək imkanlarının yaxşılaşdırılması;
- infrastrukturun (o cümlədən, yolların, kommunal xidmətlərin, kommunikasiyaların və irriqasiya sisteminin) yaxşılaşdırılması;
- həssas qrupların daha effektiv müdafiəsini təmin etmək üçün cari sosial müdafiə sistemində islahatlar aparılması; və
- Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 1 milyon MK/qaçqınlar üçün yaşayış şəraitlərinin və imkanların yaxşılaşdırılması.

Bu strateji məqsədlərə nail olmaq üçün faktiki tədbirlərin detalları növbəti fəsillərdə təsvir edilmişdir; bu tədbirlər yoxsulluğun azaldılması üçün tələb edilən sosial və iqtisadi siyasətləri, eləcə də dövlət idarəçiliyi, hüquqi islahatlar və əks mərkəzləşdirməni göstərən müvafiq institusional çərçivə yaradılmasını və korrupsiya ilə mübarizənin vacibliyini əks etdirir. Gender məsələləri sosial siyasətdən bəhs edən fəsilə daxil edilmişdir. YAİİDP-in əsas, lakin bir qədər haşiyəyə çıxardılmış hissəsi bu ÖGQ-nin Əlavə 1-də təqdim olunmuş və hər bir strateji məqsədə nail olmaq üçün hər bir detalı dəqiq müəyyənləşdirilmiş tədbir və fəaliyyətləri, tətbiq edilmə cədvəli, işə məsul olan orqanları, nailiyyətləri ölçmək üçün göstəriciləri və maliyyələşdirməni təsvir edən "Siyasət Matrisi"dır. Göstəricilərin müəyyənləşdirilməsi ilə bağlı bir neçə boşluq və çatışmazlıqlara və miqyasına görə həddən artıq iddialı olmasına baxmayaraq, Siyasət Matrisi YAİİDP-in icra müddəti üçün Hökumətin təklif etdiyi fəaliyyətlərin ən geniş icmalını təqdim edir.

## 2. Gender və 2003-2005-ci illər üçün YAİİDP

Gender məsələləri YAİİDP sənədinin əsasən iki ayrıca bölməsində əks olunur: Azərbaycanda yoxsulluğun diaqnostikası bölməsində ("Gender və Yoxsulluq" bölməsində bir səhifə - Bölmə 1.6) və "Yoxsulluğun Azaldılmasına yönəlmiş Sosial Siyasətlər"dən bəhs edən bölməyə daxil edilmiş "Gender Siyasəti" bölməsində (Bölmə 3.8). Sənədin əvvəlində "matrisdə qeyd edilən bütün fəaliyyət və siyasətlərdə gender amillərinin nəzərə alındığı" bəyan olunsa da , "Siyasət Matrisi" gender məsələlərini heç də xüsusi olaraq əks etdirmir (Azərbaycan Respublikası 2003: 159).

Lakin bütün 2003-2005 YAİİDP sənədinin təhlili aşkar edir ki, nə yoxsulluğun müxtəlif ölçülərinin təhlili və diaqnostikasından bəhs edən birinci hissədə, nə də yoxsulluq probleminin həll edilməsi məsələlərini əks etdirən ikinci hissədə gender yanaşması effektiv tətbiq edilməyib. Nəticədə, gender fəslindən kənarda gender problemləri parçalanmış və qırıq-qırıq şəkildə ortaya çıxır.

Belə ki, 2003-2005 YAİİDP-in diaqnostika hissəsində yalnız əmək bazarı seqreqasiyası və qadın işsizliyinin yüksək səviyyələri kimi məşğulluq məsələləri əks olunur, lakin qeyri-formal sektorun gender və yoxsulluq ölçüləri və zəifləmiş sosial müdafiə sisteminin qadınlara təsiri kimi çox əhəmiyyətli, lakin indiyə kimi tədqiq olunmamış məsələlər tamamilə kənarda qalır. Eyni zamanda, "gender siyasəti" bölməsi məşğulluq, təhsil, sağlamlıq kimi sektorlarda əsas gender məsələlərini vurğulamağa cəhd göstərsə də, bu bölmə sənədin başqa hissələri ilə bağlı deyil, xüsusi fəaliyyətin həyata keçirilməsi üçün icra müddəti göstərilməyib, məsul agentliklər müəyyən edilməyib, onların həyata keçirilməsi üçün büdcə əlavə edilməyib və nailiyyətləri qiymətləndirmək üçün göstəricilər müəyyənləşdirilməyib. Əlavə 1-də də YAİİDP-in hər fəsil və bölməsində gender məsələlərinin əks olunmasının miqyası göstərilir və qeyd edilir ki, gender məsələlərindən yalnız "gender bərabərliyi"ndən bəhs edən bölmələrdə və həm də 43 bölmədən yalnız 7-də qısaca danışılır.

Yoxsulluğun Monitorinqi Bölməsində Gender üzrə məsul şəxsin təyin olunmasına baxmayaraq, bu yalnız bir sahəyə aid təyinat deyil, bu şəxs gender məsələlərindən əlavə, YAİİDP-də digər sahələrin icrasına da məsuldur. Bu işin ağırlığı məsul şəxsin gender yanaşmasının effektiv surətdə həyata keçirilməsinin əhatə dairəsini xeyli məhdudlaşdırır və üstəlik də, məsul şəxsin öz vəzifələrini (məsələn, genderlə bağlı təşəbbüslərin monitorinqi) həyata keçirməsi üçün əlavə maliyyə və insan resurslarının məhdud olması da problemi çətinləşdirir.

### B. Gender yanaşmasının tətbiq edilməsi və YADİDP

2006-2015 YADİDP-ın hazırlanması 2003-2005 YAİİDP-nı məlumatla təmin edən proseslərdə qadınların iştirakı əsasında qurulmalı və onu təkmilləşdirməli və yoxsulluğun (sektor) ölçüləri haqqında məlumatlı təhlili və eləcə də müəyyən edilmiş fəaliyyətləri həyata keçirmək üçün tələb olunan maliyyələşdirmə mənbələrinin ətraflı surətdə qiymətləndirilməsini təmin etməlidir. Bu hazırlıq prosesi gender yanaşmasının tətbiq edilməsi proseslərində qadınların iştirakının (eləcə də YADİDP sənədinin özündə) nəzərə alınmasına vaxtında təminat yaradır. 2003-2005 YAİİDP-də gender yanaşmasının tətbiq edilməsi effektivliyinin və təsirinin qiymətləndirilməsi həm siyasət, həm də proqram hazırlığı səviyyəsində əldə edilmiş dərslərin və düzəlişlərin müəyyənləşdirilməsinə imkan verən bu proses üçün başlanğıc olmalıdır. YAİİDP-də və YADİDP üçün gender yanaşmasının tətbiq edilməsi üzrə əsas müddəalar Əlavə 2-də verilib.

YADİDP-də gender yanaşmasının tətbiq edilməsinin yaxşılaşdırılması üçün əsas məsələ qadınların prioritetləri və onları narahat edən problemlər, həmçinin ən təxirəsalınmaz məsələlərin həll edilməsi üçün təklif olunan strategiyalar barədə onların özləri ilə məsləhətləşməkdir. 2003-2005 YAİİDP-də əməkdaşlıq prosesi YASS yaradılması üçün nümunə kimi qəbul edilsə də, Hökumət etiraf etmişdi ki, qadınların bu işdə iştirak səviyyələri adekvat olmayıb. Sorğuların ilk iki raundunda respondentlərin 38%-i qadın idi və fokus qrup müzakirələrində yalnız 10% qadın iştirak etmişdi. Beləliklə, 2006-2015 YADİDP-in hazırlanması prosesində gender balansının yaxşılaşdırılması əsas prioritet olmalıdır. Bu

iş alternativ iştirak mexanizmlərinin (məsələn, yalnız qadınlardan ibarət fokus qrupları, qadın QHT-ləri ilə görüşlər, icmalarda qadınlar üçün münasib olan vaxtda görüşlər) inkişaf etdirilməsini və qadın auditoriyalarını effektiv surətdə cəlb edə bilmək üçün informasiya kampaniyalarının genişləndirilməsini tələb edə bilər. *(Red. qeydi: 2004-cü ildə keçirilmiş regional ictimai görüşlərdə iştirakçılarının 29%-i qadı idi, 2005-ci ildə isə 37%).*

Bundan əlavə, QPDK-nın 2003-2005 YAİİDP işçi qrup prosesinə daxil edilməsi və bir neçə SİQ-də fəal iştirak etməsinə baxmayaraq, heyət üzvlərinin sayının məhdud olması onun potensialının SİQ-ə tam şəkildə cəlb edilməsini, və gender məsələlərinin bütün SSQ-a effektiv daxil edilməsinin təmin edilməsini məhdudlaşdırmışdı. YADİDP-in hazırlanma prosesində Gender üzrə ayrıca SİQ yaradılması irəliyə doğru müsbət addımdır, lakin QPDK-nın hazırlanma prosesinin bütün aspektlərində, o cümlədən bütün SİQ-lərdə və SSQ-lərin hazırlanmasında (yaxud onların ekvivalentində) tam iştirak etməsi üçün xüsusi mexanizm yaradılmasına ehtiyac var. Bununla yanaşı, YADİDP-də müəyyən edilmiş gender təşəbbüsləri Qadın Problemləri üzrə Milli Fəaliyyət Planına (MFP) uyğun gəlməli və onu tamamlamalıdır. Aydın şəkildə ifadə edilmiş və müvafiq büdcə ilə təmin olunmuş məqsədlər, hədəflər, tədbirlər və göstəriciləri özündə əks etdirən bu Fəaliyyət Planına 2005-ci ildə yenidən baxılması nəzərdə tutulub.

Bu tapşırıqlar üçün QPDK və YAİİDP Katibliyi tərəfindən bu işə sadiq insanların təyin olunması və həm strateji, həm də sektor prioritetlərinin yaradılması səviyyələrində onların sıx əməkdaşlıq prosedurlarının yaradılmasının təmin edilməsi çox vacibdir. YAİİDP Katibliyində bütövlüklə gender məsələlərinə məsul bir nəfərin olması tələb edilir ki, o, əsas gender məsələlərinin və YADİDP daxilində əsas strateji müddəaların müəyyənləşdirilməsi və onların həll edilməsində QPDK, Gender üzrə məsul şəxslər, Əlaqələndirmə Şurası və vətəndaş cəmiyyəti qrupları arasında əlaqələndirici kimi fəaliyyət göstərsin.

### C. Minilliyin İnkişaf Məqsədləri: milli məqsəd və hədəflərin inteqrasiyası

MİM-lər üçün müvafiq milli hədəf və göstəricilərin yaradılmasına və əlaqələndirilməsinə YAİİDP Katibliyi rəhbərlik edir və o, MİM prosesinin koordinasiyası üçün Hökumət daxilində mərkəzi məsul orqan olaraq qalır. Son 12 ay ərzində Katiblik bu işi davam etdirir. Hədəf və göstəricilərin siyahısının layihəsinin 2005-ci ilin axırında tamamlanması gözlənilir. *(Red. qeydi: Milli məqsəd və hədəflərinin müəyyənləşdirilməsi üzrə iş hal-hazırda başa çatıb və onların Hökumət tərəfindən təsdiqlənməsi gözlənilir).* BMT-nin agentlikləri də MİM-lərin hədəf və göstəriciləri üzrə milli səviyyədə müzakirələrin təmin edilməsində aktiv rol oynayır. BMTƏF MİM #3 və #5 üçün, UNİCEF MİM #2, #4 və #6 və BMTİP MİM #1, #7, #8 üçün rəhbərliyi öz üzərinə götürüb. 3-cü Əlavə Azərbaycan üçün beynəlxalq və milli MİM-lərin xülasəsini təqdim edir.

Bu milli hədəflər ətrafında ümumi razılaşmanın əldə olunmasına baxmayaraq, milli səviyyədə müvafiq göstəricilərin yaradılması işi çətin məsələdir və statistik çətinliklərlə, o cümlədən, müvafiq etalon məlumatın çatışmazlığı, cari statistik məlumat toplularının zəifliyi (o cümlədən, cinslərə bölünmüş məlumatda əhəmiyyətli boşluqların olması) və

ənənəvi rəsmi statistika ilə müstəqil müayinələrin, xüsusilə də əsas sağlamlıq statistikasının arasında olan fərqlərlə daha da mürəkkəbləşir. (Xüsusilə 2001-ci ilin Çoxgöstəricili Klaster Sorğusu [ÇGKS] [UNİCEF/DSK 2000] və körpə, 5 yaşdan aşağı üşaq və ana ölümü kimi əsas göstəriciləri ilə hökumətin statistik məlumatları arasında fərqlər çox böyükdür). Hökumət MİM-lər və daha geniş YAİİDP monitorinqi üçün milli statistika potensialının gücləndirilməsi ehtiyacını dərk edir.

Əlavə 3 bunları aşağıda verilən müzakirələrdə qısa şəkildə qeyd edilən milli hədəf və göstəricilərin gender ölçülərini işıqlandırmaqla nəzərdən keçirir. MİM-lərin, hədəflərin və göstəricilərin dövlət səviyyəsində sonrakı müzakirələri prosesində Azərbaycan bir çox MİM-lər və hədəflər üçün əlavə göstəricilər hazırlayır. Çalışmaq lazımdır ki, bu göstəricilər gender ölçülərini mümkün qədər geniş əhatə etsin və müvafiq məlumatın toplanmasına imkan yaratmaq üçün lazım olan dəstək (maliyyə və inzibati) təmin edilsin.

### 1. MİM #1. İfrat yoxsulluq və aclığın kökünün kəsilməsi

1-ci fəsildə qeyd edildiyi kimi, mütləq yoxsulluq 44,7%-ə qədər azalmış, nisbi və ifrat yoxsulluq müvafiq olaraq 12% və 10% artmışdır *(Red. qeydi: 2005-ci ilin ETBM-ə əsasən mütləq yoxsulluq 29,3%-ə qədər aşağı enib, nisbi və ifrat yoxsulluq müvafiq olaraq 6,1% və 2,2% təşkil etmişdir).* Bundan əlavə, şəhər yoxsulluq səviyyəsi 3,7 %-ə qədər azalmış, kənd səviyyəsi yalnız cüzi şəkildə azalmışdır. Ümumi yoxsulluq dərəcəsi hal-hazırda kəndə ərazilərində (45,3%) şəhər ərazilərinə (44,1%) nisbətən daha yüksəkdir. Azərbaycan qeyd etmişdir ki, neft gəlirlərinin səmərəli istifadə olunacağı, qeyri-neft sektorunun təkmilləşdirilmiş sərmayə və biznes mühitin vasitəsilə inkişaf edəcəyi və iqtisadi artımın gəlirlərinin ədalətli paylanması təmin edildiyi halda MİM-ə nail olmaq üçün əksər Müstəqil Dövlətlər Birliyinin (MDB) ölkələrinə nisbətən daha çox imkanları olacaq. Mütləq yoxsulluq səviyyəsinə nəzarətə əlavə olaraq, Azərbaycan üçün ölkə daxilində daimi gəlir bərabərsizliyinin miqyasına nəzarət etmək, iqtisadi artım gəlirlərinin ədalətli paylanması üçün müvafiq tədbirlərin görülməsi vacibdir.

Beynəlxalq MİM-lərə Məqsəd #1 üçün 5 yaşdan aşağı uşaqlar arasında azçəkili uşaqların çox olması və istehlak səviyyəsi minimumdan aşağı olan əhalinin nisbəti üzrə bir neçə göstəricilər daxil edilib. Əvvəldə göstərildiyi kimi, 2000-ci ildə UNİCEF ÇGKS Azərbaycanda bu yaş həddi arasında boyu və çəkisi az olanların sayının yüksək səviyyədə olduğunu aşkar etmişdi. Bu problemin həll edilməsi geniş həcmli yanaşma, o cümlədən ilkin səhiyyə xidməti (İSX) sisteminin gücləndirilməsi, və bu xidmətlərin çatdırılması və eləcə də icma üzvlərini səfərbər etməklə gənclər arasında sağlam həyat tərzini və uşaqların yaxşı inkişaf etməsi sahəsində effektiv təbliğat proqramlarının həyata keçrilməsini tələb edir.

### 2. MİM #2. Ümumi ibtidai təhsilə nail olunması

Azərbaycanda əsas təhsilə (1-9 siniflər) cəlb olunma səviyyəsi 100%-ə yaxındır, lakin buna baxmayaraq məktəbi tərk edənlərin səviyyəsi yoxsullar arasında qeyri-yoxsullara nisbətən yüksəkdir. Bu sektorun problemləri daha çox keyfiyyətlə, o cümlədən, iqtisadiyyatın

get-gedə artan qloballaşması şəraitində meydana çıxan çətinliklərin öhdəsindən gələ bilmək üçün lazım olan bilik və bacarıqların artırılmasına olan ehtiyacla bağlıdır. Odur ki, bu milli MİM-ə nail olunması diqqətin təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına, o cümlədən təhsilin nəticələrinə yönəldilməsini tələb edir. Cinslər üzrə ayrı-ayrı məlumatın yığılmasının təkmilləşdirilməsi də vacibdir. Xüsusilə də, məktəbə cəlb olunmanın ümumi sayının hesablanması, həmçinin qızların və oğlanların dərslərə davamiyyəti üzrə mütəmadi araşdırmaların keçirilməsi böyük əhəmiyyət daşıyır. Tədris materialları da gender məsələlərinə həssas olmalıdır və hazırda işçi qüvvəsində əhəmiyyətli dərəcədə seqreqasiyanın mövcud olduğunu nəzərə alaraq, bu materiallar qadınları müxtəlif sahələrdə təsvir etməklə, qızların təhsil və peşə arzularını daha da artırmalıdır.

### 3. MİM #3. Gender bərabərliyinin təmin edilməsi və qadınların imkanlarının genişləndirilməsi

Yuxarıda qeyd edildiyi kimi, ibtidai təhsil mərhələsində məktəbə cəlb olunmanın dərəcəsi ümumi təhsilə yaxındır və bu mərhələdə o qədər də böyük gender fərqləri yoxdur, lakin buna baxmayaraq, orta təhsil mərhələsində qadınların davamiyyəti, xüsusilə də yoxsul kənd qızları arasında, narahatlıq doğurur. Peşə təhsili sektorunda da böyük fərqlər var. Peşə təhsili müəssisələrində qadınların sayı (30,5%) kişilərə nisbətən iki dəfə (69,5%) azdır. qadınların üstünlük verdiyi az ödənişli təhsil, səhiyyə və təbii elmlər və kişilərin daha çox müraciət etdiyi geologiya, mühəndislik və iqtisadiyyat kimi yüksək ödənişli təhsil sahələrində əhəmiyyətli dərəcədə gender seqreqasiyasına baş rast gəlinir. Bu MİM-ə nail olmaq üçün qadınların ali təhsil sektoruna daha çox cəlb edilməsi və onların ixtisas seçimlərini genişləndirmək üçün müdaxilə tədbirləri hhazırlanmalıdır. Qadınları yiyələndikləri peşə üzrə işlələyə bilmək imkanları ilə təmin etmək üçün əmək bazarının da uyğunlaşması tələb ediləcək. Beləliklə, bu MİM-ə nail olmaq üçün qadınlar arasında qeyri-fəallığının və işsizliyin kişilərə nisbətən daha yüksək səviyyədə olmasını nəzərə almaq çox vacibdir.

### 4. MİM #4. Uşaq ölümü hallarının azalması

Məlumatların qeyri-müəyyənliyi və uyğunsuzluğu üzündən bu MİM üzrə inkişaf monitorinqini keçurmək çətindir. Məsələn, DSK-nın 2001-ci il üçün baza göstəricisinə görə 1000 diri doğulan uşağa 24,8 ölüm və 2003-cü ildə 19,9 ölüm müəyyən edilsə də, Azərbaycan RSM (1996-2000) bu rəqəmin daha yüksək -- 1000 diri doğulanlana 88,4 ölüm göstərir. Baza göstəricilərinin rəqəmləri qəbul edilsə də, rəsmi məlumatların RSM kimi müntəzəm və oxşar müayinə nəticələri ilə tamamlanması vacibdir. Əldə edilə bilən məlumatlarla bağlı əsas çətinlik ölüm hallarının gender ölçülərinə effektiv surətdə nəzarət etməyə imkan verən cinslər üzlər ayrı-ayrı məlumatın az olmasıdır.

Buna baxmayaraq, əldə edilən rəqəmlərdən aydın olur ki, uşaq (ana) ölümü Azərbaycanda xəstələrə qayğı göstərənlərin xəstəlik və infeksiyaların təhlükəli əlamətləri haqqında biliklərinin çatışmaması və bu təhlükəni erkən aşkarlaya bilməmələri ilə əlaqədardır və deməli, xəstələrə qulluğun keyfiyyəti yaxşılaşdırılarsa, bu problemin qarşısı alına bilər. Məsələn, ÇGKS (UNİCEF 2000) göstərdi ki, qayğı göstərənlərin yalnız 34%-i

üşaq xəstəliklərinin heç olmasa iki təhlükəli əlamətini bilirlər, lakin Mercy Corps təşkilatının tədqiqatına əsasən (2002) ailələrin 5%-dən azı təhlükəli əlamətlərdən xəbərdardır. Bundan əlavə, Azərbaycanda erkən (20 yaşa qədər) hamiləliyin artması[3] da narahatlıq doğuran problemdir, çünki belə hamiləliklər həm ana, həm də uşaq üçün uşaqların az çəki ilə doğulması, vaxtından əvvəl doğuşlar, ölü doğulma, neonatal hallar (serebral zədələnmə), infeksiyalar, qanaxmalar, anemiya və ölüm kimi təhlükələr törədir. Beləliklə, bu MİM-ə nail olmaq üçün əsas uşaq xəstəlikləri və uşaq ölümü problemlərinə müraciət edərkən icmalarda və ailələrdə preventiv (önləyici) və müalicəvi sağlamlıq tədbirlərinin həyata keçirilməsi təmin edilməli, həmçinin keyfiyyətli pre- və postnatal qayğıdan yararlanma imkanları yaxşılaşdırılmalıdır.

### 5. MİM #5. Anaların sağlamlığının yaxşılaşdırılması

Bu MİM-in nailiyyətlərinə nəzarət etmək məlumatların qeyri-müəyyənliyi və uyğunsuzluğuna görə çətindir. Hal-hazırda əldə edilə bilən yeganə sorğu məlumatı ÇGKS UNİCEF 2000-ci il araşdırmalarının nəticələridir. Bu nəticələrə əsasən1988-ci ildə ana hər 100 000 doğuşa 79 ana ölümü düşürdü. 2000-ci ildə rəsmi ana ölümü əmsalı (AÖƏ) 100 000 doğuş üçün 37,6 idi, 2004-cü ildə isə DSK 100 000 doğuş üçün 25,8 rəqəmi göstərirdi. 2003/2004 YAİİDP İcra Hesabatında qeyd edildiyi kimi, "ana ölümünün real səviyyəsi üzrə rəsmi göstəricilər araşdırma qiymətləndirilməri ilə, güman ki, uyğun gəlmir" (Azərbaycan Respublikası 2005b: 43). Bu rəqəmlər müntəzəm və oxşar müayinə məlumatları ilə tamamlanmalıdır. Xüsusilə də həm rəsmi dövlət, həm də tədqiqat məlumatları AÖƏ haqqında gəlir qrupları, ərazi (yəni, kənd/şəhər və regional) üzrə və ümumi əhali ilə MK/qaçqın əhali arasında fərqlərə dair məlumatlarla təmin edilməlidirlər.

2015-ci ilə qədər Azərbaycan səhiyyə xərclərinin artırılması, xüsusilə kənd ərazilərində İSX-nin və ana və uşaq sağlamlığının qayğısı proqramlarının gücləndirilməsi yolu ilə AÖƏ-nı dörddə üç qədər azalda bilərdi (yəni, 100 000 diri doğulan üçün 9,3). Həm rəsmi dövlət, həm də tədqiqat məlumatlarının müəyyənləşdirilməsi diqqətin xüsusilə həssas qruplara (yəni yoxsul kənd qadınları, MK/qaçqın qadınlar) cəlb olunmasına imkan yaradardı. Bundan əlavə, yoxsul və qaçqın qadınlar arasında doğuşa yardım edilməsi sahəsində yüksək səviyyəli təlimlərin keçirilməsi də bu qrupda AÖƏ-nin azalmasına müsbət təsir edə bilərdi.

### 6. MİM #6. İİV/QİÇS, malyariya və digər xəstəliklərlə mübarizə

İİV-ə yoluxan Azərbaycan vətəndaşlarının sayının regional standartlara əsasən az olması ehtimal olunur, lakin xəstəliyin faktiki yayılma səviyyəsi məlum deyil, belə ki, xəstəliyin qeyri-fəal vəziyyəti haqqında dəqiq tədqiqatlar məhduddur və xəstəliyin özünü büruzə verməsi barədə məlumat çatışmır. UNAİDS/ÜST 2004-cü ildə 2800-ə yaxın böyüklərin və uşaqların İİV-ə yoluxmuş olduğu ehtimalını irəli sürmüşdü, lakin bu rəqəm kiçildilmiş də ola bilər (UNAİDS/ÜST 2004).

---

[3] RSM 2001, ilk dəfə 20 yaşından əvvəl doğan qadınların nisbətinin, hazırda 40-44 yaşda olan qadınlar arasında 12%-dən 20-24 yaş arasında olan qadınlarda 22%-ə qədər artmasını qeyd etmişdir.

Dərc olunmuş məlumat az olsa da, əldə edilmiş sübutlar təsdiq edir ki, miqrasiya (o cümlədən müvəqqəti əmək miqrasiyası) İİV-ə yoluxma təhlükəsini artırır. Yaxın illərdə alverə məruz qalmış qadın və qızların sayının artması xüsusilə narahatlıq doğurur, çünki onların çoxu təyinat ölkələrində seks işi ilə məşğul olmağa məcbur edilirlər və bu da onları İİV və CYYX-ə yüksək dərəcədə həssas edir. Qadınların İİV/QİÇS haqqında məlumatlarının çox az olması da problemdir. 2001-ci ilin RSM nəticəsində müəyyən edilmişdi ki, azərbaycanlı qadınların dörddə biri heç vaxt İİV/QİÇS haqqında eşitməyib və qadınların 72% İİV infeksiysınadan qorunmaq üçün heç bir əsas üsulun adını çəkə bilmir (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 282-283). Azərbaycan bu MİM-i uğurla həll etmək üçün əhalinin İİV/QİÇS haqqında məlumatlılığını artırmalı, o cümlədən preventiv tədbirlər görməli, əsas həssas qrupları (məsələn, müvəqqəti əmək miqrantları, seks işçiləri, iynə vurmaqla narkotiklər qəbul edənlər) müəyyənləşdirməli və onlarla iş aparmalı, və habelə məxfi yoxlama imkanlarını artırmalıdır.

ÜST-nın Vərəmə Nəzarət Qlobal Proqramına əsasən, Azərbaycan Bilavasitə Müşahidə edilən Qısa-kurslu Müalicə üzrə 2-ci Kateqoriyalı, ilkin fazada və 10%-dən az əhatə dairəsi olan ölkə kimi müəyyən olunub. Yoluxmanın qarşısının alınmasına dair MİM-ə nail olmaq məqsədilə, əhatə dairəsini hazırki 4%-dən 100%-ə qədər artırmaq üçün siyasi öhdəlik və əlavə resurslara ehtiyac var.

### 7. MİM #7. Ətraf mühitin davamlılığını təmin etmək

Azərbaycanda su ehtiyatları baxımından zəifdir. 2003-cü ilin ETBM-dən əldə edilən qiymətləndirmələr göstərir ki, son illər ərzində bu sahədə aparılan yaxşılaşdırma ilərinə baxmayaraq, əhalinin 31%-nin mərkəzləşdirilmiş su təchizatına ehtiyacı var. Mərkəzləşdirilmiş su təchizatı şəhər ərazilərində (67,9%) kənd ərazilərindən (14,2%) təqribən 5 dəfə artıqdır, və kənd əhalisinin 60,8%-nin ümumiyyətlə su ilə təmin olunmur (Azərbaycan Respublikası 2005b: 51-52). UNİCEF-in 2000-ci il ÇGKS sorğusu əhalinin içməli su ilə təchiz edilmələrində müxtəlif bölgələr və gəlir qrupları arasında yüksək dərəcədə fərqlənmələr aşkar etdi (UNİCEF/DSK 2005: 20). İçməli suyun əsas keyfiyyət standartlarına cavab verməsi və təchizatı problem olaraq qalır; hələ də rayon və şəhərlərin hamısında müntəzəm qiymətləndirilmələr keçirilməmişdir.

İçməli suyun çatışmazlığı yoxsullara, xüsusilə də yoxsul qadınlara ciddi təsir göstərir, çünki qadınların üzərinə su üçün növbəyə durmaq, su ehtiyatı toplamaq və onu emal etməklə (yəni qaynatmaq) bağlı əlavə iş də düşür. Suyu alverçilərdən daha yüksək qiymətlərlə almaq və ya ictimai su mənbələrinə getmək məcburiyyəti, ərzaq, nəqliyyat və uşaqların təhsilinə lazım olan vəsaitlərin xərclənməsinə səbəb ola bilər. Qadınların və onların ailələrinin sağlamlığını yaxşılaşdırmaq üçün bu MİM-ə nail olmaq lazımdır; su toplamaq və xəstələrə baxmaq üçün sərf edilən vaxtın azaldılması qadınların digər produktiv işlə məşğul olmaq imkanlarını artıra bilər. Lakin bu müsbət fikirlərin həyata keçməsi üçün içməli su və yaxşılaşdırılmış sanitariya şəraitinin təmin edilməsi işində diqqətin gender məsələlərinə cəlb edilməsi, o cümlədən qadınların layihələrin tərtib edilməsi və həyata keçirilməsində tam

iştirakını təmin edən mexanizmlər hazırlanması lazım olacaq.

### 8. MİM #8. İnkişaf üçün qlobal partnyorluğun yaradılması

Azərbaycanın MİM #8 əsas hədəfləri birbaşa xarici sərmayələrin (BXS) artırılmasına, qeyri-neft sektorunda ixrac və xarici borcların saxlanması problemlərinə, və habelə baza göstəricilərinin və dəqiq hədəflərin müəyyənləşdirilməsinə yönəlib. Bundan əlavə, geniş ictimaiyyətin informasiya və kommunikasiya texnologiyalarının (İKT) nailiyyətlərindən istifadə edə bilmək imkanlarının genişləndirilməsi də bu MİM üçün hədəf kimi müəyyən edilib.

Azərbaycanın neft sektoruna BXS-in uğurla cəlb edilməsinə baxmayaraq, bu sektor daha çox sərmayə tələb edir və ümumi işçi qüvvəsinin yalnız kiçik bir hissəsini işlə təmin edir. Ona görə də qeyri-neft sektoruna BXS-in artırılması Azərbaycanın məşğulluğu stimullaşdırmaq, işsizliyi azaltmaq və gəlir yoxsulluğunun səviyyəsini aşağı salmaq sahəsində atdığı addımlar üçün çox böyük əhəmiyyət daşıyır. Lakin bu səylər gender məsələlərinə həssas olmalı və qadınların işsizliyinin kişilərə nisbətən yüksək səviyyəsi, iqtisadi cəhətdən qeyri-fəal olmaları və qadınların özəl sektorda (həm işəgötürən, həm də işçi kimi) get-gedə daha çox kənarda qalmalarını nəzərə almaqla əmək bazarında mövcud olan gender bərabərsizliyi problemlərini həll etməlidir. Əmək bazarında mövcud olan gender bərabərsizliyini effektiv surətdə aradan qaldırmaq üçün qadınların məşğulluq imkanlarının artırılması məqsədilə hədəflərin daxilində spesifik strategiyaların hazırlanması, qadın sahibkarlığının həvəsləndirilməsi və dəstəklənməsi və bərabər iş üçün bərabər əmək haqqı prinsipinin gücləndirilməsi və buna nəzarət edilməsi vacibdir. Bundan əlavə, qeyri-neft sektorunda qadınlar üçün məşğulluq imkanlarının miqyasının genişləndirilməsi qadınları ixtisas seçimlərini artırmağa həvəsləndirəcək və beləliklə də MİM #3-ə nail olmağa kömək edəcək.

Nəhayət, İKT-nın ictimaiyyətə çatdırılması səyləri qadınların həm rayon, həm də kənd yerlərində spesifik ehtiyaclarını nəzərə almalı, İKT üçün imkanlar təmin etməli və ilkin treninq və ixtisasların artırılması dəstəkləməlidir. Xüsusilə də, 2004-cü ildə hazırlanmış Milli İnformasiya və Kommunikasiya Strategiyasında gender məsələlərinin həll edilməsi yollarının qiymətləndirilməsi gələcək müdaxilələr üçün əsas ola bilərdi.

## D. Tövsiyələr

Aşağıdakı tövsiyələr MİM-ləri və milli məqsəd və hədəfləri daxil etmək üçündür:

- Sektor, makro- və mikroiqtisadi siyasətlərdə və maliyyə ehtiyatlarının müvafiq surətdə istifadə edilməsində birmənalı şəkildə ifadə edilmiş və ya nəzərdə tutulan gender məsələlərini müəyyən edən gender məlumatlılığı siyasətinin qiymətlindirilməsi aparılmalı; siyasətdə mövcud olan qadın və kişi bərabərsizliyinin və gender münasibət modellərinin davam etdiriləcəyi və ya dəyişdiriləcəyi ehtimalları qiymətləndirilməli və müvafiq olaraq, gender bərabərliyini təmin edən düzəlişlər edilməlidir.

- YADİDP-ə daxil ediləcək tədbirlərin və gender yanaşması mexanizmlərinin müəyyən olunmasından və yaradılmasından əvvəl 2003-2005 YAİİDP-də gender təşəbbüslərinin həyata keçirilməsinin və təsirlərinin qiymətləndirilməsi aparılmalıdır. Bu, YADİDP sənədində müvafiq və effektiv gender yanaşması təşəbbüslərinin hazırlanması üçün strateji çərçivə təmin edə bilər. Belə qiymətləndirmə YADİDP-nın formalaşma prosesini istiqamətləndirmək məqsədilə yaradılan hər SİQ üçün mühüm əhəmiyyət kəsb edəcək.
- Gender məsələləri YADİDP-ə daxil edilməlidir. YADİDP-in hazırki formalaşması, əsas problem və məsələlərin müəyyən olunmasından, hazırlıq proseslərində qadınların iştirakından tutmuş, nailiyyətlərə nəzarət etmək üçün gender həssas göstəricilərin yaradılması və strateji siyasət məqsədlərinin formalaşdırılmasına qədər, YADİDP-in bütün bəndlərinə genderin effektiv daxil edilməsini təmin etmək üçün imkanlar yaradır. Bütün bəndlərdə - problemin müəyyən olunması və analizindən, siyasət və proqramın formalaşmasına qədər - yoxsulluğun gender ölçüləri təyin və təhlil olunmalıdır və müvafiq, lazım gələrsə, fərqli siyasət və proqramlar nəzərdən keçirilməlidir.
- Bu qiymətləndirmə tövsiyə edir ki, prosesin formalaşmasının bütün mərhələlərinə genderin daxil edilməsi üçün QPDK ilə birgə çalışan YAİİDP Katibliyinin daxilində gender məsələləri ilə məşğul olan vəzifə yaradılsın. YAİİDP-ə genderin daxil edilməsi müəyyənləşdirilmiş proqram məqsədlərinə nail olmaq üçün nazirlik səviyyəsində kifayət qədər büdcə vəsaitlərinin bölüşdürülməsini nəzərdə tutur. YADİDP həmçinin, gender büdcələşdirilməsi yanaşmalarının daxil edilməsini nəzərdə tutmağa imkan verir (mümkün olduqca, əvvəlcə bələdiyyə səviyyəsində).
- Bütün sektorlarda cinslərə aid informasiya tələblərinin təhlilində olan boşluqlar ləğv edilməli və cinslər üzrə ayrı-ayrı statistika və göstəricilərin toplanması işi təkmilləşdirilməlidir. Effektiv gender yanaşması sektor siyasətlərinin cinslərə bölünmüş məlumatla təmin edilməsindən və siyasi qərarların qadınların və kişilərin həyatına müxtəlif şəkildə təsiri barədə məlumatlılıqla başlayır. ETBM cinslər üzrə keyfiyyətli məlumat toplamasını əhəmiyyətli dərəcədə təkmilləşdirsə də, hələ də böyük informasiya boşluğu qalır və növbəti MFP və YADİDP-da müəyyən olunmuş istiqamət və proqramlara prioritet sahə kimi diqqət yetirmək lazımdır. İnformasiyadakı boşluqların təhlili və bu boşluqları aradan qaldırmaq üçün əlavə tədqiqat/sorğuların aparılması ETBM nəticələrini əhəmiyyətli dərəcədə genişləndirəcək və gücləndirəcək. Bundan əlavə, Azərbaycanda cinslər üzrə məlumatın toplanması təkmilləşsə də, hələ kifayət qədər deyil. *Azərbaycanda qadınlar və kişilər* adlı illik məcmuənin nəşri məşğulluq, səhiyyə, təhsil və miqrasiya kimi əsas sahələrdə daha çox cinslər üzrə məlumatların daxil edilməsi ilə gücləndirilməlidir.
- MİM hədəf və göstəriciləri YADİDP və MFP-a ilə inteqrasiya edilməli və onlara uyğunlaşdırılmalıdır. Daha sonra digər MİM məqsəd və hədəflərinin də inteqrasiyası və YADİDP prosesinə uyğunlaşdırılması məsələləri nəzərdən keçirilməlidir. Qalan MİM-lərin inteqrasiyası və əsas göstəricilərin, eləcə də, müvafiq siyasət və proqramların əsas məqamlarının müəyyənləşdirilməsi prosesi bütün nazirliklərin,

QHT-in, vətəndaş cəmiyyəti təşkilatlarının və inkişaf partnyorlarının tam iştirakı ilə QPDK və YAİİDP Katibliyinin rəhbərliyi altında həyata keçirilməlidir. Bundan əlavə, müəyyənləşmiş hər milli hədəfə nail olmaq üçün aydın və ölçülə bilən nailiyyət göstəriciləri müəyyən edilməlidir və YADİDP-dakı göstəricilərlə uyğun gəlməlidir.

## *3-cü fəsil* Gender bərabərliyini təmin edən milli qanunlar, institutlar və siyasət

Bu bölmədə Azərbaycanda gender məsələləri üzrə məsul olan aparıcı təşkilat – QPDK, onun təşkilati strukturu, başlıca fəaliyyəti və əsas maneələrindən danışılır. Daha sonra bu bölmədə Hökumətin gender bərabərliyi üzrə öhdəliyindən bəhs edən əsas siyasət sənədi olan 2000-2005-ci il Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı nəzərdən keçirilir, 2005-ci ilin axırına qədər fəaliyyət proqramı müəyyənləşdirilir.

### A. Beynəlxalq öhdəliklər və hüquqi çərçivə

Müstəqillik əldə etdikdən sonra, Azərbaycan Respublikası qadın hüquqlarının müdafiəsi üzrə demək olar ki, bütün əsas beynəlxalq sənədləri ratifikasiya etmişdir. 1992-ci ilin avqustunda Azərbaycan Respublikası BMT-nin Qadınların Siyasi Hüquqları üzrə Konvensiyasını (QALK) imzaladı və 1995-ci ildə BMT-nin Qadınlara qarşı Ayrı-seçkiliyin bütün formalarının Ləğv olunması haqqında Konvensiyasına, 2001-ci ildə isə bu Konvensiyanın Əlavə Protokoluna qoşuldu. 2004-cü ildə Azərbaycan Qadınlara qarşı Ayrı-seçkiliyin bütün Formalarının Ləğv olunması üzrə Komitəsinə QALK-ın ölkədə icrasına dair 2-ci və 3-cü dövri hesabatını təqdim etdi. 2000-ci ilin mart ayında Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasında Dövlətin qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərman imzaladırğ. Bu Fərman həyata keçiriləcək siyasətin qısa bəyanatıdır və bütün dövlət orqanlarında qərar qəbuletmə səviyyəsində qadın və kişilərin bərabər təmsilçiyinin təmin edilməsinə əlavə olaraq, Nazirlər Kabinəsinin iqtisadi islahatların həyata keçirilməsində gender bərabərliyi müddəalarının nəzərə alınmasının təmin edilməsini həvəsləndirir və beynəlxalq standartlara uyğun cinslərə bölünmüş məlumatın yığılmasının vacibliyini təsdiq edir.

Konstitusiyanın 25-ci maddəsi bərabərlik hüququnu təsbit edir, cinsindən asılı olmayaraq hüquq və azadlıqların bərabərliyini təmin edir və cins əsasında insan və vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılmasını qadağan edir. Məşğulluq haqqında qanun əmək hüququnun istifadəsində və məşğulluğun azad seçimində qadınlar və kişilər arasında bərabərlik prinsipini əks etdirir. 2004-cü ildə QPDK Bərabər İmkanlar haqqında qanun layihəsinin təşəbbüskarı olub. Bu qanun qüvvəyə minəndən sonra respublikanın dövlət orqanları qarşısında qadınlara dövlət qulluğunda və özəl sektor məşğulluğunda, əmək haqqında və sahibkarlıqda bərabər hüquq və bərabər imkanlar, həmçinin mülkiyyət və təhsilə bərabər hüquq təmin edilməsi öhdəliyi qoyur və şikayət prosesinin rolu və həyata keçirilməsi şərtlərini müəyyənləşdirir.[4] *(Red. qeydi: 2006-cı ilin mayında bu qanun 2-ci oxunuşda qəbul olunub).*

Cinayət Məcəlləsinin 131-ci maddəsinə əsasən ictimai, sosial və mədəni fəaliyyətlərdə

---

4 Bu qanun hazırda müzakirədədir və 2005-ci ildə tamamlanması gözlənilir.

qadınların tam iştirakının qarşısını alan tədbirlər və, xüsusilə də, bu tədbirlər zor işlətmə və ya hədə gəlmə yolu ilə müşaiyət olunursa, qadın hüquqlarının çox ciddi surətdə pozulması hesab edilir və cinayət əməli kimi cəzalandırılır. Hal-hazırda qadınlara qarşı zorakılıqla bağlı hər hansı bir qanun yoxdur, lakin zorakılığa məruz qalmış qadınların müdafiəsi üçün ayrıca tədbirlər Azərbaycan Resbublikası Cinayət Məcəlləsinin 109, 110, 116, və 128-ci maddələrində nəzərdə tutulmuşdur. Lakin Məcəllənin özündə "məişət zorakılığı" anlayışı və ya tərifi yoxdur. Tərkibində 16 yaşdan aşağı uşaqlar olan böyük ailələr daxil olmaqla, ailənin sosial müdafiəsi ilə bağlı tədbirlər Əmək Məcəlləsində, Ödənişli məzuniyyət haqqında Qanun, Vətəndaşların Pensiya Təminatı haqqında Qanun, Əhalinin Məşğulluğu haqqında Qanun, Dövlət Gənclər Siyasəti haqqında Qanunda və digər qanunlarda nəzərdə tutulur.

## B. Gender bərabərliyini təmin edən institut və siyasətlər

### 1. Qadın Problemləri üzrə Dövlət Komitəsi *(Red. qeydi: 6 fevral 2006-cı il tarixdə AR Prezidentinin Fərmanı ilə QPDK ləğv olundu və onun əsasında AR Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yarandı)*

Qadın Problemləri üzrə Dövlət Komitəsi 1998-ci ildə Prezidentin Fərmanı ilə yaradılmışdır. QPDK-nın geniş mandatı var, o cümlədən dövlət gender siyasətinin həyata keçirilməsinə nəzarət (Qadın Problemləri üzrə MFP – aşağıda bax); gender məsələlərinin qanunvericiliyə, ictimai siyasət, dövlətin proqram və layihələrinə daxil edilməsi; və cinslərə bölünmüş statistika və məlumatların hazırlanması və yayılmasına kömək göstərilməsi. Bundan əlavə, QPDK öz məqsədlərini mmüəyyən edib. Bunlara qadın məşğulluğu sahəsində müvafiq milli siyasətin hazırlanması, dövlət strukturları, milli və beynəlxalq təşkilatları arasında əməkdaşlığın yaxşılaşdırılması; qadın hüquqları qanunvericiliyi haqqında məlumatın qiymətləndirilməsi və yayılması, lazım olduqda islahatlar daxil edilməsi; MK/qaçqın və aztəminatlı ailələrdən olan qadınlara yardımın təmin edilməsi aiddir. QPDK gender məsələlərinə dair illik məruzələrin hazırlanmasına, həmçinin QALK və digər BMT-nin Komitələrinə hesabatların verilməsinə məsuldur. Hal-hazırda QPDK 21 işçidən və 4 şöbədən ibarətdir.

QPDK-nın sədri Prezident tərəfindən təyin olunur və ona sədrin birinci müavini və iki sədr müavinləri kömək edirlər. Komitəni dörd şöbəsi – Qadın hüquqları və sosial müdafiə (3 nəfər), Beynəlxalq əlaqələr (3 nəfər), Ümumi şöbə (2 nəfər), Maliyyə-təsərrüfat (3 nəfər) şöbələsi və yeddi nəfər texniki və köməkçi heyəti var. Heyət işçiləri və proqramlar eyni illik büdcədən maliyyələşir və 2003-cü ildə ümumi maliyyə 568,5 milyon AZM təşkil edirdi, bu da ümumi hökumət xərclərinin 0,38%-ni təşkil edirdi.

QPDK-nın Hökumətin icra strukturunun bir hissəsi olmasına və genderin ümumi siyasətə daxil edilməsi səlahiyyətinin olmasına baxmayaraq, bu səlahiyyətin necə həyata keçirilməli olduğu aydın deyil və bunu dəstəkləmək üçün ayrılmış resurslar da çox məhduddur. Komitənin (MFP) səlahiyyətində olan məqsədlərə uyğun aydın uzun-müddətli (məsələn, 5-illik) və illik iş planının müəyyənləşdirilməsi və bu Planın həyata keçirilməsi üçün tələb

olunan resursların (insan və maliyyə) dəqiqləşdirilməsi fəaliyyət göstərmək üçün çərçivə, həmçinin əldə edilən nailiyyətləri və bunların təsirinin monitorinqi və qiymətləndirilməsi üçün bir vasitə olacaq.

Son illərdə QPDK gender bərabərliyi məqsədlərini həyata keçirmək, Komitənin bu məqsədlərə nail olmağa yönəlmiş fəaliyyətini dəstəkləmək və Hökumət və vətəndaş cəmiyyəti arasında gender məsələləri üzrə aktiv əməkdaşlığa kömək etmək məqsədilə qadın QHT-ləri və vətəndaş cəmiyyətinin qrupları ilə daha möhkəm əlaqələrin qurulması vacibliyini təsdiq etdi. Komitə həm Bakı, həm də rayonlarda möhkəm əlaqələrin yaradılması üçün çalışıb. Bu səylərin davam etdirilməsi və daha da genişləndirilməsi çox vacibdir, xüsusilə də ona görə ki, Hökumət YADİDP-nin hazırlanmasında qadınların iştirak səviyyəsini artırmağı öhdəsinə götürüb. Bundan əlavə, Komitənin iş proqramının məhdud maliyyələşdirilməsi onun MFP-lərdə əks olunmuş bugünkü və gələcək siyasət və proqram məqsədlərinin həyata keçirilməsinə imkan verən strateji və işçi partnyorluq qurulmasını tələb edəcək.

2002-ci ildən etibarən QPDK Avropa Şurasının Qadınlar və Kişilər arasında Bərabərlik üzrə Rəhbər Komitəsi ilə əməkdaşlıqda demokratikləşmə, qadın hüquqları və siyasi və dövlət səviyyəsində qərar qəbuletmədə qadın və kişilərin balanslaşdırılmış iştirakına nail olunması mövzularında bir neçə birgə seminar keçirmişdir. Komitə həmçinin Avropa Şurasının Nazirlər Komitəsinin Qadınların zorakılıqdan müdafiəsi, Seksual istismar məqsədilə insan alveri və Siyasi və dövlət səviyyəsində qərar qəbuletmədə qadın və kişilərin balanslaşdırılmış iştirakı tövsiyələrini Azərbaycan dilinə tərcümə edib və hökumət və qeyri-hökumət təşkilatları arasında yaymışdır. 1998-ci və 2003-cü ildə iki Milli Qadınlar Qurultayı keçirilmişdir. Bundan əlavə Komitə BMTİP və Norveç Hökuməti tərəfindən dəstəklənən Gender Münasibətlərinə dair Milli İnsan İnkişafı Məruzəsi üzrə işə başlamışdır. Bu, MDB məkanında ilk belə tədqiqat olacaq və vətəndaş cəmiyyətində gender münasibətləri və dəyərlərini araşdıracaq; nəticələr isə Azərbaycan üçün BMTİP-nin 2005-ci ilin İnsan İnkişafı Məruzəsinin əsasını təşkil edəcək.

Son il yarım ərzində QPDK üçün əsas fəaliyyətlərdən biri gender bərabərliyinin məqsəd və vəzifələrinin təmin edilməsi məqsədilə qanunvericiliyin yenidən nəzərdən keçirilməsi idi. Komitə 5 fəsil, 20 maddədən ibarət (ailə məsələləri istisna olmaqla) ictimai həyatın bütün sahələrini əhatə edən Bərabər İmkanlar qanun layihəsini hazırlayıb. Bu qanun Azərbaycan Respublikasının dövlət orqanlarının siyasi, ictimai, iqtisadi, sosial, mədəni və digər sahələrində qadın və kişilərin hüquq bərabərliyinə zəmanət verəcək; məşğulluq daxil olmaqla, bütün səviyyələrdə qadınlara bərabər imkanlar təmin edəcək; və cins zəminində ayrı-seçkiliyin qarşısını alan konkret tədbirləri həyata keçirəcək. Bu qanun hal-hazırda milli Parlament ofisi ekspertləri tərəfindən yenidən nəzərdən keçirilir; yeni baxılmış layihəyə, çox güman ki, "ayrı-seçkilik" tərifi daxil ediləcək və bunun da əsasında qanunverici müddəalar hazırlanacaq.

QPDK YADİDP üzrə Dövlət Komissiyasının üzvüdür; o, SİQ-lərin proqramlar üçün prioritet sahələrin müəyyənləşdirilməsinə yönəlmiş müzakirələrində fəal iştirak edir. Lakin, resurslar məhduddur və bu YAİİDP-in prioritetlərinin müəyyənləşməsi və

hazırlanması prosesi zamanı Komitənin gender məsələlərinin daxil edilməsini təmin etmək imkanlarına əngəl törədə bilər. Bu prosesə töhfə kimi Komitə Azərbaycanda yoxsulluğun gender ölçülərinin müəyyənləşdirilməsi prosesinə başlayıb və müvafiq fəaliyyət, həmçinin nailiyyətlərin monitorinqi üçün göstəricilərin müəyyənləşdirilməsini başlayıb. QPDK həmçinin, YADİDP-də gender məsələləri üzrə ayrıca sənədin hazırlanmasına məsul olacaq, bu da gələcək MFP çərçivəsini təmin edəcək və onun sələfindən fərqli olaraq, MFP YAİİDP-də müəyyənləşmiş yoxsulluq prioritetləri ilə uyğun olacaq.

### a. Gender üzrə məsul şəxslər

Həm siyasət həm proqram səviyyəsində genderin ümumi siyasətə daxil edilməsini təkmilləşdirmək, o cümlədən Qadın Problemləri üzrə MFP-nın müvafiq müddəalarının həyata keçirmək məqsədilə 2000-ci ildə hökumətin bütün mərkəzi icra orqanlarına və rayon icra hakimiyyəti orqanlarına gender üzrə məsul şəxslər təyin olunublar. Gender üzrə məsul şəxslər geniş anlaşan mandatı var, lakin onlar işləri üçün aydın, yazılı texniki vəzifələr və çox hallarda onlara aydın deyil; onların spesifik rolu nədən ibarətdir və onu necə icra etmək lazımdır. Bundan əlavə böyük problem var, onlar heç bir maliyyə və digər resurslardan dəstək olmadan, onların normal iş yükünə əlavə olan tələb olunan tapşırıqları yerinə yetirməlidirlər. Bundan əlavə, yalnız bir neçə nəfər onların tapşırıqları üçün müvafiq treninqləri ilə təmin olunublar. Gender üzrə məsul şəxslər aydın texniki vəzifələrin və onların bu işlə məşğul olmaq (xüsusi) vaxtın həmçinin təşəbbüslərin dəstəkləməsi üçün resursların olması, onların gender bərabərliyi məqsəd və vəzifələrə uğurla nail olmasına töhfə vermək imkanlarına beləliklə əsaslıdır. Geniş-əsaslı gender treninqin təmin edilməsi və spesifik (məsələn, sektoral) gender təhlili vərdişlərin inkişaf etdirilməsi şəbəkənin milli və regional səviyyədə genderin daxil edilməsinə effektiv kömək edə biləcəyinin təmin edilməsi həmçinin vacibdir.

### b. Əlaqələndirmə Şurası

Gender üzrə məsul şəxslər və qadın QHT-lərin nümayəndələrindən ibarət Əlaqələndirmə Şurası QPDK-nın fəaliyyətini və 2000-ci ildə təsdiq olunmuş Qadın Problemləri üzrə MFP-nı dəstəkləyir. Lakin Əlaqələndirmə Şurası müntəzəm olaraq toplaşmır; 2003-2004-cü illər ərzində heç bir görüş keçirilməyib. QPDK-nın fəaliyyətini istiqamətləndirmək və monitorinq keçirmək sahəsində effektiv bir vasitə olan Şura, lazım gələrsə, Komitəni ekspert məsləhəti və ya dəstəklə təmin etmək, həmçinin Hökumətin (və onun Komitələrinin) daxilində genderin ümumi siyasətə daxil edilməsini və MFP-nı həyata keçirilməsinə kömək etmək və həvəsləndirmək üçün öz imkanlarının genişləndirilməsini tələb edir.

## 2. Milli gender bərabərliyi siyasəti və Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı, 2000-2005

2000-ci ilin mart ayında Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasında Dövlətin qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərman imzaladı. Siyasətin qısa bəyanatı olan Fərman qadınların hökumətdə bərabər surətdə təmsil

olunmalarına imkan yaradır, MK/qaçqın qadınlara işləmək imkanı verir, iqtisadi islahatların bütün proqramlarında kişilərlə birlikdə qadınlar üçün bərabər şərait yaradılmasını təmin edir, gender bərabərliyi prinsiplərinin siyasətə effektiv daxil edilməsini təmin etmək üçün qanunvericiliyə baxılmasını nəzərdə tutur. Qadın Problemləri üzrə MFP (2000-2005), Milli Gender Bərabərlik Siyasətinin (fərmanda olan) həyata keçirilməsi üçün daha geniş sənəddir; o, QPDK tərəfindən tərtib olunub və 2000-ci ilin mart ayında Nazirlər Kabineti tərəfindən təsdiq olunub (QPDK, Azərbaycan 2000). MFP-nin hazırlanması prosesində bütün hökumət strukturları - nazirlik və komitələr, həmçini QHT-lərin bir qismi iştirak edirdi. Əlaqələndirmə Şurasına (yuxarıdakı paraqrafa bax) MFP-nin həyata keçirilməsinin monitorinqi və lazım gələrsə, dəstək və məsləhətlə təmin etməsi tapşırıldı.

MFP-a əsasən 1995-ci il Pekin Fəaliyyət Platformasında müəyyən olunmuş problemli sahələr əsasında yaradılmışdır. 12 strateji sahə MFP-nin 5-illik fəaliyyəti müddətində həyata keçiriləcək 95 tədbir üçün çərçivəni təmin edir, hər tədbir üçün müvafiq icraçı orqanlar və həmçinin tamamlanması müddəti göstərilmişdir. Srateji sahələr və tədbirlər Cədvəl 2-də göstərilib.

**Cədvəl 2. Milli Fəaliyyət Planı: Strateji sahə və tədbirlər**

| Strateji sahə | Müəyyənləşdirilmiş tədbirlərin sayı |
|---|---:|
| Qadın və İqtisadiyyat | 15 |
| Qadın və Təhsil | 9 |
| Qadın və Səhiyyə | 9 |
| Qadın və Zorakılıq | 6 |
| Qadın və Hərbi Münaqişə | 7 |
| Qaçqın və MK qadınlar | 8 |
| Qadınların İnsan Hüquqları | 8 |
| Qadın və Media | 6 |
| Qadın və Ətraf Mühit | 4 |
| Qız uşaqları | 9 |
| Qadın Hakimiyyət və Qərar Qəbuletmə Proseslərində | 7 |
| Beynəlxalq Qadın Təşkilatları ilə Əlaqələr | 7 |

Mənbə: AR Qadın Problemləri üzrə Dövlət Komitəsi, 2000.

MFP fəaliyyət üçün geniş çərçivə təmin edir və həm milli, həm də regional səviyyədə həll olunması lazım gələn bəzi əsas gender məsələlərini müəyyən edir, lakin bu plan hələ də təkmilləşdirmə və modifikasiya tələb edir ki, nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi dəqiq zaman ərzində real və nail oluna bilən hədəflər çərçivəsində olsun. Aydın göstəricilərin və nəticələrin plana daxil edilməsi də nailiyyətlərin və təsirin qiymətləndirilməsinin yaxşılaşmasına imkan verməlidir.

MFP-nin Pekin Fəaaliyyət Platformasında təqdim olunan tədbirlərə riayət etməsinə baxmayaraq, onların Azərbaycanda necə tətbiq olunmasının sonrakı təhlili faydalı olacaq.

Xüsusilə də, MFP və Milli Gender Bərabərliyi Siyasəti arasında əlaqələr aydın deyil və daha diqqətli müəyyənlişdirilməyə ehtiyacı var. Bundan əlavə, MFP-nin Hökumətin Milli Gender Bərabərliyi Siyasətinin öhdəliklərini necə dəstəkləməsini aydınlaşdırmaq lazımdır. MFP hər iki strateji sahədə olan əsas məsələ və problemlərin təhlili yolu ilə möhkəmləndirilməli və beləliklə də, müəyyən olunan fəaliyyətləri strateji sahələrlə əlaqələndirmək üçün çərçivəni təmin etməlidir.

Əlaqələndirmə Şurasının əsas vəzifəsi QPDK-a MFP-nin həyata keçirilməsinin monitorinqində kömək etməkdir. Müntəzəm görüşlər keçirilmədiyindən MFP üçün illik monitorinq hesabatları hazırlanmalı idi, lakin onlar hazırlanmamışdır. ÖGQ keçirildiyi müddətdə, aydın oldu ki, az sayda nazirliklər MFP haqqında xəbərdardır; hətta gender üzrə məsul şəxslərin də MFP-də öz nazirlik və/və ya sektorlarına aid olan tədbirlər haqqında tam anlayışı yoxdur. Şuranın mütəmadi görüşlərinin keçirilməsinə və MFP-nin monitorinqinin həyata keçirilməsi məqsədilə lazımi vasitələrlə ilə təmin edilməsinə nail olmaqla yanaşı, gələcək səylər nazirliklər və komitə strukturları daxilində MFP haqqında məlumatlılığın artırılmasına və öz sektor siyasətləri, strategiyaları və proqramlarına MFP-nin məqsədlərinin daxil edilməsinə imkan verən təşəbbüslərə ehtiyac var. MFP-nin effektivliyini məhdudlaşdıran son və ən vacib maneə MFP-nin həyata keçirilməsi üçün maliyyənin olmamasıdır. 95 spesifik tədbirin hər hansı birinin həyata keçirilməsi üçün heç bir büdcə təyin olunmayıb və müvafiq olaraq, maliyyə nəzərdə tutulmayıb.

Gələn il yeni MFP-nin hazırlanması həm beynəlxalq, həm də milli öhdəliklərlə bağlı olan tədbirlər üçün konkret çərçivənin yaradılmasına, aydın və ölçülə bilən məqsədlərin və daha effektiv mütəmadi monitorinq prosesi və nailiyyətlərin ölçülməsi üçün aydın göstəricilərin müəyyən edilməsinə imkan verəcək. Planın milli kontekstə uyğun olacağı halda və gender bərabərliyinə nail olmaq üçün vətəndaş cəmiyyətinin əhəmiyyətli və artan potensialından istifadə edəcəyi halda QHT və vətəndaş cəmiyyətinin iştirakını təmin etmək üçün təkmilləşdirilmiş mexanizmlərin yaradılması vacib ola bilər.

## C. Tövsiyələr

Aşağıdakı tövsiyələr Hökumətin gender bərabərliyinə dair öhdəliyini aydınlaşdırmaq, bu öhdəliyi təsvir edən əsas siyasət sənədlərini uyğunlaşdırmaq və 2005-ci ilin sonuna qədər fəalliyyət planını müəyyənləşdirmək üçündür.

- Əsas milli siyasət vasitələri gender bərabərliyinin məqsədləri ilə uyğunlaşdırılmalıdır. Səylər mümkün qədər siyasət vasitələrinin gender bərabərliyinin məqsədlərinə uyğunlaşdırmağa yönəlməlidir. MFP-nin fəaliyyət müddəti 2005-ci ildə başa çatdığı üçün, MİM göstəricilərinin müəyyənləşdirilməsi və YADİDP yaradılması prosesi (gender üzrə xüsusi işçi qrup ilə) hələ də davam etdiyi üçün uyğunlaşma prosesinin baş verəcəyinə imkan var. Xüsusilə də formalaşma mərhələlərində onları əlaqələndirmək üçün effektiv mexanizmlər yaradılacaq.
- Növbəti MFP-ə aydın məqsədlərin daxil edilməsi, effektiv monitorinq

və hesabat sistemi vasitəsilə nəzarət edilməsi və lazımi səviyyədə maliyyələşdirilməsi təmin edilməlidir. Sənəddə olan siyasət/proqram öhdəlikləri üçün məsuliyyəti təmin etməkdən əlavə, bu, QPDK-nın işi üçün aydın çərçivəni təmin edəcək.

- QPDK və gender üzrə məsul şəxslər şəbəkəsinin potensialı yaradılmalıdır. QPDK üzvlərinin öz mandatlarını effektiv həyata keçirəcəyi halda, potensialın yaradılması əhəmiyyətli ola bilər. Həm QPDK-nın, həm də gender üzrə məsul şəxslər şəbəkələrinin öz vəzifələrini yerinə yetirmək üçün kifayət qədər maliyyə və insan resurslarına ehtiyacı var. Gender üzrə məsul şəxslərə heyət daxilində müxtəlif tapşırıqları yerinə yetirmək üçün müvafiq maliyyə resursları ilə dəstəklənən, yalnız genderlə məşğul olan vəzifələr lazımdır. Bundan əlavə, effektiv fəaliyyət üçün mütəmadi treninqlərin keçirilməsinə ehtiyac var.
- QPDK-nın rayon səviyyəsində iş proqramı yeni YADİDP iştirak prosesinin gender məsələrini tam şəkldə əks etdirməsinin təmin edilməsi məqsədilə adekvat resursların vasitəsilə inkişaf etdirilə bilər.
- Əlaqələndirmə Şurasının bərpası yeni MFP-nin və həmçinin YAİİDP Katibliyi tərəfindən formalaşan YADİDP və MİM milli hədəf/göstəricilərin yaradılmasına kömək edəcək. Şura, hər bir proses üçün əhəmiyyətli ola bilər, məqsəd və hədəflərin uyğun, əlaqəli olmasını və ən vacibi - adekvat maliyyələşdirməni və dəstəyi təmin edə bilər. Şuraya qərar qəbuletmə hüququ olan, yüksək vəzifəli şəxsin rəhbərlik etməsi vacibdir və bu şəxsin hakimiyyət daxilində idarəetmə səlahiyyətləri olmalıdır.

## A. Formal əmək bazarının gender ölcüləri

Azərbaycanda fəal işləmə qabiliyyətinə malik yaş qrupuna daxil olan bir çox qadın üçün keçid dövrü iş yerlərinin itirilməsi, uzun müddətli işsizlik dövrləri və həm dövlət sektorunda, həm də özəl sektorda müqavilə bağlamaq yolu ilə işləmək imkanları ilə nəticələndi. İş qabiliyyətli qadınların hər altı nəfərindən biri işsiz hesab edilsə də (Cədvəl 3), çoxları belə düşünür ki, bu rəqəm işsizliyin real miqyasından xeyli aşağıdır, çünki çox sayda qadın işsiz kimi qeydiyyata düşmür. 2003-cü ildə İşçi Qüvvəsinin Müayinəsi (İQM) aşkar etmişdi ki, iş qabiliyyətli qadınların (16-56 yaş həddi) yalnız 59,5%-i iqtisadi cəhətdən fəaldır, müqayisə üçün - kişilərdə bu rəqəm 83,6%-dir (16-61 yaş həddi).

**Cədvəl 3. İşləmək yaşında olan iqtisadi cəhətdən fəal və qeyri-fəal əhali (%)**

| | Şəhər və kənd yerlərində | | Şəhər yerlərində | | Kənd yerlərində | |
|---|---|---|---|---|---|---|
| | Qadınlar | Kişilər | Qadınlar | Kişilər | Qadınlar | Kişilər |
| Əhalinin iqtisadi fəallığının səviyyəsi | 59,5 | 83,6 | 53,8 | 80,6 | 67,4 | 87,4 |
| İşsizliyin həddi | 12,5 | 9,8 | 17,3 | 12,2 | 7,2 | 7,1 |

*Mənbə:* Azərbaycan Respublikası, 2005b: 56.

Qadınların “qeyri-fəallıqlarının” yüksək səviyyədə olması qismən onların evdə qalıb uşaqlarını böyütmək istəkləri ilə izah edilsə də (DSK 2004c: 36), bu izahat qadınların seçimi və imkanlarının olmaması və daha çox kişilərə iş imkanı verən formal əmək bazarında qadınların ciddi məhdudiyyətlərlə üzləşmələri faktını pərdələyir. Cədvəldən göründüyü kimi qadınlarla müqayisədə kişilər üçün iqtisadi fəallıq həddi həm kənd yerlərində, həm də şəhərlərdə çox da fərqli deyil. Şəhərlərdə isə qadınların iqtisadi fəallıq həddi (53,8%) kənd yerlərində olduğundan (67,4%) xeyli aşağıdır, bu da, görünür ki, kəndlərdə qadınların kiçik həyətyanı sahələrdə işləmələri ilə əlaqədardır.

Kişilər və qadınların qeyri-fəallığı bütün yaş qrupları üzrə xeyli fərqlənir (Cədvəl 4). Ən böyük fərq 25-39 yaş qrupundadır; burada qadınlar kişilərə nisbətən beş-altı dəfə çox “iqtisadı cəhətdən qeyri-fəaldırlar”. Bu yaş qrupunda qadınların daha yüksək qeyri-fəallıq həddi Azərbaycanda qadınlar üçün orta evlənmə yaşına (23,7) və, deməli, uşaqların doğulması dövrünün başlanmasına uyğun gəlir. Doğrudur, bu yaş həddindən kənar dövrlərdə də qeyri-fəallığın həddinin öyrənilməsi lazımdır, lakin qadınlara hamiləlik dövrü məzuniyyətlərinin və bu dövrə görə əmək haqqlarının verilməsinin iş sahibləri üçün arzuedilməz olması və eləcə də, ərlərinin və ailələrinin təzyiqi ilə qadınların evdə qalmaları onların iqtisadi cəhətdən qeyri-fəal olmalarının səbəbləridir.

**Cədvəl 4. Yaş qrupları üzrə qadınların/kişilərin qeyri-fəallığı**

| | **Yaş** | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **20-24** | **25-29** | **30-34** | **35-39** | **40-44** | **45-49** | **50-54** | **55-59** | **60-64** | **65+** |
| **Kişilər** | 16,4 | 5,5 | 4,2 | 4,8 | 5,2 | 7,3 | 9,7 | 19,9 | 57,5 | 87,9 |
| **Qadınlar** | 36,7 | 33,1 | 35,2 | 33,0 | 29,6 | 32,1 | 47,9 | 67,1 | 87,4 | 95,3 |

*Mənbə:* Azərbaycan Respublikası 2005b: 57

Nə qədər ki, işsiz qadınlar iqtisadi cəhətdən qeyri-fəal olmağa daha çox məruzdurlar, və qeyri-formal iqtisadiyyatda kişilər qadınlara nisbətən daha çox iş tapa bilirlər (Cədvəl 5), “iqtisadi qeyri-fəallıq” termini qadınların ailəni dolandırmaqda oynadığı başlıca rolu – ailəni qidalandırmaqdan və sağlamlığının qayğısına qalmaqdan başlayaraq çox vaxt qeyri-sabit olan yoxsulluq vəziyyətlərindən çıxa bilmək üçün lazımi təsərrüfat yaratmağa qədər – kölgələyir.

**Cədvəl 5. 2005-ci ildə qeyri-fəal əhalinin gender tərkibi (%-lə)**

| **Məşğulluq** | **Cəmi** | **Kişilər** | **Qadınlar** |
|---|---|---|---|
| Əyani şöbədə oxuyan tələbələr/yuxarı sinif şagirdləri | 21,8 | 33,5 | 16,4 |
| Yaşa, iş stajına, güzəştə malik təqaüdçülər | 36,2 | 42,1 | 33,4 |
| Əlil təqaüdçülər | 8,2 | 15,3 | 5,0 |
| Mülkiyyətdən gəlir alanlar | 3,6 | 9,1 | 1,0 |
| Ev işlərini yerinə yetirən, uşaqlara və digər ailə üzvlərinə qulluq edən cavabdeh şəxslər | 30,3 | 0,0 | 44,2 |
| **Cəmi** | **100,0** | **100,0** | **100,0** |

*Mənbə:* DSK 2005

## 1. Özəl və dövlət sektorlarında get-gedə daha çox təcrid olunma

Özəlləşdirmə prosesi çox sayda qadınlara heç də xeyir gətirmədi. BMT-nin İnkişaf Proqramının Azərbaycan üzrə *İnsan İnkişafına dair Məruzəsində* qeyd edilir ki, özəlləşdirmənin ilk dövrü əsasən qadınların işlədiyi (40%) iaşə xidmətləri, ərzaq istehsalı və ticarət kimi sahələri əhatə etmişdir. Üstəlik, özəlləşdirilmiş obyektlərdə işləyən qadınların 74%-i işini itirib və indi yeni qeydə alınmış KOM-in (kiçik və orta müəssisələr) yalnız 7%-i qadınlara məxsusdur. Qadınların və özəlləşdirmənin vəziyyətini qiymətləndirmək üçün aparılan araşdırmalara əsasən, özəlləşdirilmiş müəssisələrdə işləyən qadınların 83%-i xoşbəxt deyillər (BMTİP 2002).

İşə götürülməkdə və işdə irəli çəkilməkdə qadınlara qarşı mövcud olan ayrı-seçkilik haqqında geniş surətdə məlumat verilib və bunlar dövlət və özəl sektorlarında əhəmiyyətli dərəcədə gender ayrı-seçkiliyinin olduğunu aşkara çıxaran İQM-nin əldə etdiyi məlumatlarla da təsdiq edilib; özəl sektor get-gedə daha çox kişilərin ixtiyarına keçir. Dövlət sektorunda işə götürülən qadınların sayı bütövlükdə kişilərdən xeyli az olsa da, o, hələ də qadınlar üçün ən böyük iş sahəsidir – 2005-ci ildə işləyən qadınların ümumi sayının 32,3%-i dövlət

sektorunun payına düşürdü. Eyni zamanda, qeyri-dövlət müəssisələrində işləyənlərin yalnız 9%-ini qadınlar təşkil edirdi (DSK 2005a: 90). İşləyən əhali üçün əmək bazarında tələbatı müəyyənləşdirmək və ona müvafiq peşə bazası yaratmaqla yanaşı, iş sahibləri arasında sorğular keçirmək işə götürmədə belə gender yanaşmasının nə dərəcədə və nə üçün yer almasının qiymətləndirilməsinə imkan verərdi. Əgər qadınlar Azərbaycanın iqtisadi inkişafı və artımı proseslərində bərabər hüquqlu partnyor, iştirakçı və sahib olmalıdırlarsa, onların özəl sektorda iştirakına qoyulan maneələrin təhlili və onlara müraciət edilməsi çox vacibdir.

## 2. Əmək bazarında üfüqi və şaquli seqreqasiya

Azərbaycanda bərabər iş üçün bərabər əmək haqqı prinsipi qanunla təmin edilsə də, kişilərin və qadınların əmək haqqı normaları xeyli dərəcədə fərqlənir. Bu hal başlıca olaraq, əmək meydanında daim mövcud olan şaquli gender ayrı-seçkiliyi üzündən baş verir ki, bu da əksər sektorlarda rəhbər vəzifə tutan qadınların sayının az olmasından irəli gəlir. 2002-ci ildə DSK nümunə üçün apardığı araşdırmalar (seçmə müayinəsi) aşkara çıxartdı ki, hətta qadınların üstünlük təşkil etdikləri sektorlarda (Diaqram1), məsələn, səhiyyə xidməti, sosial xidmətlər sahəsində (burada işləyən qadınların sayı kişilərdən 5,6 dəfə çoxdur), qadınların maaşları kişilərinkinin yalnız 54,4%-i qədərdir və bu da kişilərin qərarqəbuletmə vəzifələrində (həm də yüksək maaşlı vəzifələrdə) çoxluq təşkil etmələrinin nəticəsidir.[5] Eyni vəziyyətə təhsil sektorunda da rast gəlmək olar: burada işləyən qadınların sayı kişilərdən iki dəfə çoxdur, orta əmək haqqları isə kişilərin aldığının yalnız 77,7%-ni təşkil edir (Azərbaycan Respublikası 2005a: 57-58).

**Diaqram 1. Məşğulluqda kişi/qadın sektorları**




*Mənbə:* DSK 2005a: 74

[5] Bax 7-ci fəsil, Cədvəl 10. Dövlətin qərarqəbuletmə vəzifələrində qadınlar və kişilər, 2004; buradan məlum olur ki, hökumətdə qərarqəbuletmə vəzifələrinin yalnız 11,6%-ni qadınlar tutur.

Təhsil, səhiyyə xidməti, rabitə və sosial xidmətlər sektorlarında formal işçi qüvvəsi kimi qadınlar üstünlük təşkil etsələr də, digər sektorların hamısında onlar azlıqdadırlar. Əldə olan məhdud məlumatlara əsasən demək olar ki, bu üfüqi ayrı-seçkilik artmağa meyl edir və YAİİDP-nın həyata keçirildiyi dövr ərzində bu məsələyə yaxından nəzarət edilməli və təhlil aparılmalıdır; çatışmazlıqları aradan götürmək üçün müvafiq düzəlişlər planlaşdırılmalı və tətbiq edilməlidir. Əgər məsələ həqiqətən də belədirsə, qadınların "qeyri-ənənəvi" sektorlarda iştirakını artırmaq məqsədilə xüsusi siyasət və proqramların hazırlanmasına ehtiyac olacaq – özü də yalnız bərabərlik məsələsinə görə deyil, həm də çox böyük əhəmiyyətə malik olan qadın işsizliyi problemini həll etmək üçün. Belə siyasət və proqramların hazırlanması zaman müəyyən fəaliyyət sektorlarında qadınların üzləşdiyi maneələrin keyfiyyət analizi əsas rol oynayacaq.

### B. Qeyri-formal sektorun gender ölçüləri

Keçmiş Sovet İttifaqının bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da iqtisadi keçid formal məşğulluq imkanlarının əhəmiyyətli dərəcədə azalması və real əmək haqqlarının aşağı düşməsi ilə bir vaxta düşdü və bu da hökumətin əhalinin sosial təhlükəsizliyini təmin etmək qabiliyyətinə xeyli ziyan vurdu. Davamlı olaraq çoxalan işsizlik, yüksək təhsil qiymətləri, dövlətin uşaq müəssisələrində şəraitin olmaması və onları əvəz edən özəl müəssisələrdə yüksək qiymətlər, kiçik biznes yaratmaq üçün başlanğıc kapitalın yoxluğu, biznes bacarığının olmaması və insanların bazar iqtisadiyyatını bilməmələri, əzəldən "kişilərin" meydanı hesab edilən formal özəl sektora daxil olmaqla əlaqədar çətin və çox vaxt təhlükəli prosedurlar qadınları qeyri-formal iş sektoruna müraciət etməyə sövq edib.

Qeyri-formal əmək bazarının miqyası və strukturu haqqında məlumat çox məhdud olsa da, sübutlar göstərir ki, qadınlar bu bazarın çox böyük hissəsini təşkil edir: bunlar şəhərlər/ölkələrarası alverçilər, bazar satıcıları, ev xidmətçiləri və müzdla xəstəyə baxanlardır. 2004-cü ildə aparılan İşçi Qüvvəsinin Müayinəsinə görə, işlədiklərini söyləyən qadınların 17%-i özlərinin "hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sahibkarlıq fəaliyyəti ilə məşğul olduqlarını" bildirirlər ki, bu da qeyri-formal əmək sektorunu nəzərdə tutur (DSK 2004c: 31). Qeyri-formal sektorda kiçik şəxsi biznesə başlamaq və ya onu davam etdirmək üçün kredit almağa çalışan çox sayda qadın etiraf edir ki, Sovet dövründən fərqli olaraq, indi daha çox qadın formal sektordan kənarda fəaliyyət göstərə bilər. Bu ölçüləbilən rəqəmlər və onların yoxsulluğun azaldılmasına dair strategiyaların hazırlanması və tətbiq edilməsində istifadə edilməsinə baxmayaraq, YAİİDP-da qeyri-formal sektor (qadınlar və kişilər) tamamilə nəzərə alınmayıb.

Doğrudur, qadınların qeyri-formal sektorda iş tapmalarında maneələr daha azdır, lakin belə iş uzun iş saatları, aşağı əmək haqqı, çətin şərait və bəzən də şəxsi təhlükəsizliyi riskə salan hallar deməkdir (məsələn, küçə alverçiləri üçün). Evlə əlaqədar iş öz uşaqlarına baxmaq imkanı olmayan qadınlar üçün çıxış yolu olsa da, bu işlə məşğul olanların əməyinin müqabilində çox az mənfəət gətirir, çünki onlar uşağa baxmaqla yanaşı ev işləri ilə də məşğul olmalı olurlar və üçqat iş görürlər. Üstəlik də hər hansı bir sosial müdafiənin olmaması

(məsələn, xəstəliyə görə işdən azad olma, hamiləliklə əlaqədar məzuniyyət, təqaüd fonduna ayırmalar) qeyri-formal sektorun işçilərinin bu gün, eləcə də gələcəkdə yoxsulluğa düçar olmaq ehtimallarını çox artırır.

Qadınların məşğul olduqları və yüksək peşəkarlıq tələb etməyən bəzi qeyri-formal fəaliyyətlərə də pis baxılır, xüsusilə də iş statusuna və təhsilə yüksək qiymət verilən keçmiş Sovet İttifaqında. Ölkə üzrə Gender Qiymətləndirilməsi üçün məlumat toplanması prosesində əldə edilmiş maraqlı sübutlar göstərir ki, qadınların post-keçid dövründəki şəraitə uyğunlaşmada "daha böyük çeviklik" göstərməsi onların istənilən işə (o cümlədən, qeyri-formal sektorda) hazır olmaları ilə bağlıdır; kişilər isə, əksinə, özlərinin keçmiş Sovet İttifaqında məşğul olduqları işdən status etibarı ilə aşağı işə razılaşa bilmirlər. Bir çox qadın onu da bildirb ki, onların qeyri-formal sektorda işləmələri ərlərinin davam edən işsizliyi və aşağı səviyyəli işlə məşğul olmaq istəməmələrinin, formal sektorda qadınların iş tapmaq imkanının olmamasının (xüsusilə də 30 yaşdan yuxarı) və ailələrinin əsas tələbatlarını təcili ödəmək ehtiyacının məntiqi nəticəsidir.[6]

Qeyri-formal iqtisadiyyatın gender ölçülərinin tədqiq edilməsi və təhlilinin davam etdirilməsinin əhəmiyyətli olduğu aydındır, özü də yalnız bu iqtisadiyyatda məşğul olan qadınların böyük faiz təşkil etdiyini aşkar etmək üçün yox, həm də bunun iqtisadi artıma yardım etməsini və onun yoxsulluqla əlaqələrini başa düşməyə imkan yaratmaq üçün. Qadın və kişilərin kənd yerlərində və şəhərlərdə, rayonlarda, eləcə də, profillər üzrə (məsələn, yaş həddi və gəlir qrupları) qeyri-formal sektorda inkişafına dair daha etibarlı məlumatın toplanmasından əlavə, qeyri-formal sektora keçənləri, əldə edilən mənfəət və qarşıya çıxan çətinlikləri daha yaxşı başa düşmək çox vacibdir. Məsələn, qadınların formal sektora müraciət etmələri üçün lazım olan stimul və yardımın müəyyənləşdirilməsi, xüsusilə də özəl sektorun (qeyri-neft) inkişafının stimullaşdırılması əsas inkişaf strategiyası olan Azərbaycan kimi ölkələrdə, yoxsulluğun azaldılması strategiyalarına daha böyük əhəmiyyət verə bilərdi.

### C. Qadın sahibkarlığı və kredit

Azərbaycanda kiçik və orta müəssisələrin (KOM) yaradılması həmişə iqtisadiyyatın müxtəlif sahələrini inkişaf etdirmək və məşğulluq proqramları hazırlamaq üçün ən ümidverici yollardan biri olub.[7] KOM-lər müəyyən dərəcədə ənənəvi olaraq böyük olmuş müəssisələrin dağılması nəticəsində əmələ gələn boşluğu doldurub, və kiçikmiqyaslı özəl sektorun fəaliyyəti son illərdə artıb, və bu da həm formal, həm də qeyri-formal sektorda çox sayda biznesin yaradılması ilə əlaqədardır. Lakin administrativ maneələr, o cümlədən, biznesin qeydiyyatdan keçməsi və yaradılması prosesinin mürəkkəb olması, maliyyə çatışmazlığı, qeyri-adekvat infrastruktur böyük nəticələrin əldə edilməsini yubandıran amillərdir.

Keçmiş Sovet İttifaqının digər respublikalarının çoxunda olduğu kimi, Azərbaycanda

---

[6] 2004-cü ilin oktyabr-noyabr aylarında Ölkə üzrə Gender Qiymətləndirilməsi yerlərdə apardığı iş zamanı alınan müsahibələr və qrup müzakirələrində əldə edilmiş məlumat.

[7] AİB, Dünya Bankı, BƏT, UNECE (BMT-nin Avropa üçün İqtisadi Komissiyası) və BMTİP KOM sektorunun genişləndirilməsini yoxsulluğun azaldılması işində əsas strategiya hesab edirlər.

da keçid dövründə qadın sahibkarlığının miqyası və ona törədilən maneələr çox az təhlil edilib. Bundan əlavə, qadınların formal sektorda məşğulluq imkanlarının azalmasına cavab olaraq qeri-formal sektorda biznes yaratmalarına (küçə alverindən və bazar satıcılığından tutmuş evlə əlaqədar işlərə qədər) dair çox sayda sübutların olmasına baxmayaraq, KOM sektorunun genişləndırilməsi potensialının qiymətləndirilməsi "gender baxımından neytral" olub və qadınların iştirakının daha fəal surətdə dəstəklənməsi və genişləndirilməsi yolları nəzərdən keçirilməyib və bu yollara müraciət edilməyib.

Rəsmi statistikada, diqqət spesifik olaraq qadın sahibkarlığına yönəldilməsə də, qeyd edilir ki, çox sayda qadınların öz şəxsi biznesləri ilə məşğul olmaları ilə yanaşı (17,0%), həm də qadınların böyük əksəriyyəti üçün bu biznesdən əldə edilən mənfəət əsas gəlir mənbəyidir (18,4%) (DSK 2005a: 96). Bu rəqəmlər formal və qeyri-formal sektorları bir-birindən ayırmır, lakin onlar göstərir ki, bir çox qadın üçün kiçik biznes həyat əhəmiyyətli, əvəzsiz məşğulluq və gəlir alternativinə çevrilmişdir.

Azərbaycanda qadın sahibkarlığının inkişafına dair 2004-cü ildə Beynəlxalq Əmək Təşkilatının (BƏT) sponsorluğu ilə keçirilən araşdırmalara əsasən, orta səviyyəli qadın sahibkar 35 yaşlı (və 35-dən yuxarı), əvvəllər işləmiş, ali təhsilli (yəni universitet bitirmiş), evli və orta hesabla 2-4 uşağı olan adamdır. Cənub rayonlarında, Mingəçevirdə və onun ətraf bölgələrində qadınların təhsili aşağı səviyyədədir, lakin 55% qadın tam orta təhsil alıb və 33%-nin ali təhsili var (BƏT 2004). Daha çox və ətraflı araşdırmalara ehtiyac olsa da, bu o deməkdir ki, qadın sahibkarların əksəriyyəti savadlıdır, onların xeyli iş təcrübəsi və peşəkarlığı var. Qadınların çoxu qabaqcadan elan ediblər ki, onların KOM açmaq istəmələrinin səbəbi ailənin büdcəsinə yardım etmək ehtiyacından irəli gəlib.

Bir çox qadın KOM yaratmaq işində maliyyə mənbələrindən, o cümlədən, kreditdən istifadə etmək imkanlarının məhdud olmasını başlıca maneə hesab edir. Əlavə tələblərin öhdəsindən gələ bilməmələri, bank qaydaları və tələblərinin dolanbaclarında özlərinə yol açmağın çətinlikləri, habelə, borcverən kişi məmurların həssas olmamaları qadınları formal maliyyələşdirmə sektorundan uzaqlaşdırıb; əsas mənbələr ən yaxın ailə üzvləri, qohumlar və dostlar və nadir hallarda isə qadınların özlərinin qənaət edib yığdıqları olur. Yuxarıda adı çəkilmiş BƏT araşdırmalarında iştirak edənlərin heç biri banklardan, kredit təsisatlarından və ya beynəlxalq təşkilatlardan maliyyə yardımı almayıb; əksəriyyət bildirib ki, onlara ərləri və ya ailənin digər üzvləri kömək edib. Bu o deməkdir ki, Azərbaycanda qadınların KOM-nin maliyyələşdirilməsi üçün müvafiq rəsmi yardım mexanizmi yaratmaq imkanı çox böyükdür; bunu həm mərkəzdə (yəni Bakıda), həm də rayon mərkəzlərində əlavə biznes təlim kursları və məsləhət xidmətlərinin təşkil edilməsinə də aid etmək olar.

İlk başlıca addım ölkənin müxtəlif bölgələrində qadınların kredit ala bilmələri yolunda rast gələn maneələrin təhlil edilməsidir; buraya World Vision, Norveç Qaçqınlar Şurası, Oxfam və Beynəlxalq Kənd təsərrüfatı Kooperativ İnkişafı kimi Beynəlxalq QHT-lər tərəfindən idarə olunan ən fəal mikro-kredit təşkilatlarının borcvermə təcrübəsi haqqında xülasə də daxildir. Bundan əlavə, mikro-maliyyələşdirmə daha böyük icraçılar olan FİNCA, Shorebank (Amerika Birləşmiş Ştatların Beynəlxalq İnkişaf Agentliyi [ABŞBİA] tərəfindən

maliyyələşdirilir), Azərbaycan Mikro-maliyyələşdirmə Bankı (Avropa Şurası tərəfindən maliyyələşdirilir) və Bank of Baku (Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə) tərəfindən təmin edilir.

Qeyd edilməlidir ki, Azərbaycanda mikro-kreditin təchizat məsələsinə şübhə ilə yanaşılır və bunun şəhərlərdə və kənd ərazilərində qadınları KOM açmaqdan nə dərəcədə uzaqlaşdıra biləcəyini qiymətləndirməyin də əhəmiyyəti böyük ola bilər. Üstəlik də, nə mikromaliyyələşdirmə üçün hər hansı bir qanunverici struktur var, nə də sektorun inkişafı üçün ümumi bir siyasət və strategiya xətti. Mikromaliyyələşdirmə İnstitutlarının və kredit ittifaqlarının depozit cəlb etmək səlahiyyəti yoxdur və bu da onların öz üzvlərinə müxtəlif növ maliyyə yardımı göstərə bilmək üçün maliyyə imkanlarını artırma qabiliyytlərini məhdudlaşdırır. Mikromaliyyələşdirmə İnstitutları depozitləri toplayıb kənd yerlərində müəssisələrə və ayrı-ayrı şəxslərə borc da verə bilməz (AİB 2003: 2-3). Asiya İnkişaf Bankı (AİB) bu və ya digər əlaqədar məsələlərlə məşğul olan, eləcə də imkansız adamların biznes imkanlarının və çətinliklərinin qiymətləndirilməsini həyata keçirmək üçün sektora göstərilən texniki yardımı daima dəstəkləyir (AİB 2003: 2-3).

Bir çox qadınlar KOM-lərin yaradılması qarşısına çıxan ciddi "mədəni" və "sosial" maneələrin də mövcud olduğunu qeyd edirlər, çünki belə bir ümumi fikir var ki, "biznes" kişi işidir və qadınların biznesdə iştirakı qəbul edilsə də, və bəzən bu iştirak çox əhəmiyyətli olsa da, nə cəmiyyətdə, nə də özəlliklə onları bir mülkiyyətçi və lider kimi görməyə çox da həvəs göstərilmir. Qadınlar qeyd edirlər ki, bu fikirlər əsasən kişilərin üstünlük təşkil etdiyi bank sektoruna da nüfuz edir və çox vaxt ya ərlərinin, ya da kişi qohumlarının köməyi olmadan məsləhət və ya borc almaq çox çətin olur. BƏT-nın araşdırmalarında qadınlar kiçik biznesin yaradılmasında rüşvətin və korrupsiyanın böyük maneə oluğunu da qeyd edirlər (BƏT 2004: 21).

Şərqi Avropada və MDB ölkələrində qadın sahibkarlığını müzakirə edən BMT-nin Avropa üçün İqtisadi Komissiyasının (BMTAİK) 2002-ci ildə keçirilən Konfransında da qeyd edildi ki, regionda qadınlar arasında yardımçı biznesin və professional şəbəkələrin olmaması nəzərə alınarsa, qadın sahibkarlığının genişləndirilməsi üçün strateji imkanlar yaradılmasında İKT-nın böyük əhəmiyyəti ola bilər (Çərçivə 1). Qadınların yeni texnologiyalardan və bazardan istifadə etmələrinə imkan verməklə bərabər, İKT belə şəbəkələrin yarandılmasına kömək edər və bununla da bir sıra əsas sahələrə dair informasiya, o cümlədən, kredit və maliyyələşdirilmə imkanları paylaşdırıla bilər (BMTAİK 2002: 77-88).

**Çərçivə 1. Qadın biznes şəbəkələrinin əhəmiyyəti**

Qadın biznes şəbəkələrinin yaradılması Azərbaycanda xüsusilə əhəmiyyətlidir, çünki burada qadınların cəmiyyətdə rolu ilə əlaqədar ənənəvi fikirlər, rəftar və münasibətlər ölkənin mədəniyyəti və tarixində dərin köklər buraxmışdır. Əlverişsiz sosial mühit kişilərin üstünlük təşkil etdikləri sektorda, məsələn manufaktura sektoru və ya əsas istehlak bazarında fəaliyyət göstərməyə çalışan qadınlara xüsusilə çox təsir edir.

- Sayalı Səfərova, Prezident, "Memar SS", Azərbaycan

*Mənbə:* BMTAİK 2002: 95

Azərbaycanda qadın sahibkarlığı və KOM üçün şəraitin yaradılması gender xarakterli maneələrin aradan qaldırılmasını və məqsədyönlü müdafiənin təmin olunmasını tələb edəcək. Qadınlara şəbəkələrə (ticarət və biznes assosiasiyaları) qoşula bilmək, informasiya və təlimat almaq, eləcə də öz bizneslərinin maliyyələşdirilməsinə yardım, o cümlədən, məsləhətlər və vəkil xidmətərindən istifadə etmək, kredit ala bilmək şərtlərini yaxşılaşdırmaq, biznesdə partnyor tapa bilmək, və bazara yol tapmaq lazımdır. Lakin qadın sahibkarlığı üçün müvafiq iqlimin yaxşılaşdırılması diqqəti bank və kiçik biznes sektorunun özünə və qadınların fəaliyyətini stimullaşdıran və dəstəkləyən əlverişli mühit yaradılmasına yönəltməlidir.

### D. Kənd iqtisadiyyatının gender ölçüləri

Kənd təsərrüfatı Azərbaycanın iqtisadiyyatında mərkəzi rol oynayır. 2003-cü ildə bu sektor ölkənin ümumi istehsalının 14%-ni (ümumi ixracatın 6,5%-ni) və işçi qüvvəsinin 41%-ni təşkil edirdi; lakin zəhmət haqqı orta aylıq nominal əmək haqqının yalnız 27%-i qədər idi.[8] Kənd yerlərində əhalinin 90%-dən çoxunun torpağı var və onlar kəndli təsərrüfatçılığı ilə məşğul olurlar. Sovet İttifaqı dağıldıqdan sonra kənd təsərrüfatında istehsal sürətlə azaldı və 1991-1995 -ci illər ərzində 50%-ə endi və yalnız 1997-ci ildə torpaqların özəlləşdirilməsi və bazaryönlü istehsalın artırılmasına dair islahatların qəbul edilməsi, sərbəst bazar qiymətləri və kredit verilməsi və ticarət siyasətlərinin liberallaşdırılmasından sonra yenidən inkişaf etməyə başladı. Hazırda kənd təsərrüfatı, neftdən sonra, ölkənin ən böyük iqtisadi sektorudur (Dünya Bankı, 2004a: 2).

Hazırki YAİİDP qeyri-neft sektorunun inkişafına böyük əhəmiyyət verir, xüsusilə də kənd yerlərində; bu, yoxsulluğun azaldılması və Bakı ilə digər bölgələrin həyat standartları arasındakı fərqin aradan götürülməsi strategiyasıdır.Kəndlərin İnkişafı Strategiyasının hazırlanması kontekstində Hökumət diqqəti geniş miqyasda ilkin islahatlara yönəldib: bunlar torpaq islahatları, o cümlədən, təsərrüfatçıların əmlakdan istifadə edə bilmə imkanlarının yaxşılaşdırılması (ev heyvanları, avadanlıq), keyfiyyətli toxumlar və gübrə ilə təchiz edilmələri, müqavilələrin uzadılması, təlimat və kredit şərtləridir. YAİİDP kənd infrastrukturundan yararlanmaq və onun keyfiyyətini yaxşılaşdırmaq təşəbbüslərini də dəstəkləyir, çünki bu, kənd əhalisinin yaşayış standartlarını yaxşılaşdırmağa və inkişaf edən özəl sektorun fəaliyyətinin təməlini qoymağa imkan verən mühüm vasitədir. Sosal-iqtisadi inkişafın artırılması sahəsində tədbirlərə dair Prezident Fərmanı və Regionların Sosial-iqtisadi İnkişafına dair Dövlət Proqramı (2004-2008-ci illər) kənd yerlərində və kiçik rayonlarda regional inkişafa dair çox əhatəli tədbirlər hazırlanmasını tələb edir; buraya infrastrukturun yaxşılaşdırılması və məişət xidmətlərinin təmin edilməsi də daxildir.

İslahatlar prosesinin bir çox sahələrində əsaslı irəliləyişlər qeydə alınsa da, Azərbaycanın kənd yerlərində yoxsulluq problemi hələ də çox kəskin olaraq qalır. YAİİDP-nın 2003/2004-cü illərdə İcra Hesabatında deyilir ki, 2003-cü ildə şəhərlərdə yoxsulluğun həddi kənd yerlərinə nisbətən aşağı olub (şəhərdə 44,1%, kəndlərdə 45,3%) (Azərbaycan Respublikası, 2005a: 27). Bu keçid narahatlıq doğurur və onun səbəbləri diqqətlə

[8] Məsələn, 2003-cü ilin dekabrında orta aylıq maaş olan 415 836 AZM-la müqayisədə kənd təsərrüfatı sektorunda 2003-cü ildə orta nominal aylıq maaş 115 691 AZM idi. DSK 2005.

öyrənilməlidir. Yuxarıda qeyd edildiyi kimi, kənd yerlərində yoxsulluğun həddi regionlar üzrə xeyli fərqlidir, məsələn, Naxçıvan və Şirvan bölgələrində yoxsulluq çox yüksək, Şəki-Zaqatala və Lənkəranda isə xeyli aşağıdır. Hazırda kəndlərdə ailə başçıları kişi və ya qadın olan ailələr üzrə yoxsulluq həddinə dair hər hansı bir məlumat yoxdur; bu sahədə hələ də araşdırılmağa və təhlil edilməyə ehtiyac duyulur.

Şəhərlərdə olduğu kimi, kənd yerlərində də qadınlar islahatların ən pis təsirini öz üzərlərində hiss ediblər. Məsələn, daha çox qadınların işlədiyi keçmiş dövlət təsərrüfatları və kolxozlar qadınlar, uşaqlar və yaşlılar üçün böyük əhəmiyyət daşıyan yardım xidmətlərini əhatə edən tam bir infrastruktura malik idi. Bunlar başlıca olaraq qadınların idarə etdiyi uşaq bağçaları, məktəblər, xəstəxanalar, kitabxanalar və digər xidmət sahələri idi. Keçid və islahatlar nəticəsində bu sosial infrastruktur və onun təmin etdiyi müdafiə xidmətləri, o cümlədən uşaqlara dövlət qayğısı, dağıldı. Nəticədə xeyli qadın iş yerlərini itirdi. Formal sektorda işlərinin itirilməsi və sosial xidmətlərdən (məsələn, uşağa qayğı xidmətlərinin olmaması ilə onlar formal sektorda işləmək imkanlarını da itirirdilər) məhrum olmaqla üzləşən qadınlar evlərinə qayıtmalı oldular, burada isə onların ənənəvi qayğıya qalmaq və evə baxmaq rollarını önə çəkən ənənəvi dəyərlər və münasibətlər yenidən baş qaldırdı.

Bu meyllərin çoxu indi də davam edir. Hazırda kənd təsərrüfatı ilə məşğul olan 41% iqtisadı cəhətdən fəal əhalinin 20%-nin qadın olmasına baxmayaraq, son on ildə bu sektorda işləyən qadınların sayı azalıb. DSK-nin verdiyi məlumatlara əsasən, 1990-cı ildə kənd təsərrüfatında çalışanların 48,6%-i qadın idi isə, 1998-ci ildə bu rəqəm 30,6%-ə düşmüşdü (Diaqram 2). 2004-cü ilə qədər kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında çalışanların ümumi sayının yalnız 22,3%-i qadın idi, və bu da 1999-cu ildəki 27%-dən aşağı düşmüşdü (o vaxtdan DSK bu üç sektordan alınan məlumatları birləşdirməyə başlamışdı). Bu o deməkdir ki, söhbət yalnız son on ildə formal kənd təsərrüfatı sektorunda çalışan qadınların sayının kəskin surətdə azalmasından getmir, həm də bu azalma davam edir. Kənd təsərrüfatında kişi və qadınların əmək haqqları barədə məlumat almaq mümkün deyil; bu məlumat çatışmazlığı çox mühüm faktdır və bu məsələyə baxılmalıdır.

**Diaqram 2: Kənd təsərrüfatı sektorunda qadın işçilər, 1990—2003 (%-lə)**




*Mənbə:* DSK 2005.

1990-cı ilin əvvəllərində Azərbaycan kəndlərinin infrastrukturdan yararlana bilmək imkanı nisbətən yüksək həddə idi. Lakin bir vaxtlar kənd təsərrüfatında təchizat məsələləri üçün və kənd yerlərində infrastrukturun saxlanması üçün məsuliyyət daşıyan sovxozların və kolxozların dağılması və bu təsərrüfatların qeyri-bərabər paylanması kənddə xidmətlər və infrastruktur sahəsində sürətli tənəzzülə gətirib çıxartdı. Bu da kənd yerlərində yaşayan 4 milyon insanın (əhalinin 50%-i) həyat standartlarının aşağı düşməsi ilə nəticələndi. Dünya Bankının Kəndə Sərmayə qoyulması Layihəsinin (2004-cü il) bu yaxında keçirdiyi Sosial Qiymətləndirməsi aşkara çıxartdı ki, kəndlərdə yoxsulluq çox geniş yayılsa da, əhalinin nisbətən yaxşı dolandığı ərazilərdə infrastruktur şərait və sosial xidmətlər daha yaxşı vəziyyətdədir. Belə vəziyyət əsas infrastrukturlarda, məsələn, yollar, enerji və su təchizatında, eləcə də sosial infrastrukturlarda, yəni məktəblərdə və səhiyyə xidməti sahələrində mövcuddur.

Beləliklə, daha yoxsul icmalar bazara çıxmaqda əlavə maneələrlə üzləşirlər, çünki yoxsul infrastruktur şəraiti üzündən, varlı təsərrüfatlara nisbətən, onların istehsal xərcləri daha yüksəkdir (Dünya Bankı 2004a: 66). Lazımi sanitariya şəraitinin olmaması, təhlükəsiz içməli su çatışmazlığı, bazar mərkəzləri, səhiyyə xidmətləri kimi dövlət müəssisələrinin azlığı yoxsul kəndli qadınlara qeyri-proporsional surətdə təsir edir və onların ailənin ehtiyaclarını ödəmək üçün sərf etməli olduqları iş yüklərini çoxaltmaqla vaxtlarını əlindən alır; nəticədə onların digər əlverişli işlərlə məşğul olmaq imkanları da azalır. Dövlətin uşaqlara və yaşlılara qayğı göstərməli olan təsisatlarının itirilməsi üzündən, qeyri-formal sektorda pul qazanmaqla məşğul olan qadınların üzərinə uşaqlara və yaşlılara baxmaq məsuliyyəti də əlavə olunub.

Üstəlik də, ailə başçısı olan qadınlar kişilərə nisbətən daha az hallarda torpaq sahibi olurlar və onlar daha kiçik ölçülü sahələr əldə etməyə meyl edirlər. Özlərinin torpaq sahibi olduqlarını elan edən kişi ailə başçılarının 66,4%-i üçün torpağın ölçüsü orta hesabla 70,3 sot (100m$^2$ və ya 0,01 hektar [ha]) idi; müqayisə üçün: 55,7% qadın ailə başçıları üçün bu rəqəm 46,6 sot idi. Həm qadınlar, həm də kişilər üçün əsas torpaq növü həyətyanı sahədən ibarət olurdu və əvvəllər onlar bu torpaqdan tarazlaşdırılmış şəkildə şəxsi istehlak məqsədilə (qadınlar 41,1%, kişilər üçün 41,6%), istehlak və bazar məqsədilə (qadınlar 47,3%, kişilər 50,6%) istifadə edirdilər. Yalnız 1,5% qadın və 1,9% kişi torpaqdan sırf bazar məqsədləri üçün istifadə edirdilər və bununla da yardımçı təsərrüfatın kənddə orta təsərrüfatçının gündəlik yaşayışını təmin etməkdə çox mühüm rol oynadığı vurğulanırdı (DSK 2004b: 189).

Bu neqativ təsirlərin qeyd edilməsi kənd təsərrüfatı siyasətində və proqramlarında sistematik gender təhlilinin aparılmamasını göstərir. 2002-2015-ci illərdə bu sektorun əsas problemlərini, eləcə də Hökumətin siyasət və strategiyalarını nəzərdə tutan *Kənd təsərrüfatı sektoru və onun əsas inkişaf yolları* adlı siyasi sənədində gender problemlərinə müraciət edilmir, baxmayaraq ki, hökumətin siyasətində təsvir edilən bir çox sektorlar, məsələn, təsərrüfatçılığın inkişafı, dənli bitkilər istehsalı, heyvandarlıq, və ərzaq hazırlığı sahələrində əsasən çox sayda qadın işləyir. Bu siyasətdə qadının ailəni ərzaqla təmin etməkdə başlıca rol oynaması da qeyd edilməyib. Bir sözlə, siyasətçilərin çoxu kənd təsərrüfatı ilə məşğul olanların çoxunun qadın olmasını bilsələr də, siyasət səviyyəsində gender məsələlərinə diqqət yetirilməyib, və nəticədə qadınların kənd təsərrüfatçılığında əməyi düzgün

qiymətləndirilməyib və inkişafın planlaşdırılması və həyata keçirilməsi proseslərində onların spesifik ehtiyacları qətiyyən nəzərə alınmayıb.

Hazırda Kəndlərdə Qadınlar üçün Maldarlığın İnkişaf Layihəsini həyata keçirən Dağ və Dağlıq ərazilərdə Kəndlərin İnkişaf Proqramı çərçivəsində gender məsələlərinə toxunan bəzi pozitiv addımlar atılır. Layihə dağlıq ərazilərdə qadınlara kömək məqsədilə 3 il müddətinə daxili kredit (yəni kəndli təsərrüfatlarına boğaz malqara verməklə) verilməsi yollarını axtarır. İlkin olaraq, layihənin nəticələri ümidvericidir və bu nəticələr hədəf qrupunda gəlirlərin artmasını göstərir. Bu gün bu, Azərbaycanda kənddə qadın fermerlərin problemlərinə yönəlmiş əsas layihədir.

**E. Sosial müdafiə proqramları**

Sovet İttifaqının sona yetməsi dövlət tərəfindən təmin edilən bir sıra sosial müdafiə xidmətlərinin də - məsələn, tibbi yardım, uşaqların doğulması ilə əlaqədar təminatlı məzuniyyət, uşağa qayğı mərkəzləri və çox böyük təqaüd sistemi - azaldı. Bir çox qadın üçün bu yardım sisteminin dağılması yalnız onların real gəlirlərinə əlavə olunan çox böyük sosial müdafiə köçürülmələrinin itirilməsi demək deyil; bu, həm də keçmiş dövlətin bir çox məsuliyyətinin ailənin üzərinə düşməsidir ki, burada da işin coxu qadınların öhdəsindədir.

Azərbaycanda hazırda sosial müdafiə sistemi iki əsas komponent üzərində qurulur: qocalıq, xəstəlik, əlillik və işsizliklə əlaqədar məcburi sığortanı təmin edən sosial sığorta sistemi; və sosial müdafiəsi olmayanlara və yoxsullara ünvanlanmış vergi ödəyiciləri hesabından maliyyələşdirilən nəğd pul yardımları. Prinsipcə, birinci komponent sosial təhlükələri azaltmağa kömək edir, ikincisi isə yoxsulların və sosial müdafiəsi olmayanların çətinliklərin öhdəsindən gələ bilmək imkanlarını artırır. Sosial müdafiə proqramlarına büdcədən ayrılan vəsaitin hazırki həddi 1995-ci ildən bəri 5% və 6% olub (Dünya Bankı 2003: 107).

Bu proqramlar müəyyən qruplar arasında yoxsulluğun səviyyəsinin artmasının qarşısını almağa kömək edə bilərdi, lakin onların məhdud ölçüləri və miqyası, eləcə də maliyyə yardımı üçün çox az pul ayrılması son dərəcə yoxsul olanların ehtiyaclarını ödəmək üçün kifayət etmir. Məsələn, 2003-cü ildə orta nominal təqaüdün miqdarı yoxsulluq həddinin 67% olduğunu nümayiş etdirirdi, qocalığa, əlilliyə və ailə başçısının itirilməsinə görə təqaüdlər üçün yoxsulluq həddi, müvafiq olaraq, 69%, 74%, və 52% idi. Bundan əlavə, əlilliyə görə təqaüddən başqa, bütün qalan təqaüdlərin həcmi (ayda 124,137 AZM) ifrat yoxsulluq həddindən də aşağı idi (Azərbaycan Respublikası 2005a: 33-34).

Dünya Bankının son qiymətləndirməsində (2003) belə bir nəticə əldə edilmişdi ki, dəqiq bir poqramın olmamasına görə ümumi sosial müdafiə xərcləri yoxsulluğun azaldılması işinə əsaslı surətdə təsir edə bilmirdi (Azərbaycan Respublikası 2004a: 108). Bundan əlavə, qiymətləndirmə aşkara çıxarmışdı ki, sosial müdafiə müavinətləri (məsələn, uşaq pulu) çox azdır və yoxsulların istehlak xərclərindəki çatışmazlığı azalda bilmir və bütün sosial müdafiə müavinətləri verildikdən sonra da yoxsullar 2001-ci ildə əhalinin 49,6%-ni təşkil edirdilər.

Bununla belə, təqaüdlər əhalinin beşdə birindən çox hissəsi üçün, o cümlədən, qadınlar üçün əsas gəlir mənbəyidir və olacaq. 2003-cü ilin ETBM-ə əsasən, bu müavinətlər tələbə təqaüdləri və sosial ödəmələrlə bir yerdə əhalinin 19,5%-i üçün əsas gəlir mənbəyini təşkil edir. Əhəmiyyətlidir ki, şəhər əhalisi üçün təqaüdlər dövlət sektorunda maaşlı işdən sonra (22%), gəlir mənbəyi baxımından ikinci yerdə durur (16,2%), eləcə də kənd əhalisi üçün hər hansı bir fərdi yardımçı işdən sonra (33,7%) təqaüdlər ikinci gəlir mənbəyidir (19,3%).[9] Gender göstəricilərinə görə isə sorğuda iştirak edən qadınların 9,5%-i, kişilərin isə 5,5%-i üçün təqaüdlər əsas gəlir mənbəyidir.

Təqaüdlər tarixən qadınlar arasında yoxsulluğun qarşısının alınması işində çox böyük əhəmiyyətə malik olub, və keçmiş Sovet İttifaqı da bu işdə istisna deyildi. Sovet təqaüd sisteminə əsasən qadınlara əmək fəaliyyətindən əlavə, uşaqları olmasına görə də üstünlük verilirdi, 20 il iş staji olan qadınlar 55 yaşında (kişilər üçün təqaüdə çıxmaq yaşından 5 il əvvəl) təqaüdə çıxa bilərdilər; və hansı yaşda təqaüdə çıxmasından asılı olaraq, maaşların 55-85%-i ödənilirdi. Qadınlar daha çox yaşamağa meylli olduqlarından və rəsmən çox da böyük əmlaka sahib olmadıqları üçün təqaüdlər çoxları üçün ömürlərinin son 15 ilində başlıca gəlir mənbəyi olurdu (Castel and Fox n.d.: 1). Bundan əlavə, qadın və kişilərin müxtəlif əmək tarixləri və qadınların daha az qazanan olması ehtimalı və daha qısa və arası kəsilən əmək karyerası (məsələn, hamiləliklə, uşaq böyütməklə əlaqədar) belə düşünməyə əsas verir ki, təqaüd hüquqlarını müavinətlərlə bağlayan islahatlar qadınlara qarşılıqlı surətdə təsir edə bilərdi.

## F. Tövsiyələr

Aşağıda formal və qeyri-formal əmək bazarına, sahibkarlıq və kredit məsələlərinə, kənd iqtisadiyyatına və sosial müdafiəyə dair bəzi tövsiyələr verilir:

### a. Əmək bazarı və qeyri-formal sektor

- Bərabər iş imkanları, cins zəminində xoşagəlməz hallar, işə düzələrkən ayrı-seçkiliyə yol verilməsi hallarına dair qanunvericilik yaradılmalı, və bərabər imkanlar yaradılması və gücləndirilməsi işini həyata keçirmək üçün effektiv komitələr və institutlar təşkil edilməlidir.
- Qadınların mülki xidmətlərdə sürətlə irəli çəkilmələrinə imkan yaradan siyasi öhdəliklər götürülməli və onların həm mərkəzi idarələrdə həm də bələdiyyələrdə orta/yüksək vəzifələrə təyin edilmələri qarşıya məqsəd kimi qoyulmalıdır.
- Struktur və hüquq maneələrini, o cümlədən işdə gender bərabərliyinə stereotip münasibətləri aradan qaldırmaq üçün tədbirlər görülməli, işə götürərkən genderə

[9] Burada "öhdəsində olan" anlayışı istisna edilir; bu anlayışla bütün şəhər əhalisinin 29%-i üçün gəlir mənbəyi təmin olunur. Maraqlıdır ki, kənd əhalisi arasında özlərini "öhdəsində olan" hesab edənlərin sayı bundan iki dəfə azdır (15,6%). Belə hal kənd qadınlarının şəhərdəkilərə nisbətən rəsmi məşğulluq səviyyəsinin daha yüksək olması (41,1%-ə nisbətən 45%) və eləcə də, kənd qadınları arasında qeyri-formal iqtisadi fəallığın daha çox olması ilə əlaqədar ola bilərdi.

qərəzli yanaşma hallarına, iş şəraitinə, vəzifədə fərqləndirilməyə, sosial müdafiə müavinətləri məsələsində ayrı-seçkiliyə, qadınların peşə ilə əlaqədar sağlamlığı və təhlükəsizliyi məsələlərinə və qeyri-bərabər karyera imkanlarına müraciət edilməlidir.

- İşsiz qadınları nəzərdə tutan peşə hazırlığı (təkmilləşdirmə) proqramları həyata keçirilməlidir.
- Qadınların uşağa qayğı məsuliyyətləri tanınmalı və buna cavab olaraq qadın işçilərə uşaq saxlamaq xərclərinin öhdəsindən gəlməkdə kömək edilməlidir.
- Qadın işçilərin mərkəzi/ bələdiyyə hökumət strukturlarında peşə/idarəetmə bacarıqlarını inkişaf etdirməyə yönəlmiş proqramlar hazırlanmalıdır.
- Gender zəminində baş verən əyintiləri, o cümlədən qadınların/kişilərin qeyri-fəallıq səviyyəsini və müasir qeyri-leqal əmək mühacirliyinin miqyasını və bu mühacirliyin zaman/gəlir və digər baxımdan təsirini daha yaxşı başa düşmək üçün (formal və qeyri-formal) bazar sahəsində araşdırmalar davam etdirilməlidir.
- Əmək bazarındakı tələbatı müəyyən etmək üçün iş sahibləri arasında ətraflı sorğu aparılmalı və qadın və kişilər üçün müvafiq peşə hazırlığı və digər proqramlar hazırlanmalıdır.

**b. Sahibkarlıq və kredit**

- Diqqəti maneələrin müəyyən edilməsinə və onların öhdəsindən gəlmək strategiyalarına yönəltməklə qadınların KOM-da az iştirak etmələrinin səbəbləri araşdırılmalıdır.
- Qadınlar üçün biznes hazırlığı proqramları və müdafiə xidmətləri təşkil etməklə onların KOM-da iştirak etmələri dəstəklənməli, bank xidmətləri vasitəsilə və ya başqa bir yolla, xüsusi maliyyə məsləhət xidmətlərinin və kredit şəraitinin yaradılması yolu ilə qadınların maliyyə imkanları yaxşılaşdırılmalı, kənd qadınlarının kredit xidmətlərindən effektiv surətdə istifadə edə bilmələri üçün kredit prosesləri sadələşdirilməli, qadınlar üçün yeni əlverişli fəaliyyət sahələrinə, yəni kənd təsərrüfatı məhsullarının emal edilməsi və bazara çıxarılmasına yol açan kənd təsərrüfatı kredit proqramları hazırlanmalıdır.
- Qadınların torpaq, ev heyvanları və təsərrüfat avadanlığı kimi əmlak, toxum və gübrələr, əməyi yüngülləşdirən texnologiya, nəqliyyat və müxtəlif xidmətlər, kənd təsərrüfatında təbliğat xidməti və təlim kurslarından istifadə edə bilmək imkanlarını artırmaqla onların kənd sektorunda rəsmi rolu gücləndirilməlidir. Buraya aqrobiznes sahibkarlığında qadınların bacarıqlarının inkişaf etdirilməsinə yönəlmiş təlimlər, təbliğatın və satış bazarının dəstəklənməsi də daxildir.

**c. Kənd iqtisadiyyatı**

- Kənd təsərrüfatı siyasətinə dair bəyanatlarda qadınların fəaliyyətləri; məhsuldarlıqları; resurslardan, vəsaitlərdən, müdafiə xidmətlərindən və satış bazarından istifadə etmək imkanlarına dair strategiyalar aydın şəkildə müəyyən edilməlidir.

- Torpaq islahatı prosesinin gender məsələlərinə təsiri, o cümlədən, qadınların torpağa nəzarətinə dair qanunla təsdiq edilmiş hüququn əsl vəziyyətinin qiymətləndirilməsinin ciddi monitorinqi keçirilməlidir.
- Kənd Təsərrüfatı Nazirliyinin və digər əlaqədar Nazirliklərin bütün proqram və layihələrinin planlaşdırılması, tətbiq edilməsi və qiymətləndirilməsi mərhələlərində qadınların iştirak etmələri bir hədəf kimi qarşıya qoyulmalıdır.
- Torpaqla əlaqədar bütün məlumat bazalarının cins baxımından ayrı-ayrı olmasına, qadınların torpaq hüquqlarının həm qadınlar, həm də kişilər tərəfindən aydın şəkildə tanınmasına və başa düşülməsinə (məsələn, informasiya və şüurluluğun artırılması strategiyaları vasitəsilə), torpaq qeydiyyatı prosedurlarının asan və qadınların tələblərinə cavab verən olmasına və qadınların torpaq problemləri ilə əlaqədar sənədləri almalarına və onları başa düşmələrinə təminat yaradılmalıdır.
- Mövcud makro- və mikro-kənd təsərrüfatı siyasətlərinin (o cümlədən, struktur tənzimləmə siyasətinin) başlıca olaraq torpaqsız, ucqar, kiçik və ailə başçıları qadın olan ev təsərrüfatlarından çıxmış qadın-fermerlərə təsirinə dair araşdırmalar aparılmalı və bunların qadınlara pis təsir etməsi müəyyən edildiyi hallarda siyasətlərə yenidən baxılmalıdır.

### d. Sosial müdafiə proqramları

- Qəbul edilməlidir ki, sosial müdafiə proqramları gender neytral deyil və gəlirlə əlaqədar şoklar kişilərə və qadınlara fərqli şəkildə təsir edəcək.
- Sosial müdafiə proqramlarında bütün islahatlar və edilən təkliflər ciddi gender təhlilinə əsaslanmalı və kişilərin və qadınların fərqli ehtiyacları nəzərə alınmalıdır; bu təkliflərin qadınlara münasibətdə ayrı-seçkiliyə yol verilməməsi və qadınlara zərər vurmayacağı təmin edilməlidir.
- Həm sosial müdafiə siyasəti, həm də inkişaf proqramı kontekstində ən zəif qruplar (ailə başçısı olan yoxsul qadınlar, tək valideynlər) müəyyən edilməli və bu qrupları müdafiə etmək üçün müvafiq təhlükəsizlik şəbəkələrinin mövcud olması təmin edilməldir.

## A. Təhsildə gender problemləri

Müstəqillik dövründə Azərbaycana bütün səviyyələrdə yüksək ixtisaslı böyük müəllim heyətinə malik təhsil müəssisələri şəbəkəsindən ibarət kifayət qədər inkişaf etmiş təhsil sistemi miras qalıb. 1989-cu ildə keçirilən siyahıyaalma göstərdi ki, əhalinin ümumi savadlılıq səviyyəsi 99,6%-dir; bu dövrün statistikası müsbət tərəfə artırılmağa meyilli olsa da, hamı razılaşırdı ki, təhsil universal təhsilə çox yaxındır. 15 yaşına çatmış uşaqların təxminən hamısı cinsindən, yerləşdiyi ərazidən və ya gəlir səviyyəsindən asılı olmayaraq, təhsil müəssisələrinə cəlb edilmişdi.

1990-cı illərin əvvəllərindən bəri nailiyyətlərin səviyyəsinin aşağı düşməsi, məktəbə cəlb olunan uşaqların rəsmi sayı ilə məktəblərə gələnlərin sayı arasındakı böyük fərqlər, müəllimlərin çox aşağı maaşları və yüksək dərəcədə müəllim axını və, nəhayət, məktəb infrastrukturunun dağılması faktlarına baxmayaraq, Azəbaycan özünün əvvəlki təhsil göstəricilərini saxlamağa çalışır. Bundan əlavə, bir çox valideyn qeyri-rəsmi təhsil xərclərinin artmasını təsdiq edirlər; bunlar, adətən, həm dərs materialının əsaslı öyrənilməsi və dərsdən əlavə məşğələlər, məktəb gəzintiləri və bəzi hallarda, uşaqlarına daha çox diqqət yetirilməsi üçün müəllimlərə və məktəblərə verilən əlavə ödəmələr şəklində həyata keçirilir. Belə qiymətlər varlılardan fərqli olaraq, yoxsulların üzərinə ağır yük qoyur. Son on ildə hökumətin təhsil sektoruna ayrılan xərcləri əhəmiyyətli dərəcədə azaltması (1990-cı ildə ümumi illik istehsalın 7,7%-dən 2004-cü ildə 3,5%-ə qədər) məktəb sisteminə çox pis təsir edib və mövcud çətinliklərin yaranması üçün əsas faktor olub (Diaqram 3).

**Diaqram 3. Dövlətin təhsil sektoruna ayırdığı xərclər, ÜDM-ə nisbətdə %-lə, 1990-2004**




*Mənbə:* DSK: rəqəmlər sorğuya əsasən təqdim edilib.

Azərbaycanda təhsil sektorunda bu və ya digər xüsusiyyətlərin qiymətləndirilməsində əsas problem ümumiyyətlə etibarlı statistikanın və xüsusilə də cinslər üzrə ayrıca məlumatın

və göstəricilərin məhdud olmasıdır. Bundan əlavə, Azərbaycan Hökumətinin – UNICEF-in Baş Əməliyyat Planında göstərildiyi kimi (2000-2004-cü illər), həm davamiyyətlə büdcə ayırmaları arasında əlaqənin olması, həm də valideynlərin uşaqlarının məktəbə getməmələri və məktəbi atmaları barədə xəbər vermək istəməmələri üzündən əldə edilən məlumatların özlərində təhriflərə yol verilə bilər (UNICEF 2002: 8). Təhsil sistemi üzrə gender statistikasının toplanması və istifadə edilməsi işinin genişləndirilməsi sahəsində böyük səylər göstərilsə də, effektiv siyasət və proqramların hazırlanması və tətbiq edilməsi üçün yeni səylər (o cümlədən nailiyyətlərin səviyyəsində gender qiymətləndirilməsinə yönələn səylər) tələb olunur.

Hazırda Azərbaycanda mövcud olan təhsil sistemi üç məktəb mərhələsini nəzərdə tutan 11 ildən ibarətdir: ibtidai təhsil (1-4-cü siniflər, 6-9 yaş), əsas təhsil (5-9-cu siniflər, 10-14 yaş), və ümumi orta təhsil (10-11-ci siniflər, 15-16 yaş). Texniki orta təhsil və Peşə təhsili 15-17 yaşlı gənc yeniyetmələri əhatə edir.

### 1. Erkən uşaqlıq dövrü təhsili

Erkən uşaqlıq dövrü təhsili məsələsi Sovet dövründən sonra xeyli pisləşib və hazırda arzuedilən səviyyədən çox aşağıdır. Bir neçə özəl uşaq bağçası istisna olmaqla, mövcud məktəbəqədər müəssisələrin hamısı Hökumət tərəfindən maliyyələşir və məktəbəqədər təhsil məcburi deyil. Azyaşlı uşaqlara qayğı və təhsil müəssisələri bir neçə tipdir: körpələr evi, bağça-körpələr evi, bağçalar və bağça-ibtidai məktəb (ibtidai məktəbin nəzdində uşaq bağçası). Körpələr evi əsasən 1-3 yaşlı uşaqlar üçündür.

1990-2003-cü illər arasında məktəbəqədər müəssisələrin sayı 2 185-dən 1 777-ə qədər azaldı (bunların 37-si gündüz işləyən körpələr evi, 1 900-ü bağça-körpələr evi, 546-sı bağçalar və 4-ü bağça-ibtidai məktəb idi) (DSK 2003); əvvəllər məktəbəqədər müəssisələrin çoxu kənd yerlərində idi, lakin köhnə sistemin dağılması nəticəsində indi bu müəssisələr daha çox şəhərlərdə yerləşir (1 777-dən 1 107-si, yəni 57%-i).

Qiymətlər də əksər ailələrin imkanı xaricindədir: dövlət bağçaları ayda 10-20 dollar alır (rəsmi olaraq bu qiymət cəmi 0,20 dollardır), özəl bağçalarda isə aylıq haqq 50-350 dollara çatır.[10] Bu qiymətlər ailələrin çoxunun imkanı xaricindədir; odur ki, bəziləri öz pullarını toplayır və/və ya kömək üçün yaşlı valideynlərinə müraciət edirlər, lakin bu yaşda uşaqları olan bir çox qadın formal iş sektorunda öz fəaliyyətlərini azaltmaqla, ödənişsiz olaraq uşaqlarına özləri baxırlar.

Rəsmi məlumatlara əsasən 2003-cü ildə məktəbəqədər müəssisələrdə uşaqların sayı (bu yaş qrupuna daxil olan uşaqların sayına nisbətdə %-lə) yalnız 20 % təşkil edir (DSK 2003). UNICEF-in 2000-ci il ÇGKS-ya (Çoxgöstəricili Klaster Sorğusu) görə 3-5 yaşlı uşaqların yalnız 11%-i azyaşlı uşaqlar üçün təşkil edilmiş tədris müəssisələrinə gedirdi; həm də oğlanların sayı (12,2%) qızlardan (10,5%) çox idi. ÇGKS göstərdi ki, uşaqların məktəbə getmələri ilə yoxsulluq həddi arasında bir bağlılıq var: varlı ailələrdən 21,2%, orta səviyyəli ailələrdən 12% və yoxsul ailələrdən yalnız 5% uşaq bu təhsil proqramına cəlb edilmişdi.

[10] Qiymətlər haqqında məlumat ÖGQ-nin 2005-ci ilin oktyabrında yerlərdə apardığı iş zamanı valideynlərlə müsahibələrdən götürülüb.

Bakı ərazisində bu rəqəm 20,2%, Naxçıvanda 2,7%, Cənub bölgələrində isə yalnız 0,9% idi. Bundan əlavə, uşaqların bu proqrama qoşulmaları ilə anaların savadlılıq səviyyəsi arasında əlaqə də çox müsbət idi: univesitet təhsili almış anaların 28%-i uşaqlarını bu müəssisələrə göndərirdilər, lakin orta savadlı və ya ondan da aşağı savadı olan analar üçün bu rəqəm yalnız 7,4% idi. Maraqlıdır ki, sorğunun nəticələrinə görə məcburi köçkün/qaçqın ailələrinin uşaqlarının bu proqramda iştirakı (15,3%) yerli sakinlərə nisbətən daha yüksək idi (11%), bu da Hökumətin və QHT-lərin məcburi köçkün və qaçqın ailələrinin uşaqları üçün erkən uşaqlıq dövrünün təhsil proqramında daha çox yer ayrılmasına göstərdikləri səylərin nəticəsində mümkün olmuşdu (UNICEF/DSK 2000: 16-17).

Məktəbəqədər müəssisələrin verdiyi imkanlardan istifadə edə bilmək şanslarının azalmasının əmələ gələn boşluğu doldurmaq və ödənişsiz uşaq saxlamaq işini boynuna götürməklə formal əmək sektorunda işləmək imkanlarını da azaltmağa məcbur edilmiş qadınlara gender təsiri çox böyük olmuşdur. Azyaşlı uşaqlara qayğının və məktəbəqədər müəssisələrin olmaması uşaqlara və tədris sisteminə də zərbədir. Heç bir hazırlığı olmayan uşaqlar ibtidai təhsilə başlayarkən sosial və akademik maneələrə rast gəlirlər və ibtidai siniflərdə təhsildə uğur qazanmağa az hazır olurlar və bu da onlara yuxarı siniflərdə biliklərini artırmağa mane olur. İbtidai məktəb müəllimlərinin də işi çətinləşib; məktəbəqədər müəssisələrin olmaması çox vaxt uşaqların bilik və bacarıqlarının aşağı səviyyədə olacağından xəbər verir və bu hal dəyişən tələbə kütləsi üçün proqramlarda və pedaqoji fəaliyyətdə düzəlişlər olunmasını tələb edir.

**Diaqram 4: Erkən uşaqlıq dövrünün təhsil proqramlarında 3-5 yaşlı uşaqların məktəbə davamiyyəti**




*Mənbə:* UNICEF/DSK, 2000: 17

## 2. Əsas və orta təhsil

Rəsmi məlumatlarda məcburi təhsil dövründə (1-11-ci siniflər) məktəbdən yayınma hallarının səviyyəsi çox aşağıdır – təxminən 1-2% (Dünya Bankı 2003: 85), lakin sorğunun nəticələri göstərir ki, məktəbə davamiyyətin əsil səviyyəsi rəsmi qeydiyyatda olandan aşağıdır. UNICEF ÇGKS-dən göründüyü kimi, ibtidai sinif uşaqlarının davamiyyətinin səviyyəsi 88,4%-dir; burada qızlar və oğlanlar arasında nə rayonlar, nə kənddə ya şəhərdə yaşayanlar, nə də ailənin maddi vəziyyəti ilə əlaqədar əsaslı bir fərqlənmə qeydə alınmayıb. Lakin ümumi davamiyyət sahəsində müxtəlif regionlar arasında fərqlər aşkara çıxarılıb. Qərbdə və Cənub-qərbdə məktəbə gedən qızların və oğlanların sayı (85%) Bakıya nisbətən (91%) 6% azdır (UNICEF/DSK 2000: 17).

Görünür ki, məktəbə getməyənlərin əksəriyyəti də olmasa, çoxu – yoxsul şəhər

uşaqları, kəndli və təcrid edilmiş uşaqlar, məcburi köçkün/qaçqın uşaqları və küçə uşaqları/işləyən uşaqlar – təhsil haqqının maliyyə çətinlikləri/imkanları üzündən məktəbdən kənarda qalıblar. Təəssüf ki, məktəbdənkənar uşaqların cins baxımından sayı haqqında məlumat əldə etmək mümkün deyil, lakin xəbər verildiyi kimi, kənddə orta məktəb səviyyəsində qızlar hər hansı bir ödənişli və ya ödənişsiz işlə məşğul olmaları, onların "əxlaqının" qorunması, və /və ya erkən ərə getməyə hazırlaşmaları ilə əlaqədar ailələrinin təzyiqi altında təhsildən uzaqlaşdırılmağa daha çox məruz qalırlar (UNICEF/DSK 2000: 11-7). Son bir neçə il ərzində təhsil sahəsində gender bərabərsizliyinin meydana çıxıb-çıxmamasını müəyyən etmək üçün müntəzəm olaraq gəlir qrupları, ərazi (kənd/şəhər/rayon), tədrisin müxtəlif səviyyələri üzrə oğlanların və qızların davamiyyəti/iştirakı və nailiyyətlərinin səviyyəsinin ətraflı qiymətləndirilməsini aparmaq lazımdır.

Çox sayda uşağın məktəbdən kənar "işlə" məşğul olmaları da təhsilin nəticəsinə təsir göstərə bilər, lakin əldə edilən sübutlar bu uşaqlarla əlaqədar gender fərqliliyindən danışmağa imkan vermir. UNICEF-in 2000-ci il ÇGKS aşkara çıxarmışdı ki, sorğuda iştirak edən 5--14 yaşlı uşaqların 13%-i "hazırda işləyir", yəni onlar öz ailə üzvü olmayan digər bir adam üçün ödənişli və ya ödənişsiz iş görür və ya gündə 4 saatdan artıq ev işi görməklə məşğuldur. Sorğu bölgələr üzrə fərqli hallar olduğunu göstərdi. Naxçıvanda hər beş uşaqdan biri işlədiyi halda, Bakıda 25 uşaqdan biri işləyirdi. Yoxsul olmayan ailələrin uşaqlarının yalnız 5%-nin, yoxsul ailələrdə isə 22%-nin işlədiyi müəyyən edilmişdi.

### 3. Keyfiyyətlə bağlı problemlər

Azərbaycanda ibtidai və orta məktəb səviyyələrində siyahıya alınmanın nəticələri nisbətən yüksək olaraq qalır, lakin keçid dövrü ərzində təhsilin nəticələrinin keyfiyyətinin pisləşməsi narahatlıq doğurur (Dünya Bankı 2003: 81; UNICEF 2002). Dünya Bankının apardığı araşdırmalarda təhsilin nəticələrinin keyfiyyətinin aşağı düşdüyü qeyd edilir və bu onunla izah edilir ki, siniflərdə baza materialının və təchizatın çatışmazlığına əlavə olaraq, çox aşağı maaşlar və məktəblərdəki mühitin pisləşməsi müəllimləri təhsil sistemini tərk etməyə məcbur edib və mövcud müəllim heyətinin də mənəvi cəhətdən pozulmasına səbəb olub (Dünya Bankı 2003: 89, UNICEF 2002: 15-16).

DSK-nın 2002-ci ildə keçirdiyi sorğu həm valideynlərin, həm də müəllimlərin təhsilin nəticələrindən narazı olduqlarını aşkara çıxartdı. Sorğuda iştirak edən müəllimlərin yarısından çoxu (55%) bildirib ki, tədris materiallarının yararsız olması onlara öz müəllimlik vəzifələrini effektiv surətdə həyata keçirmələrinə mane olur, 35,2% müəllim isə qeyd edib ki, yeni dərsliklərin olmaması tədris işində ən böyük maneədir. Eyni vaxtda, 50,4% valideyn və 46,3% tələbə tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına ehtiyac olduğunu bildiriblər (DSK 2002).

Son illər müxtəlif müşahidəçilər, o cümlədən UNICEF və Dünya Bankı Azərbaycanda dərsliklərin keyfiyyətindən narazı olduqlarını bildiriblər. Müasir pedaqoji yanaşmanı əks etdirən və Azərbaycan mədəniyyətinə daha çox uyğun olan dərsliklər hazırlanması üçün bir sıra səylər göstərilib və bu səylər az-cox dərəcədə uğurlu olub. Nəticədə bir silsilə yeni

tərtibatlı dərsliklər hazırlanıb. Lakin qızların daha aşağı nailiyyətləri ilə onların universitet təhsili və peşələrə yiyələnmək arzularının həyata keçməsi imkanlarını məhdudlaşdıran pis keyfiyyətli dərslıklər arasında aydın bağlılıq olduğunu və bu dərsliklərin onların həyat təsəvvürlərinə uyğun gəlmədiyini göstərən əsaslı beynəlxalq araşdırmalara baxmayaraq, mətnlərdə gender baxımından qərəzli münasibət məsələsinə az diqqət yetirilib. 2-ci sinfin oxu kitabını qiymətləndirən UNICEF qeyd edir ki, kitabda kişilər və oğlanlar qızlardan üç dəfə çox təsvir olunublar və habelə, kişilər üçün çox sayda peşə və işlərdən danışılsa da, qadın peşələri haqqında çox az məlumat verilib (UNICEF 2002: 15-16).

### 4. Peşə təhsili və ali təhsil

Peşə təhsili və ali təhsil keçid dövründə böyük əhəmiyyət kəsb edib. Keçmiş Sovet İttifaqında işləmiş adamların çoxu öz bacarıq və qabiliyyətlərinin inkişaf etməkdə olan və xarici dil və kompüter sahəsində yeni biliklər tələb edən bazar iqtisadiyyatına müvafiq olmadığını başa düşürdülər. Lakin, təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanda iş sahibləri arasında onların ehtiyac və istəkləri barədə daha ətraflı məlumat verə biləcək sorğu keçirilməyib, halbuki, bu sorğunun nəticələri əsasında yeni peşə təhsili proqramları tərtib etmək mümkün olardı. Belə sorğular qadınlar və kişilər üçün peşə təhsili proqramlarını məşğulluq sahəsində mövcud olan tələbata uyğunlaşdırmağa imkan verə bilərdi. Bu sorğular, həmçinin, təqdim edilən kursların məzmunu, işə götürülmə sahəsində tələb edilən qabiliyyətlər və işə götürülmə imkanları arasında daha çox uyğunluq yaratmaqla ali təhsil sektorunda müvafiq kursların inkişaf etdirilməsi haqqında daha çox məlumat əldə edilməsinə də yardım edərdi.

Azərbaycanda peşə təhsili və ali təhsil sektorunda əvvəllər mövcud olan icbari təhsillə müqayisədə xeyli geriləmə nəzərə çarpır; təhsilə cəlb edilənlər arasında gəlir qruplarına mənsub olmaları baxımından əhəmiyyətli dərəcədə fərq var. 16 yaşdan yuxarı təhsilə cəlb olunanların sayı kəskin surətdə azalır: 17-24 yaşlıların yalnız 13 %-i orta məktəbi bitirəndən sonra təhsilini davam etdirir. Yoxsul ailələrdən olan uşaqların (17-24 yaşlı) yalnız 9%-i ali təhsil müəssisələrinə daxil olurlar, yoxsul olmayan ailələrdə isə bu, 15% təşkil edir, və yoxsullar universitetlərə deyil, daha çox peşə təhsili və texniki institutlara üstünlük verirlər (Dünya Bankı 2003: 86). Bu o deməkdir ki, yoxsulluğun azaldılması strategiyaları peşə sektorunda təhsilin keyfiyyətini yaxşılaşdırmaq və peşə seçimi ilə işə götürülmə imkanları arasında uyğunluq yaratmaqla diqqəti yoxsul uşaqlara yönəldər, və eyni zamanda, qadınların da iştirakını artırmaq yollarını axtara bilərlər.

Ali təhsil və peşə təhsili sektorlarında çox ciddi gender bərabərsizliyi məsələsi də ortaya çıxır. Qadınlarla müqayisədə çox sayda kişi ali məktəblərdə ali təhsil almaq qərarına gəlirlər: buraya cəlb olunanların 57%-i kişilər, 43%-i isə qadınlardır (DSK 2005: 61), baxmayaraq ki, ibtidai ali təhsil yaş qrupunda kişi və qadınlar arasında nisbət fərqləri o qədər də əhəmiyyətli deyil (20-24 yaşlılar arasında 49,3% qadın və 50,7% kişi) (DSK 2005: 14). Peşə təhsili institutlarında kişilərin sayı (69,6%) qadınlara nisbətən (30,4%) iki dəfədən də artıqdır (DSK 2005: 54). Kişilərin qeyri-hökumət ali təhsil məktəblərində iştirakı da (56,6%) qadınlardan (43,4%) əhəmiyyətli dərəcədə yüksəkdir, bu da o deməkdir ki, kişilərin bu

məktəblərə daxil ola bilmək imkanları daha çoxdur. Bunun səbəbləri, o cümlədən qadınların formal iş sektorunda iş tapa bilmək imkanlarının az olması üzündən ailələrin öz məhdud maliyyə vəsaitlərini qızlardan çox, oğullarının təhsilinə sərf etməyə üstünlük vermələri, hələ də tədqiq edilməlidir.

Ali təhsil müəssisələrində seçim məsələsində də gender baxımından problemlər var. Qadınlar təhsil, səhiyyə və sosial elmlər sahələrinə meyl etdikləri halda, kişilər daha çox geologiya, tikinti, iqtisadiyyat və idarəçiliyə üstünlük verirlər (Diaqram 5).

Aydın deyil ki, qadınların ixtisas seçiminə əmək bazarında ayrı-seçkiliyin artması, "münasib" qadın peşələrinə münasibətin dəyişməsi və ya bu iki faktorun hər ikisi təsir edib. Bu məsələ gələcək təhlillər və tədqiqatlar nəticəsində aydınlaşacaq. Aydın olan odur ki, bir çox qadın əmək haqqı çox aşağı olan, və saylarının çox olmasına baxmayaraq, rəhbərlik/ administrativ səviyyədə pis təmsil olunduqları sahələri, məsələn, təhsil sahəsini (yəni müəllimliyi) seçirlər.

**Diaqram 5. Ali məktəblərdə tələbələrin elm sahələrinə görə bölüşdürülməsi (%-lə)**




*Mənbə:* DSK 2005: 58-59.

## 5. Gender və savadlılıq

Gələcək tədqiqatlara ehtiyac olsa da, UNICEF ÇGKS 15 yaşlı və ondan yuxarı yaşda olan gənclərin savadlılıq səviyyəsində həm gəlir qrupları, həm də yaşadıqları əraziyə görə bir sıra gender fərqlənməsi aşkara çıxarmışdır. Xüsusilə də, yoxsul kişilərin 95%-i "savadlı" olduğu halda, yoxsul qadınların yalnız 86,9%-ni belə adlandırmaq olar; kənd qadınlarının yalnız 88,6%-i savadlı hesab edilirsə, kənd kişiləri arasında bu göstərici 96,4%-dir. Fərqlənmə halları əsasən Bakıdan kənar ərazilərdə qeydə alınıb, halbuki Bakının özündə qadınlar və kişilərin savadlılıq səviyyəsi təxminən bərabərdir. Məsələn, Naxçıvanda qadınlarla müqayisədə (86,8%) kişilərin 94,6%-i savadlıdır. Cənubda bu səviyyə daha da aşağıdır: qadınlar arasında savadlılıq 85,1%, kişilərdə isə 96,5%-dir. Bu o deməkdir ki,

keçmiş Sovet İttifaqında savadlılığın səviyyəsi heç də adətən iddia edildiyi kimi çox yüksək olmayıb, və, düzünü desək, bu, təhsil proqramlarının bölgələrdə, həm də yoxsul təbəqələrə tətbiq edilməsində böyük çətinliklər yaradır (UNICEF/DSK 2000: 19). Qeyd edilməlidir ki, 1999-cu ilin siyahıya alınması zamanı müvafiq yaş qruplarına dair rəsmi məlumatlarla ÇGKS məlumatları arasında əhəmiyyətli dərəcədə fərq var; ÇGKS-a əsasən qadınların savadlılıq səviyyəsi 98,2%, kişilərinki isə 99,5%-dir (DSK 2005a: 51).

## B. Səhiyyədə gender məsələləri

Azərbaycanda səhiyyə xidmətləri sahəsində gender məsələlərinin qiymətləndirilməsi işində ortaya çıxan əsas çətinlik DSK-nın verdiyi rəsmi məlumatlarla digər məlumatlar arasında (məsələn, Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi/BMT 2001 RSM) çox böyük uyğunsuzluqların olmasıdır. Bundan əlavə, bəzi əsas səhiyyə göstəriciləri, məsələn, yod çatışmazlığı ilə əlaqədar pozuntulara dair (YÇP) məlumatlar ya heç məlum deyil, ya da yalnız qadınlara məlumdur (məs., anemiya). Anemiya ilə əlaqədar 2005-ci ilin DSK-nın məlumatları bütün əhaliyə, o cümlədən, uşaqlara deyil, yalnız hamilə qadınlara aiddir. Cinslər üzrə ayrı-ayrı regional məlumatları da əldə etmək mümkün deyil, və bu da daha geniş tədqiqatlar aparılmasının coğrafiyasını və müdaxilə dairəsini məhdudlaşdırır. Odur ki, effektiv siyasət qurmaq və effektli proqramları həyata keçirmək üçün həm kişilər, həm də qadınlar haqqında dəqiq, geniş məlumat ala bilmək işini yaxşılaşdırmağın çox böyük əhəmiyyəti var.

Bununla belə, həm Dövlət, həm də digər mənbələrdən alınan məlumatlar narahatlıq doğuran bir sıra məsələlərdə (məsələn, qadınlar və uşaqlar arasında anemiya hallarının yüksək səviyyəsi, contraseptiv vasitə kimi abortdan çox geniş surətdə istifadə edilməsi, anaların aşağı sağlamlıq göstəriciləri, uşaqlar arasında pis qidalanmanın həyəcan doğuran yüksək səviyyəsi, və yeniyetmələr və 5 yaşdan aşağı uşaqlar arasında ölüm hallarının yüksək həddə olması) üst-üstə düşür. Azərbaycanda kişilərin sağlamlığı ilə əlaqədar məlumatlar ümumiyyətlə çox azdır, lakin əldə edilən məlumatlar göstərir ki, alkoqol və narkotik maddələrə aludə olanların və vərəmə yoluxanların sayı artıb. İİV/QİÇS hallarının artması və qadınlara qarşı zorakılığın yüksək səviyyədə olması aşağıda ayrıca yarımfəsillərdə müzakirə ediləcək. Son on ildə dövlətin səhiyyəyə ayırdığı xərclərin xeyli dərəcədə azalması həm tibbi yardımın əldə edilməsi imkanlarının, həm də bu xidmətlərin keyfiyyətinin aşağı düşməsinə, eləcə də xəstələrin müvafiq tibb xidmətlərindən yararlana bilmələrinin müqabilində öz ciblərindən böyük miqdar pul xərcləməyə məcbur olmalarına gətirib çıxarıb (Diaqram 6).

**Diaqram 6. Hökumətin səhiyyəyə ayırdığı xərclər, Ümumi daxili məhsula görə %-lə, 1990-2004**




*Mənbə:* DSK: Sorğuya əsasən təqdim edilib.

## 1. Ana ölümü əmsalı (AÖƏ)

Rəsmi Dövlət statistikası AÖƏ-nın 1990-cı illərin əvvəlindən (1992-ci ildə hər 100 000 doğuşa 17,6) 1994-cü ildə ən yüksək həddə (43,8) çatmasını və 2003-cü ildə yenidən bu həddin aşağı enməsini (18,5) göstərir. Lakin narahatlıq doğuran odur ki, nə ölüm həddinin ölçüləri, nə də son məlumatlar hər hansı bir siyasət və proqram hazırlanması üçün kifayət qədər dəqiq deyil, xüsusilə də rəsmi statistika ilə sorğunun nəticələri arasındakı açıq fərqlər nəzərə alınarsa (UNICEF/DSK 2000: 45, DSK 2004: 142). Məsələn, 1988/89-cu illərin rəsmi statistikası AÖƏ-nın hər 100 000 doğuş üçün 28,6 olduğunu göstərir, lakin həmin dövrün məlumatlarını təftiş edən UNICEF ÇGKS bu rəqəmin 79 olduğunu aşkara çıxarıb, və bu da rəsmi rəqəmlərdən 3 dəfə çoxdur. Dövlət informasiya sistemində hadisələrə düzgün qiymət verilməməsini göstərmək məqsədilə UNICEF, BMT-nin Əhali Fondu və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ana ölümü əmsalının 37,6 (DSK 2005a: 22) olduğunu göstərən rəsmi məlumata tam zidd olaraq hər 100 000 doğuşda ana ölümünün 94 nəfər (AİB 2005b) təşkil etdiyini müəyyənləşdirmişdir.

Belə uyğunsuzluqlar dövlət səhiyyə sistemində hesablama sisteminin zəifliyini ( məsələn, ölüm hallarının hesaba alınmasında səhvlərə yol verilməsi) və bəlkə də rəsmi statistikanı tərtib edən dövlət vasitələrindən istifadə edilməsində baş verən geriləməni göstərir. Anaların səhiyyə xidmətlərindən istifadə etmək imkanlarının və bu xidmətlərin keyfiyyətinin aşağı düşməsi və eyni zamanda qeyri-rəsmi "qiymətlərin" artması evdə doğanların sayının artmasına və xüsusilə də kənd yerlərində, ənənəvi doğuş xidmətlərindən istifadə edilməsinə yol açıb. Evdə doğuş zamanı baş verən ölüm hadisələri haqqında, görünür, çox vaxt hər hansı bir məlumat verilmir (Dünya Bankı 2003: 18). Məsələn, 2000-ci ildə UNICEF ÇGKS aşkara çıxarmışdı ki, doğuş hallarının 87,5%-də ixtisaslı yardım göstərilsə də, varlı və yoxsullara, yerli əhali və məcburi köçkünlər/qaçqınlara, şəhər və kənd qadınlarına bu yardımın göstərilməsində əhəmiyyətli dərəcədə uyğunsuzluq müşahidə olunub (Diaqram 7). 2001-ci ildə Reproduktiv Sağlamlığın Müayinəsinin nəticələrinə görə kənd qadınlarının demək olar ki, 36%-i evdə doğub, bu da şəhər qadınlarından iki dəfə çoxdur. Evdə doğuş halları az təhsilli və ya aşağı sosial-ekonomik statusa malik olan qadınlar (müvafiq olaraq

39% və 36%), köçkünlər/qaçqınlar və köçkün/qaçqın olmayan, lakin münaqişə zonalarında yaşayan (41% və 35%) və hamiləlik dövründə həkim qayğısından məhrum olan qadınlar (48%) arasında nisbətən yüksək səviyyədədir (ABŞBİA/XNM/UNFPA və b. 2003: 79-80).

Erkən hamiləlik, yəni yaşı 20-dən az olan qadınların hamiləliyi, hələ yetkinləşməmiş gənclərin fizioloji və fiziki sağlamlıqları üçün təhlükə yaradır, həm ananın, həm də dölün qidalanmasına təsir göstərir, çünki onların hər ikisi böyümək üçün mübarizə aparmalı olur. Erkən hamiləlik təhlükəsi azçəkili uşaqların doğulması, vaxtından əvvəl doğuş, ölü uşaqların doğulması, doğuş travmaları (beyin-çanaq zədələnməsi), beyinə qan sızması, anemiya və ölümə səbəb ola bilir (AİB 2005b: 5). Erkən hamiləlik gənc qızların təhsil almalarına da pis təsir göstərir və onların iş seçmək və pul qazanmaq imkanlarını məhdudlaşdırır.

**Diaqram 7. Son ildə doğan 15-49 yaşlı qadınlara doğuş zamanı yardım göstərilməsi (2000)**




*Mənbə:* UNICEF/DSK, 2000: 45.

Reproduktiv sağlamlığın müayinəsi (2001) hazırda 40-44 yaşı olan qadınlar arasında 20 yaşa çatmamış hamiləlik keçirənlərin 12%-dən 20-24 yaşlılarda 22%-ə qədər artmasını göstərir (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 32). Nəzərə alsaq ki, ilk hamiləliklərin 86%-i məcburi abort yolu ilə kəsilir, onda gənclərin dörddə birinin 20 yaşdan əvvəl hamiləlik keçirdiyini güman etmək olar (AİB 2005b: 5).

Aydın bir nəticəyə gəlmək üçün həm AÖ halları, həm də qadınların doğuşdan əvvəl və sonra keçdiyi həkim nəzarəti (o cümlədən mamaça) daha yaxından və müntəzəm olaraq araşdırılmalıdır. Belə araşdırmaların aparılıması gələcək YASS üçün effektiv və məqsədyönlü siyasət və proqramların hazırlanması işində cox böyük əhəmiyyətə malikdir. Aydındır ki, məlumatların toplanması və təhlili sahəsində həm dövlət, həm də yerli hakimiyyətlər səviyyəsində imkanların yaradılması tələb olunur və bu iş müsbət nəticələrin (mümkün qədər dəqiq) təqdim olunmasına yönəlməlidir.

## 2. Körpələr və 5 yaşdan aşağı uşaqlar arasında ölüm səviyyəsi

Rəsmi məlumatlar 5 yaşdan aşağı uşaqlar arasında ölüm hallarının azalmasını göstərir, lakin AÖƏ-da olduğu kimi, burada da alternativ qiymətləndirmələr və evlərdə aparılan sorğulardan belə bir nəticəyə gəlmək olar ki, bu yaxşılaşma səhiyyənin əsil vəziyyətinin yaxşılaşmasının sübutu deyil, məsələ hesabatlarda rəqəmlərin azaldılmasında və eləcə də diri doğulan uşaqların müəyyən edilməsində yol verilən fərqlənmələrdədir. Məsələn, 1991-2000-ci illər ərzində rəsmi məlumatlarda hər 1000 nəfər diri doğulan uşaq üçün ölüm həddi orta hesabla 4,2 rəqəmi göstərilirdisə, Azərbaycan RSM (2001) bu rəqəmin orta hesabla hər 1000 nəfər diri doğulan üşaq üçün 38,1 olduğunu müəyyənləşdirmişdi (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 103). Doğuşdan sonra ölüm və körpə ölümü hallarını müqayisə edərkən də belə uyğunsuzluqlara rast gəlinmişdi (Cədvəl 6). Təəssüf ki, nə rəsmi statistika, nə də RSM cinslər üzrə ayrıca heç bir məlumat vermir.

Erkən doğuş zamanı ölüm hallarına əlavə olaraq, kəskin respirator infeksiyalar (xüsusilə də sətəlcəm), bağırsaq pozuntuları və digər yoluxucu xəstəliklər körpə və uşaq ölümünün əsas səbələrindəndir. Pis qidalanma infeksiyaları daha da ağırlaşdırır və buna görə də uşaq ölümlərinin əsas səbəblərindən hesab edilir, o mənada ki, əgər bu uşaqlar pis qidalanmasaydılar, ölüm hadisələri baş verməyə bilərdi. ÜST müəyyən edib ki, dünyada baş verən uşaq ölümlərinin yarıdan çoxu pis qidalanma ilə bağlıdır (AİB 2005b: 6).

**Cədvəl 6. Körpə, doğuş zamanı və doğuşdan sonra ölüm əmsalı (hər 1000 diri doğulan uşağa görə) rəsmi göstəricilər və Azərbaycanın Reproduktiv Sağlamlığının Müayinəsi arasında müqayisə, 2001**

| İl | Ölüm hallarının rəsmi göstəriciləri | | | Azərbaycanda Reproduktiv sağlamlığın müayinəsi | | |
|---|---|---|---|---|---|---|
| | Yeni doğulmuş uşaqlarda | Doğuşdan sonra | Körpələr arasında | Yeni doğulmuş uşaqlarda | Doğuşdan sonra | Körpələr arasında |
| 1991 | 5,3 | 19,6 | 25,0 | | | |
| 1992 | 4,5 | 21,5 | 26,0 | | | |
| 1993 | 4,6 | 24,0 | 28,6 | 41,2 | 44,7 | 85,9 |
| 1994 | 4,8 | 21,4 | 26,2 | | | |
| 1995 | 4,5 | 19,8 | 24,3 | | | |
| 1996 | 3,8 | 17,0 | 20,8 | | | |
| 1997 | 3,7 | 15,0 | 19,6 | | | |
| 1998 | 3,6 | 13,0 | 16,6 | 34,1 | 40,3 | 74,4 |
| 1999 | 4,0 | 12,6 | 16,5 | | | |
| 2000 | 3,2 | 9,6 | 12,8 | | | |
| **1991-2000** | **4,2** | **17,3** | **21,5** | **38,1** | **42,7** | **80,8** |

*Mənbə:* ABŞBİA/XNM/BMTƏF və b. 2003: 104.

### 3. Kontraseptiv vasitələrin yayılması və məlumatlılıq

Sovet İttifaqı dağılan zaman SSRİ-də kontraseptiv vasitələr 30%, Qafqazda və Orta Asiya respublikalarında bundan az, Şərqi Avropa Respublikalarında isə daha çox yayılmışdı. 1990-cı ilə qədər SSRİ-nin səhiyyə üzrə statistik məlumatlarında Azərbaycanda kontraseptiv vasitələrdən keçmiş respublikalara nisbətən ən az (7%) istifadə edildiyi göstərilirdi (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 135). Müstəqillik əldə edildikdən sonra kontraseptiv vasitələrə dair yalnız məhdud sayda sorğular keçirilib, və bunların arasında 2001-ci ildə Azərbaycanda Reproduktiv Sağlamlıq Sorğusu və UNICEF-in sorğusu (2000) daha tipikdir.

2001-ci ilin RSM-na əsasən qadınların təxminən hər dörd nəfərindən biri, o cümlədən 20-24 yaşlıların 85%-i, hamiləliyin qarşısının alınması barədə daha çox məlumat almaq istədiklərini bildirmişdilər. Bundan əlavə, Azərbaycanda evli qadınlar arasında kontraseptiv vasitələrdən istifadə edilməsi çox aşağı səviyyədə idi; evli qadınların yalnız 55%-i bildirmişdi ki, sorğu keçirilməzdən bir ay əvvəl hər hansı bir kontraseptiv üsuldan istifadə etmişdir və bu qadınların dörddə birindən azı (6%) müasir üsuldan, əsasən, uşaqlıq daxili vasitələrdən istifadə etmişdi (UDV) (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 137). Əhəmiyyətlidir ki, həmin qrupa daxil olanların 45%-i hamiləliyi effektiv surətdə məhdudlaşdırmaq üçün ehtiyaclarını ödəyə bilən vasitələri əldə edə bilmədiklərini bildirmişdilər (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 169).

Hamiləliyə qarşı vasitələrdən istifadə edən qadınların 78%-i yarımçıq cinsi akt kimi ənənəvi üsula üstünlük veriblər; onların 93%-i bildirib ki, bunun səbəbi kənar effektlərdən qorxmaları (90%), kontraseptiv vasitələrdən xəbərsiz olmaları (71%), bu vasitələrin qiyməti (61%), və onları əldə edə bilməmələridir (53%) (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 147). Onu da qeyd etmək vacibdir ki, hər hansı kontraseptiv üsuldan istifadə edilməsində partnyorun fikri əsas rol oynayır.Sorğuda iştirak edən qadınların təxminən yarısı (49%) bildiriblər ki, onlar müasir kontraseptiv vasitələrdən istifadə etmirlər, çünki onların partnyoru ənənəvi üsullara üstünlük verir (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 147). Lakin sorğuda iştirak edən qadınların təxminən yarısı (46,8%) deyib ki, onlar özlərinin menstrual dövrlərində hamiləliyin baş verə biləcəyi vaxtı bilmirlər və bu fakt və yuxarıda adı çəkilən faktorlar birlikdə nəzərə alınarsa, demək olar ki, qadınların nəsil artırma prosesinə nəzarət edə bilmə imkanları çox məhduddur.

### 4. Abort/Uşağın cinsinə görə seçmə abort

Azərbaycanda, digər keçmiş sovet respublikalarında olduğu kimi, məcburiyyət qarşısında abort son on ildə uşaq doğumu üzərində yeganə nəzarət forması olub. Rəsmi statistika abortların sayının əslində azaldığını bildirsə də, alternativ məlumət mənbələri abort səviyyəsinin hələ də çox yüksək olduğundan xəbər verir, lakin özəl sektorda, eləcə də xəstəxanadan kənar yerlərdə həyata keçirilən abortlar hesaba alınmır. Rəsmi məlumatlara görə 1998-ci ilin mayından 2001-ci ilin aprelinə qədər olan müddət ərzində 15-49 yaş arasında olan hər qadına 0,3 abort düşdüyü göstərilsə də, RSM bu rəqəmin hər qadın üçün 3,2 olduğunu bildirir, yəni hər diri doğulan üşaq müqabilində üç abort edilir. Təəssüf ki, bu

iki məlumatı müqayisə etmək üçün məcburiyyət qarşısında abortlar üzrə heç bir nümunə sorğusu keçirilməyib və reproduktiv sağlamlıq siyasəti və proqramları üçün gələcəkdə prioritet təşkil edə biləcək bu məsələ barədə məlumat vermək mümkün deyil.

Əhalinin sayına dair son məlumatlarda rast gəlinən böyük uyğunsuzluq uşağın cinsinə görə seçmə abortların həyata keçirildiyini güman etməyə əsas verir. 2003-cü ilin RSM-nin məlumatı 0 yaşlılarda (yeni doğulan uşaqlar) qızlar və oğlanların sayı arasında böyük fərq olduğunu göstərir: 46,0% qız və 54% oğlan, bu fərq 1-4 yaşlılar arasında da əks olunur ( 46,3% qız və 53,7% oğlan). Uşaq ölümü əmsalı nəzərə alınsa belə (bu sahədə cinslər üzrə heç bir məlumat əldə etmək mümkün olmayıb) qızlar və oğlanlar nisbətində belə böyük fərqin olmasının gələcəkdə qiymətləndirilməyə ehtiyacı var. Bu fərq 0-4 yaşlılar arasında 259 500 qıza nisbətdə 301 400 oğlan, yəni qızların 41 900 nəfər az olduğunu əks etdirir. Maraqlıdır ki, oğlanlar və qızların sayı arasındakı tarazlıq 10-14 (48,6% qız və 51,4% oğlan) və 15-19 (48,8% qız və 50,2% oğlan) yaşlarında daha düzdür, və bu da o deməkdir ki, doğulan oğlan uşaqlarının sayının çox olmasına meyl son vaxtlar baş verir (DSK 2005a: 14). Son bir neçə il ərzində diri doğulan uşaqlar arasında gender fərqləri də çox əhəmiyyətlidir. Məsələn, 2004-cü ildə 60 600 qız və 71 009 oğlan uşağı diri doğulmuşdu (45,9%-ə nisbətdə 54,1%) (DSK 2005a: 24).

### 5. Zəif qidalanma

Zəif qidalanma Azərbaycanda əsas məsələlərdən biridir. Bu problem yoxsullar arasında daha kəskin olsa da, get-gedə əhalinin daha imkanlı təbəqələrində də aydın görünür. Xüsusilə də xroniki enerji çatışmazlığı (və ya aşağı çəki) və anemiya (qanazlığı) azçəkili uşaqların doğulmasının və ana ölümünün başlıca səbəblərindəndir. Uşaqdoğma yaşında olan qadınlar arasında anemiya halları Azərbaycanda çox yüksək həddədir, və bu həm ananın, həm uşağın sağlamlığına, həm də nəsil artımına təsir göstərir. Bir daha qeyd edilməlidir ki, DSK-nın və RSM-nin gətirdiyi rəqəmlər arasında uyğunsuzluqlar çox böyükdür, lakin hər iki göstərici bu problemə ciddi diqqət yetirilməsi üçün kifayət qədər yüksəkdir. 2004-cü ildə DSK müəyyən etmişdi ki, bütün hamilə qadınların 17,3%-də anemiya aşkara çıxarılıb (DSK 2005a: 43). Bunun müqabilində bütün ölkədə uşaqdoğma yaşında olan 1 906 qadını müayinə edən RSM bu rəqəmin bütövlükdə 40% olduğunu aşkara çıxarmışdı: müayinə edilmiş hamilə qadınların 38,4%-i, hamilə olmayanların 40,2%-ində anemiya var idi. Ölkənin Mərkəzi və Cənub bölgələrində bu göstəricilər daha yüksək idi (müvafiq olaraq 54,1% və 49,0%) (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 119-120). 2001-ci ildə hamilə qadınlarda dəmir çatışmazlığı anemiyası, rəsmi məlumata görə, 52,5% idi (AİB 2003: 2).

Uşaqların zəif qidalanması xüsusilə böyük narahatlıq doğurur və hazırda cins baxımından az da olsa ayrı-ayrı məlumat (yəni yalnız dövlət səviyyəsində) əldə etmək mümkün olsa da, bu məhdud göstəricilər Azərbaycanın bütün bölgələrində təcili tədbirlər görülməsini tələb edir. 2000-ci ildə UNICEF/DSK ÇGKS aşkara çıxarmışdı ki, 5 yaşdan aşağı bütün qızların 18,4%-nin və bütün oğlanların 15,3%-nin çəkisi normadan aşağıdır və beşdə biri (qızların 20,1%-i və oğlanların 19,2%-i) inkişafda geri qalırlar. 5 yaşdan aşağı bütün uşaqların demək olar ki, 8%-nin çəkisi normadan aşağıdır, ya da öz boylarına görə

çox arıqdırlar və bütün uşaqların 7%-i həddən artıq inkişafdan qalır (UNICEF/DSK 2000: 21) (Diaqram 8).

**Diaqram 8. Gəlir qruplarına görə çəkidə az, inkişafdan qalmış və zəifləyən uşaqlar (%-lə)**




*Mənbə:* UNICEF/DSK, 2000: 22.

Sorğu onu da aşkara çıxardı ki, çəkisi normadan aşağı olan və pis inkişaf edən uşaqlara kənd yerlərində şəhərlərə nisbətən daha çox rast gəlinir, lakin təəssüf ki, gender fərqlərini göstərən məlumatları əldə etmək mümkün olmayıb. Bakıda yaşayan uşaqlar qidalanmanın hər üç göstəricisinə görə (çəkiazlığı, inkişafda geri qalma, arıqlama) başqa bölgələrə nisbətən daha yaxşı qidalanırlar; Naxçıvanın, Qərb və Cənub-Qərb rayonlarının yoxsul bölgələrində uşaqların qidalanması ən pis vəziyyətdədir: burada hər beş uşaqdan biri çəkiazlığından, hər dörd uşaqdan biri həddən artıq zəiflikdən əziyyət çəkir. Daha yoxsul və məcburi köçkün/qaçqın ailələrində uşaqlar bütövlükdə pis qidalanırsa, orta gəlirli ailələrdə də pis qidalanma problemi kifayət qədər yüksək həddədir: 16,4% uşağın çəkisi normadan aşağıdır, 17,8%-i isə çox zəifdir (UNICEF/DSK 2000:22). Anaların savadlılıq səviyyəsi ilə qidalanmanın vəziyyəti arasında çox böyük əlaqə olduğu da aşkar edilib. Kollec və ya universitet təhsili görmüş anaların uşaqları aztəhsilli anaların uşaqlarından fərqli olaraq çəkiazlığından və zəiflikdən bir o qədər də əziyyət çəkmirlər (UNICEF/DSK 2000: 21-22).

Uşaqlarda anemiyaya dair məlumatların müntəzəm olaraq toplanmamasına baxmayaraq, UNİCEF/DSK ÇGKS 1-5 yaşlı Azərbaycan uşaqları arasında aşkara çıxardığı geniş yayılmış 31,8% rəqəmi göstərir ki, bu sahədə yoxlamalar erkən uşaqlıq dövrü səhiyyə xidməti proqramlarının gündəliyinə daxil edilməlidir. 1-2 yaş qrupuna daxil olan uşaqlar arasında anemiya ən yüksək həddədir (56,9%), və üst-üstə götürüldükdə, bu rəqəm dövlət üçün çox ciddi sağlamlıq problemi deməkdir (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 117). Azərbaycanda yod çatışmazlığına dair məlumatlar xüsusilə azdır, lakin 1999-cu ildə aparılan sorğu göstərdi ki, yüksək risk rayonlarında YÇP (yod çatışmazlığı pozuntuları) 86%-ə çatır (AİB 2003b: 2). Bundan əlavə, pis qidalanma və anemiyanın erkən təhsilin həyata keçirilməsi ilə sıx şəkildə əlaqədar olması göstərir ki, bu sağlamlıq problemi təhsil sektoruna da təsir edir.

Uşaq ishalı və kəskin respirator infeksiyalar (KRİ) Azərbaycanda uşaq ölümünün başlıca səbəbləridir. UNICEF/DSK ÇGKS 2000-ci ildə müəyyən etmişdi ki, sorğu

keçirilməzdən iki gün qabaq 5 yaşdan aşağı uşaqların 21,7%-i ishala tutulmuşdu; ən çox xəstəlik Naxçıvanda və məcburi köçkün/qaçqın ailələrində qeydə alınmışdı (26%) (AİB 2003b: 101). Xəstəliyə tutulmağa daha çox meyli olanlar ana südündən yenicə ayrılan uşaqlar olub; Azərbaycanda təkcə ana südü ilə əmizdirilmə müddəti orta hesabla cəmi 0,4 yaş olduğuna görə, bu, ən çox narahatlıq yaradan problemdir (AİB 2004a: 113). 2004-cü il üçün rəsmi statistika (DSK) 1-14 yaş qrupuna daxil olan qızlar və oğlanların başlıca ölüm səbəblərinin respirator sistemin xəstəlikləri olduğunu göstərir (DSK 2005a: 20-21).

## 6. Kişilərin sağlamlıq məsələləri

Azərbaycanda spirtli içkilər və narkotik maddələrdən asılılıq artır və ümumilikdə kişilər qadınlara nisbətən spirtli içkilərə və narkotik maddələrə daha çox meyillidirlər. DSK-nin verdiyi rəsmi məlumatlara görə hər 100 000 nəfər arasında spirtli içkilərdən asılılıq kişilərdə 16,2, qadınlarda isə 0,2-dir (DSK 2005a: 41). Lakin hamı yaxşı başa düşür ki, bu göstəricilər Azərbaycanda real vəziyyətdə olduğundan xeyli aşağıdır.Bir çox qadın kişilərin spirtli içkilərə aludə olmalarını "ailə" problemi hesab edir, çünki kişilərin spirtli içkilərlə bağlı zorakılığına məhz qadınlar məruz qalırlar. Hazırda Azərbaycanda spirtli içkilərə və narkotik maddələrə aludə olanlar üçün reabilitasiya və müalicə mərkəzləri məhdud saydadır. Kişilər həm də çox siqaret çəkirlər. 20-29 yaşlı kişilərin beşdə biri (22,9%-i), 30-39 yaşlı (55,0%) və 40-49 yaşlı kişilərin (57,2%) yarısı orta hesabla gündə 16 siqaret çəkir (DSK 2005a: 35). Bu problemin həllinə yönəlmiş xüsusi məqsədli tədbirlər görülməsi tələb olunur. Spirtli içkilər və narkotik maddələrə (o cümlədən, siqaretə) aludəliklə bağlı ictimaiyyətin maarifləndirilməsindən əlavə, məxfi məsləhət, müdafiə və müalicə mərkəzlərinin yaradılması əsas prioritetlər olmalıdır.

Azərbaycanda vərəm də kişilər üçün əsas sağlamlıq problemidir; doğrudur, qadınların da bu xəstəliyə tutulmaq ehtimalı var, lakin həm xəstəliyə yeni tutulanların və həm də davam edən aktiv vərəm hallarının böyük əksəriyyətini kişilər təşkil edir. Ciddi narahatlığa səbəb olan odur ki, administrativ məlumatlar xəstəliyin real əhatə dairəsini əks etdirmir. Bütün aktiv vərəm hallarının 79,6%-i kişilərin payına düşür və vərəmin əhatə dairəsi bütün yaş qrupları üçün üç dəfə çoxdur (DSK 2005a: 38).

Kişilərin digər mümkün sağlamlıq problemləri, o cümlədən, anemiya, yod çatışmazlığı pozuntuları, qidalanma səviyyəsi barədə məlumatın olmaması çox ciddi məsələdir və bu, müvafiq və effektiv proqramların hazırlanmasına əngəl törədir. Bu informasiya çatışmazlığı aradan götürülməli və səhiyyə xidməti sektorunda gender yönlü məlumatın toplanması və təhlili məsələlərinin yaxşılaşdırılması həm qadınların, həm də kişilərin məlumat toplularına və sorğuların hədəf gruplarına daxil olunmalarını təmin etməlidir.

## 7. Gender və İİV/QİÇS

2006-cı il iyunun 1-nə olan məlumata görə Azərbaycanda 982 İİV (*Red. qeydi*) halı qeydə alınmışdı. Qeydə alınmış halların 80%-ni kişilər təşkil edirdi və əldə edilən faktlar göstərir ki, müsbət İİV hallarının 45%-i ölkədən kənarda, başlıca olaraq Azərbaycan kişiləri

üçün iş tapmaq imkanı verən Rusiya və Ukraynada yoluxanlar idi. Bu o deməkdir ki, mühacirət (o cümlədən, iş tapmaqla əlaqədar müvəqqəti mühacirət) İİV təhlükəsini artırır. Xüsusi narahatlıq doğuran digər bir problem də son illərdə alver qurbanı olan qadın və qızların sayının artmasıdır; belə ki, onların çoxu aparıldığı ölkələrdə məcburi olaraq seks işlərinə cəlb edilir və bunun də nəticəsində İİV və cinsi əlaqələr yolu ilə keçən digər infeksion xəstəliklərə yoluxma təhlükəsinə məruz qalırlar.

Yoluxmanın ümumi səviyyəsi regionun qalan hissələri ilə müqayisədə az görünsə də, hamı razılaşır ki, əldə edilə bilən statistik göstəricilər problemin əsil vəziyyətini əks etdirmir, və əslində qadınlar arasında aktiv İİV hallarının sayı rəsmi göstəricilərdən xeyli çoxdur, bunun da səbəbi məxfi İİV testlərinin və məsləhət xidmətlərinin keçirilməsi imkanlarının olmamasıdır (UNAIDS/ÜST 2004: 1-2). UNAIDS/ÜST 2004-cü il göstəricilərinə görə 2800-ə qədər gənc və uşağın İİV-na yoluxduğu ehtimalı var; eyni zamanda qeyd edilir ki, bu, köhnəlmiş göstəricilərdir (UNAIDS/ÜST 2004: 1-2). ÜST-nın dəstəyi ilə 2003-cü ilin axırlarında keçirilən sorğuların nəticələri əldə edilmiş statistik rəqəmlərdən xeyli yüksəkdir. Narkotiklərdən iynə vurmaq yolu ilə istifadə edənlər arasında İİV-na yoluxma halları çox yüksəkdir (16,5%), o cümlədən paytaxt Bakıda 13%, Lənkəranda 19,5% (UNAIDS/ÜST 2004: 1-2).

İynə vurmaq yolu ilə narkotiklərdən istifadə edilməsi xəstəliyin yayılmasının başlıca yoludur (bütün halların 63%-i) (UNAIDS/ÜST 2004: 1-2). Azərbaycanda narkotik maddələrdən istifadə edənlərin sayı kifayət qədər yüksək (müəyyən edilmiş 300 000-400 000; bunların da 50-60%-i heroin vurduqlarına görə) olduğundan (UNAIDS/ÜST 2004: 2), İİV-nun artması potensialı çox güclüdür. Odur ki, dövlətin bir hədəf qrupu kimi iynə vürmaq yolu ilə narkotik qəbul edənlərə yönəlmiş preventiv tədbirlərinin gücləndirilməsi prioritet təşkil etməlidir.

1996-cı ildə Azərbaycan prezidenti "İİV/QİÇS-in yayılmasının qarşısının alınması haqqında Qanun" adlı Fərman imzaladı və bu fərmana əsasən qan donorları və digər bioloji məhlulların, orqanların, və bədən hissələrinin donorları məcburi olaraq İİV testindən keçməlidirlər. Məcburi siyasət qəbul edilsə də, könüllü olaraq testdən keçmək və xüsusilə də məsləhət almaq imkanları hələ də məhdud olaraq qalır. 2003-cü ildə ölkə əhalisinin yalnız 2,3%-i İİV testindən keçirilib (UNAIDS/ÜST 2004: 2).

Əhalinin İİV/QİÇS barədə məlumatlılığı çox aşağı səviyyədədir və bu məsələ Azəbaycanda problem olaraq qalır. Şəhərlərdə və rayon mərkəzlərində dəqiq məlumatların yayılması işində dəstəyə ehtiyac var. 2001-ci ildə keçirilən RSM aşkar etmişdi ki, Azərbaycan qadınlarının dörddə biri İİV/QİÇS haqqında heç nə eşitməyib və eşidənlərin isə yalnız beşdə biri bilir ki, bu xəstəlik heç bir simptom aşkara çıxarmadan da mövcud ola bilər. Xəstəlik haqqında məlumatsızlıq və onun düzgün başa düşülməməsi çox mühüm məsələdir; çünki xəstəliyin aşkar simptomları olmadan da mövcud ola bilməsindən xəbərsiz olan qadınlar İİV-na yoluxmuş, lakin tamamilə sağlam görünən adamla cinsi əlaqəyə girməklə özlərini təhlükə qarşısında qoya bilərlər. Preventiv ölçülərə gəlincə, hər on iki qadından yalnız biri xəstəliyə yoluxmamaq üçün hamiləlikdən qorunma vasitəsindən (prezervativdən)

istifadə edilməsinin mümkün olduğunu bildirib, qadınların 3%-dən azı İİV testini preventiv tədbirlərlə eyniləşdirib, qadınların 72%-i İİV infeksiyasının qarşısının alınması üçün heç bir təsirli üsulun adını çəkə bilməyib, və 1%-dən azı üç və üçdən çox preventiv tədbir bildiyini söyləyib (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 282-283).

Sorğunun nəticələrində o da qeyd edilir ki, Azərbaycanda xüsusi bir qrupa daxil olan qadınlar da var ki (buraya nisbətən gənc qadınlar, kənddə yaşayanlar, az təhsilli və aşağı sosial-ekonomik səviyyəli, və cinsi məsələlərdə təcrübəsi az olan qadınlar daxildir), onların İİV/QİÇS yoluxmaları və preventiv tədbirlər haqqında savadı çox azdır. Bu o deməkdir ki, ümumilikdə dövlətin verdiyi məlumat və şüurluluğun artırılması kampaniyaları əhəmiyyətli olsa da, onların hədəfi bu spesifik qruplar olmalı və bunun üçün müvafiq strategiyalar hazırlanmalıdır. Məsələn, nisbətən gənc və cinsi münasibətlər baxımından təcrübəsiz qadınlarda şüurluluğun az olması göstərir ki, təhsil sistemi məlumatın yayılması və maarifləndirmə işində böyük rol oynaya bilər.

## 8. Genderlə bağlı zorakılıq

Azərbaycanda genderlə bağlı zorakılıq (Qadınlara qarşı zorakılıq - QQZ) hələ də "şəxsi" məsələ hesab edilir; bu barədə nadir hallarda açıq danışılır, və o çox vaxt gizlədilir. Xüsusilə də qadınlar və kişilərin çoxu məişət zorakılığını, o cümlədən, psixoloji zorakılığı və ərlərin zor işlətmələrini elə bir cinayət hesab etmir ki, bunun üçün ictimaiyyətin bu sahədə şüurluluğunu artırmağa və məsələni ictimaiyyətin diqqət mərkəzinə çıxarmağa ehtiyac olsun. Beynəlxalq Xilasetmə Komitəsinin (BXK) 2004-cü ildə apardığı araşdırmalar aşkara çıxarmışdı ki, qadınlara qarşı zorakılıq barədə suallara verilən ilk reaksiya cavab verməkdən imtina etmək olurdu, bunun da səbəbi həm utancaqlıq hissi, həm də bəzi zorakılıq növlərinin, xüsusilə də intim partnyorların zorakılığının (məs., vurmaq, döymək) normal hesab edilməsi fikrinin geniş yayılması idi (BXK 2004: 11).

Bu səbəbdən də məsələ barədə dəqiq məlumatların əldə edilə bilməsi inanılan deyil. Məsələn, Ədliyyə Nazirliyinin hesabatlarında belə halların sayınnın çox az olması qadınların zorakılıq halları haqqında məlumat vermək istəməmələrini göstərir. 2002-ci ildə qadınlara qarşı 317 zorakılıq hadisəsi qeydə alınmışdı, 2003-cü ildə isə bu rəqəm cəmi 289 idi. 2000-ci ildə Azərbaycanda yalnız 39, 2003-cü ildə isə 46 zorlama hadisəsi qeydə alınmışdı. (BXK 2004: 11). Çoxları bildirir ki, xəcalət çəkməkdən və belə cinayətlər barədə xəbər vermək qorxusundan əlavə, məlumat vermə prosesi mürəkkəb və üzücüdür, polis, tibb işçiləri və məhkəmə prosedurlarından bir o qədər də kömək və dəstək yoxdur. Üstəlik də, məxfiliyin saxlanmaması, xüsusilə də kənd yerlərində, qadınlarda xəcalət hissini və onların cəmiyyətdən uzaqlaşmalarını daha da artırır.

Rəsmi məlumatların az və etibarsız olduğunu nəzərə alaraq bir sıra beynəlxalq təşkilatlar problemin miqyasını daha yaxşı qiymətləndirmək və müvafiq proqramlar hazırlamaq məqsədilə son illərdə bəzi araşdırmalar aparıblar. Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (ABŞBİA) və BMTƏF/BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMTQAK) dəstəyi ilə 2001-ci ildə keçirilən RSM aşkar etmişdi ki, sorğuda iştirak edən

7 668 qadın respondentlərin təxminən 30%-i öz partnyorları və ya keçmiş partnyorları tərəfindən söyüşlərə, 25%-i fiziki təhqirlərə və 10%-i seksual təhqirlərə mərüz qaldıqlarını bildimişdilər; onların 84%-i isə bir neçə cür (məsələn, həm söyüş, həm də fiziki/seksual) təhqirə məruz qaldığını söyləmişdi (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 293). Pathfinder International təşkilatının Azərbaycanın altı rayonunda apardığı araşdırmalar zamanı sorğuda iştirak edən 178 respondentin 28%-i sorğudan əvvəlki ay ərzindən ya əri ya da partnyoru tərəfindən fiziki zorakılığa məruz qaldığını, 5%-i isə belə hadisələrin həmin ay ərzində beş dəfədən də çox baş verdiyini bildirmişdi (BXK 2004:11). Eyni sorğu nəticəsində məlum olmuşdu ki, evli qadınların 43%-i hazırkı qohumluq əlaqələrində fiziki əziyyətə məruz qalır (BXK 2004: 4).

Dövlət qadınlara qarşı zorakılıq məsələsinə çox ləng reaksiya verir, və müxtəlif hökumət sənədlərinin, o cümlədən, "Azərbaycan Respublikasında qadın problemlərinə dair dövlət proqramının həyata keçirilməsi"nə dair 2000-ci il Prezident fərmanının bu problemi qaldırmasına və onu həll etmək üçün müvafiq fəaliyyətləri müəyyənləşdirməsinə baxmayaraq, maliyyə və insan resurslarının kifayət qədər olmaması bu proqramların dövlət səviyyəsində hələ də həyata keçirilmədiyini göstərir. Hazırda zorakılıq qurbanları üçün hökumət tərəfindən dəstəklənən məsləhət xidmətləri, qadınların sığınacaq tapa biləcəkləri təhlükəsiz evlər və ya qadınlara qanun prosedurlarından keçə bilməkdə yardım edəcək pulsuz hüquqi xidmətlər şəbəkəsi yoxdur. Qanunlara nəzarət edən orqanlar üçün işçilərin hazırlanması çox aşağı səviyyədədir, və QHT-lər və BMT agentlikləri tərəfindən əlavə treninqlər keçirilsə də, bu, dövlət polisinin yalnız kiçik bir hissəsini əhatə edə bilmişdir.

Qanunvericilik səviyyəsində əhəmiyyətli dərəcədə gerilik qalmaqdadır.Cinayət Məcəlləsində (Maddə 109) qadınların zorlanması və ya seksual təhqirə məruz qalmasına görə 3-7 il həbs cəzası nəzərdə tutulsa da, bu Məcəllədə ər tərəfindən zorlanmaya görə xüsusi bir maddə yoxdur. Təəssüf ki, polisə xəbər verilən hadisələr və məhkəmədə baxılan hallara dair statistikanı asanlıqla əldə etmək mümkün deyil və buna görə də məhkəmə proseslərinin effektivliyini qiymətləndirmək çox çətindir.

QHT-lər öz təşəbbüsləri ilə qadınlara qarşı zorakılıqla əlaqədar fəaliyyət göstərirlər, lakin onlara hələ də vəsait çatışmır və bu təşəbbüslər yarımçıq xarakter daşıyır. "Simmetriya", Miqrantlara Hüquqi Yardım Mərkəzi, Pathfinder International və Azərbaycan Sosioloji Assosiasiyası kimi bir sıra təşkilatlar bəzi keyfiyyət tədqiqatları aparsalar da, onların əldə etdikləri nəticələr çox geniş yayılmayıb. Bəzi geniş əsaslı məlumat və şüurluluğun artırılması kampaniyaları, o cümlədən Psixoloji Məsləhət Mərkəzinin bir sıra televiziya reklamları və ABŞBİA-nin dəstəyi ilə World Learning and Internews tərəfindən dövlət xidmətlərinin elanları həyata keçirilib. Hazırda Gənc Hüquqşünaslar Birliyi və Qadınların Krizis Mərkəzi qadınları hüquqi yardımla təmin edir, qaynar telefon xətti ilə hüquq məsləhətçiləri qadınlara öz məsləhətlərini təqdim edirlər.

## C. Tövsiyələr

Aşağıda təhsil və səhiyyə xidmətlərinə dair tövsiyələr verilir.

**1. Təhsil**

- Kişilərin/Qadınların təhsilə cəlb edilməsi, davamiyyəti və ibtidai və orta məktəb səviyyəsində aldıqları bilikləri müntəzəm olaraq qiymətləndirmək və ortaya çıxan boşluqları və problemləri həll etmək üçün lazımi siyasət və proqramlar hazırlanmalıdır.
- Qadınların ali təhsilə az cəlb olunmalarının səbəbləri qiymətləndirilməli və bu problemlə məşğul olmaq üçün müvafiq strategiyalar hazırlanmalıdır.
- Azyaşlı uşaqlara qayğı müəssisələrinin, o cümlədən məktəbəqədər müəssisələrin genişləndirilməsini təmin etmək üçün əlavə ehtiyatlar (insan və maliyyə) cəlb edilməlidir.
- Gender üzrə şüurluluğun artırılması məsələsi müəllim hazırlığı proqramlarının hamısına (erkən uşaq, ibtidai, orta və ali təhsil) vacib bir komponent kimi daxil edilməlidir.
- Qadınlar və kişilərin rolu haqqında yaranmış stereotip fikirləri məktəb proqramlarından və dərsliklərdən çıxarmaq məqsədi ilə onlar təftiş edilməli və elə rəftar normaları aşılanmalıdır ki, gender bərabərsizliyi və genderlə bağlı zorakılıq bağışlanmaz və yolverilməz bir hal kimi qəbul edilsin.
- Peşə təhsili və digər ali təhsil proqramlarının əmək bazarındakı tələbata uyğun gəlməsi üçün əmək cəbhəsində tələbat (o cümlədən, gender maneələri) müntəzəm olaraq öyrənilməlidir.
- Təhsil sektorunun idarə edilməsi üçün məsuliyyət daşıyan mərkəzi və bələdiyyə idarələrinin bütün səviyyələrində gender baxımından ayrı-ayrı məlumatların toplanması, təhlili və təqdim edilməsi üçün institutlaşdırma potensialı (məs., müntəzəm treninqlər yolu ilə) hazırlanmalıdır.

**2. Səhiyyə xidməti**

- Hamilə qadınlara, gənc analara və onların ailələrinə doğuşdan əvvəl və sonrakı qayğı, eləcə də, döşlə əmizdirmə və pəhriz, müvafiq mikro-qidalı əlavələr, doğuşlararası interval, immunlandırma və yeni doğulmuş körpələrə əsas qayğı barədə məlumat verə biləcək İlkin Səhiyyə Xidməti proqramları gücləndirilməlidir.
- (i) ishal və kəskin respirator xəstəliklər kimi geniş yayılmış halların aradan qaldırılması, (ii) immunlandırma və mikro-qida çatışmazlığının qarşısının alınması və ona nəzarət kimi preventiv səhiyyə xidmətlərinin təqdim edilməsi, (iii) körpələrin və kiçik uşaqların yedizdirilmə, o cümlədən, döşlə əmizdirilmə təcrübələrinin həyata keçirilməsi və (iv) analara qayğı (doğuşdan əvvəl, doğuş zamanı və doğuşdan sonra) təmin edilməsində təcrübələrini artırmaq üçün lazımi və müvafiq treninq və nəzarətin təmin edilməsi ilə səhiyyə sektorunda işçi qüvvəsi (o cümlədən, səhiyyə işçilərinin ön cəbhəsi) hazırlanmalıdır.
- Kontraseptiv vasitələr sahəsində şüurluluğu, bu vasitələrin əldə edilməsi və maddi cəhətdən alına bilinməsi haqqında məlumat verən ailə planlaşdırılması

xidmətləri genişlənməli, erkən hamiləliklərin sayı və abortdan kontraseptiv üsul kimi istifadə edilməsinin müntəzəm monitorinqi keçirilməli və bu problemlə lazımi şəkildə məşğul olmaq üçün proqramlar hazırlanmalıdır.

- Uşaqların cinsi ilə bağlı abortların həyata keçirilib-keçirilmədiyini müəyyən etmək üçün qız və oğlan uşaqlarının doğulmasının müntəzəm olaraq monitorinqi keçirilməli və buna müvafiq tədbirlər hazırlanmalıdır.
- Uşaqların xəstəlikləri və ölümü və gənclər arasında zəif qidalanma (yod çatışmazlığı pozuntuları, anemiya) məsələləri ilə məşğul olmaq üçün icmalar və ailələr arasında həm preventiv, həm də müalicəvi sağlamlıq tədbirləri görülməlidir.
- Bütün rayonlarda və bütün gəlir qruplarında (o cümlədən, köçkün/qaçqınlar) qızlar və oğlanlar arasında uşaq immunlaşdırılmasının qiymətləndirilməsi həyata keçirilməlidir ki, əsas maneələr və problemlər müəyyən edilsin.
- Müntəzəm olaraq səhiyyə xidmətlərindən yararlanmaq imkanlarının keyfiyyətinin ondan istifadə edənlər tərəfindən (qadınlar/kişilər) qiymətləndirilməsi aparılmalıdır ki, yeni siyasət və proqramlar bu barədə daha yaxşı məlumat əldə edə bilsin.
- İİV/QİÇS və CYYX-lara yoluxa bilmə baxımından "yüksək risk" qrupuna daxil olan kişi və qadınlar müəyyən edilməli və hədəfə götürülməli və bu hədəf qrupları üçün müvafiq siyasət və proqramlar (məs., müvafiq tədris və informasiya proqramları, xüsusi təyinatlı işçilər və müalicə xidmətləri) hazırlanmalıdır.
- Bakıda və bölgələrdə pulsuz və məxfi İİV/QİÇS testlərinin keçirilməsi imkanları yaxşılaşdırılmalı və qadınların xüsusi ehtiyaclarını nəzərə alan şərait (məs., qadın həkimlər/tibbi heyət) təmin edilməlidir.
- Gender zəminində zorakılığa (o cümlədən, insan alverinə) qarşı dövlətin maarifləndirmə kampaniyaları dəstəklənməli (məs., məktəblərdə, universitetlərdə, hökumət idarələrində) və zorakılıq qurbanları üçün müvafiq effektiv müdafiə sistemi, o cümlədən, krizis mərkəzləri, təhlükəsiz evlər, məsləhət xidmətləri və xüsusi təyinatlı xidmətlər yaradılmalıdır.
- Qadınlara qarşı zorakılığa və qadın alverinə dair qanunların effektiv surətdə işləməsi təmin edilməlidir.
- Məhkəmə, hüquq, tibbi, sosial, təhsil, polis və miqrasiya heyətlərinin müntəzəm olaraq qadınlara qarşı zorakılığa gətirə bilən qüvvədən sui-istifadə hallarının qarşısını almağa dair treninq proqramları ilə təmin olunması müdafiə edilməli, bu heyətlərin diqqəti gender xarakterli zorakılığın təbiətinə yönəldilməlidir.
- Qadınlar və kişilər üçün müxtəlif səviyyələrdə, habelə müəssisələrdə, mərkəzi və yerli hökumət idarələrində, təhlükəsizlik qüvvələri daxilində, o cümlədən, polisdə, silahlı qüvvələrdə və mühacirət orqanlarında, təhsil müəssisələrində, kənd və şəhər qadınları arasında hüquq sahəsində savadlılıq üzrə treninq proqramları hazırlanmalı və dəstəklənməlidir.

**A. Gender və idarəetmə məsələləri**

Azərbaycanda qadınların siyasətdə və idarəetmə strukturlarında iştirakı hüquqi cəhətdən heç yerdə məhdudlaşdırılmasa da, keçid dövründə bu iştirak kəskin şəkildə aşağı düşüb. Doğrudur, belə bir fikir var ki, Sovet dövründə siyasi vəzifələrə çox sayda qadınların təyin olunması, xüsusilə də idarəetmənin yüksək eşelonlarında, onların nüfuzunun nisbətən aşağı səviyyədə olduğunu gizlədirdi, lakin bununla belə, 1989-cu ildə qadın təmsilçiliyi üçün 33% minimum müəyyən edən kvota sisteminə görə Azərbaycan Respublikasının Ali Sovetində deputatların 40%-ni qadınlar təşkil edirdilər. Müstəqilliyin 1-ci ilində, qadınların təmsilçiliyi aşağı endi və yalnız 6% təşkil etdi (Diaqram 9). 2004-cü ildə Milli Məclisin 125 üzvündən yalnız 13-ü qadın idi. Bələdiyyə səviyyəsində (burada da Sovet dövründə Zəhmətkeş Xalq Deputatlarının Rayon Şuralarında qadınlar üçün 33% kvota müəyyən edilmişdi) qadınların zəif təmsilçiliyi daha aşkar idi. 2004-cü ilin dekabrında keçirilmiş son bələdiyyə seçkilərində seçilmiş üzvlərin yalnız 4%-i qadınlar idi (Qadın Problemləri üzrə Dövlət Komitəsi: məlumat sorğu ilə əldə olunmuşdur).

**Diaqram 9. Parlamentin gender strukturu, 1975-2004**




z*Mənbə:* DSK 2005: 222.

Partiya siyasətində qadınların iştirakı son dərəcədə aşağıdır. Hal-hazırda qadın təmsilçiliyinin faiz nisbətini təmin edən kvota sistemi mövcud deyil. Partiya strukturlarında qərarqəbuletmə vəzifələrində qadınların belə az olması qadınların partiya siyahılarına daxil edilməsi və nəticədə Parlamentə seçilməsini şübhə altına alır. İki partiyada – Musavat Partiyası və Azərbaycan Milli İstiqlaliyyət Partiyasında – qadınlar qərar qəbuletmə orqanlarında vəzifələrin 20%-ni tuturlar; Azərbaycan Xalq Cəbhəsi Partiyasında bu rəqəm 15% və Azərbaycan Demokratik Partiyasında 9% təşkil edir (Qadın Problemləri üzrə Dövlət Komitəsi: məlumat sorğu ilə əldə edilib). Seçicilərin təqribən 50%-ni qadınların təşkil etməsinə baxmayaraq, əksər siyasi partiyaların platformalarında gender məsələləri sistematik olaraq əks olunmur və “əsas” seçki məsələsi kimi dərk olunmur.

Qadınlar aşkar olaraq partiyanın siyasi arenasına daxil olmaqda çətinlik çəkirlər, bunun səbəbləri məlum deyil və gələcəkdə araşdırmaların aparılmasını tələb edir. Bəzi

qadınlar siyasət meydanının "kişi" təbiətini və qadınların "öz səslərini" eşitdirmək üçün məkanın, eləcə də "qadın məsələləri" kimi qəbul edilən məsələlərin partiya daxilində dəstəklənməsinin məhdud olmasını qeyd edirlər. Digərləri qadınların siyasi proseslər haqqında bilik və məlumatlarının çatışmadığını bildirir və qadınların siyasətlə məşğul ola bilmələri üçün ixtisaslaşmış dəstək və təlimlərin keçirilməsini təklif edirlər. Bununla belə, bəziləri "ictimai" sahədə qadınların fəaliyyətini və xüsusilə axşamlar qadınların partiya iclaslarında iştirak etmək imkanlarını məhdudlaşdıran ənənə və adətlərin ortaya çıxmasını narahatlıqla qeyd edirlər; bundan əlavə həm ödənişli, həm də ödənişsiz (o cümlədən ev işləri) işlə məşğul olduqları üçün siyasətdə iştirak etməyə onların əlavə vaxtları olmur. Nəyahət qeydiyyatdan keçmək və seçki kampaniyası keçirmək üçün böyük məbləğ pul tələb olunur və bu da orta ailə gəliri yalnız minimal ehtiyaclarını ödəyən bir çox qadınların imkanlarından yüksəkdir.[11]

Hakimiyyətin yüksək səviyyələrində işləyən qadınların nisbəti kişilərlə müqayisədə çox aşağıdır; qadınların əksəriyyəti daha aşağı və ya inzibati (o cümlədən qərar qəbuletmədə olmayan) vəzifələri tuturlar. Cədvəl 7-də göstərildiyi kimi əhəmiyyətli dərəcədə gender disbalansı bütün nazirliklərdə mövcuddur: 636 yüksək idarəetmə vəzifələrindən 562-si və ya 88,4%-i kişilər tərəfindən tutulmuşdur. Hal-hazırda dövlət nazirliklərinin və komitələrinin 29 rəhbərindən yalnız biri qadındır: Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri (Qadın Problemləri üzrə Dövlət Komitəsi: məlumat sorğu ilə əldə edilib). Bundan əlavə, sektorlar səviyyəsində əhəmiyyətli seqreqasiya mövcuddur, belə ki, idarəetmə vəzifələrində olan qadınların az hissəsi Səhiyyə, Mədəniyyət və Sosial Müdafiə nazirlikləri ilə məhdudlaşırlar və bu sahələr Maliyyə, Vergilər və ya Daxili işlər sektorlarından fərqli olaraq "qadın" sektorları kimi qəbul olunur. Qadınların dövlət sektorunun idarəetmə vəzifələrinə qəbulu və ya idarəetmə potensialını nümayiş etdirmiş qadınların karyerasının sürətləndirilməsi fəal siyasətin gündəmində deyil, güman edilir ki, dövlət xidmətində idarəetmənin müasir piramidal strukturu yaxın gələcəkdə də mövcud olacaq.

Böyük disbalansların mövcud olduğunu etiraf edən Qadın Problemləri üzrə MFP (2000-2005) qadınların hakimiyyətdə iştirakını və təmsilçiliyini artırmaq məqsədilə qadınların hakimiyyətdə və qərar qəbuletmə prosesində iştiraklarının artırılması üzrə strateji məqsədi, qadınların hökumətin qərar qəbuletmə proseslərində bərabər iştirakının və qadınların bələdiyyə seçkilərində və siyasi partiyalarda fəal iştirakının təmin edilməsi kimi bir neçə tədbirləri daxil edir (QPDK 2000). Lakin hökumətin yüksək səviyyələrində və siyasi proseslərdə qadınların təmsilçiliyinin aşağı olmasını göstərən məlumatlara əsasən əvvəlcə bu məqsədlərə nail olmaq lazımdır və onları tətbiq etmək üçün daha konkret tədbirlər tələb ediləcək. Xüsusilə də MFP-nin fəaliyyəti üçün büdcənin olmaması QPDK-nın özünün əsas funksiyalarından kənar hər hansı bir fəaliyyət həyata keçirməsinə ciddi maneçilik törədir. Qadınların siyasətdə artan iştirakının və qərar qəbuletmə səviyyəsində təmsilçiliyinin təmin edilməsi hələ də donor dəstəyi üçün əsas məsələ deyil və indiyə kimi həyata keçirilmiş minimal fəaliyyət məhdud təsirə malik olmuşdur.

---

[11] Bu məlumat 2004-cü ilin oktyabrında ÖGQ kənd və şəhər ərazilərində aparılan iş zamanı qadınlarla fərdi müsahibələrə və qrup müzakirələrinə əsaslanır.

**Cədvəl 7. Hökumətdə qərar qəbuletmə vəzifələrində qadınlar və kişilər, 2004**

| **Nazirlik** | **Ümumi** | **Qadınların sayı** | **Qadınların kişilərə nisbəti, %-lə** |
|---|---|---|---|
| Səhiyyə Nazirliyi | 14 | 6 | 43 |
| Dövlət Statistika Komitəsi | 40 | 16 | 40 |
| Mədəniyyət Nazirliyi | 22 | 7 | 32 |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 25 | 6 | 24 |
| İqtisadi İnkişaf Nazirliyi | 17 | 4 | 23,5 |
| Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 9 | 2 | 22 |
| Yanacaq və Energetika Nazirliyi | 20 | 4 | 20 |
| Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 31 | 4 | 13 |
| Maliyyə Nazirliyi | 63 | 8 | 12,5 |
| Xarici İşlər Nazirliyi | 43 | 3 | 7 |
| Gənclər, İdman və Turizm Nazirliyi | 27 | 2 | 7,5 |
| Vergilər Nazirliyi | 30 | 2 | 6,5 |
| Kənd Təsərrüfatı Nazirliyi | 56 | 2 | 3,5 |
| Daxili İşlər Nazirliyi | 239 | 6 | 2,5 |
| Ümumi | 636 | 74 | 11,6 |

Qeyd: [a] Yalnız məlumat almaq mümkün olan nazirliklər daxil edilib.
*Mənbə:* Qadın Problemləri üzrə Dövlət Komitəsi: məlumat sorğu ilə əldə edilib.

## B. Gender məsələləri üzrə vətəndaş cəmiyyəti təşkilatları

Azərbaycanda qeydiyyatdan keçən QHT-lərin sayının qiymətləndirilmələri fərqlidir. 2002-ci ildə Ədliyyə Nazirliyi 1400 təşkilatı (onlardan 50-si özünü qadın QHT-ləri kimi təqdim etmişdir) qeydə alıb, lakin məlumdur ki, onların cüzi hissəsi fəaldır (ATƏT, 2002: 1). Bu təşkilatlar müxtəlif sektorlarda, o cümlədən ətraf mühit, humanitar yardım, MK və qaçqınlara yardım, küçə uşaqları və əlillərlə iş kimi geniş fəaliyyət spektrinə cəlb olunmuşdur. Bu yaxınlarda (2005-ci ilin sentyabrı) QHT-lərin sorğu kitabçası tərtib olunmuşdur və kitabçaya Azərbaycanda qeydiyyatdan keçmiş bütün QHT-lərin adları, ünvanları və iş sahələri daxil edilib. Qadın QHT-ləri bütün QHT sektorunun nisbətən az hissəsini təşkil edir və onlarən da fəaliyyəti QQZ, insan alveri və MK/qaçqınlar kimi müəyyən məsələlərdə cəmləşir.

Hökumət başa düşür ki, yoxsulluğun azaldılması və Azərbaycanda insan inkişafının göstəricilərinin yaxşılaşdırılması QHT-lər və vətəndaş cəmiyyəti qrupları ilə məsləhətləşmələr və əməkdaşlığın artırılmasını tələb edir. Hökumət icmaların və QHT-lərin nümayəndələrinin

2003-2005 YAİİDP-in hazırlanmasına cəlb edilməsi işində böyük səy göstərib və növbəti YADİDP-nin hazırlanmasında iştirak prosesinin daha da artırılacağı gözlənilir. Qadın QHT-lərin və ayrı-ayrı qadınların regional və icma səviyyəsində iştirakının artması daha böyük əhəmiyyət kəsb edəcək. AİB QHT Forumunun milli səviyyədə keçirdiyi məlumatlılığın artırılması sahəsində fəaliyyətini dəstəkləməklə YAİİDP-in Katibliyi vasitəsilə bu prosesə yardım edir.

QPDK tərəfindən hazırlanmış və gender məsələləri sahəsində hökumət üçün fəaliyyət çərçivəsi təmin edən Qadın Problemləri üzrə MFP inkişaf prosesində qadın QHT-lərin vacib rolunu təsdiq edir və onları inkişaf təşəbbüslərində daha geniş iştirak etməyə, eyni zamanda beynəlxalq qadın şəbəkələri ilə daha möhkəm əlaqələr qurmağa çağırır. QPDK həmçinin gender üzrə dövlət siyasətinin monitorinqi üçün həm hökumət, həm də QHT nümayəndələrindən ibarət Əlaqələndirmə Şurası da yaratmışdır.

Azərbaycanda qadın QHT-lərin sayının və fəaliyyət dairəsinin artmasına baxmayaraq, onlar böyük maneələrlə rastlaşırlar. Müvafiq maliyyə ehtiyatının çatışmazlığı əsas məsələdir. Bir çox qadın QHT-ləri hələ də onları maliyyələşdirə biləcək beynəlxalq və regional şəbəkələr yaratmalıdırlar. Qadın QHT-lərin fəaliyyətinə icmaların maliyyə dəstəyi yox dərəcəsindədir, və bu da yüksək səviyyəli donor dəstəyi olmadığı təqdirdə onların mövqelərini sarsıdır. Donor asılılığı həm də o deməkdir ki, QHT-lər öz fəaliyyətlərində icmanın xüsusi ehtiyacları ilə yanaşı, donor prioritetlərini də nəzərə almalı olurlar.. Ümumiyyətlə, maliyyə çatışmazlığı QHT-lər arasında olan böyük rəqabəti daha da artırır. Lakin qadın QHT-lərinin əksəriyyəti çox məhdud büdcə əsasında işləyirlər və yalnız könüllülərin dəstəyi ilə fəaliyyət göstərə bilirlər. İxtisasın artırılması proqramlarına böyük ehtiyac olsa da, həm maliyyə, həm də insan resurslarının çatışmazlığı bu təşkilatların daha geniş miqyaslı treninq və potensial yaradılması proqramlarının planlaşdırılması və həyata keçirilməsi imkanlarını məhdudlaşdırır.

Qadın QHT-lərin rolu və potensialı haqqında cəmiyyətdə və hökumətdə məlumat adətən məhduddur və bu da seçiclərlə əlaqələrin zəifləməsi ilə nəticələnir. Əsas işi QHT-lərin ictimai imicinin qiymətləndirilməsi olan ABŞBİA-nın 2003-cü il Azərbaycanda QHT-lərin Davamlılıq İndeksi üzrə apardığı icma sorğuları aşkar etdi ki, Azərbaycanda QHT-lər və onların fəaliyyəti haqqında ictimaiyyətin məlumatlılığı aşağı olaraq qalır. Əhalinin yalnız 22%-i onların icmasında QHT-lərin fəaliyyət göstərdiyindən xəbərdar olduqlarını bildiriblər. Bir çox QHT-lərin nümayəndələri bildiriblər ki, QHT-lərin və onların fəaliyyətini dəstəkləmək sahəsində kifayət qədər iş görülməmişdir və bəzi QHT-lərin veb-saytının olması, təbliğat broşüralarının dərc olunması və mətbuatın vasitələrinin müxtəlif növlərindən istifadə edərək təşkilatları haqqında məlumatları yaymasına baxmayaraq, belə mexanizmlərin effektivliyi və ictimaiyyətə çatdırılması məhduddur. Çətinliyin bir qismi də ondan ibarətdir ki, belə dəstəyin qorunub saxlanılması üçün tələb olunan rayon filialları və ya şəbəkələri yalnız bir neçə qadın QHT-lərdə var; onların əksəriyyəti Bakıda və böyük şəhər mərkəzlərində yerləşirlər. Regionlarda davamlı təmsilçilik, öz növbəsində maliyyə resursları tələb edir, bu da, qeyd olunduğu kimi, artıq dərəcədə məhduddur.

QHT-lərin fəaliyyəti üçün mühit yaxşılaşır, lakin qeydiyyat prosedurları uzun və

mürəkkəb ola bilər, vergi və xəzinə güzəştlərini təmin edən müvafiq hüquq strukturları məhduddur. QHT-lərin təşkilati potensialı geniş şəkildə fərqlənir və bu potensial beynəlxalq əlaqələri və şəbəkələri, tam ştat personalı, idarəetməni və məsuliyyəti əsas tutan aşkar liderlik strukturları və şəffaf maliyyə məsuliyyəti mexanizmləri olan Soros və Uşaqların Xilası Fondu kimi QHT-lərdə daha çox inkişaf etmişdir.

Bu yaxınlarda QHT-lər və xüsusilə də qadın QHT-ləri arasında əməkdaşlığın yaxşılaşdırılması sahəsində müəyyən səylər göstərilmişdir. Bir neçə müxtəlif QHT koalisiyaları, o cümlədən, qadın QHT-ləri daxil olmaqla 200-dən çox QHT üçün himayə təşkilatı və məsul orqan kimi fəaliyyət göstərən və beş rayonda bölməsi olan Milli QHT Forumu mövcuddur. Azərbaycan Gender İnformasiya Mərkəzi həmçinin seçilmiş ərazilərdə treninq proqramları keçirir və tədqiqatlar aparır. Lakin hal-hazırda nə hökumət/donor/QHT məşvərət mexanizmi, nə də genderlə bağlı fəaliyyət və məsələləri daha da məqsədyönlü əlaqələndirən və nəzərdə saxlaya bilən xüsusi forum və ya mexanizm yoxdur. Belə "gender məşvərət forumu" yalnız sektor səviyyəsində gender proqramı və siyasət məsələləri üzrə məlumat mübadiləsinin yaxşılaşdırılmasını deyil, həmçinin təcrübə mübadiləsi aparılması, fəaliyyətlərin təkrarlanmasının qarşısının alınması və beləliklə də proqram və layihələrin effektivliyinin yaxşılaşdırılmasını təmin edə bilər. O, həmçının qadın QHT-ləri arasında məlumat və əlaqələrin yaxşılaşdırılmasını əsas prioritet kimi müəyyən edən Hökumətin Qadın Problemləri üzrə MFP-ni dəstəkləyə bilər.

## C. Beynəlxalq inkişaf partnyorlarının töhfələri

On il ərzində müxtəlif beynəlxalq təşkilatlar gender bərabərliyi və genderin ümumi siyasətə daxil edilməsi təşəbbüslərini çox dəstəkləyiblər.[12] Birləşmiş Millətlər ailəsi çərçivəsində BMTİP, UNİFEM, UNİCEF, BMTƏF, ÜST, BMTQAK və Dünya Ərzaq Proqramı (DƏP) kimi genderin ümumi siyasətə daxil edilməsi təşəbbüslərini həyata keçirən əsas təşkilatlar müxtəlif rayonlarda, o cümlədən Bakıda QPDK-nın və qadın QHT-ləri potensialının yaradılmasını müdafiə ediblər. 2004-cü ildə BMTİP və Norveç Hökuməti Azərbaycanda Gender Münasibətlərinə dair İnsan İnkişafı üzrə Milli Hesabatın hazırlanmasını dəstəklədiklərini elan ediblər. Hesabat gender münasibətləri üzrə ilk milli tədqiqatın nəticələrini müəyyən edəcək və MDB məkanında aparılan ilk belə tədqiqat olacaq. Bu tədqiqat Azərbaycanda genderin rolu və gender münasibətlərinin təbiətini araşdıracaq, gender dəyərləri və münasibətləri üzrə milli müzakirələrin stimullaşdırılması üçün vasitə kimi istifadə ediləcək və gələcək siyasət və proqramların formalaşması prosesini informasiya ilə təmin edəcək. UNİFEM-in Azərbaycana yardımı əsasən onların "Qadınlar Cənubi Qafqazda münaqişələrin qarşısının alınması və sülh quruculuğu uğrunda" layihəsi ətrafında cəmləşir. 2001-ci ildə başlayan layihənin məqsədi Azərbaycan, Ermənistan və Gürcüstanda münaqişələrin transformasiyası və sülh quruculuğunda qadınların səylərinin dəstəklənməsinə yönəlib. Bu layihəyə əlavə olaraq, UNİFEM Pekin+10 prosesində müxtəlif konfrans və görüşləri dəstəkləmiş və həmçinin qadınlar üçün bərabər imkanların təmin edilməsinə və QPDK üçün potensialın yaradılmasına müəyyən dərəcədə yardım göstərmişdir.

---

[12] Bütün proqramları sadalamaq mümkün olmadığına görə, burda yalnız bir neçəsi qeyd olunacaq.

UNİCEF-in azyaşlı uşaqların qidalanması və təhsili üzrə bir neçə proqramı var, onların da bir hissəsi qadınlara və qız uşaqlarına yönəlib. Buraya vitamin çatışmazlığı nəticəsində baş verən pozuntular zamanı A vitamininin əlavələrinin təmin edilməsi; yod çatışmazlığının aradan qaldırılması üçün Ümumi Duz Yodlaşdırılması kampaniyaları; hamilə qadınların və yeni doğulanların şəraitlərinin yaxşılaşdırılması və xəstəxana sistemində islahatların həyata keçirilməsi məqsədilə Körpələrə Dostluq Xəstəxana Təşəbbüsü daxildir. UNİCEF həmçinin ölkə üzrə tədris prosesinin keyfiyyətinin yaxşılaşdırılması üçün Aktiv Təhsil proqramını tədris planına daxil etmək məqsədilə Təhsil Nazirliyi ilə sıx əməkdaşlıq edir. Cari proqramda BMTƏF yardımının 80%-dən çoxu reproduktiv sağlamlıq sektorunun dəstəklənməsinə yönəlmişdir. Əsas sahələr aşağıdakılar ətrafında cəmləşir: Azərbaycanda ailə planlaşdırılması sahəsində klinikaları şəbəkəsinin kontraseptiv materiallarla və avadanlıqla təchiz edilməsi, reproduktiv sağlamlıq xidmətləri və bu xidmətləri təmin edənlər üçün treninq imkanlarının gücləndirilməsi, milli QİÇS proqramının dəstəklənməsi, icma-əsaslı xidmətlərin çatdırılması proqramlarının genişləndirilməsində qadın QHT-lərə yardım göstərilməsi, ailə planlaşdırılması xidmətlərinin ilkin səhiyyə sisteminə daxil edilməsi və treninq xidmətləri göstərənlərə kontrasepsiyanın müasir metodlarnın öyrədilməsi.

BMTQAK Azərbaycanda 1990-cı illərin əvvəlindən işləyir və onun səyləri başlıca olaraq Dağlıq Qarabağ probleminə görə Ermənistanla Azərbaycan arasında həll olunmamış münaqişə nəticəsində meydana gəlmiş yarım milyon məcburi köçkünə yönəlib. Bundan əlavə, agentlik yeni yaradılmış sığınacaq sisteminin inkişaf etdirilməsi və həssas şəhər MK-ların, o cümlədən cox sayda qadınların şəraitinin yaxşılaşdırılması məqsədilə yerli hökumət orqanları ilə əməkdaşlıq edir. Bakıda savadlılıq proqramları və bir sıra digər xidmətləri, o cümlədən qadınlar üçün ayrıca proqramları təmin edən icma mərkəzi yaradılmışdır. 2006-cı il üçün BMTQAK-ın Ölkə Əməliyyat Planının əsas məqsədlərindən biri şüurlulğun artırılması proqramları vasitəsilə insan alveri təhlükəsi altında olan qadınlar da daxil olmaqla, qaçqın və sığınacaq axtaran əhali arasında seksual və gender-əsaslı zorakılıq hallarının azaldılmasını və effektiv müraciət mexanizmini təmin etməkdir. MK/qaçqın icmalarının bir sıra qida əlavələri ilə, işin müqabilində ərzaq, və digər reabilitasiya proqramları ilə təchiz edilməsi DƏP-in Azərbaycana yardımı çərçivəsində əsas diqqət obyektində olan məsələdir; gender yanaşması DƏP-in Azərbaycandakı Ofisinin Hökumətlə və QHT-lərlə olan bütün razılaşmalarında əks olunur.

Bir sıra inkişaf partnyoru, o cümlədən Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) səylərini miqrasiya və insan alveri məsələlərində cəmləşdirirlər. BMqT, bir sıra donorların dəstəyi ilə miqrasiya siyasətinin qurulması sahəsində Hökumətin potensial imkanlarının artırılmasını nəzərdə tutan bir neçə layihə hazırlayıb; buraya yerli QHT-lərin miqrasiya məsələləri üzrə bacarıq və bilgilərini inkişaf etdirmək, miqrasiyanın hərəkət monitorinqini keçirmək, qeyri-müntəzəm miqrasiyanın, xüsusilə qaçaqmalçılıq, insan alverinə qarşı mübarizə, geri qayıtma və reinteqrasiya təhlükəsi və bütün bunların nəticələri haqqında potensial miqrantlar arasında şüurluluğun artırılması daxildir. Gender məsələləri BMqT-nin fəaliyyətində mərkəzi yer tutur və o, genderin bütün səviyyələrdə ümumi siyasətə daxil edilməsini yaxşılaşdırmaq üçün hökumət və QHT partnyorları ilə əməkdaşlığı artırır. ATƏT-in mandatı (səlahiyyət

dairəsi) seçkilər, KİV və vətəndaş cəmiyyəti sahələrində qanunverici islahatları, hökumətin QHT-lərlə partnyorluğunun qurulması, polis və cəza müəssisələri zabitləri üçün treninqlər keçirilməsini nəzərdə tutmaqla həm gender, həm də gənclər məsələlərini kəsişən mövzular kimi öz fəaliyyətinə daxil edir. Qadın Problemləri üzrə MFP vasitəsilə gender bərabərliyi mexanizmlərinin təmin edilməsini müdafiə etməklə bərabər, ATƏT məişət zorakılığına dair qanunvericiliyin təqdim edilməsində və ölkədə qadın məsləhət mərkəzlərinin yaradılmasında QPDK-nın səylərinə dəstək verir. Ofis həmçinin Azərbaycanda DTİHB-in qadın şəbəkəsini dəstəkləyir. ATƏT 2004-cü ildə qəbul olunmuş İnsan Alverinə qarşı mübarizəyə dair Milli Fəaliyyət Planının hazırlanmasında hökumətə kömək edir, və insan alveri əleyhinə bir neçə təşəbbüsü, o cümlədən, ölkədə pulsuz qaynar xətt yardımı və insan alveri qurbanları üçün ölkənin ilk təhlükəsiz sığınacağında fəaliyyət göstərən iki QHT-nin yaradılmasını dəstəkləməyə davam edir.

2004-cü ilin əvvəlində, ABŞBİA sektor səviyyəsində və əməliyyat prosedurlarında gender problemlərini ümumi siyasətə daxil etmək üçün növbəti başlanğıc müddəaların müəyyənləşdirilməsini nəzərdə tutan Azərbaycan üzrə Gender Qiymətləndirilməsini yekunlaşdırdı (ABŞBİA 2004). ABŞBİA mikrokredit institutlarının və xidmətlərin genişləndirilməsi üçün KOM-ların inkişafı və həmçinin səhiyyə və reproduktiv sağlamlıq proqramlarının dəstəklənməsi sahələrində xüsusilə fəal olub. Səhiyyə Nazirliyi və UNİCEF, ABŞBİA-nın dəstəyi ilə sağlamlıq göstəricilərinin (o cümlədən qidalanma) geniş spektri, həmçinin səhiyyə xidmətlərindən yararlana bilmək imkanlarına dair cinslər üzrə bölünmüş statistikanı təmin edən 2005-2006-cı illərin Milli Demoqrafiya və Sağlamlıq Sorğusunu keçirəcək. Bu çox lazımlı göstəticilər qadın və kişilər üçün sağlamlıq (o cümlədən reproduktiv sağlamlıq) sektorunda daha səmərəli və mümkün qədər ünvanlı müdaxilə proqramı hazırlanması prosesini geniş məlumatla təmin etməlidir. Dünya Bankı layihələrin tərtib edilməsində gender və sosial qiymətləndirmə aparır və yaxın gələcəkdə milli gender qiymətləndirilməsinin həyata keçirilməsini nəzərdə tutur. Kənd təsərrüfatının İnkişafı üçün Beynəlxalq Fond Qəbələ rayonunda həyata keçirilən Dağ və Dağlıq Ərazilər üçün Kənd İnkişafı Proqramına gender komponentinin daxil edilməsi təşəbbüsünü dəstəkləyir. Bu, layihəyə gender sahəsində mütəxəssisin təyin olunmasını və layihənin həyata keçirildiyi yerlərdə ən yoxsul qadınlara ünvanlı yardımın göstərilməsini nəzərdə tutur.

## D. Tövsiyələr

- Qadınların hökumətin yerli və mərkəzi siyasi strukturlarında daha geniş şəkildə iştirakı üçün maneə və çətinliklərin qiymətləndirilmələri aparılmalı və müvafiq siyasət və proqram tövsiyələri verilməlidir. Qadınların idarəetmə strukturlarında iştirakının artırılmasına və həvəsləndirilməsinə yönəlmiş mərkəzi, regional və yerli hökumət səviyyələrində ictimaiyyətin məlumatlandırma kampaniyaları dəstəklənməlidir.
- Qadınların dövlətin yerli qərar qəbuletmə strukturlarında iştirakı və onların rayon və vilayət səviyyəsində təmsilçiliyi üçün hədəflərin müəyyənləşdirilməsi nəzərdə tutulmalıdır.
- Hökumətin bütün səviyyələrində gender bərabərliyinə dair məlumatlılığın artırılması proqramları, o cümlədən gender təhlili və gender yanaşması texnikası üzrə treninqlər

həyata keçirilməlidir.

- Yerli, regional və mərkəzi hökumət səviyyələrində qadın QHT-ləri, icma-əsaslı təşkilatlar (İƏT) və vətəndaş cəmiyyətinin nümayəndələri ilə müntəzəm məsləhətləşmələr aparılması üçün effektiv mexanizmlər yaradılmalı və hökumət siyasətləri və proqramlarında müəyyən olunmuş əsas məsələlərin effektiv əks olunması təmin edilməlidir.
- Bakıda və bölgələrdə gender məsələləri sahəsində fəaliyyət göstərən QHT və İƏT-lərin potensialının yaradılması, gücləndirilməsi və onların fəaliyyət koordinasiyası dəstəklə təmin edilməlidir.
- Birləşmiş Millətlər, beynəlxalq və çoxsahəli təşkilatlar və beynəlxalq QHT-lər də daxil olmaqla inkişaf partnyorları ilə müntəzəm görüşlər keçirilməli, məlumat mübadiləsi və gender sahəsində təcrübə mübadiləsi aparılmalı və həmçinin donor tərəfindən dəstəklənən fəaliyyətdə gender yanaşmasının təqdir edilməsi və dəstəklənməsi üçün koordinasiya mexanizmi yaradılmalıdır (məsələn, gender məşvərət qrupu və ya buna oxşar).
- Öz siyasət və proqram işlərində, o cümlədən layihə personalının cəlb edilməsində gender bərabərliyi prinsiplərinə nəzarət etmək tələbində, layihələrin hazırlanması, monitorinqi və qiymətləndirilməsi layihələrində, və bütün səviyyələrdə hökumətlə siyasət məsələlərinə dair dialoqlarda inkişaf partnyorlarının gender bərabərliyi prinsiplərini müdafiə etməyə davam etmələri təmin edilməlidir.

## A. Xarici/daxili əmək miqrasiyası

Son illərdə artan həm daxili (kəndlərdən şəhərlərə), həm də xarici (müvəqqəti/ qeyri-qanuni) miqrasiyanı uzun müddətli işsizliklə özünü biruzə verən və getdikcə pisləşən iqtisadi vəziyyətlə əlaqələndirirlər; bir çox miqrantlar məşğulluq imkanlarını və beləliklə də gəliri əsas səbəb kimi qeyd edirlər. (BMqT 2001:25).[13] BMqT həmçinin qeyd edir ki, Azərbaycanda iqtisadiyyatın inkişafı üçün nəzərdə tutulan islahatların, o cümlədən xam neftin Qərbə çatdırılması məqsədilə neft şirkətləri ilə imzalanan müqavilələrin və "İpək Yolu" marşrutunun dirçəlişi nəticəsində sərhədlərarası miqrasiyanın əhəmiyyətli dərəcədə artması gözlənilir. Azərbaycan ərazisindən keçən tranzit miqrasiyasının, o cümlədən Rusiya, Ukrayna və Mərkəzi Asiyadan Türkiyəyə və digər ölkələrə qadın və qızların alverinin səviyyəsinin artması da qeyd olunur və bütün bunlar Hökumətin, beynəlxalq təşkilatların və QHT-lərin potensial və geri qayıdan qeyri-qanuni miqrantları təkmilləşdirilmiş məlumat, müdafiə və dəstəklə təmin etməyə yönəlmiş davamlı səylərini çətinləşdirir.

Dəqiq məlumat əldə etməyin çətin olmasına baxmayaraq, BMqT-nin 2001-ci ildə Azərbaycanın 7 rayonunda 769 potensial miqrant (o cümlədən ilk dəfə miqrasiya edən) arasında keçirdiyi sorğu göstərmişdi ki, miqrantların beşdə iki hisəsini (41,5 %) qadınlar təşkil edir. Onların əksəriyyətinin yaş həddi 20-30 yaş arasında idi. Nisbətən az qadın mirasiyası Xanlar, Quba və Xaçmaz (müvafiq olaraq 30,6%, 13,3% və 22,2%) rayonlarında müşahidə olunmuşdu, bu isə bu ərazilərdə qadınların hərəkətlərində məhdudiyyətin daha çox olması ilə izah olunur. Qadınların yalnız yarısından çoxu subay idi (55,8%). Kişi miqrantların isə, əksinə, bütün ərazilərdə yüksək səviyyəsi, əsasən 25-35 yaş arasında qeyd olunmuşdu. Kişi miqrantların təqribən 60%-i evli idi (BMqT 2001:25).

Tədqiqat həm Türkiyə, həm də Rusiyanın qeyri-müntəzəm miqrasiya üçün əsas tranzit ölkələri olması haqqında ilkin mülahizəni təsdiq etdi. Bu, Azərbaycan miqrantları üçün bir çox gizli imkanlar yaradır. Potensial miqrantlar kömək üçün qaçaqmalçılara müraciət edirlər və onların 50%-i qaçaqmalçıların işinin qanuni olduğuna inanırlar. Çətin iqtisadi vəziyyətdə yaşayan miqrantlar təyinat ölkələrə qanuni yolla daxil olmaq üçün etibarlı sənədlər, o cümlədən pasport və Şengen vizasını (Avropa Birliyinin əksər üzv dövlətlərinə səfər üçün) əldə etmək məqsədilə vasitəçiyə 3000 ABŞ dollarına qədər pul ödəmək üçün evlərini satmağa və ya borc götürməyə məcbur olurlar. Hesabat təsdiq edir ki, qanuni imkanlarda mövcud olan məhdudiyyətlər potensial miqrantları xaricə getmək səylərində qaçaqmalçılardan tam asılı vəziyyətə salır (BMqT 2001:9).

Alverə məruz qalmaq riski olan qadın miqrantların axını əhəmiyyətli dərəcədə artır, belə ki, onlardan bir çoxu gənc qadınları xaricdə qeyri-müəyyən işlərə düzəldən özəl

---

13 BMqT-nin 2001-ci ildə ölkənin 7 rayonunda potensial miqrantlar arasında keçirdiyi sorğu görtərmişdir ki, respondentlərin 60%-inin miqrasiyasının səbəbi xaricdə hər hansı bir məşğuliyyətin tapılması və həyat şəraitinin

agentliklərə və ya fərdi şəxslərə müraciət edirlər. Qaçaqmalçılara müraciət etmək qadın miqrantlar üçün xüsusilə təhlükəlidir, çünki onlar alverçilər üçün asan qənimət ola bilərlər. Qadın miqrantların seksual təhqirlərə, istismara və reproduktiv sağlamlıq risklərinə, o cümlədən İİV və cinsi yolla keçən xəstəliklərə həssaslığı lazımınca qiymətləndirilməlidir.

ABŞBİA tərəfindən 2004-cü ildə keçirilən gender qiymətləndirilməsində qeyd olunmuşdur ki, bəzi kənd ərazilərində kişi miqrasiyasının yüksək səviyyəsinin səbəbləri ailəni dolandırmaq ehtiyacı, bazar iqtisadiyyatında dəyişikliklərə uyğunlaşmamaq (az ödənilən və ya az nüfuzlu "qadın işlərindən" imtina) və evlənmək üçün pul toplamaqdır. Bu miqrasiyanın səbəbləri çox zaman ailələrə mənfi təsir göstərir, belə ki, kişilər ailəni tərk etdikdə bütün işlərin idarə olunması qadınların çiyinləri üzərinə düşür (o cümlədən ağır kənd təsərrüfatı işləri) və bəzi hallarda kişi ağır iş şəraiti və/və ya CYYX nəticəsində sağlamlığını itirmiş vəziyyətdə geri qayıdır (ABŞBİA 2004: 8). Səbəblərin və qadın/kişi daxili/xarici miqrasiyasının (pul köçürmələrinin ölçüsü və rolu daxil olmaqla) təsirinin sonrakı analizi müvafiq proqramların işlənib hazırlanması üçün vacib olan məlumatı təmin edəcək.

**B. Qadın və Uşaq Alveri**

Qadın və uşaqlaın (daha az miqdarda kişi və oğlanların) alveri Azərbaycanda getdikcə artan çox ciddi problemdir. Azərbaycan əsasən seksual istismar məqsədilə istifadə olunan qadın və qızların alveri üçün həm bir mənbə, həm də tranzit ölkəsi kimi tanınır. İlkin təyinat ölkələri Türkiyə və BƏƏ-dir (Çərçivə 2). Qadınlar çox zaman yaxşı təşkil olunmuş, təcrübəli və həm quru, həm də hava sərhədləri vasitəsilə hərəkət edə bilən, güclü milli və beynəlxalq əlaqələri olan beynəlxalq cinayətkar şəbəkələr tərəfindən alverə məruz qalır. Azərbaycanın coğrafi mövqeyi, xüsusilə də onun Şərqi Avropanın (Moldova, Ukrayna, Rusiya və Ermənistan kimi) mənşə ölkələrinə və Türkiyə kimi təyinat və tranzit ölkələrinə yaxınlığı onu insan alveri ilə məşğul olan şəbəkələr üçün xüsusilə əlverişli edir (Vətəndaş Hüquqları Uğrunda "Təmiz Dünya" Sosial Birliyi 2004: 27). Ölkədaxili insan alveri də mövcuddur və bu da rayonlardan Bakıya, əsasən də fahişəlik məqsədilə gətirilənlərdir.

BMqT tərəfindən insan alveri qurbanları ilə keçirilmiş müsahibələr göstərir ki, alverə məruz qalan qadınların əksəriyyəti 19-35 yaş arasında, orta məktəb təhsilli, kənd ərazilərindən gəlmiş və işsizdirlər. Yoxsulluq və gələcəyə ümidsizlik onları bu yola əl atmağa vadar edən əsas amillərdir: BMqT-nin bu yaxınlarda (2002) insan alverinə məruz qalmış qadınlar arasında keçirdiyi sorğuda respondentlərin 82%-i özlərini çox yoxsul kimi təqdim etmişdir və respondentlərin hamısı bu təklifləri ailələrinin və özlərinin həyat şəraitini yaxşılaşdırmaq məqsədilə qəbul etdiklərini qeyd etmişlər. Bu hesabat onu da göstərir ki, kişilər artıq ailələrini dolandırmaq iqtidarında olmadıqda, qadınların gəlir əldə etmək ehtiyacları onları alverlə məşğul olanlar üçün daha həssas edir, həm də ona görə ki, bu qadınların onları gözləyən təhlükədən xəbərləri olmur. Digər həssas qruplara yoxsul ailələrdən olan uşaqlar və küçə uşaqları aiddir; BMqT göstərir ki, Azərbaycanda itən hər beş insandan biri 18 yaşından aşağı uşaqdır (BMqT 2002: 36). Dəlillər həmçinin göstərir ki, məcburi əmək məqsədilə Türkiyəyə satılan kişi və oğlanların sayı daha azdır (BMqT 2002: 20).

**Çərçivə 2. Lalənin məsələsi**

Lalə bu işə 17 yaşı olanda Ucar şəhərində cəlb edilib. Bir qadın ona Bakıda fəaliyyət göstərən şirkət üçün qız işçilər yığdığını bildiribmiş. Bu minvalla Lalə və digər iki qız Bakıya deyil, Sumqayıta gətirilir və həmin qadının bacısı Svetaya təhvil verilirlər. Sveta bütün qızlar üçün yeni sənəd və pasportlar hazırlayır. Bakıya gedərkən Laləni bir neçə nəfər müşayiət edirdi, o cümlədən onun əri olduğunu bildirən və sonra Lalə ilə BƏƏ-yə yola düşən bir kişi.

Dubaya gələrkən, Lalənin pasportu və vizası bir Suriya vətəndaşına verilir. O, Laləni 3 həftə saxlayır və mütəmadi olaraq zorlayır. Sonra o, Svetaya qaytarılır və Azərbaycandan olan digər qızlar yaşadığı mənzildə yerləşdirilir və gündə 8-9 kişiyə xidmət etməyə məcbur edilir. Sveta qızların müştərilərlə görüşünü təşkil edir, azərbaycanlı taksi sürücüsü isə qızları müştərilərinin olduqları yerlərə, sonra isə evə daşıyırdı. Soruşanda ki, niyə kömək üçün kiməsə müraciət etməyib, Lalə deyir: "Mən bu adamların yanında kiməm ki? Hər şey onların nəzarəti altındadır. Sveta və onun qohumları qızları rayonlardan Sumqayıta gətirirlər. Sonra qızlar üçün sənəd düzəldir...və onları buraya gətirirlər. Taksi sürücüsü də kənar adam deyil, o da onlar üçün çalışır. Onlar hətta bizim evə göndərmək istədiyimiz pula da nəzarət edirlər. Mən heç vaxt evə zəng etmirəm: istəyirəm inansınlar ki, mən Bakıda işləyirəm".

*Mənbə:* BMqT 2002: 30.

Keyfiyyət dəlilləri sübut edir ki, alverlə məşğul olanlar məşğulluq və turizm agentlikləri adı altında işləmələrinə baxmayaraq, qurbanların çox hissəsi qohumlar, dostlar və tanışlar tərəfindən alverə məruz qalır. Agentliklərin tələb etdikləri ödənişlər 1500$-a qədər olsa da, bir çox qurbanlar əvvəlcədən heç nə ödəməyərək bu məbləğin onların ilk əmək haqqından çıxılmasına razılıq verirlər. Təyinat ölkələrinə gəldikdən sonra qadınlar bu pulları qaytarmaq məcburiyyəti və borcları üzündən hədə-qorxu ilə üzləşir və cüzi ödənişlər alırlar; cinayətkar şəbəkələrin rəhbərləri onların məvaciblərinin çox hissəsini mənimsəyirlər. Pasportlar və şəxsiyyəti təsdiq edən digər sənədlər çox zaman müsadirə edilir və bu qadınlara qaçmağı və ya hakimiyyət orqanlarına yardım üçün müraciət etməyi çətinləşdirir. Onlardan bir çoxu fiziki təhqirlərə məruz qalir və CYYX və digər bu kimi problemlərdən əziyyət çəkirlər (Vətəndaş Hüquqları Uğrunda "Təmiz Dünya" Sosial Birliyi 2004, BMqT 2001).

Azərbaycan cinayət məcəlləsində insan alveri cinayət kimi müəyyənləşdirilməyib və insan alveri ilə bağlı olan cinayətləri törədən şəxsləri məhkəməyə cəlb etmək üçün köləlik, zorlama, fahişəliyə məcbur etmə və yetkinlik yaşına çatmamışların fahişəliyə cəlb edilməsi müddəaları istifadə olunur. Hökumətin 2004-cü il Bəyanatına əsasən, insan alveri ilə bağlı olaraq 106 təhqiqat aparılmışdır, onlardan 10-u ittihamla nəticələnmişdir və bu 2003-cü ildə olan 20 ittihamla müqayisədə daha aşağı göstəricidir (ABŞ Dövlət Departamenti 2005).

Azərbaycan 2005-ci ildə ABŞ Dövlət Departamenti tərəfindən ardıcıl olaraq 2 il "hesabat dövründə insan alveri ilə mübarizədə səylərin artırılmasını göstərən sübutları təqdim edə bilmədiyi üçün" "Müşahidə siyahısında 2-ci sıra" ölkə kimi qiymətləndirilmişdir. Hesabat göstərmişdir ki, hökumətin səylərinin həyata keçirilməsi hələ də ilkin mərhələdə olmasına

baxmayaraq, "hökümət problemin olduğunu qəbul edir və onu başa düşür, və artıq bir neçə əhəmiyyətli sahədə, xüsusilə də insan alveri əleyhinə qanunvericiliyin hazırlanması və cinayət məcəlləsində düzəlişlər edilməsi sahəsində nailiyyətlər var" (ABŞ Dövlət Departamenti 2005). 1996-cı ildə Azərbaycan Insan Alveri və başqalarının Fahişəliyinin istismar məqsədilə istifadə edilməsini qadağan edən 1949-cu il Konvensiyasına qoşulmuşdur. Bu Konvensiyaya əlavə olaraq Palermoda Insan Alverinə dair Protokol hazırlanmış və Azərbaycan 2000-ci ilin dekabrında ona qoşulmuşdur və Protokol 2003-cü ilin dekabrında Milli Məclis tərəfindən ratifikasiya olunmuşdur.

BMT-nin bu Konvensiyaları Prezidentin 2004-cü il 6 May Sərəncamı ilə qəbul və təsdiq olunmuş Azərbaycanın İnsan Alverinə Qarşı Milli Fəaliyyət Planının əsasını təşkil edir. Bu sənədin məqsədi hökumətə insan alverinin yayılmasının qarşısını almağı, cinayətkarları məhkəməyə cəlb etməyi və onların həqiqi və potensial qurbanlarını müvafiq vasitələrlə müdafiə etmək imkanı verən tam və məqsədyönlü fəaliyyətlər təklif etməkdir.

Milli Fəaliyyət Planında müəyyənləşdirilmiş tədbirlərə qanuni çərçivələri təkmilləşdirmək, Milli Koordinator təyin etmək, DİN-in nəzdində insan alveri üzrə xüsusi polis departamenti yaratmaq və potensial və həqiqi qurbanların müdafiəsini təmin etmək aiddir. Milli Fəaliyyət Planının məqsədlərindən biri Azərbaycan Respublikasının qanunvericiliyini BMT-nin konvensiyaları və onlara əlavə olunan Protokollara və insan alveri ilə mübarizə sahəsində digər beynəlxalq sənədlərə uyğunlaşdırmaq və eyni zamanda yuxarıda göstərilən sənədlərə[14] müvafiq olaraq insan alverinin cinayət əməli kimi tanınması üçün konstitusiyaya düzəlişlər etməkdir.

Milli Fəaliyyət Planı insan alverinə qarşı mübarizənin ümumi prinsiplərini, onların təşkili üçün çərçivələri və səlahiyyət sahiblərinin insan alveri ilə mübarizədə öhdəliklərini müəyyənləşdirməklə insan alveri ilə mübarizəyə dair qanunun qəbul edilməsi, insan alverinin qarşısının alınması üçün tədbirlərin həyata keçirilməsi, bu cür cinayətlərə məruz qalmış qurbanların fiziki, psixoloji, sosial reabilitasiyası və vətənə qaytarılması, və Milli Fəaliyyət Planında yer almış digər məqsədlərin yerinə yetirilməsi məsələlərini qarşıya qoyur. Bu Plan əsasən, qurbanlar və alver qurbanı olduqları güman edilən insanlar və şahidlər üçün təhlükəsiz sığınacaq təşkil etmək və insan alverinin həqiqi və potensial qurbanları üçün pulsuz və daimi (həftədə 7 gün, sutkada 24 saat) əlaqə xidməti təmin etməyi nəzərdə tutur (BMqT 2002: 35-46).

Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı əsas məqsəd kimi insan alveri ilə bağlı olan beynəlxalq konvensiyaları ratifikasiya etməyə və milli qanunvericiliyi gücləndirməyə yönəlmiş tədbirləri nəzərdə tutur. Bundan əlavə, o, insan alverinə səbəb olan amillərə qarşı tədbirlərin həyata keçirilməsinin vacibliyini də qeyd edir.

---

[14] İndiki Cinayət Məcəlləsində insan alveri və seksual istismarı müəyyən edən bir neçə maddə mövcuddur, lakin hələ də insan alveri problemini əhatə edən ayrıca maddə yoxdur. Milli Fəaliyyət Planı şəxslərin insan alveri məqsədilə fahişəliyə cəlb edilməsini ağırlaşdırıcı cinayət kimi Cinayət Məcəlləsinə daxil olunmasını nəzərdə tutur (BMqT 2002:35-46).

BMqT və bəzi yerli QHT-lərin[15] fəaliyyəti insan alveri hallarının aşkara çıxarılmasına, alverə daha həssas olan qrupları müəyyən etməyə və siyasətdə, qanunvericilikdə olan boşluqları ön plana çəkməyə yönəlmişdir. Onlar xüsusi olaraq alver qurbanlarına dair araşdırmalar aparmış, və bu araşdırmalar insanların alverə necə cəlb olunduqlarını, alverlə məşğul olan şəbəkələrin çox yaxşı əlaqələri olduğunu, o cümlədən alver qurbanlarının çıxarıldığı və gətirildiyi ölkələrdə sərhəd işçiləri və qanun gözətçiləri arasinda korrupsiyanın çox yüksək səviyyədə olmasını aşkara çıxarmağa kömək etmişdir. Aaşdırmalar onu da göstərir ki, bu məmurlar üçün təlimlərin təşkil edilməsi, sərhəddə ciddi viza nəzarətinin gücləndirilməsi və cinayət məcəlləsində insan alverini cinayət əməli kimi müəyyənləşdirən hüquq islahatlarının aparılmasına böyük ehtiyac var. Bundan əlavə, qurbanları müdafiə etməyi və ya onları QHT-lərə yönəltməyi və insan alveri barədə şəhərlərdə və kənd yerlərində məlumatın yayılmasını təmin edən tədbirlər görülməlidir.

## C. (Yenidən) Ortaya çıxan ənənələr və təcrübələr

Narahatlıq doğuran belə bir fikir var ki, Azərbaycanda yenidən baş qaldıran ənənəvi inam və inanclar qadınların imkanlarını genişləndirmək və bərabərliyə nail olmaq cəhdlərinə mane ola bilər. Bu böyük bir mübahisə mövzusudur: belə inam yeni yaranıb, xarici amillərin təsiri ilə ölkəyə gətirilib, və İslamın ölkə daxilində artan təsirinin nəticəsidir. Bəlkə də Sovet dövründə qadağan edilməsinə baxmayaraq, onun kökü kəsilməyib və xalq arasında həmişə mövcud olub? Faktiki olaraq hər iki şərh həqiqətə uyğundur və onların hər ikisi gender bərabərliyi siyasətinin və proqramlarının həyata keçirilməsində böyük əngəl törədə bilərlər (Çərçivə 3) .

2004-cü ildə Dünya Bankının Kəndlərə İnvestisiya Layihəsinin Sosial qiymətləndirilməsi aşkar etdi ki, bir çox kənd yerlərində qərarları orta yaşlı və qoca kişilər qəbuledirlər və onlar mühüm məsələlər həll olunan görüşlərdə iştirak edirlər. Bəzi qadınlar, əsasən də müəllim və həkim kimi ali təhsilə malik olanlar bu proseslərdə daha böyük rol oynamaq istəsələr də, onların qərar qəbul etmədə işturakı çox məhduddur. Qiymətləndirmə zamanı aşkar edilmişdi ki, əksər hallarda qadınlardan məsləhət alınmır və onlar görüşlərdə və qərar qəbul etmədə iştirak etmirlər. Bu təcrübələrə baxmayaraq, kəndlərdə yaşayanların yüksək faizi, 67% qadınlar və 63% kişilər hesab edirlər ki, qərar qəbul etmə prosesində qadınların fikri tam şəkildə təmsil olunmur (Dünya Bankı 2004a: 60).

2001-ci il RSM-si gender əsaslı inam və ənənələrin mənbəyini araşdırmamasına baxmayaraq, qadınların öz rolu və mövqeləri barədə söylədikləri də narahatlıq doğurur.u razılaşdı ki, qadın işə getmək üçün həyat yoldaşından icazə almalıdır və ailə məsələlərində son sözü demək hüququ yalnız kişiyə məxsusdur. Lakin qadınların təhsil səviyyəsi və sosial iqtisadi statusu artdıqca bu fikirlə razılaşanların sayı azalır (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 204). Qadınların üçdə iki hissəsindən çoxu (70%) hesab edir ki, uşaqların qayğısına

---

[15] İndiki Cinayət Məcəlləsində insan alveri və seksual istismarı müəyyən edən bir neçə maddə mövcuddur, lakin hələ də insan alveri problemini əhatə edən ayrıca maddə yoxdur. Milli Fəaliyyət Planı şəxslərin insan alveri məqsədilə fahişəliyə cəlb edilməsini ağırlaşdırıcı cinayət kimi Cinayət Məcəlləsinə daxil olunmasını nəzərdə tutur (BMqT 2002:35-46).

qalmaq qadın işidir, lakin universitet və aspirantura təhsili görmüş qadınlar arasında bu razılaşma 51,2%-ə düşür; orta təhsil və ya ondan da aşağı təhsil görmüş qadınlarla (97,1%) müqayisədə universitet təhsilli qadınların 83,6%-i bu fikirlə razılaşırlar (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 204).

Bu cür tədqiqatların çətinliyi kişilərin bu məsələyə münasibətlərinin və inamlarının və bu faktorların həm ailənin, həm də icmanın dəyər və inamlarına təsir etməsinin nəzərdən qaçırılmasıdır. Bu inamların kökü də tam tədqiq edilməmişdir. Bu suallara cavab olaraq, BMTİP və Norveç Hökuməti qadınların və kişilərin gender münasibətlərini və gender dəyərlərini araşdırmalı və ölkə daxilində dövlət səviyyəsində aparılan tədqiqatları qiymətləndirməli olan layihəni dəstəkləyir. QPDK-nin əməkdaşlığı ilə həyata keçirilən bu layihə MDB məkanında ilk belə tədqiqat olacaq; nəticələr 2006-cı ildə BMTİP-in Azərbaycanda İnsan İnkişafına dair Məruzəsinin əsasını təşkil edəcək. Bu tədqiqat vaxtında aparılan, həm də vacib bir tədqiqatdır və o, şəhər/kənd və regional münasibətləri və dəyərləri, və onların qadınların "ictimai" və "özəl" sahələrdə gündəlik həyatına təsir yollarını öyrənəcək.

**Çərçivə 3. Yeddi oğul istərəm, bircə dənə qız, gəlin.**

Ənənəvi Azərbaycan toylarında bir çox kiçik mərasimlər keçirilir. Onlardan biri yeddi oğul və bir qızın arzu edilməsidir. Toy günündə bəy və onun ailəsi gəlinin evinə gəlir və burada bəyin kiçik qardaşı gəlinin belinə qırmızı lent bağlayır və aşağıdakı şeri söyləyir:

Anam, bacım qız gəlin,
Əli-ayağı düz gəlin.
Yeddi oğul istərəm,
Bircə dənə qız, gəlin.

*Mənbə:* Bayatı

## D. Gender, ətraf mühit və təbii sərvətlər

Azərbaycan 1998-ci ildə Ətraf Mühit üzrə Milli Fəaliyyət Planını və 2000-ci ildə Biomüxtəliflik üzrə Strategiyanı və Fəaliyyət Planını tamamlamışdır. 2001-ci ildə Azərbaycanda Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır. Azərbaycan həmçinin ətraf mühitə dair bir çox beynəlxalq konvensiyaları, o cümlədən BMT-nin İqlimin Dəyişdirilməsi haqqında Çərçivə Konvensiyası (1995), Biomüxtəliflik haqqında Konvensiya (2000), Meşələrin Məhv edilməsinə qarşı Mübarizə haqqında Konvensiyanı (1998) ratifikasiya etmişdir.

Belə siyasət və fəaliyyət planları kSİ-nın ekoloji cəhətdən ən çox zərər çəkmiş ölkələrindən biri olan və ciddi ekoloji problemlərlə üzləşən Azərbaycan üçün çox əhəmiyyətlidir. 70 il müddətində Azərbaycan kSİ-nın əsas neft istehsal edən regionlarından biri və iri kimya, neft-kimya və metallurgiya komplekslərinə malik olan sənaye mərkəzi idi. Bu, ciddi ekoloji zədələnməyə, o cümlədən Xəzər dənizinin və ətraf ərazilərin çirklənməsinə

səbəb olmuşdu. Davamlı olaraq etibarlı enerji mənbələrinin çatışmazlığı, torpağın eroziyası və duzlaşması və kənd (bəzən şəhər) ərazilərində içməli suyun qeyri-adekvat təchizatı kimi əsas ekoloji problemlərin həll olunmaması davamlı inkişafın təmin olunması və yoxsulluğun azaldılması ilə bağlı həyata keçirilən səyləri poza bilər.

Xəzər dənizi ən dəyərli balıq olan nərə balığının dünyada ən zəngin mənbələrindən biridir. Qara kürü pərakəndə səviyyədə illik gəliri 1 mlrd ABŞ dolları olan potensial sənaye sahəsidir. Xəzər kürüsü dünya istehsalının 90%-i təşkil edir və tarixən Azərbaycan üçün xarici mübadilənin əsas gəlir mənbəyi olub. Lakin son iki onillik ərzində nərə balığının elan olunan illik ovu 1980-ci illərdəki 25000 tondan 1997-ci ildə 1000 tona və ya 96%-ə qədər əhəmiyyətli dərəcədə azalmışdır. Balıq ehtiyatlarının belə azalması sərvətlərin qeyri-adekvat idarə olunması, nərə balığının uzun müddət qanuni və qanunsuz tutulması və Xəzər dənizi ilə sərhəddə yerləşən ölkələrdə nərə balığı yetişdirən müəssisələrdə istehsalın azalması nəticəsində baş vermişdir. Azərbaycanın balıqçılıq sektorunda qadınların rolunun gender qiymətləndirilməsinin tam araşdırılmamasına baxmayaraq, aydın olmuşdur ki, həm bilavasitə iş yerlərinin itirilməsi (fabrik və əlaqədar sənaye obyektlərində), həm də həyat yoldaşının işsizliyi nəticəsində ailənin gəlirinin itirilməsi qadınlara mənfi təsir edir. Xlor zavodları Sumqayıt şəhəri ətrafında ciddi civə çirklənməsi törədir; hal-hazırda bu problemi aradan qaldırmaq üçün tədbirlər görülür (Dünya Bankının köməyi ilə). Dünya Bankının qiymətləndirmə qrupu aşkar etmişdi ki, Xəzər dənizində civə çirklənməsi artıq mövcuddur və Dünya Bankının 1998-ci ildə Sumqayıt ərazisində keçirdiyi ayrıca bir tədqiqatı burada uşaq ölümü faizinin qonşu ərazilərə nisbətən 6 dəfə yüksək olduğunu müəyyən etmişdi (Dünya Bankı 2004a: 60).

Qeyri-müntəzəm qaz və enerji təchizatı bir cox ev təsərrüfatlarını daha yararsız, və ətrafı daha çox çirkləndirən enerji mənbələrindən istifadə etməyə məcbur edir. YAİİDP-in 2003/2004-cü il Monitorinq Hesabatına əsasən kəndlərdə 92,4% ev təsərrüfatları hələ adekvat qaz təchizatı almırlar. Meşəətrafı zonaların yaxınlığındakı ev təsərrüfatları qızdırılma üçün odundan istifadə edirlər. Müstəqillikdən əvvəl Azərbaycan Rusiyadan ucuz taxta idxalına arxalanırdı. Lakin bu gün yanacaq odunu əsasən yerli meşələrdən alınır və bu, meşələrin məhv edilməsinə səbəb olur. İlkin qiymətləndirməyə əsasən, müəyyən ərazilərdə yanacaq odununa tələbat illik hasil olunan yanacaq odununun miqdarından 10 dəfə artıqdır (Dünya Bankı 2003: 1). Dünyanın digər yerlərində olduğu kimi Azərbaycanda da yemək hazırlanması və mənzillərin qızdırılması üçün odun yığımı qadın işi sayılır. Beləliklə, qadınlar meşələrin məhv olması nəticəsində odun ehtiyatının azalmasının ağırlığını çəkməli olurlar. Odun ehtiyatı görməyə əlavə vaxt və enerji sərf edən qadınlar meşələrin məhv edilməsi nəticəsində uzun məsafəyə ağır yük daşımalı olur və bu da onların sağlamlığına təsir edir. Oduna qənaət etmək ehtiyacı qidanın tərkibinə və müxtləfliyinin azaldılmasına səbə olur ki, bu da ailədə pəhrizə və nəticədə sağlamlığa mənfi təsir edir. Azərbaycanda odun ehtiyatının yığılması, o cümlədən buna sərf edilən vaxtın/əməyin və eləcə də meşə təsərrüfatı sektorunda qadınların rolunun ətraflı qiymətləndirilməsi ümumiyyətlə mümkün deyil, lakin meşə təsərrüfatında effektiv siyasət və proqramların hazırlanması və tətbiq edilməsi üçün bu qiymətləndirmənin çox böyük əhəmiyyəti var.

Azərbaycan Hökuməti tərəfindən ən çox zərər çəkmiş ərazilərdə geniş miqyaslı meşələrin bərpa edilməsini nəzərdə tutan Meşəçilik Fəaliyyət Planının qəbul olunmasına baxmayaraq, bu Planda meşə təsərrüfatlarının idarə edilməsində, o cümlədən yeni ağac növlərinin və fidanların əkilməsi, qorunması və ya yetişdirilməsində, həmçinin dövlət torpaqlarında plantasiyaların və həyətyanı torpaq sahələrində kiçik meşələrin salınması və qorunmasında qadın və kişilərin produktiv və reproduktiv rollarını müəyyənləşdirilməsi kimi gender məsələlərinə xüsusi diqqət yetirilməyib. Eyni zamanda, Plan qadın və kişilərin formal və qeyri-formal torpaq hüquqları (mülkiyyət/əldə etmək və istifadə etmək imkanı) kimi məsələləri də nəzərdə tutmur. Bu gender aspektlərinin nəzərə alınması meşə sahələri və onların məhsulları üzərində mülkiyyət hüquqlarının müəyyənləşdirilməsinə, yeni ağac növlərinin seçilməsinə və meşə təsərrüfatlarının idarə edilməsinə dair qərarların qəbul edilməsi proseslərinə böyük təsir göstərərdi.

Azərbaycanda, xüsusilə də ikinci dərəcəli şəhərlərdə və kənd yerlərində təhlükəsiz, etibarlı və müntəzəm su təchizatının və sanitariya xidmətlərinin təmin edilməsi hələ ki, qeyri-adekvatdır və bu vəziyyət cəmiyyətin sağlamlığına ciddi zərbə vurur. Suyun keyfiyyətinin dərindən yoxlanması məhdud şəkildə aparılsa da, su mənbələrinin yüksək dərəcədə çirklənməsi aşkar olunmuşdur və çirkab suların açıq su hövzələrinə axıdılması çox ciddi problemdir (Azərbaycan Respublikası 2004: 37-38). AİB-nin Azərbaycanın üç şəhərində - Ağdaş, Göyçay və Naxçıvanda həyata keçirdiyi suyun keyfiyyətinin tədqiqatı çirkli yeraltı suların və paylayıcı boruların nasazlığı üzündən suyun keyfiyyətinin pisləşməsini aşkar etmiş və nəticədə bu ərazilərdə xəstəlik və ölüm dərəcələrinin yüksək səviyyəsidə olduğunu qeyd etmişdir (AİB 2004b: 55). Sanitariya xidmətlərinin pis vəziyyətdə olması, xüsusilə də kənd ərazilərində, insanların sağlamlığını daha böyük təhlükə altına qoyur.

Azərbaycanda suyun spesifik mənbələri və keyfiyyəti bölgələrə, şəhər-kənd ərazilərinə və ev təsərrüfatlarının maddi rifah halına əsasən xeyli fərqlənir. 2002-ci ilin ETBM-ə əsasən, ümumi əhalinin 62%-inin yaxşılaşdırılmış və yaxşı qorunan su mənbələrindən, o cümlədən boru suları, ictimai kranlar, artezian/boru quyuları və ya qorunan bulaq və ya yağış sularından istifadə etmək imkanı olmasına baxmayaraq, onların əksəriyyəti kənd (30,9%) ərazilərində deyil, şəhərlərdə (85,3%) yaşayanlardır (Azərbaycan Respublikası 2004: 38). Bakıda da su fasilələrlə verilir. Sudan orta hesabla ayda 22 gün, gündə 4 saat istifadə etmək mümkündür. Belə su çatışmazlığı aşağı gəlirli ev təsərrüfatlarına daha çox təsir edir, çünki onlar gəlirlərin böyük hissəsini bu problemin həllinə sərf edirlər (Dünya Bankı 2001).

UNICEF-in 2000-ci ildə apardığı ÇGKS tədqiqatı müxtəlif regionlar və gəlir qrupları arasında təhlükəsiz içməli su əldə etmək imkanlarının yüksək dərəcədə fərqli olduğunu aşkar etmişdir. Ən aşağı imkan Cənub (65,1%) və Naxçıvan (68,4%) regionlarında qeyd olunmuşdur; nisbətən yüksək imkan Qərb/Cənub-Qərbdə (73,9%) və Bakıda (94,4%) aşkar olunmuşdur. Tədqiqata əsasən, orta-gəlirli qruplara (78,2%) nisbətən yoxsulların yalnız 51,9%-nin təhlükəsiz su əldə rtmək imkanı var (UNICEF/DSK 2000: 20). Tədqiqat sanitariya xidmətlərindən istifadə edə bilinməsi sahəsində də regionlar və gəlir qrupları üzrə əhəmiyyətli fərqlər aşkar edib: şəhərdə yaşayanların 55,4%-i yaxşılaşdırılmış sanitariya xidmətlərindən istifadə edə bilir (axar sulu tualetlər və yaxşılaşdırılmış çala ayaqyolular),

lakin kənd əhalisinin yalnız 1,4%-i belə imkanlara malikdir; kənd əhalisinin əksəriyyəti hələ ki, ənənəvi çala ayaqyolu (69%) və ya açıq çuxurlardan (29,3%) istifadə edirlər (UNICEF/DSK 2000: 20).

Təhlükəsiz suyun çatışmazlığı yoxsullara və yoxsul qadınlara xüsusilə pis təsir edir. AİB-nın yuxarıda adı çəkilən tədqiqatı su təchizatı və sanitariya xidmətləri xərcləri varlılara nisbətən yoxsulların ümumi xərclərinin daha böyük hissəsini təşkil edir. Mərkəzləşdirilmiş su təchizatı olmayan yoxsullar ictimai su mənbələrinə getməyə va ya suyu alverçilərdən yüksək qiymətlərlə almağa məcbur olurlar. Belə vəziyyətlə bağlı qadınların üzərinə əlavə iş düşür; onlar su üçün növbəyə durmalı, su ehtiyatı yığmalı və onu emal etməli (yəni qaynatmalı) olurlar (AİB 2004b: 55).

Hökumət etiraf edir ki, su təchizatı və sanitariya sektorunun yaxşılaşdırılması çox əhəmiyyətli məsələdir və o, bu sahədə institusional islahatlara, o cümlədən, Böyük Bakı üçün müstəqil səhmdar şirkətinin yaradılması və şəhər suları və çirkab su xidmətləri üzrə məsuliyyətlərin mərkəzi hakimiyyətdən yerli hakimiyyətlərə verilməsinə başlamışdır. 2004-cü ilin iyununda Prezident keyfiyyətli su təchizatının yaxşılaşdırılması məsələsini qarşıya qoyan "Azərbaycan Respublikasında Su Təchizatında İdarəetmənin Yaxşılaşdırılması haqqında" Fərman (252 saylı) imzalamışdır. Hökumət özünün dövlət investisiya proqramlarında ikinci dərəcəli şəhərlərdə və kənd ərazilərində təhlükəsiz suyun təmin edilməsi məsələsinə kifayət qədər diqqət yetirərsə, Azərbaycanda MİM-lərin 10-cu Hədəfinə -- "2015-ci ilə qədər təhlükəsiz içməli su əldə etmək imkanı olmayan insanların sayının iki dəfə azaldılması"na nail olmaq mümkündür.

## E. Tövsiyələr

### 1. Miqrasiya və İnsan Alveri

- Digər ölkələrdə iş tapmaq haqqında cəlbedici vədlərin təhlükəliliyi və bu təhlükələrin azaldılması yollarını göstərən (məs., getdikləri ölkələrdə qeydiyyatdan keçilməsi, başqa kişi və qadınlarla bir yerdə səfər etmək, fövqəladə hallar üçün əlaqə detalları və s.) məlumatlandırma kampaniyaları vasitəsilə təhlükəsiz miqrasiya təşviq edilməlidir. Belə məlumat (plakatlar, bukletlər və s.) avtobus stansiyaları və bazar meydanları kimi əhalinin sıx olduğu yerlərdə yerləşdirilməli və sağlamlıq və fiziki təhlükəsizlik məsələlərini əhatə etməlidir.
- Miqrasiya və insan alveri məsələləri sahəsində fəaliyyət göstərən Hökumət (dövlət və yerli səviyyədə) təşkilatları, QHT-lər və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməklə insan alverinə qarşı daha effektiv mübarizə vasitələrində, o cümlədən müntəzəm olaraq məlumat mübadiləsi, preventiv, fövqəladə dəstək (o cümlədən sığınacaq) göstərilməsi və məsləhətlə təmin edilməsi xidmətlərindən istifadə edilməlidir.
- Sərhədlərdə Hökumət rəsmilərinin gender problemləri haqqında məlumatlılığı artırılmalı və onların daha effektiv tədbirlər görə bilmək imkanları artırılmalıdır

(məs., düzgün istiqamət vermək, müvafiq müdafiə ilə təmin etmək).

- Yerli QHT-lər və icma təşkilatlarından lazımi şəkildə istifadə etməklə təhlükəsiz miqrasiya/insan alverinə qarşı yönəlmiş fəaliyyətlər yol salınma layihələrinə daxil edilməlidir.
- İnsan Alverinə qarşı Mübarizəyə dair Milli Fəliyyət Planının tam həyata keçirilməsi təmin edilməli, insan alveri ilə bağlı tədqiqatların sayı və miqyası artırılmalı və qurbanları problemlərinə yanaşma və müdafiə sisteminin formalaşdırılması daxil olmaqla insan alveri üzrə qanunvericilik gücləndirilməlidir.
- Müvafiq maddi və insan resursları (qadın heyəti də daxil olmaqla) təmin edilməli, insan alveri əleyhinə polis bölmələrində treninqlər (o cümlədən, gender məsələləri üzrə) keçirilməlidir.

## 2. (Yenidən) Ortaya çıxan ənənələr və təcrübələr

- İcma səviyyəsində qərar qəbul etmədə qadınların daha çox iştirakını dəstəkləmək üçün yerli hökumətlər, qadın QHT-ləri və icma təşkilatları ilə əməkdaşlıq edilməlidir. Bu, xüsusilə də kənd yerlərində, QHT-lərin imkanlarının genişləndirilməsi proqramlarının hazırlanmasını tələb edə bilər.
- Qadınların bərabər hüquqlarını ( məsələn, təhsildə, səhiyyədə, torpaq və mülkiyyət sahəsində, siyasi iştirak məsələsində və s.) vurğulayan informasiya kampaniyaları dəstəklənməlidir. Belə kampaniyalar icma və/və ya hökumətdə təsir qüvvəsinə malik olan şəxslər tərəfindən keçirildikdə daha effektiv olur.
- Ənənəvi münasibətlərin və inamların evdə və evdən kənarda gender rollarına təsir etmə yollarını öyrənən tədqiqatlar dəstəklənməlidir.
- Əldə edilə bilən və maddi imkan daxilində olan uşağa qayğı proqramları və xidmətlərinin imkan verdiyi ixtisasartırma layihələri, maliyyə xidmətləri və biznes idarəçiliyi proqramlarından yararlana bilmək şanslarını artırmaqla qadınların seçimi genişləndirilməlidir.
- Məktəbəqədər, ibtidai, orta və ali təhsil mərhələlərində tədris materiallarında və iş ənənəvi gender stereotipləri ləğv edilməlidir.
- İcmalarda, o cümlədən yerli hökumət strukturları, iş verən təşkilatlar, Ticarət Palataları, dini qruplar, gənclər təşkilatları, habelə seçkili nümayəndəli orqanlar, dini liderlər və icmanın digər nüfuzlu üzvləri arasında gender bərabərliyi üzrə şüurluluğun artırılması proqramlarıdəstəklənməlidir.

## 3. Ətraf mühit və təbii sərvətlər

- Ətraf mühitə dair siyasət və fəaliyyət planları ətraf mühitin qorunması və idarə edilməsinin müxtəlif aspektləri üzrə qadın və kişilərin müvafiq rolunu tanımalı və gender məsələlərinin bu siyasət və planlara effektiv surətdə daxil edilməsi təmin edilməlidir.
- Təbii fəlakətlərlə (məsələn, daşqınlar) mübarizə üçün fövqəladə tədbirlərin

planlaşdırılması zamanı qadınların spesifik ehtiyaclarının (məsələn, sığınacaq, sanitariya) nəzərə alınması təmin edilməlidir.

- Ətraf mühit üzrə layihələrdə qadınların tam iştirakı təmin edilməli, bu layihələr qadınların bilik və təcrübələri əsasında qurulmalı, iş həcmi və sağlamlıq təhlükəsi azaldılmalıdır. Bu işlə məşğul olan hökumət/layihə heyətləri üçün gender üzrə təlimlərin keçirilməsi də lazım gələ bilər.
- Azərbaycanda, xüsusilə də balıqçılıq, kənd təsərrüfatı və meşə təsərrüfatı kimi sektorlarda ətraf mühitin qorunması və biomüxtəlifliyin saxlanmasında qadın və kişilərin rolu haqqında məlumatın keyfiyyəti və miqyası yaxşılaşdırılmalıdır.
- Azərbaycanda ətraf mühitin kolanmasının, xüsusilə də Abşeron yarımadasında suyun və torpağın geniş miqyasda çirklənməsinin gender təsiri tədqiq edilməlidir. Bu faktların gəlirlərə təsirinin qiymətləndirilməsindən əlavə, ana ölümü, uşaq ölümü/xəstəliyi əmsalları, çətin doğuşlar və doğuş defektlərinin sayı kimi sağlamlıq və reproduktiv təsirlər də araşdırılmalıdır.

Atəşkəs imzalanandan on bir il sonra Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağa dair münaqişə həll edilməyib və 1990-cı illərin əvvəllərində erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş mübahisəli ərazidən və onun ətraf bölgələrindən çıxarılmış 575 000 azərbaycanlının geri qayıtması hələ də qaranlıq olaraq qalmaqdadır. Azərbaycan Hökuməti məcburi köçkünlərin/ qaçqınların ehtiyaclarına cavab vermək üçün bir neçə il ərzində beynəlxalq ictimaiyyət, o cümlədən AİB ilə əməkdaşlıq edir. 2004-cü ilin iyul ayında Hökumət köçkün/qaçqın icmasında özünə inamı artırmaq və həyat şəraitini yaxşılaşdırmaq məqsədilə yeni proqram həyata keçirib. Lakin milli və beynəlxalq səylər onların böyük ehtiyaclarını ödəmək üçün kifayət olmayıb. Hazırda beynəlxalq maraq və maliyyə yardımı get-gedə azalır. Bir çox məcburi köçkün/qaçqın təhlükəli şəraitdə yaşamağa davam edir; çoxları hələ də özlərinin əsas ehtiyaclarını ödəmək iqtidarında deyil və inkişaf yardımından kəskin surətdə asılıdır.

Məcburi köçkünlər/qaçqınlar gəlir və qeyri-gəlir yoxsulluğunun miqyasından xüsusilə çox əziyyət çəkirlər. İşsizliyin yüksək həddi, məhdud mülkiyyət, o cümlədən kənd təsərrüfatı torpaqlarına sahib olma imkanları, dövlətin pul köçürmələri və imtiyazlarından güclü surətdə asılılıq, çox pis məişət standartları, sanitar xidmətləri və birbaşa su təchizatının məhdud olması, yeni doğulmuş körpələrin narahatlıq doğuran ölüm səviyyəsi, pis qidalanma, ələlxüsus qadınlar və uşaqlar arasında, və orta təhsilə cəlb olunma sahəsində gerilik – bütün bunlar, bir yerdə götürüldükdə, köçkün/qaçqınları müdaxiləyə xüsusilə böyük ehtiyacı olan ən zəif qrup kimi müəyyənləşdirməyə əsas verir. Dünya Bankı/ BMT-nin İnkişaf Proqramının (BMTİP) apardığı son qiymətləndirmə (Məcburi köçkünlərin Ev Təsərrüfatı Büdcəsinə dair Sorğu, 2001) göstərir ki, köçkünlər/qaçqınlar əhalinin digər qruplarından çox da aşağı gəlirə malik olmasalar da, onlar yoxsulluğun digər göstəricilərinə qarşı daha həssasdırlar.

Məcburi köçkün/qaçqın əhalinin yoxsulluq dərəcəsinin qiymətləndirilməsi işində əsas çətinlik odur ki, bu qiymətləndirilmə adətən daha geniş yoxsulluq qiymətləndirilməsindən təcrid olunmuş şəkildə aparılıb və / və ya diqqəti məcburi köçkün/qaçqın əhalinin yalnız kiçik bir hissəsinə yönəldib (məsələn, 2001-ci ildə Məcburi köçkünlərin Ev Təsərrüfatı Büdcəsinə dair Sorğu məcburi köçkün/qaçqın əhalinin yalnız 8%-ni əhatə etmişdi). Bundan əlavə, köçkün/qaçqın əhalini yerli əhali ilə müqayisə etmək işində ilk böyük səy göstərən Dünya Bankı/BMTİP-nın 2002-ci ildəki qiymətləndirməsi kimi daha yaxın qiymətləndirmələrində də yoxsulluğun gender təhlili yoxdur və burada ayrı-ayrı cinslər üzrə çox məhdud məlumat toplanıb. Yoxsulluğun Azaldılması və İqtisadi İnkişafa dair Dövlət Proqramının (YAİİDP) altı başlıca strateji məqsədlərindən biri "qaçqın və köçkün əhalinin yaşayış şəraitinin və imkanlarının yaxşılaşdırılması" olmasına baxmayaraq, hökumət təsdiq edir ki, bu ümumi məqsədin həyata keçirilməsinə nəzarət üçün lazım olan məlumat mənbələri çox məhduddur (Azərbaycan Respublikası 2004: 43). Xüsusilə də, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əhalinin bu hissəsinın sayı və yaşayış yerlərinə, eləcə də, köçkün ailələrin məişətlərinə dair administrativ məlumat toplamasına baxmayaraq, ayrı-ayrı cinslər

üzrə az məlumata rast gəlinir və bu da gender baxımından gəlir və qeyri-gəlir yoxsulluğu fərqlənməsini müəyyən etməyi çətinləşdirir. Odur ki, gender üzrə yoxsulluq həddinə nəzarət etmək üçün aydın göstəricilərin müəyyən edilməsi və həmin göstəricilərin inkişafını müqayisə etməyə imkan verə bilən məlumatların toplanması sisteminin yaradılması YAİİDP-nın əsas prioriteti olmalıdır.

## A. Məşğulluq

MK və qaçqınlar arasında işsizlik həm kişilər, həm də qadınlar üçün əsas problemdir. Dünya Bankı və BMT-nin İnkişaf Proqramının 2002-ci il sorğusuna əsasən, məcburi köçkünlərin 43%-i işsizdir, və işsizliyin səviyyəsi Bakıdan kənar bölgələrdə daha yüksəkdir. Bakıdan kənarda yaşayan köçkün və qaçqın kişilərin işsiz qalmaq ehtimalı yerli əhaliyə nisbətən 2,6 dəfə, qadınlarınkı isə 3 dəfə çoxdur (Dünya Bankı 2003: 29). Məcburi köçkün və qaçqın ailələrinin yalnız 16,9%-nin gəlirini maaş və zəhmət haqqları təşkil edir; gəlirin demək olar ki, üçdə biri (29,%-i) hazırda onlara verilən bir sıra yardımlar hesabına əldə edilir.

Məlumdur ki, bir çox köçkün və qaçqın, o cümlədən, qadınlar qeyri-formal sektorda işləyirlər, lakin bu işlə kimin məşğul olduğu (məsələn, gender və ya yaş baxımından), hansı növ işlərin görüldüyü, və bu işin ailənin gəlirinə və maddi rifahına necə təsir etməsi barədə heç bir sorğu keçirilməyib. Bundan əlavə, bir çox köçkün və qaçqın kişilərin və bəzi qadınların iş tapmaq ilə əlaqədar həm ölkə daxilində, həm də xaricə mühacirət etmələri məlum olsa da, bu meylin gender baxımından miqyası və onun evdə qalan ailələrə və icmalara təsiri barədə də heç bir ətraflı qiymətləndirilmə aparılmayıb. İcmaların Gender Qiymətləndirilməsi zamanı toplanmış maraqlı məlumatlar göstərir ki, kişilərin əmək mühacirəti nəticəsində məcburi köçkün /qaçqın icmalarında hazırda ailə başçılarının qadınlar olması halları əhəmiyyətli dərəcədə çoxdur. Belə ailələr xüsusi stress altındadırlar, çünki işləməyə getmiş ərlərindən və ya pul qazanan digər kişi ailə üzvündən gələn pul köçürmələri çox vaxt heç nəyə çatmır, qadınlar onlardan asılı olan uşaqlar və digər ailə üzvləri, o cümlədən, yaşlı valideynlər və ya qohumları üçün tam məsuliyyət daşımaq məcburiyyətində qalırlar. Həyətyanı bağlar, kiçik alver, ev xidmətləri (məsələn, paltar tikmək) qadınların bir təhər öhdəsindən gəldiyi sahələrdir, lakin qadınların gəlir qazanmaq imkanlarını dəstəkləmək və inkişaf etdirmək

**10-cu diaqram: Məcburi köçkün/Qaçqın əhalinin gender strukturu, 2001-ci il (%-lə)**




*Mənbə:* BMTİP 2002.

üçün fəaliyyət sahəsi çox genişdir. Qadınların kredit ala bilmələrinə daha yaxşı imkan yaradılması əhəmiyyətli olmaqla yanaşı, onu dəstəkləyən çoxsahəli proqramın da olması tələb edilir ki, bu proqram qadınları peşə və maliyyə idarəçiliyi sahəsində treninqlərlə təmin etməkdən əlavə, onların öz məhsulları bazara çıxara bilmələrinə də kömək etsin.

Demoqrafik analiz (10-cu diaqram) məcburi köçkün və qaçqınlar arasında qadın və kişilərin sayında böyük fərq olduğunu aşkara çıxarır. Hazırki gender fərqi dövlətin orta göstəricilərindən (51% qadın və 49% kişi) xeyli üstündür. Qadınlar iş yaşı və məhsuldarlıq dövrü qruplarında da sayca çoxdurlar; 100 000-dən çox qadına tay ola biləcək kişi çatmır (BMTİP 2002). Bu təmayülü təhlil etmək üçün heç bir araşdırma aparılmasa da, köçkün/qaçqın icmalarında işləyən inkişaf təşkilatları bu artan rəqəmlərin iş axtarmaq məqsədilə öz yaşadıqları yerləri tərk edən kişilərin həm ölkədaxili, həm də xaricə mühacirət etmələri ilə əlaqələndirirlər.

## B. Səhiyyə

Qaçqın qadınların və uşaqların sağlamlıqlarının çox pis vəziyyətdə olması məcburi köçkün və qaçqın icmalarında ən kəskin gender problemidir və bu problem təcili və davamlı diqqət tələb edir. 2001-ci ildə keçirilən Azərbaycan Reproduktiv Sağlamlıq Müayinəsi (RSM) məcburi köçkün/qaçqın qadınlar arasında anemiya (qanazlığı) hallarının çox yüksək həddə olduğunu (39%) aşkara çıxarıb; sorğuda iştirak edən 35-39 yaşlı köçkün/qaçqın qadınların 43%-i anemiyadan əziyyət çəkir. Sorğu həmçinin məcburi köçkün/qaçqın uşaqlar arasında da anemiya hallarının çox yüksək həddə olduğunu göstərdi və bu göstərici qeyri-köçkün/qaçqın əhali arasındakı vəziyyəti əks etdirdi (Diaqram 11) (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 118). 2000-ci il UNİCEF ÇGKS müəyyən etmişdi ki, köçkün/qaçqın ailələrinin yalnız 42,6%-i yodlaşdırılmış duzdan istifadə edir; bu rəqəm qeyri-köçkün/qaçqın ailələrdəki göstəriciyə yaxın olsa da, hələ də arzu edilən səviyyədən xeyli aşağıdır (UNICEF/DSK 2000: 24). Əraziyə (kənd-şəhər/rayonlar), yaşa və ya sosial-iqtisadi vəziyyətə görə ayrı-ayrı cinslər üzrə qidalanmaya nəzarət etməyə imkan verə bilən məlumatın əldə edilə bilməməsi daha çox ehtiyacı olan hədəf qruplarına effektiv şəkildə göstərilən yardımın sərhədlərini məhdudlaşdırır.

**Diaqram 11: 3-5 yaşlı məcburi köçkün/qaçqın, və eləcə də köçkün/qaçqın olmayan uşaqlar arasında xroniki və kəskin aclıq hallarının yayılması**




*Mənbə:* ABŞBİA/XNM/BMTƏF və b. 2003: 111

Məcburi köçkün/qaçqın icmalarında uşaq ölümü əmsalı da qeyri-köçkün/qaçqın icmalarına nisbətən xeyli yüksəkdir: köçkün/qaçqınlar arasında bu rəqəm hər 1000 nəfər diri doğulan körpə üçün 105,9 ölüm, qeyri-köçkün/qaçqınlarda isə 71,5-dir.Yeni doğulan körpələr arasında da ölüm halları iki dəfə çoxdur (62,8 və 32,1), və bu da doğuşdan dərhal sonra göstərilən tibbi xidmətin keyfiyyəti və ondan yararlana bilməyin lazımi şəkildə olmaması deməkdir (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 101). Bu, çox sayda köçkün/qaçqın qadınların hələ də evdə doğmaqları və doğuşla doğuşdan sonra evə gələn ilk tibbi yardım arasında mövcud olan boşluqla əlaqədar ola da bilər, olmaya da bilər. 2001-ci ilin RSM zamanı 40% köçkün/qaçqın qadın evdə doğduqlarını, 18,7% qadın isə diri uşaq doğduqdan iki ay sonra səhiyyə işçilərinin körpəyə ilk tibbi yardım göstərməyə gəldiyini bildirmişdi (ABŞBİA/XNM/BMTƏF və b. 2003: 87).

Pis ev şəraiti Azərbaycan köçkünləri/qaçqınları üçün digər bir böyük problem də yaradır. Məcburi köçkün/qaçqınların çoxu standarta uyğun olmayan və ya müvəqqəti sığınacaqlarda, o cümlədən, düşərgələrdə, vaqonlarda, yarıtikilmiş binalarda, gecəqondularda və yol kənarlarında yaşamağa davam edir. On minlərlə köçkün/qaçqın ölkədə hələ də mövcud olan yeddi çadır düşərgəsində yaşayır. Digərləri dostları və qohumlarının yanında yer tapıb və ya dövlət binalarını, məsələn, məktəbləri, turist bazalarını və səhiyyə ocaqlarını tutublar. Köçkün/qaçqınların yaşadıqları sığınacaqların tipik həyat şəraiti xüsusilə ağırdır. Yağışdan, qışda və yayda kəskin hava temperaturundan lazımi şəkildə qorunmağın mümkün olmamasına əlavə olaraq, bu yerlərin əhalisi həddindən çoxdur, lazımi sanitariya şəraiti və müntəzəm su təchizatı yoxdur. Ölkə üzrə gender qiymətləndirilməsi zamanı qaçqınlar tərəfindən tutulmuş binalara gələnlər çox vaxt bir otaqda həddən çox adamın yaşadığının, döşəmələrin və tavanların daim nəm olmasının, sanitariya şəraitinin, eləcə də, birbaşa su təchizatının olmadığının şahidi olurlar. Mingəçevirdə köçkün/qaçqın ailələri tərəfindən tutulmuş binanın bir blokunda bir ayaqyolundan 15 ailə (təxminən 70 nəfər) istifadə edirdi və bu ayaqyolunun suyu intensiv surətdə qonşu otaqlara süzülürdü. Bunu beynəlxalq təşkilatların apardığı sorğular da təsdiq edir: bu sorğular aşkar edib ki, köçkün/qaçqın ailələrin üçdə iki hissəsi birotaqlı mənzillərdə yaşayır və onların yalnız 18%-i birbaşa su qovşağından istifadə edə bilir (Azərbaycan Respublikası 2004: 430). Körpələrin, balaca uşaqlaın, hamilə qadınlar və gənc anaların, qocalar və əlillərin belə anti-sanitariya şəraitinin qarşıya çıxardığı təhlükəyə məruz qalma ehtimalı xüsusilə çoxdur.

## C. Təhsil

Məcburi köçkün/qaçqın əhali arasında və ya bütövlükdə köçkün/qaçqın icmalarla ümumi əhali arasında təhsil və savadlılıq sahəsində gender fərqlənməsi o qədər də böyük görünməsə də, çoxları başa düşür ki, köçkün/qaçqın uşaqların məktəbə davamiyyəti pis vəziyyətdədir və bunun da səbəbi məktəblərə aid məlumatın əldə edilməsinin çətin olmasıdır (Azərbaycan Respublikası 2004, BMT-nin İP 2002, Norveçin Qaçqınlar Konsulluğu 2004). BMT-nin İnkişaf Proqramının 2002-ci il İnsan İnkişafına dair Məruzəsində qeyd edilir ki, köçkün/qaçqın ailələrinin yalnız 5,2%-i hiss edir ki, məktəb təchizatının öhdəsindən tam surətdə gələ bilər. 2001-ci il qeyri-hökumət təşkilatlarının SİGMA sorğusu aşkar etmişdi ki, sorğu keçirilən ərazidə yaşayan məktəbyaşlı uşaqların yalnız 62,4%-i məktəbə gedir və 21,8%

uşaq ümumiyyətlə məktəbə heç getmir (BMTİP 2002). Bundan əlavə, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (QMKİDK) xəbər verirdi ki, 16 yaşdan yuxarı gənclər arasında natamam orta təhsil alanların sayı (37,8%) ümumdövlət səviyyəsindən iki dəfə çoxdur.

OXFAM və ARAN QHT-si 2003-cü ildə mərkəzi rayonlarda (Ağdam, Tərtər, Goranboy, Mingəçevir, Bərdə, Yevlax) yerləşən məktəbləri qiymətləndirməsi zaman məlum olmuşdu ki, məktəblərin təxminən 37%-i köçkünlər tərəfindən tutulub və yoxlanılan 21 məktəbdən yalnız ikisində tədris şəraiti qənaətbəxşdir. Problemlərin çoxu köçkün/qaçqınların yaşadığı yerlərin sinif otaqları ilə yaxın qonşuluqda yerləşməsi üzündən baş verən və şagirdlərin valideynləri ilə müəllim heyəti arasında çox kəskin qarşıdurmaya səbəb olan münaqişələr; məktəb sakinlərinin gündəlik ev işlərinin (məsələn, dəhlizdə xörək bişirməkləri və ya paltar yumaqları) dərslərə mane olması; lazımi qədər dərs otaqlarının çatışmamasına görə dərslərin ləğv edilməsi; dərs müddətinin 45 dəqiqədən 35 dəqiqəyə qədər azalması; yaxşı otaqlar köçkün/qaçqınlar tərəfindən tutulduğuna görə, dərslərin münasib olmayan otaqlarda keçilməsi; və məktəbdə yaşayan gənc kişilərin məktəbli qızları narahat eləmələri və bunun da nəticəsində yuxarı sinif şagirdi olan qızların məktəbə gəlmələrinin azalmasıdır (OXFAM 2003: 12-13).

Bütün yaş qrupları üzrə məktəbə davamiyyət səviyyəsinin yeni gender qiymətləndirilməsinə ehtiyac var. Problemlərin həlli imkanlarına əlavə olaraq, mövcud ola bilən gender-əsaslı maneələrin, o cümlədən ya evdə, ya qeyri-formal sektorda, ya da erkən evlilik üzündən işləməyə iqtisadi təzyiq göstərilməsi halları müəyyən edilməlidir.

### D. Gender zəminində zorakılıq

Məcburi köçkün/qaçqın icmalarında gender zəminində zorakılıq haqqında məlumat verilir, lakin bu barədə hər hansı bir rəqəm əldə etmək çətindir. Köçkün/qaçqın əhalisi (əhalinin bir qrupu) arasında BQXT-nın (Beynəlxalq Qırmızı Xaç Təşkilatı) 2004-cü il araşdırmaları müəyyən etmişdi ki, 43% qadın hazırki qohumluqları ərzində öz intim partnyoru tərəfindən zorakılığa məruz qaldığını söyləyir; buraya hisslərin alçaldılması, fiziki zor və zorlama da daxildir (BQXT 2004: 27). Belə meyllərin olmasına baxmayaraq, Azərbaycanda köçkün/qaçqın icmalarında qadınlara qarşı zorakılıq hallarının qarşısının alınması və bu sahədə müəyyən tədbirlər görülməsinə dair heç bir proqram yoxdur.

Azərbaycanda insanların seksual baxımdan özlərini necə aparmaları və gördükləri işlər barədə açıq danışılmır və köçkün/qaçqın icmalarında işləyən həm ölkə QHT-ləri, həm də beynəlxalq QHT-lər burada fahişəliyin dərinləşdiyini (geniş yayıldığını) bildirsələr də, belə hallar tamamilə gizli saxlanılır. 2005-ci ilin məruzəsində qeyd edilir ki, yol kənarlarında yerləşən çayxanalar və mehmanxanalarda fəaliyyət göstərən fahişələrin sayı artır, və bu, bəlkə də ailə saxlayan qadınların çoxalması ilə əlaqədardır. Məruzədə o da qeyd edilir ki, çadırlarda yaşayanların səhhətinə məsul olan şəxslər də fahişəliklə əlaqədar narahatlıq keçirdiklərini və cinsi yolla keçən infeksiyalara görə müayinədən keçənlərin bəzilərinin məhz bu peşə ilə məşğul olduqlarını bildirmişdilər (Uord 2005: 74).

## E. Tövsiyələr

- Məcburi köçkün/qaçqın icmalarında hamilə qadınlar, gənc analar və onların ailələrinə doğuşdan əvvəl və sonra keyfiyyətli səhiyyə xidmətindən istifadə etmək imkanı verən, eləcə də onları döşlə əmizdirmə, qidalanma, doğuşlar arası interval (kontrasepsiya), immunlaşdırma və körpələrə qayğının əsasları haqqında məlumat və başlıca yardımla təmin edəcək ilkin səhiyyə xidmətlərinə dair proqramlar gücləndirilməlidir. Buraya uşaqların xəstəlikləri və ölümü və gənclər arasında pis qidalanma (məs., yod çatışmazlığı pozuntuları, anemiya) məsələləri ilə məşğul olmaq üçün icmalar və ailələr arasında həm preventiv, həm də müalicəvi sağlamlıq tədbirləri daxil olmalıdır.
- Bütün bölgələrdə və bütün gəlir qruplarında (o cümlədən, məcburi köçkün və qaçqınlar qrupu) qızlar və oğlanlar arasında uşaq immunlaşdırılmasının əhatə dairəsinin qiymətləndirilməsi aparılmalı və əsas maneələr və problemlər müəyyənləşdirilməlidir.
- Layihələrə İİV/QİÇS və CYYX-ə (cinsi yolla yoluxan xəstəliklər) dair kommunikasiya strategiyaları daxil edilməli və qadınların xüsusi ehtiyaclarına cavab verən (yəni, qadın həkimlər/tibbi heyət və s.) və onların əldə edə biləcəkləri və maddi cəhətdən ödəyə biləcəkləri xüsusi müalicə kurslarından keçmək imkanları təmin edilməlidir.
- Köçkün/qaçqın icmalarında, xüsusilə də ailə başçısı qadın olan ailələrdə məişət və sanitariya xidmətlərinin yaxşılaşdırılmasına (məs., təhlükəsiz mənzil şəraiti) yönəlmiş proqramların dəstəklənməsi davam etdirilməli və qadınların spesifik ehtiyacları (yəni, ayrıca və təhlükəsiz yuyunma/ sanitariya şəraiti) nəzərə alınmalıdır.
- Bütün yaş qrupları üzrə məktəbə davamiyyət səviyyəsinin və qazanılan biliklərin müntəzəm gender qiymətləndirilməsi keçirilməli, gender baxımından hər hansı bir maneənin (işləməyə iqtisadi cəhətdən məcbur edilmə və ya erkən evlilik) olub-olmaması müəyyən edilməli və bu maneələri dəf etmək üçün məktəblər və icmalar səviyyəsində müvafiq tədbirlər hazırlanmalıdır.
- Gender zəminində zorakılığa (o cümlədən, insan alverinə) dair şüurluluğun artırılması kampaniyaları (məktəblər, icma təşkilatları, QHT-lər tərəfindən) dəstəklənməli və zorakılıq qurbanları üçün adekvat və effektiv müdafiə təbəqələri, o cümlədən, krizis mərkəzləri, təhlükəsiz evlər, məsləhət xidmətləri və xüsusi təyinatlı xidmətlər yaradılmalıdır.
- Qadınların müvafiq peşə treninqləri və biznesə rəhbərlik proqramlarında iştirak etmələrinə və onların gəlir əldə etmək fəaliyyətlərinə cəlb olunmalarına kömək edəcək kredit xidmətlərindən istifadə etmək imkanları genişləndirilməlidir.
- Təhsil sektoru üçün məsuliyyət daşıyan mərkəzi və bələdiyyə idarələrinin bütün təbəqələrində ayrı-ayrı cinslər üzrə məlumatların toplanması, təhlili və aşkara çıxarılması məqsədilə Məcburi Köçkünlər və Qaçqınlarla iş üzrə Dövlət Komitəsi daxilində xüsusi təyinatlı işçilər hazırlanmalıdır (müntəzəm treninqlər keçirilməsi yolu ilə).

# *9-cu fəsil* Gender problemlərinin AİB əməliyyatlarına daxil edilməsi

## A. Ölkə strategiyası və proqramlarında gender

Azərbaycanda AİB-nın borc əməliyyatlarına yalnız 2003-cü ilin sonlarında başlanıb. Ölkənin Müasir Strategiyası və Proqramı (ÖMSP 2005-2006) öz diqqətini dörd strateji sahəyə, o cümlədən, (i) məcburi köçkünlərə yardım, (ii) kənd təsərrüfatı və kənddə inkişaf (sellərin vurduğu ziyanın azaldılması və kənddə mikro-maliyyə inkişafı), (iii) sosial infrastruktur (su təchizatı və sanitariya xidmətləri) və (iv) nəqliyyat sahəsinə yönəldilib. Bu sektorlar 2004-2005-ci illərdə AİB-nın diqqət mərkəzində olacaq, sonra isə 2006-2010-cu illər üçün yeni ÖSP müəyyənləşdiriləcək (AİB 2004a). Bundan əlavə, AİB-nın əməkdaşlıq siyasəti sektorlar üzrə işçi qruplarına qaçqınlar və məcburi köçkünlər, kənddə inkişaf və vergi siyasətinə dair məsləhətlər verməklə 2003-2005-ci illər üçün YAİİDP həyata keçirilməsinə yardım etmək məqsədi güdür.

Azərbaycanda AİB-nın borc əməliyyatlarının ilk mərhələsi gender məsələlərinin ölkə proqramının həm strateji, həm də əməliyyat mərhələlərində tətbiq edilməsi üçün böyük imkanlar yaratdı. Bu qiymətləndirilmədə müəyyənləşdirilmiş gender məsələlərinin çoxu AİB-nın ÖMSP çərçivəsində diqqət mərkəzində olan strateji sahələrdəki sektor işi ilə birbaşa əlaqədardır; bu məsələ, eləcə də, əməkdaşlıq etmək imkanı düşdükcə əməliyyat planlaşdırılmasına daxil edilməlidir. O da çox vacibdir ki, bu gender məsələləri effektiv şəkildə Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf üzrə Dövlət Proqramına da daxil edilsin və lazım gələrsə, bu işə kömək göstərilsin. Aşağıda 2006-cı il üçün Ölkə Strategiyası və sonradan Dövlətin Gender Strategiyası müəyyənləşdirilərkən nəzərə alınmalı olan gender yanaşmasından istifadəsi üzrə bir sıra strateji tövsiyələr verilir.

## B. Dövlətin Strategiyası və Proqramında gender yanaşmasına dair ümumi tövsiyələr

- Layihələr hazırlanması zaman qadınların və kişilərin bu işdə tam və bərabər iştirakına mane olan halların müəyyən edilməsi və bu maneələrin lazımi şəkildə qarşısının alınmasına dair tövsiyələrin hazırlanması üçün sosial və gender təhlili (o cümlədən, əsaslı məlumatlar) təqdim edilməlidir.
- Layihə çərçivəsi ilə bağlı aydın məqsəd və hədəflərə malik olan, effektiv monitorinq və hesabat sistemi vasitəsilə izlənilə bilən və adekvat şəkildə mənbələnən (həm maddi, həm də insan resursları cəhətdən) gender fəaliyyət planları layihəsi və gender strategiyaları hazırlanmalıdır.
- Belə planlar/strategiyalar İcraçı Agentliklər və digər layihə heyətləri üçün gender şəraiti yaradan müdafiə (o cümlədən, gender təhlili və ayrı-ayrı cinslər üzrə gender məlumatlarının toplanması üzrə treninqlər) ilə təmin edilməlidir ki, onların layihənin gender yönümlü məqsəd və hədəflərinə effektiv surətdə

nail olmaları üçün təsəvvürləri və vasitələri olsun.

- Əmin olmaq lazımdır ki, çoxlarının iştirakını tələb edən strategiyalara qadınlar və kişilər menecer və istehlakçı kimi daxil edilsinlər və monitorinq və qiymətləndirilmə əlbir iş olmaqla özündə gender xüsusiyyətlərini əks etdirsin.
- İcraçı Agentliklər və Birliklərdə layihənin idarə heyətini təyin edərkən gender bərabərliyi gözlənməli, yerlərdə və idarə heyətində bütün kişilər və qadınlar üçün bərabər əmək haqqı təmin edilməlidir.
- Yoxsulluğun bütün hallarında (məs., gəlir/qeyri-gəlir) mövcud olan və eləcə də meydana yeni çıxan gender boşluqlarına müntəzəm olaraq nəzarət olunmalı və boşluqları aradan götürmək üçün müvafiq strategiyalar və tədbirlər müəyyən edilməli və dəstəklənməlidir.
- Layihəni tətbiq edən və idarə edən Birliklərdə cins baxımından ayrı-ayrı məlumatlar yerləşdirilməli və müntəzəm olaraq belə məlumatlar toplanmalı və təqdim edilməlidir ki, qadınlar, kişilər, qızlar və oğlanlara dair göstəriciləri izləmək, gender boşluqlarını müəyyənləşdirmək və lazımi şəkildə aradan götürmək mümkün olsun.
- Qadın QHT-ləri/İcma təşkilatları ilə birgə işləyən layihələr müəyyənləşdirilməli və dəstəklənməlidir. Bu ÖGQ-ində qeyd edildiyi kimi, qadın QHT-lərinin/ İcma təşkilatlarının daha da gücləndirilməsi, xüsusilə də ən çox yoxsul qadınların yaşadığı kənd yerlərində, qadınların rəhbər strukturlarda liderliyinə və iştirakına imkan yaradılmasında əsas rol oynayır və AİB-nın layihələrinin onları bu layihələrin işində iştirak etməyə və özləri üçün ilkin şərait qurmağa ruhlandırmaqda böyük payı var.
- AİB əməliyyatlarının hökumətin gender bərabərliyini həyata keçirmək səylərinə yardım etməsi yolları müəyyənləşdirilməlidir.
- Qadın Məsələləri üzrə Dövlət Komitəsini gücləndirmək və imkanlarını artırmaq üçün yardım göstərilməli olan spesifik sahələr (o cümlədən, Gender sahəsində məsul işçilərdən ibarət şəbəkə) müəyyən edilməlidir.

## C. Dövlət Strategiyası və Proqramında (DSP) gender yanaşmasını tətbiq etmək üçün sektor Tövsiyələri

Aşağıdakı tövsiyələr əvvəlki fəsillərdəki gender məsələlərinin əsasında tərtib edilib və spesifik olaraq hazırki DSP çərçivəsində müəyyən edilmiş sektor prioritetlərinə yönəlib. Onlar müvafiq olaraq həm hazırki, həm də əsas layihələrə tətbiq edilə bilər.

### 1. Məcburi köçkünlərə yardım

Ölkənin ən yoxsul və ən pis vəziyyətdə olan qrupuna aid olan köçkün əhaliyə kömək edilməsi diqqət mərkəzində olan əsas strateji sahə hesab edilir. ÖGQ-də qeyd edildiyi kimi, köçkün/qaçqın əhalı arasında ciddi gender problemləri (o cümlədən, işsizliyin yüksək həddə olması, qaçqın qadın və uşaqların səhhətinin zəif olması, qızların orta məktəb səviyyəsində məktəbi atmalarının yararsız məktəb şəraiti və işləməyə və ya ərə getməyə məcbur edilmələri səbəb olduğunu sübut edən göstəricilər) mövcuddur. Məcburi köçkün/qaçqın qadınlar

arasında insan alverinin və fahişəliyin olması faktları geniş surətdə təsdiq edilir və köçkün/qaçqın icmalarında gender-əsaslı zorakılıq hallarının da geniş yayıldığı xəbər verilir.

Əsas sosial infrastruktur yaradılması layihəsi 2005-2006-cı illər üçün proqramlaşdırılıb və o, aşağıdakı fəaliyyətlərdən biri və ya bir neçəsini əhatə edə bilər: (i) məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılmasının davamlı olaraq dəstəklənməsi və yeni yaşayış yerlərinin salınması, (ii) köçkün uşaqların və gənclərin təhsil imkanlarının yaxşılaşdırılması, (iii) təcili olaraq yaşamaq və pul qazanmaq imkanlarının yaxşılaşdırılmasına yardım edilməsi.

Mümkün olan gücləndirilmiş layihə müdaxilələri aşağıdakılardan ibarət ola bilər:

- Layihədə nəzərdə tutulan əhali, o cümlədən, ayrı-ayrı cinslər üçün sağlamlıq, təhsil (təhsilə cəlb edilmə, davamiyyət və nəticələr), mənzillə təmin olunma, məşğulluq (o cümlədən, qeyri-formal sektorda) və gəlirlərə dair məlumatların ətraflı gender qiymətləndirilməsi aparılmalı və gender problemlərini daha yaxşı izləyə bilmək, eləcə də, nəzərdə tutulan müdaxilə tədbirlərinin kişilərə və qadınlara təsirini öyrənmək üçün müntəzəm fasilələr zamanı bu məlumatlar öyrənilməlidir.
- Kreditlərin verilməsi, kiçik və orta-həcmli müəssisələrin yaradılması və maliyyələşdirilməsi ilə bağlı layihə komponentləri kişilərə və qadınlara bərabər imkanlar yaratmalı, onlar müvafiq treninqlərdə və ixtisasın artırılması proqramlarında bərabər surətdə iştirak etməlidirlər.
- Məcburi köçkün/qaçqın kişilər və qadınlar arasında CYYX/İİV/QİÇS və digər reproduktiv sağlamlıq problemləri sahəsində şüurluluq artırılmalı, insan alveri (şərtləri və modifikasiyaları) və qadınlara qarşı zorakılıq halları barədə məlumat verilməlidir.
- Baza yaradılmalı, layihədə nəzərdə tutulan ərazidə kişilər/qadınlar və uşaqlar arasında qidalanma səviyyəsinin müntəzəm monitorinqi keçirilməli, əsas diqqət zəiflik, anemiya və yod çatışmazlığı pozuntularının səviyyəsinin müəyyənləş- dirilməsinə yönəlməli və müvafiq müdaxilə tədbirləri hazırlanmalıdır. Bu şərtlər layihə müdaxilələrinin gəlirsiz yoxsulluğu səviyyəsinə təsirini aşkar etməyə imkan verir və digər layihələrin də effektiv olması üçün böyük əhəmiyyət daşıyır, çünki pis qidalanma təhsildə hər hansı bir nailiyyət əldə etmək və sağlam nəsil böyütmək imkanlarını azaldır.

### 2. Kənd təsərrüfatı və kənddə inkişaf

AİB-nın kənd təsərrüfatı və kənddə inkişaf sektorunda diqqət mərkəzində olan əsas sahələr daşqınların vurduğu ziyanların yüngülləşdirilməsi və mikro-maliyyələşdirmə və kəndlərin maliyyələşdirilməsi məsələlərində inkişafdır.

### a. Daşqınların vurduğu ziyanın azaldılması

AİB-nın daşqınların vurduğu ziyanın azaldılması işinə qoşulması Hökumətin ciddi, tez-tez baş verən daşqınlarla bağlı tədbirlər görməsinə yardım etməsinə cavabdır. Bu daşqınlar adətən baharda və yayın əvvəllərində (əsas daşqınlar 1988, 1997, 1999 və 2002-ci illərdə baş verib) baş verir və geniş miqyasda insan tələfatına və əmlak itkisinə səbəb olur. 1980-1990-cı illər ərzində daşqınlardan dəyən ziyanın dəyərinin orta hesabla 20 milyon dollar həcmində olduğu müəyyən edilib. Geniş miqyasda infrastruktura vurduğu ziyandan əlavə, daşqınlar kənd təsərrüfatı torpaqlarını yararsız hala salır, ev heyvanlarının məhv olması yoxsul kəndlilərin qazanclarını azaldır və çox vaxt yoxsul olmayanları da yoxsulluğa məhkum edir. Sel sularından müdafiə olunmayan kənd torpaqlarının müəyyən əraziləri böyük təhlükə altındadır.

Daşqınların vurduğu ziyanın azaldılması və bərpa işləri üzrə layihələr qadınların kənd təsərrüfatı sektorunda çoxşaxəli rolunun və məsuliyyətlərinin tanınmasını və onların nəzərə alınmasını tələb edir. Ərzaq hazırlığı, uşaqların qayğısına qalma və digər ev işlərinin idarə olunmasına əlavə olaraq, Azərbaycanda qadınlar çox sayda kənd təsərrüfatı işləri ilə də, məsələn, əkin, alaq işləri, yer belləmə, məhsul yığımı və yığılan məhsulun tədarük edilməsi kimi işlərlə də məşğul olurlar; qadınlar həmçinin, ailənin başlıca həyati əhəmiyyəti olan digər işləri də (ev heyvanlarına baxmaq, süd məhsulları hazırlığı, şitillik və bostan işləri) görürlər. Daşqınlar bütün bu işlərə ciddi surətdə təsir edir. Daşqınlardan sonra təmiz suyun olmaması və sanitariya şəraitinin pisləşməsi də bilavasitə məişətdə su təchizatı üçün başlıca məsuliyyət daşıyan qadınların işini çətinləşdirir.

Mümkün olan gücləndirilmiş layihə müdaxilələri aşağıdakılardan ibarət ola bilər:

- Əsas nazirliklərdə (Dövlət Meliorasiya və Suvarma Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Meşə Təsərrüfatı Departamenti) öz gündəlik işlərində gender problemlərinə müraciət etməli olan institutlaşdırma potensialı yaradılmalıdır (məsələn, layihə ilə bağlı sosial və gender mütəxəssislərinin və gender təhlili treninqlərinin təmin edilməsi yolu ilə).
- Qadınların su, meşə təsərrüfatı və layihədə nəzərdə tutulmuş digər mənbələrin idarə edilməsində tam iştirakı təmin edilməlidir.
- Qadınların daşqınlardan sonrakı reabilitasiya dövründə yaranmış iş imkanlarından bərabər surətdə yararlanması təmin edilməli və onların bu işlərdə iştirakının vacib bir şey kimi qəbul edilməsi üçün xüsusi tədbirlər görülməlidir.
- Qadınların və kişilərin ətraf mühitə münasibətlərini və onların ətraf mühitin idarə edilməsi, o cümlədən, su və meşə resurslarının idarə olunması işində müvafiq rollarını daha yaxşı başa düşmək üçün layihələrdən lazımi şəkildə istifadə etmək lazımdır; müvafiq icma-əsaslı yüngülləşdirmə və reabilitasiya proqramlarının hazırlanması üçün belə məlumatlardan istifadə etmək lazımdır.
- Torpaqdan lazımi şəkildə istifadə edilməsi (yəni, daşqınların qarşısını almaq və onları yüngülləşdirmək) sahəsində əhalinin şüurluluğunun artırılmasını nəzərdə

tutan ictimai informasiya kampaniyaları qadınları effektiv surətdə hədəfə almalı və onları səfərbər etməlidir.

**b. Mikro-maliyyələşdirmə və kəndlərin maliyyələşdirilməsinin inkişafı**

Kənddə inkişafa mane olan zəif maliyyə xidmətləri probleminə müraciət etmək üçün AİB kənd yerlərində və Bakıdan kənar bölgələrdə bank və mikromaliyyə fəaliyyətlərinə yardım göstərir. Bu yardım bu yaxınlarda Bakıdan kənarda yerləşən rayonların inkişafını nəzərdə tutan fərmanla bağlıdır, o, yoxsulluğun azaldılmasına yönəlmiş spesifik bir tədbir kimi YAİİDP-da yer alıb və Hökumətin xüsusi prioriteti kimi qeydə alınıb.

Bu ÖGQ-də qeyd edildiyi kimi, çox sayda qadının dövlət sektorunda müvəffəqiyyətlə kredit almağa nail olmasına baxmayaraq, kənd yerlərində bu imkanı genişləndirməyə və qadınlara öz kiçik və orta-ölçülü müəssisələrini yaratmaqda kömək etməyə böyük ehtiyac var. Qadınların KOM açmaq işində qarşıya çıxan "mədəni" və "sosial" maneələri aradan götürmək üçün müvafiq strategiyalar yaratmaqdan əlavə, qadınların şəbəkə (ticarət və biznes assosiasiyaları) informasiyalarından, treninqlərdən, məsləhət xidmətlərindən istifadə edə bilmələri və bazarlara çıxa bilmələri təmin edilməlidir. Qadın sahibkarlığı üçün müvafiq iqlim yaradılması işi həm də bank və kiçik biznes sektorunun özünə və onları ruhlandıran və müdafiə edən əlverişli mühitin yaranmasına yönəlməlidir.

Mümkün olan layihə müdaxilələri aşağıdakılar ola bilər:

- Qadınların kreditalma imkanlarını genişləndirən və KOM-lərin inkişafını sürətləndirməyə kömək edən layihə strategiyalarını inkişaf etdirmək üçün qadınların kredit ehtiyacları, kreditalma imkanları və buna mane olan faktorlar ətraflı surətdə nəzərdən keçirilməlidir.
- Maliyyə xidmətləri kompleksinin hazırlanması işinə qadınlar da kişilər kimi cəlb edilməlidir.
- Layihəyə biznes inkişafı xidmətləri sahəsində və bank işində gender həssaslığını artırmağa yönəlmiş fəaliyyətlər daxil edilməli və qadınlar üçün məsləhət xidmətləri yaxşılaşdırılmalıdır.
- İş sahibləri təşkilatlarının gender həssaslığını artırmaq üçün tədbirlər hazırlanmalı və bu təşkilatların qadın sahibkarlar assosiasiyaları ilə daha güclü əlaqələr yaratmasına yardım edilməlidir.
- Mövcud qanunları və qaydaları tənzimləyən kredit təşkilatlarına düzəlişlər təklif edən layihələr gender yönümlü və gender təsirli (əgər varsa) olmaları baxımından mütəxəssislər tərəfindən öyrənilməli, müvafiq tövsiyələr verilməli və tətbiq edilməlidir.
- Mikro-maliyyələşdirmə və kəndlərin maliyyələşdirilməsinin inkişafına yönəlmiş layihələr layihə iştirakçılarının və səhmdarların, o cümlədən, mikro-maliyyə institutlarının, bankların və müvafiq hökumət idarələrinin kredit alma sahəsində qadınların qarşılarına çıxan spesifik maneələrə həssaslıqla yanaşmalarına nail olmağa calışmalı, bu maneələrin aradan götürülməsi üçün

lazımi potensialın yaradılmasına yardım göstərilməlidir.

- Mikro-maliyyə institutlarını qadın sahəsi işçilərini, təlimçiləri, məsləhət və yardım xidməti heyətlərini işə cəlb etməyə həvəsləndirmək lazımdır.
- Layihələrə qadınların sahibkarlıq qabiliyyətlərini, o cümlədən, treninq, təkmilləşdirmə, xüsusi təhsil proqramları, geniş məsləhət və yardım xidmətlərini gücləndirən fəaliyyətlər daxil edilməlidir.
- Qadın sahibkarlara KOM-in yaradılmasında kömək edən və onları təlimatlandıran təşkilatlara texniki və maliyyə yardımının göstərilməsi məsələsi nəzərdən keçirilməlidir.

### 3. Sosial infrastruktur

Su təchizatı, sanitariya şəraiti və azyaşlı uşaqların inkişafı sosial infrastruktur sektorunda AİB-nın diqqət mərkəzində duran məsələlərdir.

#### a. Su təchizatı və sanitariya şəraiti

AİB-nın su təchizatı və sanitariya sektorunda fəaliyyəti infrastrukturun genişləndirilməsi və keyfiyyətinin yaxşılaşdırılmasını, təchizat sistemində bəzi vəzifələrin yerli hakimiyyətlərə verilməsinə dair müəyyən edilmiş əsaslı islahatları dəstəkləməyi və müvafiq icra və idarəetmə səlahiyyətlərinə malik yeni su təchizatı sistemi yaratmağı nəzərdə tutur. İndiyə kimi AİB Göyçay, Ağdaş və Naxçıvan kimi şəhərlərdə su təchizatı və sanitariya xidmətlərinin bərpası üzrə investisiya layihəsini həyata keçirmişdir ki, bu da bu üç şəhərdə daha yaxşı su təchizatı və sanitariya xidməti təmin etməklə əhalinin yaşayış və sağlamlıq şəraitini yaxşılaşdıracaq. Birgə fəaliyyət göstərən texniki yardım xidməti su təchizatı və sanitariya şəraiti xidmətlərinin effektiv surətdə tənzimlənməsi sahəsində Hökumətin səlahiyyətlərini möhkəmlədəcək və bütün su mənbələrinin bir mərkəzdən idarə olunmasına imkan verəcək.

Təmiz suyun və sanitariya şəraitinin olmaması yoxsullara və xüsusilə də qadınlara daha pis təsir edir. Adətən su almaq, su yığmaq, su daşımaqla məhz qadınlar məşğul olur, natəmiz su və sanitariya şəraiti üzündən xəstələnən ailə üzvlərinin qayğısına məhz qadınlar qalmalı olurlar. Həm su təchizatını idarə edən, həm də sudan istifadə edən qadınlar su məsələləri ilə bağlı problemlərdən daha yaxşı xəbərdar olurlar və onların bu problemlərin yaxşılaşdırılmasına dair konkret təklifləri də var.

Mümkün olan layihə müdaxilələri aşağıdakılar ola bilər:

- İcraçı partnyorların həyata keçirilən siyasət və layihənin tətbiq edilməsi səviyyəsində gender məsələlərini nəzərdən keçirmək və onlara müraciət edə bilmələrini təmin etmək üçün gender şüurluluğunun artırılması üzrə treninqlər təşkil edilməlidir.
- Qadınların layihədə nəzərdə tutulan su mənbələrini idarə edən komitələrdə lazımi şəkildə təmsil olunmaları təmin edilməlidir.

- Qadınlar su təchizatı xidmətlərinin idarə edilməsi və qorunub saxlanmasına dair treninqlərə daxil edilməlidirlər.
- Layihə çərçivəsində keçirilən müştəri sorğularında (yəni, bu xidmətlərdən razılığa dair) iştirak edənlərin ən azı 50%-i qadın olmalıdır, çünki, su və sanitariya xidmətləri, su yığmaq və su daşımaq işləri üçün əsasən qadınlar məsuliyyət daşıyır, onlar bu xidmətlərlə bağlı problemlərdən yaxşı xəbərdardırlar və bu problemləri həll etmək üçün onların konkret təklifləri var.

**b. Erkən uşaqlıq dövrü inkişafı**

AİB-nın Erkən uşaqlıq dövrü inkişafı (EUİ) yarımsektoruna qoşulması YAİİDP-də (və YADİDP) uşaqların sağlamlığı və təhsili məsələlərinin prioritet təşkil etməsinə cavabdır və bu, EUİ-da yer almış pis qidalanma, xəstəlik və ölüm məsələlərinə müraciət etməklə Minilliyin sağlamlıqla bağlı əsas məqsədlərinə çatmaq işinə kömək edəcək. Bu qiymətləndirmədə qeyd edildiyi kimi, hamilə qadınların, körpə uşaqları olan anaların və 5 yaşdan aşağı uşaqların qidalanması və sağlamlıq vəziyyəti ilə əlaqədar narahatlıqlar həm gəlir, həm də qeyri-gəlir yoxsulluğu ölçülərinə malik olmaqla, çox ciddi və təxirəsalınmaz məsələlərdir.

EUİ layihələrinə və proqramlarına gender baxımından effektiv yanaşmanın müsbət təsiri çox böyükdür. Eləcə də, hamilə qadınlara, gənc analara və onların ailələrinə doğuşdan əvvəl və sonrakı dövrdə göstərilən qayğı, döşlə əmizdirmə və pəhriz, müvafiq mikro-qidalı əlavələr və doğuşlar arası fasilə haqqında əsas məlumatların verilməsi və yeni doğulmuş körpələrə ilkin qayğı ana ölümü, körpələrin və 5 yaşdan aşağı uşaqların ölüm faizini əhəmiyyətli dərəcədə azalda bilər və ümumilikdə sağlamlıq vəziyyətini yaxşılaşdırar. Effektiv EUİ proqramları sinifdə qalma və xəstələnmə hallarını azaltmaqla dövlətin təhsil və səhiyyəyə ayırdığı xərcləri də aşağı sala bilər. Bundan əlavə, keyfiyyətli uşaq baxımı proqramlarından yararlana bilməyin mümkünlüyü qadınlara pul qazanmaqla məşğul olmaq imkanı verir və uşaqların ibtidai məktəbə cəlb olunması, dərsdən sonra məktəbdə qalıb (uzadılmış gün) məşğul olmağa şərait yaradılması çox vaxt ailənin digər uşaqlarını körpəyə baxmaq məsuliyyətindən azad edir.

Mümkün olan layihə müdaxilələri aşağıdakılar ola bilər:

- Gender şüurluluğu təlimatları EUİ layihələri çərçivəsində bütün müəllim/müəllim və digər treninqlərə daxil edilməlidir.
- Bütün tədris materialları gender həssaslığı ilə seçilməli və qadınların və kişilərin rolunun stereotip imiclərindən uzaq olmalıdırlar.
- Məktəbəqədər müəssisələrdə ayrı-ayrı cinslər üzrə məlumatların toplanması və təhlil edilməsinə əlavə olaraq, müxtəlif yaş/gəlir/ərazi və köçkün/qaçqın qruplarında anemiya, yod çatışmazlığı xəstəlikləri, inkişafdan qalma, zəifləmə və pis qidalanma kimi qida çatışmazlıqlarının monitorinqi keçirilməli, təhlil edilməli və nəticələr bu məsələlərlə bağlı sektorda müdaxilələri yaxşılaşdırmaq məqsədilə əsas kimi istifadə edilməlidir.

- Məktəbəqədər müəssisələrdə müntəzəm olaraq qızların və oğlanların cəlb edilməsi, davamiyyəti və nailiyyətlərinin qiymətləndirilməsi aparılmalı və uyğunsuzluqları aradan götürmək üçün müvafiq siyasət və proqramlar hazırlanmalıdır.
- Ailələrdə qidalanma və EUİ üzrə şüurluluğun artırılması və yaxşılaşdırılması üçün nəzərdə tutulan müdaxilələr qadınlara və kişilərə, eləcə də, oğlanlara və qızlara ünvanlanmalı və onların tam və fəal surətdə iştirakını təmin etmək üçün müvafiq forumlar hazırlanmalıdır.
- EUİ layihələri və proqramlarında icmaları səhiyyə xidmətləri ilə təmin edənlər üçün (yəni, yerli səviyyədə) gender şüurluluğu və gender təhlili treninqləri (ələlxüsus effektiv məlumat toplamaq metodları üzrə) təşkil edilməlidir.

## 4. Nəqliyyat

AİB-nın nəqliyyat sektoruna yardımı bu sektordakı müəssisələrin fiziki bərpasına, nəzərdə tutulmuş islahatlara və bölgələrdə əsas yol qovşaqlarının inkişafına yönəlib. AİB-nın yardım coğrafiyası Bakıdan kənarda yerləşən əraziləri nəzərə alır və burada məqsəd daha tarazlanmış regional inkişafa nail olmaqdır. Bu yaxınlarda Hökumət 2004-2008-ci illər üçün Bölgələrin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı ilə yanaşı iki böyük şosse yolu dəhlizinin (mərkəzi və şimal-cənub) bərpasını prioritet məsələ kimi qarşıya qoyub. AİB-nın layihələri mərkəzi dəhlizin iki seqmentinin, şimal-cənub dəhlizinin isə bir seqmentinin bərpasını nəzərdə tutur. AİB-nın bu sektora dair sığota kampaniyası (?) Nəqliyyat Nazirliyinin siyasətqurma və tənzimləmə səlahiyyətlərinin artırılması, yolların təhlükəsizliyinin yüksəlməsi, maşınların işlənmiş qazları havaya buraxmasının azalmasını və yolların qorunması işinə özəl sektorun qoşulmasını təmin edə bilər.

Yolların qorunması və yol salınması layihələri yoxsulluğun azaldılması işinə böyük kömək edə bilər və edir də. Yerli və beynəlxalq bazarlara çıxışı asanlaşdırmaqdan əlavə, keyfiyyətli yollar şəbəkəsi bu yol dəhlizinin keçdiyi icmalarda pul qazanmaq üçün əlavə imkanlar yaradar və təhsil və səhiyyə xidmətləri kimi əsas sosial infrastrukturlardan yararlanmağa kömək edə bilər. Eyni zamanda, belə layihələr spesifik gender ölçüləri olan neqativ təsir də göstərə bilər. İnsan alveri ilə məşğul olan dəstələrin qurbanı ola bilmək ehtimalının artması, hazırda əlverişli əmək bazarlarında işçilərin istismar edilmələri və CYYX və İİV/QİÇS yoluxmaları böyük təhlükədir, lakin əgər layihələrin hazırlığı dövründə müvafiq gender təhlili aparılarsa və layihələr həyata keçirilərkən mənfi təsirləri aradan götürmək üçün lazımi effektiv tədbirlər görülərsə, bu təhlükəni azaltmaq mümkündür. Aşağıda bu sektorda AİB-nın layihələrinə daxil edilmiş bəzi müddəalar verilir.

Mümkün olan layihə müdaxilələri aşağıdakılar ola bilər:

- Yol layihələrinin qadınlara və kişilərə, o cümlədən, bu layihələrin toxunduğu icmalarda yoxsulluq həddinə, müvəqqəti/qeyri-leqal miqrant axınına, CYYX/İİV/QİÇS hallarına və ortaya çıxan insan alveri şəbəkələrinə müsbət/mənfi təsirinin monitorinqi keçirilməlidir.

- İnsan alveri, CYYX və İİV/QİÇS nəzərə alan komponentlər bütün yol layihələrinə daxil edilməli və bu componentlər müvafiq gender problemlərinə effektiv surətdə tətbiq edilməlidir.
- Hökumətin rəsmi şəxslərinə kişi və qadınların mühacirət axınını effektiv surətdə izləyə bilmək və insan alverçiləri və qaçaqmal alveri ilə məşğul olanları tutmaq və mühakimə etmək üçün səlahiyyət verilməlidir.
- İnsanlara qanunsuz alver, müvəqqəti mühacirətin (məs., işləmək üçün) təhlükəsi və modallığı, habelə CYYX və İİV/QİÇS-dən qorunmağa dair məlumat vermək məqsədilə yol layihələri ərazilərinin infrastrukturundan (yəni, avtobus depoları, bazarlar) istifadə edilməlidir.
- Qadınların yol layihələrində işlə təmin olunmaları, xüsusilə də təmir və yolların qorunması sahələrində, qarşıya hədəf kimi qoyulmalıdır.
- Layihələrə tikinti/ nəqliyyat işçiləri üçün İİV/QİÇS və CYYX keçiciliyi, seks-kommersiya işçilərinin xidmətlərindən istifadə edilməsinin vurduğu ziyan və gətirdiyi təhlükəyə dair şüurluluğun artırılması/təhlükənin qarşısının alınması kampaniyaları daxil edilməlidir.
- Layihənin əhatə etdiyi ərazi ilə tanış olan QHT-lər və İcma Təşkilatları qanunsuz alverin və ayrı-ayrı cinslər üzrə mühacirətin miqyasını müəyyənləşdirmək üçün müntəzəm olaraq qısamüddətli qiymətləndirmə aparmalıdır.

# *İstifadə edilən mənbələr*


AİB (Asiya İnkişaf Bankı). 2003a. *Azərbaycan Respublikasında Mikro-maliyyələşdirmə sektorunun İnkişafına Texniki Yardım.* TAR: AZE 36149. Manila

_____. 2003b. Azərbaycan Respublikasında azyaşlı uşaqların inkişafı layihələrinin hazırlanmasına göstərilən texniki yardım. TAR: AZE 36016.

_____. 2004a. *Azərbaycan. Ölkənin müasir strategiya və proqramı (2005-2006).* Manila.

_____. 2004b. *Azərbaycan Respublikasında şəhər su təchizatı və sanitariyası layihəsinə ayrılan borc və göstərilən texniki yardıma dair Prezidentin Direktorlar Şurasına Məruzəsi və tövsiyələri.* Manila.

_____. 2005b. *Azərbaycan Respublikasında ana və uşaqların sağlamlığı və qidalanmanın vəziyyətinə dair məruzə.* TA 4115-AZE: Azyaşlı uşaqların inkişafı layihəsi. Manila.

Castel, D. və L.Fox. n.d. *Keçmiş Sovet İttifaqında təqaüd sistemində islahatların gender ölçüləri.* Vaşinqton, DC: Dünya Bankı.

Vətəndaş Hüquqları uğrunda «Təmiz Dünya» sosial birliyi. 2004. *İnsan alveri qurbanları arasında aparılan sorğu barədə qısa məruzə.* Bakı.

IHF (İnsan Hüquqları üzrə Beynəlxalq Helsinki Fondu). 2000. *Köləliyin bir növü: ATƏT üzvü olan dövlətlərdə qadın alveri.* Vyana.

BƏT (Beynəlxalq Əmək Təşkilatı). 2004. *Azərbaycanda qadın sahibkarlığının inkişafı. Milli məruzə layihəsi.* BƏT-nın xahişi ilə oktyabrda təqdim edilib, 2004.

BMqT (Beynəlxalq Miqrasiya Təşkilatı). 2001. *Azərbaycandan kənar, təyinat Avropadır.* Miqrasiyanın səbəbləri, marşrutları və üsullarına dair araşdırmalar. İsveçrə.

_____. 2002. *Puç olmuş arzular. Azərbaycanda insan alverinə dair məruzə.* BMqT, Bakı.

_____. 2004. *Məlumatlı miqrasiya: Miqrasiya edənlər üçün təlimat kitabçası (Azərbaycan).* BXK (Beynəlxalq Xilasetmə Komitəsi). 2004. *Azərbaycanda zorakılıq və qadınlar probleminin qiymətləndirilməsi.* Bakı.

ATƏT (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı). 2002. *Azərbaycanda QHT-lərin qeydiyyatdan keçirilməsi problemləri – Əldə edilən məlumatların xülasəsi.* Bakı.

Oxfam. 2003. Köçkünlərin/Qaçqınların məktəb binalarına yerləşdirilməsi uşaqları təhsil almaqdan məhrum edir: vəziyyətin təhlili. Bərdə, Azərbaycan. Əldə etmək mümkündür.

Azərbaycan Respublikası. 2003. *Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı, 2003-2005.* Bakı.

_____. 2004. *Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramına dair illik məruzə, 2003.* Bakı.

_____. 2005a. *Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı Azərbaycanın Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində Azərbaycanın tərəqqisi. İcra hesabatı, 2003/4.* Bakı.

_____. 2005b. *Azərbaycan: Şərq ilə Qərbin görüşdüyü yer. MİM üzrə 2005-ci il Dünya Sammitində məruzə.* Bakı.

QPDK (Qadın Problemləri üzrə Dövlət Komitəsi) 2000. *Azərbaycan Respublikası Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı, 2000-2005.* Bakı.

DSK (Dövlət Statistika Komitəsi). 2002. *Məktəb təhsilində islahatlar barədə əhali arasında keçirilən rəy sorğusunun nəticələri üzrə məruzə.*

_____. 2003. *Dövlət məktəbəqədər müəssisələri –1990-2003.* Bakı.

_____. 2004a. *Azərbaycanda qadınlar və kişilər.* Bakı.

_____. 2004b. *2003-cü ildə ailə büdcəsinə dair sorğunun əsas nəticələri.* Bakı.

_____. 2004c. *Azərbaycanda əhalinin iqtisadi fəallığına dair sorğu: Əmək bazarında vəziyyətin metodologiyası və təhlili.* Bakı.

_____. İşçi qüvvəsi resursları və məşğulluq.

UNAIDS (BMT-nin İİV/QİÇS üzrə birgə Komitəsi)/ÜST (Ümumdünya Səhiyyə Təşkilatı). 2004. *Azərbaycanda 2004-cü il üçün yeniləşdirilmiş məlumat. Epidemioloji faktların cədvəli.*

UNDP (BMT-nin İnkişaf Proqramı). 2002. *Azərbaycanda İnsan İnkişafına dair Məruzə 2002.* Bakı.

UNECE (BMT-nin Avropa üçün İqtisadiyyat Komissiyası). 2002. *Şərqi Avropada və MDB ölkələrində qadın sahibkarlığı.* Cenevrə: BMT.

UNHCR (BMT-nin Qaçqın məsələləri üzrə Ali Komissarlığı). 1999. *UNHCR-ın ölkə üzrə qısa xülasəsi – Azərbaycan.*

UNICEF (BMT-nin Uşaq Fondu). 2002. Reaching the last few: Azərbaycanda qızların təhsili. Bakı.

_____. 2005. *Dünya uşaqlarının vəziyyəti*. Nyu York.

_____. DSK (Dövlət Statistika Komitəsi). 2000. *Çoxgöstəricili klaster sorğusu. 2000.*

Bakı. Birləşmiş Ştatların Dövlət Departamenti. 2005. *İnsan alverinə dair Məruzə. (*Azərbaycan üzrə). Vaşinqton, DC.

ABŞBİA (Amerika Birləşmiş Ştatların Beynəlxalq İnkişaf Agentliyi). 2004. *Gender qiymətləndirilməsi ABŞBİA /Qafqaz/Azərbaycan.* Vaşinqton DC.

_____. 2005. *Ölkə profili: Azərbaycan.*

ABŞBİA (Amerika Birləşmiş Ştatların Beynəlxalq İnkişaf Agentliyi)/MDB (Müstəqil Dövlətlər Birliyi)/BMTƏF (BMT-nin Əhali Fondu), və b. 2003. *Reproduktiv Sağlamlığın Müayinəsi, Azərbaycan, 2001.* Yekun məruzə. Atlanta, GA: ABŞBİA.

Uord, Canni, 2005. *Əgər indi olmasa, bəs nə vaxt? Qaçqınlar, köçkünlər və münaqişə nəticəsində yerlərini dəyişənlər arasında qender-əsaslı zorakılıq probleminə müraciət edlməsi / Ümumi icmal.* Qaçqın qadın və uşaqların problemləri üzrə Qadınlar Komissiyası.

Winrock International. 2004. *Qırğızıstan layihəsində İnsan alverinin qarşısının alınması. Əsaslı qiymətləndirilmə.* Bişkek, Qırğızıstan Respublikası.

Dünya Bankı. 1998. *Azərbaycanda ətraf mühitə dair təcili layihə. Layihənin qiymətləndirilmə sənədi.*

_____. 2001. *Kənd yerlərində ətraf mühitə dair PİD layihəsi.*

_____. 2003. *Azərbaycan Respublikasında yoxsulluğun qiymətləndirilməsi. II cild: Əsas məruzə.*
Dünya Bankı, Vaşinqton.

_____. 2004a. *Kənddə İnvestisiya layihələsi üçün təklif edilən kreditə dair Layihə qiymətləndirilməsi sənədi (AZKİL)*

_____. 2004b. *Mikro-maliyyələşdirmə və Mərkəzi Asiyada yoxsullar. Çətinliklər və imkanlar.*
ECSSD Mikro-maliyyələşdirmə qrupu. Vaşinqton, DC.

**Əlavə 1.**

**Gender və YAİİDP**

| Əsas № | Fəsilin adı | Gender məsələ-ləri qeyd edil-mir | Gender məsələ ri qısa şəkildə qeyd edilir | Gender problemləri ətraflı öyrənilib |
|---|---|---|---|---|
| **1-ci fəsil** | **AZƏRBAYCANDA YOXSULLUQ** | | | |
| 1.1 | Demoqrafik şərait | | X (1sətir) | |
| 1.2 | Yoxsulluq halları | X | | |
| 1.3 | Yoxsulluğun miqyası | | X (1paraqr.) | |
| 1.4 | Şəhər/Kənd yoxsulluğu | X | | |
| 1.5 | Həyat standartlarında regional fərqlər | X | | |
| 1.6 | Gender və yoxsulluq | | | X |
| 1.7 | Gəlirlər bölgüsü və qeyri-bərabərlik | X | | |
| 1.8 | MK-lar və qaçqınlar | | X(2 paraqr.) | |
| 1.9 | Sosial müdafiə sistemi | X | | |
| 1.10 | Məşğulluq | | X (2 sətir) | |
| 1.11 | Səhiyyə | | | X |
| 1.12 | Təhsil | | X (1paraqr.) | |
| 1.13 | Uşaqlar və yoxsulluq | X | | |
| 1.14 | Ətraf mühit | X | | |
| **2-ci fəsil** | **HAZIRKİ İQTİSADİ VƏZİYYƏT** | | | |
| 2.1 | Makro-iqtisadi şərait | X | | |
| 2.2 | Nailiyyətlər | X | | |
| 2.3 | Çətinliklər | X | | |
| **3-cü fəsil** | **YOXSULLUĞUN AZALDILMASINA YÖNƏLMİŞ SOSİAL SİYASƏTLAR** | | | |
| 3.1 | Sosial sığorta və sosial yardım islahatları | X | | |
| 3.2 | Həssas qrupların sosial müdafiəsi | X | | |
| 3.3 | Əmək bazarı, əmək haqqı və məşğulluq siyasəti | X | | |
| 3.4 | Təhsil islahatları | | X (1paraqr.) | |

| | | | | |
|---|---|---|---|---|
| 3.5 | Mədəniyyətin təbliği və mədəni irsin qorunması | X | | |
| 3.6 | Səhiyyə sektorunda islahatlar | | X (2 paraqr.) | |
| 3.7 | İdmanın və bədən tərbiyəsi təhsilinin təbliği | X | | |
| 3.8 | Gender siyasəti | | | X |
| 3.9 | Sosial siyasət və MK/qaçqın əhali | X | | |
| **4-cü fəsil** | **İQTİSADİ SİYASƏT VƏ YOXSULLUĞUN AZALDILMASI** | | | |
| 4.1 | İqtisadi stabilliyin qorunması | X | | |
| 4.2 | Tarazlaşdırılmış artım vasitələri | X | | |
| 4.3 | Tarazlaşdırılmış artıma dair sektor strategiyaları | X | | |
| **5-ci fəsil** | **YOXSULLUĞUN AZALDILMASI ÜÇÜN İLKİN STRUKTUR** | | | |
| 5.1 | Dövlət administrasiyasında islahatlar | X | | |
| 5.2 | Hüquqi islahatlar | X | | |
| 5.3 | Desentralizasiya: yoxsulluğun azaldılmasında bələdiyyələrin rolu | X | | |
| 5.4 | Korrupsiya ilə mübarizə | X | | |
| **6-cı fəsil** | **ƏMƏKDAŞLIQ PROSESİ** | | | |
| 6.1 | Əməkdaşlıq komponentinin rolu və əhəmiyyəti | X | | |
| 6.2 | Əsas iştirakçılar | X | | |
| 6.3 | Təcrübəyə əsaslanan göstəricilər | X | | |
| 6.4 | Əsas nəticələr | | | X |
| 6.5 | Nailiyyətlər və geriliklər | X | | |
| 6.6 | Prosesi dərinləşdirməyin və genişləndirməyin mümkün yolları | X | | |
| 6.7 | İnformasiya kampaniyası: Dövlət tərəfindən yoxsulluğun kökünün kəsilməsi | X | | |
| **7-ci fəsil** | **HƏYATA KEÇİRİLMƏ, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ** | | | |
| 7.1 | Monitorinq və qiymətləndirmə göstəricilərinin seçilməsi | | | X |
| 7.2 | Məlumat mənbələri və vasitələri | X | | |
| 7.3 | İnstitusional potensial | X | | |

*Mənbə: Müəllifin tədqiqatları*

**Əlavə 2.**

## Yoxsulluğun gender ölçüləri: 2003-2005-ci illərin YAİİDP-ə və YADİDP-ə daxıl edilməli olan potensial bəndlər

| Gender/ yoxsulluq ölçüləri | 2003-2005-ci illər üçün YAİİDP-nın müvafiq fəsili | Gender yanaşmasının istifadəsi üçün potensial əsas bəndlər | Daxil edilmə(tələb olunan araşdırmalar/treyninqlər/ əsas fəaliyyət) |
|---|---|---|---|
| **Qadınların imkanlarının azalması** | • Məşğulluq (Fəsil 1.10)<br>• Əmək bazarı, əmək haqqı və məşğulluq siyasəti (Fəsil 3.3)<br>• Dövlət administra-siyasında islahatlar (Fəsil 5.1)<br>• Hüquqi islahatlar (Fəsil 5.2)<br>• Desentraliza-siya: bələdiyyələrin yoxsulluğun azaldılmasında rolu (Fəsil 5.3)<br>• İqtisadı siyasət və yoxsulluğun azaldılması (Fəsil 4)<br>• Həyata keçirilmə, monitorinq və qiymətləndirmə (Fəsil 7) | • Bərabər məşğulluq imkanları (BMİ), seks zəminində narahatlıq və işə götürərkən ayrı-seçkilik hallarına dair qanunvericilik qəbul edilməli, bərabər imkanların tətbiq edilməsi və gücləndirilməsi üçün effektiv komitələr və digər təsisatlar yaradılmalıdır.<br>• Qadınların mülki xidmətlərdə sürətlə irəliləmələrinə dair öhdəliklər qəbul edilməlidir.<br>• Qadınların həm mərkəzi, həm də bələdiyyə idarələrində orta/yüksək idarəçilik səviyyələrində işə təyin olunmaları bir hədəf kimi qarşıya qoyulmalıdır.<br>• İş yerlərində gender bərabərliyi yolunda duran struktur və hüquqi maneələri, eləcə də bu problemə stereotip münasibətləri aradan qaldırmaq üçün tədbirlər görülməlidir; işə götürülmədə, iş şəraitində, peşə məsələsində ayrılma, sosial müdafiə yardımlarının verilməsi, qadınların peşə ilə bağlı sağlamlıq və təhlükəsizlik məsələləri və karyera ilə əlaqədar qeyri-bərabər imkanlara gender baxımından qərəzli yanaşma probleminə diqqət yetirilməlidir.<br>• Əsas siyasət prioriteti kimi tələbat çox olan ixtisasları nəzərə alan və xüsusilə də işsiz qadınlara ünvanlanan təkmilləşdirmə proqramları hazırlanması və həyata keçirilməsi müəyyən edilməlidir.<br>• Biznes treyninqi proqramlarını və müdafiə xidmətlərini qadınlara ünvanlamaqla onların kiçik və orta-həcmli müəssisələr sektorunda iştirakı müdafiə edilməlidir. | • Bərabər məşğulluq imkanlarının inkişaf etdirilməsi və bununla bağlı qanunvericilik texniki məsləhətlə və səlahiyyətli yardımla təmin edilməlidir.<br>• Qadın işçilərə uşaq pulu verməklə qadınların uşağa baxmaq məsuliyyəti tanınmalı və buna müvafiq cavab tədbiri görülməlidir.<br>• Orta və yüksək səviyyəli rəhbər işçilər üçün treyninqlər təşkil etməklə, idarələrdə (mərkəzi və bələdiyyə) Bərabər Məşğulluq İmkanlarına dair şüurluluq artırılmalıdır.<br>• Mərkəzi/bələdiyyə idarələri strukturlarında qadın işçilər professionallığın/idarəetmənin inkişaf etdirilməsi proqramları ilə təmin edilməlidirlər.<br>• Əmək bazarında (formal və qeyri-formal) genderlə bağlı uyğunsuzluqları, o cümlədən qadınların və kişilərin qeyri-fəallıq dərəcəsini daha yaxşı başa düşmək üçün tədqiqatlar davam etdirilməlidir.<br>• Müvəqqəti və qeyri-leqal işçi miqrasiyanın miqyası və zaman/gəlir təsirlərinin gender qiymətləndirilməsi aparılmalıdır.<br>• Əmək bazarının tələblərini müəyyənləş-dirmək və qadın və kişilər üçün peşə treyninqləri və digər treyninqlər təşkil etmək üçün iş sahibləri arasında geniş miqyaslı sorğu aparılmalıdır. |

| Gender/ yoxsulluq ölçüləri | 2003-2005-ci illər üçün YAİİDP-nın müvafiq fəsili | Gender yanaşmasının istifadəsi üçün potensial əsas bəndlər | Daxil edilən məlumat (tələb olunan araşdırmalar/ treyninqlər/əsas fəaliyyət) |
|---|---|---|---|
| | | • Maliyyə sahəsində xüsusi məsləhət xidmətləti və borcalma imkanları yaratmaqla qadınların bank sektorundan yararlana bilməsini asanlaşdırmaq lazımdır.<br>• Torpaq, mal-qara və avadanlıq kimi əmlak; toxum və gübrələr kimi əlavələr; əməyi yüngülləşdirən texnologiya; nəqliyyat, kənd təsərrüfatı qurğuları və təbliğat xidmətləri və treyninqlərdən yararlana bilmək imkanlarını yaxşılaşdırmaqla, qadınların kənddə rolu artırılmalıdır.<br>• Büdcədə (bəlkə də əvvəlcə bələdiyyələr səviyyəsində) gender planlaşdırılması nəzərdə tutulmalıdır.<br>• İqtisadı siyasətə dair rəsmi hesabatlarda sosial istehsal prosesində ödənilməyən əməyin mahiyyəti (buraya ailə və icma üzvlərinə və xəstələrə qayğı, yanacaq və su ehtiyatlarının yığılması, xörək bişirmə, ev təmizləmə və uşaqların dərslərinə baxma daxildir) tanınmalıdır.<br>• Kənd təsərrüfatı siyasətinə dair rəsmi hesabatlarda qadınların istehsalatda iştirakı, istehsal gücü və mənbələrdən, məlumat və müdafiə xidmətlərindən və satış bazarından istifadə edə bilmələrinə imkan yaradan strategiyalar qeyd edilməli, “fermer” termininin həm kişilərə, həm də qadınlara aid olmasına aydınlıq gətirilməlidir.<br>• Bütün sektorlarda siyasət quruculuğu cinslər üzrə ayrı-ayrı məlumatlara əsaslanmalı və siyasi qərarların kişilərin və qadınların həyatına müxtəlif şəkildə təsir etməsi nəzərə alınmalıdır. | • Qadınların kiçik və orta ölçülü biznes sektorunda zəif iştirak etməsi səbəbləri təhlil edilməli, bu sahədə qarşıya çıxan maneələr və onların öhdəsidən gəlmə strategiyaları müəyyənləşdirilməlidir.<br>• Kənd təsərrüfatında sahibkarlıq, geniş yardım xidmətləri və satış bazarı üzrə qadınlar üçün peşə inkişafı treyninqləri təşkil edilməlidir. Torpaq islahatları prosesinin gender təsirinin daha yaxından monitorinqi keçirilməli, o cümlədən, qadınların torpaq ehtiyatları üzərində real nəzarəti (qanuni nəzarətlə yanaşı) təmin edilməlidir.<br>• Kənd Təsərrüfatı Nazirliyinin bütün proqram və layihələrində planlaşdırma, tətbiq edilmə və qiymətləndirmə mərhələlərindəqadınların iştirakı bir hədəf kimi qarşıya qoyulmalıdır.<br>• Torpaq üzərində mülkiyyət hüququ ilə bağlı bütün məlumatlar gender baxımından müxtəlif (cinslər üzrə) olmalıdır.<br>• Qadınlara torpaq hüququ sənədlərinin surətləri verilməli və həm kişilər, həm də qadınlar ailə başçısı kimi qeydə alınmalıdırlar.<br>• Borcalma prosesləri yüngülləşdirilməlidir ki, qadınlar kredit imkanlarından effektiv surətdə istifadə edə bilsinlər; qadınlar üçün yeni istehsal sahələrinə (məsələn, kənd təsərrüfatı məhsullarının emal edilməsi və bazara çıxarılması) yol açan kənd təsərrüfatının kredit proqramları həyata keçirilməlidir.<br>• Büdcə ayırmalarının qadın və kişilərə təsirini müəyyən etmək məqsədilə bu ayırmaları nəzərdə tutan siyasətlər qiymətləndirilməli, |

| Gender/ yoxsulluq ölçüləri | 2003-2005-ci illər üçün YAİİDP-nın müvafiq fəsili | Gender yanaşmasının istifadəsi üçün potensial əsas bəndlər | Daxil edilən məlumat (tələb olunan araşdırmalar/ treyninqlər/əsas fəaliyyət) |
|---|---|---|---|
| | | | və bu siyasətlərin gender fərqlərini azaltması, artırması və ya olduğu səviyyədə saxlaması ehtimalları təhlil edilməlidir.<br>• Dövlətin büdcəsi və ailədə keçirilən vaxt büdcəsi arasında əlaqələri aşkara çıxarmaq məqsədi ilə ayrı-ayrı cinsə (yaş həddinə) mənsub ailə üzvlərinin evdə keçirdikləri vaxta dair məlumat toplanması üçün sorğular keçirilməlidir.<br>• Gizli və məlum gender məsələlərini və yaxın maliyyə resurslarını müəyyən edən gender baxımından şüurlu siyasət yeridilməli, bu siyasətin kişilər və qadınlar (kişi qrupları və qadın qrupları) arasındakı qeyri-bərabərliyi, mövcud gender münasibətləri formalarını davam etdirəcəyi və ya dəyişdirəcəyi öyrənilməlidir.<br>• Mövcud mikro və makro-kənd təsərrüfatları siyasətlərinin (o cümlədən, struktur tənzimləmə siyasətlərinin) əsasən ailə başçıları qadınlar olan torpaqsız, təcrid edilmiş kiçik ailələrdən olan qadın fermerlərə gender təsirinə dair araşdırmalar aparılmalı, və bu təsirin qadınlar üçün əlverişsiz olduğu hallarda siyasət təzələnməlidir.<br>• Mərkəzi və bələdiyyə idarələrinin bütün səviyyələrində gender baxımından ayrı-ayrı məlumatların toplanması, təhlili və məruzə edilməsi üçün imkanlar yaradılmalıdır.<br>• Hökumət strukturlarında, həm də təkcə sosial sektorda yox, gender şüurluluğu, təhlili və planlaşdırılması sahəsində müntəzəm və davamlı imkanlar yaradılmalı, siyasət qurucularının özlərinin müəyyən etdiyi bilik çatışmazlığına yönəlmiş ümumi, spesifik sektorlar üzrə treyninqlər təşkil edilməlidir. |

| Gender/ yoxsulluq ölçüləri | 2003-2005-ci illər üçün YAİİDP-nın müvafiq fəsili | Gender yanaşmasının istifadəsi üçün potensial əsas bəndlər | Daxil edilən məlumat (tələb olunan araşdırmalar/treyninqlər/əsas fəaliyyət) |
|---|---|---|---|
| **Qadınların qabiliyyətlərinin məhdudlaş-dırılması** | • Təhsil (Fəsil 1.12) | • Qızların və oğlanların məktəbə cəlb olunmaları və dərsə davamiyyəti üzrə müntəzəm monitorinq keçirilməsinə dair layihədə öhdəliklər müəyyən edilməli, müntəzəm olaraq, təhsilin nəticələrinin gender baxımından fərqli qiymətləndirilməsi həyata keçirilməlidir.<br>• Layihədə qızların ali təhsilə cəlb olunmalarını artırmağa sövq edən siyasət öhdəlikləri götürülməlidir.<br>• Azyaşlı uşaqlara qayğı sahəsində imkanların yaxşılaş- dırılmasına, o cümlədən, məktəbəqədər müəssisələrin heyətləri və məktəbəqədər treyninq heyətləri üçün əlavə maliyyə ayrılmalıdır.<br>• Müəllim hazırlığı proqramlarına gender şüurluluğu treyninqi daxil edilməlidir.<br>• Qadınlar və kişilərin rolu haqqında yaranmış stereotip fikirləri məktəb proqramlarından və dərsliklərdən çıxarmaq məqsədi ilə onlar təftiş edilməli və elə rəftar normaları aşılanmalıdır ki, gender bərabərsizliyi və genderlə bağlı zorakılıq bağışlanmaz və yolverilməz bir hal kimi qəbul edilsin. | • Kişilərin/Qadınların ibtidai və orta məktəb səviyyəsində təhsilə cəlb edilməsi, davamiyyəti müntəzəm olaraq qiymətləndirilməli və lazımi siyasət hazırlanmalıdır.<br>• Qızların və oğlanların təhsildə nailiyyətləri müntəzəm olaraq qiymətləndirilməli, və buna cavab verən müvafiq siyasət hazırlanmalıdır.<br>• Peşə və daha yüksək təhsil proqramlarının əmək bazarı tələblərinə daha yaxşı uyğun gələ bilməsi üçün əmək cəbhəsində mövcud olan tələbat (o cümlədən, gender maneələri) müntəzəm olaraq təhlil edilməlidir.<br>• Mərkəzi və bələdiyyə idarələrinin bütün səviyyələrində gender baxımından fərqli məlumatların toplanması, təhlili və məruzə edilməsi üçün əsas vasitələr (məs., müntəzəm treyninqlər yolu ilə) yaradılmalıdır. |

| Gender/ yoxsulluq ölçüləri | 2003-2005-ci illər üçün YAİİDP-nın müvafiq fəsili | Gender yanaşmasının istifadəsi üçün potensial əsas bəndlər | Daxil edilən məlumat (tələb olunan araşdırmalar/treyninqlər/əsas fəaliyyət) |
|---|---|---|---|
| | • Səhiyyə (Fəsil 1.11) | • Sağlamlığa dair göstəriciləri izləmək və gender çatışmazlıqlarını müəyyənləşdirmək və lazımi şəkildə aradan götürmək üçün səhiyyə sisteminin bütün səviyyələrində gender baxımından fərqli məlumatların toplanması və təhlil edilməsi işinin institutlaşdırılmasına dair öhdəliklər götürülməlidir.<br>• Layihədə qidalanma sahəsində, xüsusilə də, yoxsulların, o cümlədən yoxsul qadınların və uşaqların qidalanmasına dair dövlətin şüurluluq proqramını hazırlamaq və həyata keçirmək üçün öhdəliklər götürülməlidir.<br>• MİM #5 hədəflərindən əsas kimi istifadə edərək, analara səhiyyə xidmətlərini artırmaq üçün layihədə öhdəliklər götürülməlidir.<br>• MİM #4 hədəflərini əsas götürərək, uşaq ölümü faizini azaltmaq qarşıya məqsəd kimi qoyulmalıdır.<br>• YAİİDP həyata keçirildiyi dövr üçün müvafiq hədəfləri müəyyən etməklə ciddi yoluxucu xəstəliklərə qarşı uşaqların tam immunlaşdırılmasını müdafiə edən öhdəliklər layihəyə daxil edilməlidir.<br>• MİM #6 hədəflərindən əsas kimi istifadə edərək İİV/QİÇS, malariya və digər xəstəliklərə (xüsusilə də vərəmə) qarşı mübarizə aparmaq üçün layihə öhdəlikləri götürülməlidir. | • Səhiyyə sahəsində təklif edilən bütün islahatlar üzrə gender qiymətləndirilməsi aparılmalı, onların qadınların üzərinə əlavə iş/qayğı yükü qoymaması təmin edilməlidir.<br>• Səhiyyə xidmətlərinin (kişilər və qadınlar üçün) müntəzəm qiymətləndirilmələri keçirilməlidir ki, siyasət və proqramlar sahəsində nailiyyətlərə dair məlumat verilsin.<br>• Mövcud administrativ məlumatları tamamlamaq üçün ana və uşaq ölümü faizi üzrə müntəzəm sorğular keçirilməlidir.<br>• Bütün bölgələrdə və bütün gəlir qruplarında uşaqların immunlaşdırılmasının qiymətləndirilməsi həyata keçirilməlidir.<br>• Qadın və kişilər üzrə “yüksək risk” qruplarının müəyyən edilməsinin qiymətləndirilməsi aparılmalı və bu qiymətləndirilmə müvafiq siyasət/proqramlar hazırlanması üçün əsas rolunu oynamalıdır.<br>• Qadınların diqqəti CYYX (o cümlədən, seks sahəsi işçiləri, miqrantların həyat yoldaşları və ya miqrantlarözləri) böyük təhlükə daşıdığına yönəldilməli, müvafiq təhsil və informasiya proqramları, xüsusi təyinatlı işçilər və müalicə xidmətləri yaradılmalıdır.<br>• Mərkəzi və bələdiyyə idarələrinin bütün səviyyələrində gender baxımından fərqli məlumatların toplanması, təhlili və məruzə edilməsi üçün əsas vasitələr (məs., müntəzəm treyninqlər yolu ilə) yaradılmalıdır. |

| Gender/yoxsulluq ölçüləri | 2003-2005-ci illər üçün YAİİDP-nın müvafiq fəsili | Gender yanaşmasının istifadəsi üçün potensial əsas bəndlər | Daxil edilən məlumat (tələb olunan araşdırmalar/treyninqlər/əsas fəaliyyət) |
|---|---|---|---|
| **Müdafiəsizliyin səviyyəsinin artması** | • Sosial sığorta və sosial yardım islahatları (Fəsil 3.1)<br>• Ən zəif qrupların sosial müdafiəsi (Fəsil 3.2) | • Qadınlara qarşı ayrı-seçkiliyə yol verməyən və qadınların mənafeyinə zidd olmayan təqaüd proqramları.<br>• Qadınlara qarşı ayrı-seçkiliyə yol verməyən və qadınların mənafeyinə zidd olmayan sosial müdafiə proqramları.<br>• Qadınlara qarşı zorakılıq üzrə dövlətin şüurluluğun artırılması kampaniyalarını (yəni, məktəblərin, universitetlərin, dövlət idarələrinin vasitəsilə) dəstəkləməyə dair öhdəliklər.<br>• Zorakılıq qurbanı olmuş qadınların təhlükəsiz mənzil, müdafiə (yəni məsləhət) xidmətləri ilə təmin edilmələrinə dair öhdəliklər. | • Bütün təklif edilən islahatların və ya təkliflərin ətraflı gender təhlilinə əsaslanması, qadınların və kişilərin müxtəlif ehtiyaclarını nəzərə alması, qadınlara qarşı ayrı-seçkiliyə yol verməməsi və onların mənafeyinə zidd olmaması təmin edilməlidir (məsələn, təqaüd islahatları).<br>• Həm sosial müdafiə siyasəti, həm də proqram inkişafı kontekstində xüsusilə zəif qruplar (ailə başçısı kasıb qadınlar olan və ya yalnız bir valideyn olan ailələr) müəyyən edilməli və bu qruplar müvafiq sosial müdafiə şəbəkəsi ilə təmin edilməlidir.<br>• Qadınlara qarşı zorakılıq hallarının müxtəlif bölgələrdə müqyasının və təqdim edilən hazırki müdafiə xidmətlərinin səviyyəsinin dövlət qiymətləndirilməsi keçirilməli, geriliklər və ehtiyaclar müəyyən edilməlidir.<br>• Müvafiq treyninq proqramları hazırlanmalıdır.<br>• Müxtəlif səviyyələrdə, o cümlədən mərkəzi və yerli hakimiyyət təsisatlarında, polis də daxil olmaqla, təhlükəsizlik qüvvələri sistemində, silahlı qüvvələr və gömrük xidməti heyətlərində, təhsil müəssisələrində və kənd və şəhər qadınları arasında qadınlar və kişilər üçün hüquq savadlılığı üzrə treyninqlər hazırlanmalı və dəstəklənməlidir. |

| Gender/yoxsulluq ölçüləri | 2003-2005-ci illər üçün YAİİDP-nın müvafiq fəsili | Gender yanaşmasının istifadəsi üçün potensial əsas bəndlər | Daxil edilən məlumat (tələb olunan araşdırmalar/treyninqlər/əsas fəaliyyət) |
|---|---|---|---|
| **Qadınların səlahiyyətlərinin məhdudlaş-dırılmasının artması** | • Dövlət idarəçiliyində islahatlar (Fəsil 5.1)<br>• Desentralizasiya: bələdiyyələrin yox-sulluğun azaldılma-sında rolu (Fəsil 5.3).<br>• Əməkdaşlıq prosesi (Fəsil 6). | • Mərkəzi, regional və yerli hakimiyyətlər səviyyəsində qadınların dövlət strukturlarında iştirakını artırmağa yönəlmiş ictimai şüurluluq kampaniyalarının dəstəklənməsinə dair dövlət öhdəlikləri.<br>• Qadınların yerli hakimiyyət səviyyəsində qərarların qəbul edilməsi səviyyəsində təmsil olunmaları bir hədəf kimi müzakirə edilməlidir.<br>• Vilayət və rayon səviyyəsində qadınların təmsilçiliyi bir hədəf kimi müzakirə edilməlidir. | • Qadınların yerli və mərkəzi siyası strukturlarda daha çox iştirak etməkdə qarşılarına çıxan maneə və çətinliklərin qiymətləndiril-məsi keçirilməli və müvafiq siyasət və proqram tövsiyələri edilməlidir.<br>• Bütün yerli hakimiyyət işçiləri üçün gender şüurluluğu və təhlili üzrə treyninqlər həyta keçirilməlidir.<br>• Yerli, regional və dövlət səviyyələrində və-təndaşcəmiyyəti təmsilçiləri və QHT-lər/ İT-rı ilə məsləhətləşmələr üçün müntəzəm mexanizmlər yaradılmalı, qadınların bu məsləhətləşmələrdə tam iştirakı təmin olunmalıdır. |
| | | | |

İT – icma təşkilatı; BMİ – bərabər məşğulluq imkanları; İİV/QİÇS – insan immunçatışmazlığı virusu/qazanılmış immunçatışmazlığı sindromu;
MİM – Minilliyin İnkişaf Məqsədləri; QHT – qeyri-hökumət təşkilatı; YAİİDP – yoxsulluğun azaldılması və iqtisadi inkişafa dair dövlət proqramı; CYYX – cinsi yolla yoluxan xəstəliklər; QQZ – qadınlara qarşı zorakılıq.

*Mənbə:* müəllifin araşdırmaları.

## Əlavə 3.

### Azərbaycanda Minilliyin İnkişaf Məqsədləri: beynəlxalq və milli hədəflər

| Beynəlxalq MİM | Milli MİM |
|---|---|
| **Məqsəd #1**<br>İfrat yoxsulluğun və aclığın kökünün kəsilməsi.<br>**<u>Hədəflər</u>**<br>1. 1990 -2015 -ci illər arasında gündə 1$-dan az xərcləyənlərin sayını iki dəfə azaltmaq.<br>2. 1990-2015 -ci illər arasında aclıqdan əziyyət çəkənlərin sayını iki dəfə azaltmaq. | **Məqsəd 1.**<br>Gəlir yoxsulluğunun azaldılması.<br>**<u>Hədəflər</u>**<br>1. 2002- 2015-ci illər arasında adambaşına düşən aylıq istehlak xərcləri ölkənin ümumi yoxsulluq həddindən aşağı olanların sayını azaltmaq.<br>2. 2002 -2015-ci illər arasında son dərəcə yoxsulluq içində yaşayanların sayını azaltmaq. Yoxsulluq həddindən aşağı səviyyədə yaşayanların sayını iki dəfə azaltmaq. |
| **Məqsəd #2**<br>Universal ibtidai təhsilə nail olmaq.<br>**<u>Hədəf</u>**<br>3. 2015-ci ilə qədər hər yerdə uşaqlar, həm oğlanlar, həm də qızlar, ibtidai təhsili tamamlamaq imkanına malik olmalıdırlar. | **Məqsəd 2**<br>Universal təhsilə yaxın orta təhsilə nail olmaq.<br>**<u>Hədəf</u>**<br>3. 2015-ci ilə qədər uşaqlar hər yerdə, həm oğlanlar, həm də qızlar, orta təhsil kursunu tamamlamaq imkanına malik olmalıdırlar (11 sinif). |
| **Məqsəd #3**<br>Gender bərabərliyini həyata keçirmək və qadınların imkanlarını genişləndirmək.<br>**<u>Hədəf</u>**<br>4. 2005-ci ilə kimi ibtidai və orta təhsildə, 2015-ci ilə kimi isə təhsilin bütün səviyyələrində gender bərabərsizliyini aradan götürmək. | **Məqsəd 3**<br>Gender bərabərliyini həyata keçirmək və qadınların imkanlarını genişləndirmək.<br>**<u>Hədəf</u>**<br>4. İbtidai və orta təhsildə gender bərabərliyini qoruyub saxlamaq və ali təhsildə gender bərabərliyinin vəziyyətini yaxşılaşdırmaq. |
| **Məqsəd #4**<br>Uşaq ölümü faizini aşağı salmaq<br>**<u>Hədəflər</u>**<br>5. 1990 -2015-ci illər ərzində 5 yaşdan aşağı uşaqların ölüm faizini üçdə iki qədər azaltmaq. | **Məqsəd 4**<br>Uşaq ölümü faizini aşağı salmaq<br>**<u>Hədəf</u>**<br>5. 1990 -2015-ci illər ərzində 5 yaşdan aşağı uşaqların ölüm faizini üçdə iki qədər azaltmaq. |
| **Məqsəd #5**<br>Anaların sağlamlığı sahəsində vəziyyəti yaxşılaşdırmaq<br>**<u>Hədəf</u>**<br>6. 1990 -2015-ci illər ərzində ana ölümü faizini dörddə üç qədər azaltmaq. | **Məqsəd 5**<br>Anaların sağlamlığı sahəsində vəziyyəti yaxşılaşdırmaq<br>**<u>Hədəf</u>**<br>6. 2015-ci ilə kimi ana ölümü faizini 1990-cı il səviyyəsinə qədər azaltmaq və və bu səviyyəni qoruyub saxlamaq. |

| | |
|---|---|
| **Məqsəd #6**<br>İİV/QİÇS, malariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq<br>**<u>Hədəflər</u>**<br>7. 2015-ci ilə kimi İİV/QİÇS-nun yayılması dayandırılsın və bu yayılmanın azaldılmasına başlansın.<br>8. 2015-ci ilə kimi malariyaya və digər xəstəliklərə tutulma hallarının qarşısı alınsın və azaldılmasına başlansın. | **Məqsəd 6**<br>İİV/QİÇS, malariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq<br>**<u>Hədəflər</u>**<br>1. 2008 -ci ilə kimi İİV/QİÇS-nun yayılması dayandırılsın və bu yayılmanın azaldılmasına başlansın.<br>2. ___ ilə kimi (ili müəyyən etmək üçün qərar verilməlidir) malariyaya tutulma hallarının qarşısını almaq; vərəm və brüsellozla əlaqədar xüsusi hədəflər müəyyən etmək. |
| **Məqsəd #7**<br>Ətraf mühitin müdafiə olunmasını təmin etmək.<br>**<u>Hədəflər</u>**<br>9. Ölkə siyasəti və proqramlarına uzunmüddətli inkişaf prinsiplərini inteqrasiya etmək və ətraf mühitin ehtiyatlarının itkisini azaltmaq.<br>10. 2015-ci ilə kimi təhlükəsiz içməli su əldə edə bilməyən adamların sayını iki dəfə azaltmaq.<br>11. 2020-ci ilə kimi xarabalıqlarda yaşayan ən azı 100 milyon adamın yaşayışında əhəmiyyətli dərəcədə yaxşılaşmaya nail olmaq . | **Məqsəd 7**<br>Ətraf mühitin müdafiə olunmasını təmin etmək.<br>**<u>Hədəflər</u>**<br>9. Ölkə siyasəti və proqramlarına uzunmüddətli inkişaf prinsiplərini inteqrasiya etmək və ətraf mühitin ehtiyatlarının itkisini azaltmaq.<br>10. 2015-ci ilə kimi təhlükəsiz içməli su əldə edə bilməyən adamların sayını iki dəfə azaltmaq.<br>11. Seçilməlidir. |

| | |
|---|---|
| **Məqsəd #8**<br>İnkişaf üzrə qlobal əməkdaşlıq yaratmaq.<br>**<u>Hədəflər</u>**<br>12. Gələcəkdə açıq, qanunlarla idarə olunan, gələcəyi qabaqcadan görünən, ayrı-seçkiliyə yol verməyən ticarət və maliyyə sistemi yaratmaq.<br>13. Ən az inkişaf etmiş ölkələrin xüsusi ehtiyaclarına diqqət yetirmək. Hər tərəfdən quru torpaqlarla əhatə olunmuş ölkələr və adalarda yerləşən inkişaf etməkdə olan kiçik dövlətlərin xüsusi ehtiyaclarına diqqət yetirmək.<br>14. İnkişaf etməkdə olan ölkələrin borcları probleminə diqqətlə yanaşmaq, həm dövlət daxilində, həm də beynəlxalq səviyyədə tədbirlər görməklə, borcların uzun müddətə saxlanmasına nail olmaq.<br>15. İnkişaf etməkdə olan ölkələrlə əməkdaşlıqda gənclər üçün ləyaqətli və produktiv iş imkanları yaradılmasına dair strategiyalar hazırlamaq və tətbiq etmək.<br>16. Farmaseptik kompaniyalarla əməkdaşlıqda inkişaf etməkdə olan ölkələrdə müvafiq qiymətlərlə əsas dərmanları əldə etmək imkanları yaratmaq.<br>17. Özəl sektorla əməkdaşlıqda yeni texnologiyalar, xüsusilə də informasiya və rabitə vasitələrinin nailiyyətlərindən yararlanmaq üçün imkanlar yaratmaq. | **Məqsəd 8**<br>İnkişaf üzrə qlobal əməkdaşlıq yaratmaq.<br>**<u>Hədəflər</u>**<br>12. Qeyri-neft sektorunda birbaşa xarici investisiyaları artırmaq.<br>13. Qeyri-neft sektorunda ixracatı artırmaq.<br>14. Dünya Ticarət Təşkilatına daxil olmaqla gələcəkdə açıq, qanunlarla idarə olunan, gələcəyi qabaqcadan görünən, ayrı-seçkiliyə yol verməyən ticarət və maliyyə sistemi yaratmaq.<br>15. Yeni donorların meydana çıxması sahəsində inkişafa xarici yardım strategiyası layihəsi hazırlamaq.<br>16. Xarici borcları münasib səviyyədə saxlamaq.<br>17. Geniş ictimaiyyətin informasiya və rabitə texnologiyalarından istifadə edə bilməsinə imkan yaratmaq. |
| | **Məqsəd 9**<br>Səmərəli idarəçilik yaratmaq və onu möhkəmlətmək.<br>**<u>Hədəflər</u>**<br>18. 2015-ci ilə kimi ədliyyə, qanunların idarə edilməsi və bazar iqtisadiyyatına dair Avropa Şurasının standartlarına müvafiq olaraq, dövlət administrasiyası, qanunvericilik və siyasət sahəsində islahatlar keçirmək.<br>19. İstehsal sənayesində şəffaflığı artırmaq. |

*Mənbə:* Azərbaycan Respublikası, 2005b: 147—165.

**Əlavə 4.**

**Beynəlxalq və milli MIM-lərin xülasəsi və onların gender ölçüləri**

| Beynəlxalq MİM | Milli MİM | Gender ölçüləri/fəaliyyətləri |
|---|---|---|
| **Məqsəd #1**<br>İfrat yoxsulluğun və aclığın kökünü kəsmək.<br><br>**<u>Hədəflər</u>**<br>1. 1990-2015-ci illər ərzində gündə 1$-dan az xərcləyən adamların sayını iki dəfə azaltmaq.<br>2. 1990-2015-ci illər ərzində aclıqdan əziyyət çəkənlərin sayını iki dəfə azaltmaq. | **Məqsəd 1**<br>Gəlir yoxsulluğunu azaltmaq.<br><br>**<u>Hədəflər</u>**<br>1. 2002-2015-ci illər ərzində adambaşına düşən aylıq istehlak xərcləri ölkənin ifrat yoxsulluq həddindən aşağı olanların sayını azaltmaq.<br>2. 2002-2015-ci illər ərzində ifrat yoxsulluq içində yaşayanların sayını zaltmaq. Ölkənin yoxsulluq həddindən aşağı yaşayan əhalisinin sayını iki dəfə azaltmaq. | Ailə başçısı qadın olan ailələrin gəlir və istehlak yoxsulluğu üzrə illik monitorinqlər keçirilməli, məruzələr hazırlanmalı, buraya həm yerli, həm də köçkün/qaçqın ailələr daxıl edilməlidir.<br>Kişi və qadın ailə başçılarının, o cümlədən köçkün/qaçqın ailələrində, çətinliklərin öhdəsindən gəlmək işində müxtəlif strategiyaları aşkara çıxarmaq məqsədilə araşdırmalar və sorğular aparılmalıdır.Əgər ailə başçıları kişilər olan hallarda yoxsulluq həddi daha yüksək olarsa, bunun səbəbini müəyyən etmək üçün ayrıca araşdırmalar (yuxarıda qeyd edilən araşdırmaların bir hissəsi kimi) aparılmalıdır.<br>Təhlillərdə "gender" yoxsulluğunun araşdırılmaması (yəni, yoxsulluğun dərinliyi) nəzərə alınmalıdır.<br>İstehlak/gəlir bərabərsizliyini təhlil edərkən ailə başçılarının cinsi və onların yoxsulluq/gəlir bərabərsizliyi səviyyələri nəzərə alınmalıdır (yəni, ailə başçıları kişi və qadın ailələr üçün Gini əmsalından istifadə edilməlidir).<br>Qadınların və kişilərin illik əmək haqqlarının yoxsulluq həddinə nisbətinin monitorinqi keçirilməlidir.<br>Vaxtaşırı müntəzəm olaraq sorğu aparmaq yolu ilə uşaqlar arasında (14 yaşdan aşağı) zəif inkişaf etmə və azçəkili olma hallarının yayılması üzrə genderyönlü monitorinq keçirilməlidir.<br>Uşaqlar arasında (14 yaşdan aşağı) zob (YÇP) və qanazlığı hallarının yayılması üzrə gender- yönlü monitorinq keçirilməlidir.<br>İşləyən uşaqların (5-15 yaşlı) sayı müəyyən edilməli və bu sahədə müntəzəm olaraq genderyönlü monitorinq keçirilməlidir. |

| Beynəlxalq MİM | Milli MİM | Gender ölçüləri/fəaliyyətləri |
|---|---|---|
| **Məqsəd #2**<br>Universal ibtidai təhsilə nail olmaq.<br><br>**<u>Hədəf</u>**<br>3. 2015-ci ilə kimi hər yerdə uşaqlara, həm oğlanlara, həm də qızlara, tam ibtidai təhsil kursunu bitirmək imkanı yaratmaq. | **Məqsəd 2**<br>Universal təhsilə yaxın orta təhsilə nail olmaq.<br><br>**<u>Hədəf</u>**<br>3. 2015-ci ilə kimi hər yerdə uşaqlara, həm oğlanlar, həm də qızlara, tam orta təhsil kursunu (11 sinif) bitirmək imkanı yaratmaq. | Qızların tam orta və ali təhsil əldə etmək imkanları, xüsusilə də kənd yerlərində, narahatlıq doğurur; bu problemin regional və şəhər/kənd ölçüləri ola bilər.<br>Qızların orta məktəb səviyyəsində dərsə davamiyyətlərinin aşağıdüşmə göstəriciləri (xüsusilə də köçkün/qaçqın icmalarında) izlənməli və bu vəziyyətin monitorinqi keçirilməlidir.<br>Qızlar və oğlanların tədrisinin və təhsildə nailiyyətlərinin keyfiyyətinin əsaslı monitorinqi keçirilməlidir.<br>Qızların və oğlanların məktəbə cəlb olunmalarına dair ümumi və yekun rəqəmlərə dair məlumatlar dəqiqləşdirilməlidir; məktəbə davamiyyət genderə görə ətraflı yoxlanmalıdır |
| **Məqsəd #3**<br>Gender bərabərliyini həyata keçirmək və qadınların imkanlarını genişləndirmək.<br><br>**<u>Hədəf</u>**<br>4. Yaxşı olar ki, 2005-ci ilə kimi ibtidai və orta təhsildə və 2015-ci ildən gec olmayaraq, təhsilin bütün mərhələlərində gender bərabərsizliyini aradan götürmək. | **Məqsəd 3**<br>Gender bərabərliyini həyata keçirmək qadınların imkanlarını genişləndirmək.<br><br>**<u>Hədəf</u>**<br>4. İbtidai və orta məktəblərdə gender bərabərliyini qoruyub saxlamaq və ali təhsildə gender bərabərliyinin vəziyyətini yaxşılaşdırmaq. | Yuxarıda deyildiyi kimi.<br>Qızların universitetlərə daxil olma faizlərinin monitorinq göstəriciləri dəyişə bilər.<br>Qeyri-kənd təsərrüfatı sektorunda qadınların əmək haqqı payı kişilərinkindən əhəmiyyətli dərəcədə azdır, əmək haqqları sahəsində bərabərlik yoxdur.<br>Qeyri-kənd təsərrüfatında əmək cəbhəsində xeyli dərəcədə həm üfüqi, həm də şaquli bölünmə mövcuddur.<br>Milli Parlamentdə yerlərin yalnız 10,4%-ini qadınlar tutur. Qadınların ümumi "qeyri-fəallıq" faizi (2003-cü ildə 41,5%) çox yüksəkdir. Qeyri-formal sənaye sahəsində qadınların yüksək fəallıqları barədə xəbər verilir, lakin hələlik bu fəallığı hesablamaq mümkün olmur.<br>Qadın sahibkarlığının artırılması yolunda xeyli maneə var. |

| Beynəlxalq MİM | Milli MİM | Gender ölçüləri/fəaliyyətləri |
|---|---|---|
| **Məqsəd #4**<br>Uşaq ölümü faizini aşağı salmaq.<br><br>**<u>Hədəflər</u>**<br>5. 1990-2015-ci illər ərzində 5 yaşdan aşağı uşaqların ölüm faizini üçdə iki qədər aşağı salmaq. | **Məqsəd 4**<br>Uşaq ölümü faizini aşağı salmaq.<br><br>**<u>Hədəflər</u>**<br>5. 1990-2015-ci illər ərzində 5 yaşdan aşağı uşaqların ölüm faizini üçdə iki qədər aşağı salmaq. | Hazırda gender üzrə uşaq ölümü (yeni doğulmuş, yeni doğulandan sonra və körpə) faizləri təqdim edilməyib; bu problem məlumatların toplanması və məruzə edilməsi ilə qaydaya salınmalıdır.<br>“Diri doğulanlar” ifadəsinin ÜST-nın verdiyi standart anlayışla uyğun gəlməsinə təminat verilməlidir.<br>Rəsmi məlumatlar müntəzəm (cins baxımından ayrı-ayrı) sorğuların keçirilməsi ilə tamamlanmalıdır, çünki bəzi ailələr səhiyyə orqanlarına ölüm halları barədə xəbər verməyə bilərlər. UNICEF-in ÇGKS (2000) aşkar etmişdi ki, yoxsulların 18%-i və köçkün/qaçqınların 5%-inə yalnız ənənəvi doğuş yardımı və ya nisbi yardım göstərilib, və 5% köçkün/qaçqın və 10% yoxsul qadın doğuş zamanı heç bir yardım görməyib. Müntəzəm olaraq həyata keçirilən belə sorğular bu göstəricilərin monitorinqini keçirməyə kömək edər və ixtisaslı həkim yardımı ilə ölüm faizi arasında əlaqə olub-olmamasını müəyyən etməyə imkan verə bilər. Bundan əlavə, zəif qruplar üçün (məs., yoxsullar və köçkün/qaçqınlar) doğuş zamanı mütəxəssis yardımına imkan yaratmaq əsas prioritet məsələyə çevrilə bilər. |
| **Məqsəd #5**<br>Anaların sağlamlıq problemlərini yaxşılaşdırmaq.<br><br>**<u>Hədəf</u>**<br>6. 1990-2015-ci illər ərzində ana ölümü faizini dörddə üç dəfə azaltmaq. | **Məqsəd 5**<br>Anaların sağlamlıq problemlərini yaxşılaşdırmaq.<br><br>**<u>Hədəf</u>**<br>6. 2015-ci ilə kimi anaölümü faizini 1990-cı il səviyyəsinə çatdırmaq və bu səviyyədə qalmaq. | Yuxarıda qeyd edildiyi kimi, doğuş zamanı ixtisaslı yardım.<br>AÖ üzrə rəsmi məlumatlarla sorğunun məlumatları arasında böyük fərq var. Rəsmi məlumatlar və sorğuların nəticələrinin əsas göstəriciləri üzrə razılığa gəlmək və müntəzəm monitorinqlər keçirmək lazımdır.<br>2001-ci ildə keçirilən RSM məlumat vermişdi ki, evli qadınların yalnız yarısı (55%-i) hər hansısa bir kontraseptiv üsuldan istifadə edir; yarıdan azı isə (45%-i) hamiləliyin qarşısını effektiv surətdə ala bilmək üçün ehtiyac duyduqları vasitələri əldə edə bilmədiklərini bildiriblər. |
| | | Qadınların kontrasepsiya sahəsində informasiya, şüurluluğa dair müvafiq məlumatları əldə edə bilmək imkanlarının olması onların ailənin planlaşdırılması/uşaqların doğulmasında fasilələr barədə qərar vermələri və anaların səhhəti üçün çox vacibdir.<br>2001-ci ilin RSM məlumat vermişdi ki, hər qadına 3,2 abort düşür (rəsmi məlumatlara görə isə 15-49 yaşlı qadınlar üçün bi göstərici 0,3-dür).<br>Abortlar (xüsusilə də erkən abortlar) barədə məlumat verilməyə bilər, o cümlədən “özəl” sektorda. Tez-tez edilən abortlarla ana ölümü arasında |

| Beynəlxalq MİM | Milli MİM | Gender ölçüləri/fəaliyyətləri |
|---|---|---|
| | | əlaqə olduğu açıq surətdə müəyyən edilib, və müntəzəm sorğuların keçirilməsi bu əsas göstəricilərin monitorinqi üçün ən effektiv vasitə ola bilər.<br>Bir çox qadın keyfiyyətli və qiymətdə münasib səhiyyə xidməti əldə edə bilmədiklərini xəbər verirlər; yoxsul ailələri bir kənara qoyaq, çox vaxt orta səviyyəli ailələr üçün də "qeyri-rəsmi" əlavə qiymətlərin öhdəsindən gələ bilmək mümkün olmur. Odur ki, qadınlar üçün keyfiyyətli və qiymətdə münasib səhiyyə xidmətləri əldə etməyə imkan yaratmaq AÖ faizini azaltmaq baxımından çox böyük əhəmiyyət kəsb edir. |
| **Məqsəd #6**<br>İİV/QİÇS, malariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq.<br><br>**<u>Hədəflər</u>**<br>7. 2015-ci ilə kimi İİV/QİÇS-in yayılmasını dayandırmaq və bu prosesi geri döndərmək.<br>8. 2015-ci ilə kimi malariya və digər başlıca xəstəlik hallarını dayandırmaq və bu prosesi geri döndərmək. | **Məqsəd 6**<br>İİV/QİÇS, malariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq.<br><br>**<u>Hədəflər</u>**<br>7. 2008-ci ilə kimi İİV/QİÇS-in yayılmasını dayandırmaq və bu prosesi geri döndərmək.<br>8. 2015-ci ilə kimi malariya hallarını dayandırmaq və bu prosesi geri döndərmək; vərəm və brüselloza dair xüsusi hədəflər müəyyən etmək (tarixi təyin edilməlidir). | Azərbaycanda İİV/QİÇS və ona yoluxma yolları barədə məlumatlılıq çox aşağı və pis səviyyədədir. 2001-ci ilin RSM məlumat vermişdi ki, qadınların 72%-i İİV infeksiyasından qorunmağa dair hər hansı bir effektiv üsul göstərə bilməmişdi və yalnız 1%-dən azı üç preventiv üsulun adını çəkmişdi. Bu hədəfə çatmaq üçün məktəblərin, universitetlərin, iş yerlərinin və digər formaların vasitəsilə qadınların və qızların İİV/QİÇS barədə şüurluluğu artırılmalıdır.<br>Eləcə də kontraseptivlər (o cümlədən, prezervativlər) barədə məlumatlar və onları əldə edə bilmək imkanları da yaxşılaşdırılmalıdır.<br>İnsan alveri hallarının çoxalması qadınların və qızların İİV/QİÇS və digər CYYX-lərə yoluxma təhlükələrini daha da artırır. Bakıda, qadınların gətirildiyi bölgələrdə, təyyarə limanlarında və sərhəd-keçid məntəqələrində bu barədə məlumat yayılmalıdır.<br>Bakıda və bölgələrədə pulsuz və məxfi testdən keçirmə vasitələrindən istifadə edə bilmə imkanları hələ də çox məhduddur; bu vasitələr qadınların spesifik tələblərini nəzərə almalıdır (yəni, qadın həkimlər/tibbi heyət və s.).<br>Kişilər arasında vərəmə tutulma faizi yüksək olaraq qalır; hazırda qadınların və kişilərin vərəmdən ölmə halları barədə heç bir məlumat almaq mümkün deyil. Bu hədəfə çatmaq üçün pulsuz vərəm müayinələri və müalicəsinin vəziyyəti yaxşılaşdırılmalıdır (qadınlar və kişilər üçün birbaşa nəzarət müalicə kursları, ilkin səhiyyə xidmətləri vasitəsilə). |

| Beynəlxalq MİM | Milli MİM | Gender ölçüləri/fəaliyyətləri |
|---|---|---|
| **Məqsəd #7**<br>Ətraf mühitin qorunmasını təmin etmək.<br><br>**<u>Hədəflər</u>**<br>9. Ölkə siyasəti və proqramlarına uzunmüddətli inkişaf prinsiplərini inteqrasiya etmək və ətraf mühitin ehtiyatlarının itkisini azaltmaq.<br>10. 2015-ci ilə kimi təhlükəsiz içməli su əldə edə bilməyən adamların sayını iki dəfə azaltmaq.<br>11. 2020-ci ilə kimi xarabalıqlarda yaşayan ən azı 100 milyon adamın yaşayışında əhəmiyyətli dərəcədə yaxşılaşmaya nail olmaq. | **Məqsəd 7**<br>Ətraf mühitin qorunmasını təmin etmək.<br><br>**<u>Hədəflər</u>**<br>9. Ölkə siyasəti və proqramlarına uzunmüddətli inkişaf prinsiplərini inteqrasiya etmək və ətraf mühitin ehtiyatlarının itkisini azaltmaq.<br>10. 2015-ci ilə kimi təhlükəsiz içməli su əldə edə bilməyən adamların sayını iki dəfə azaltmaq.<br>11. Seçilməlidir. | Azərbaycanda bioloji mühitdəki müxtəlifliyin qorunub saxlanmasında qadınlarn və kişilərin roluna dair məlumatları (bu rol ətraf mühitin ehtiyatlarının itkisinin qarşısını almaqda effektiv olsa da) əldə etmək mümkün deyil. Belə təhlillərin aparılması çox vacibdir və nəticələr kənd təsərrüfatı/suvarma, meşə təsərrüfatı, balıqçılıq, su təchizatı və sanitariya kimi sahələrdə sektorlar üzrə məlumatların hazırlanması üçün çox əhəmiyyətli ola bilər.<br>Xüsusilə də balıqçılıq, kənd təsərrüfatı və meşə təsərrüfatı kimi sahələrdə qadınların rolu haqqında məlumatlarda boşluq var və bu da ətraf mühitə dair effektiv, genderyönlü siyasət və proqramların əhatə dairəsini məhdudlaşdırır.<br>Azərbaycanda ətraf mühitə vurulan ziyan dəhşətli səviyyədədir, lakin bu ziyanın (o cümlədən, Abşeron yarımadasında suyun və torpağın çirklənməsi) insanların, xüsusilə də qadınların və uşaqların sağlamlığına və məhsuldarlığına etmiş olduğu təsir üzrə son vaxtlar heç bir araşdırma aparılmayıb. Lakin ziyan çəkmiş ərazilərdə əsas göstəricilər, məsələn, AÖ, uşaq ölümü və uşaq xəstəlikləri faizi, çətin doğuşlar və deffektlə doğulma hallarına və bütün əhaliyə dair məlumatlarla müqayisə edib fərqləri müəyyən etməyə (əgər varsa) və müvafiq siyasət və müdaxilə tədbirləri görməyə imkan verən araşdırmalara ehtiyac var.<br>Təmiz və təhlükəsiz su təchizatı və sanitariya xidmətləri Azərbaycanda hələ də qənaətbəxş deyil və bölgələr üzrə fərqlənir. 2000-ci il UNICEF-in ÇGKS məlumat vermişdi ki, yoxsul bölgələrdə, məsələn, Naxçıvanda təmiz sudan istifadə edilməsi yalnız 68,4%-dir. Təmiz su ehtiyatının azlığı yoxsullara, xüsusilə də su alınması, daşınması, yığılması, istifadə edilməsi və bölüşdürülməsi üçün məsuliyyət daşıyan yoxsul qadınlara pis təsir edir. Odur ki, su və sanitariya üzrə layihələr əsas su istehlakçıları olan qadınların tam iştirakı ilə hazırlanmalı, nəzərdə tutulan fəaliyyət qadınların bilgi və təcrübələrinə əsaslanmalı və onların iş yükünü və sağlamlıq təhlükələrini azaltmalıdır. STS layihələrinə cəlb edilmiş dövlət/layihə işçilərinin gender üzrə təlimat almaları da çox əhəmiyyətlidir. |

| Beynəlxalq MİM | Milli MİM | Gender ölçüləri/fəaliyyətləri |
|---|---|---|
| **Məqsəd #8**<br>İnkişafa dair qlobal əməkdaşlıq yaratmaq.<br><br>**<u>Hədəflər</u>**<br>12. Gələcəkdə açıq, qaydalarla idarə olunan, qabaqcadan görünən, ayrı-seçkiliyə yol verməyən ticarət və maliyyə sistemi yaratmaq.<br>13. Diqqəti ən az inkişaf etmiş ölkələrin xüsusi ehtiyaclarına yönəltmək.<br>14. Quru ilə əhatə olunmuş və kiçik adalarda yerləşən inkişaf etməkdə olan ölkələrin xüsusi ehtiyaclarına diqqət yönəltmək.<br>15. Milli və beynəlxalq səviyyələrdə tədbirlər görməklə inkişaf etməkdə olan ölkələrin borc problemləri ilə yaxından məşğul olmaq və bu borcların müddətini uzatmaq.<br>16. İnkişaf etməkdə olan ölkələrlə əməkdaşlıq etməklə gənclər üçün əlverişli və ləyaqətli iş yerləri yaratmağa dair | **Məqsəd 8**<br>İnkişafa dair qlobal əməkdaşlıq yaratmaq.<br><br>**<u>Hədəflər</u>**<br>12. Qeyri-neft sektoruna birbaşa xarici investisiyaları artırmaq.<br>13. Qeyri-neft sektorunda ixracatı artırmaq.<br>14. Dünya Ticarət Təşkilatına daxil olmaqla gələcəkdə açıq, qaydalarla idarə olunan, qabaqcadan görünən, ayrı-seçkiliyə yol verməyən ticarət və maliyyə sistemi yaratmaq.<br>15. Donor kimi meydana çıxan inkişafa xarici yardım strategiyasının layihəsini hazırlamaq.<br>16. Xarici borcları imkan daxili səviyyədə saxlamaq.<br>17. Geniş ictimaiyyətə informasiya və kommunikasiya texnologiyalarından yararlana bilmək imkanları yaratmaq. | |

| Beynəlxalq MİM | Milli MİM | Gender ölçüləri/fəaliyyətləri |
|---|---|---|
| strategiyalar hazırlamaq və onları tətbiq etmək.<br>17. Farmaseptik kompaniyalarla əməkdaşlıq etməklə inkişaf etməkdə olan ölkələrdə maddi cəhətdən imkan daxilində olan əsas dərmanlardan istifadə etməyə şərait yaratmaq.<br>18. Özəl sektorla əməkdaşlıq etməklə yeni texnologiyalardan, xüsusilə də informasiya və kommunikasiyalar sahə sində, istifadə edə bilmək imkanları yaratmaq. | | |

| Beynəlxalq MİM | Milli MİM | Gender ölçüləri/fəaliyyətləri |
|---|---|---|
| | **Məqsəd 9**<br>Səmərəli idarəçilik yaratmaq və onu möhkəmlətmək.<br><br>**<u>Hədəflər</u>**<br>18. 2015-ci ilə kimi ədliyyə, qanunların idarə edilməsi və bazar iqtisadiyyatına dair Avropa Şurasının standartlarına müvafiq olaraq, dövlət administrasiyası, qanunvericilik və siyasət sahəsində islahatlar keçirmək.<br>19. İstehsal sənayesində şəffaflığı artırmaq. | |

YÇP – yod çatışmazlığı pozuntuları; RSM – reproduktiv sağlamlığın müayinəsi; UNICEF – BMT-nin Uşaq Fondu; STS – su təchizatı və sanitariya; AÖ – ana ölümü.
*Mənbə:* müəllifin araşdırmaları.

**Əlavə 5.**

**Azəbaycanda gender məsələləri üzrə işləyən Qeyri-Hökumət Təşkilatları**

| QHT-nin adı | Fəaliyyət sahəsi | Əlaqələndirici şəxs |
|---|---|---|
| Azərbavcanda "Simmetriya" gender Assosiasiyası | Qadın hüquqları, reproduktiv səhiyyə, gender və ətraf mühit, gender və köçkün/qaçqın əhalinin müdafiəsi. | Kamilə Dadaşova<br>493 40 56 |
| Azərbavcan "Sevil" qadınlar məclisi | Qadınların qanuni hüquqlarının, qadın sahibkarlığının müdafiəsi. | Rəfiqə Əzimova<br>498 51 22, (050) 348 76 61<br>sevil@bgt-az.com |
| AREAT (elmi tədqiqat mərkəzi) | Gender probleminə dair tədqiqatlar. | Əli Abbasov<br>Yelena Qasımova<br>491 00 98<br>areat@azeronline.com |
| Azərbaycanın Bakı Qadın Assosiasiyası | QQZ (qadınlara qarşı zorakılıq), qadın sahibkarlığının inkişafı, qadın problemlərinə dair tədqiqatlar. | Zərifə Salahova<br>493 19 02<br>zarifa salahova@yandex.ru |
| Gender Problemləri İnstitutu | Qadınlar və siyasət; qadınların siyasi proseslərdə iştirakının dəstəklənməsi və irəli çəkilməsi; qadın liderlərin təlimatlandırılması. | Sevil Zeynalova<br>499 31 47<br>sevil@bgt-az.com |
| Yaradıcı qadınlar birliyi (assosiasiyası) | Mədəniyyət sərgilərinin, konsertlərin keçirilməsi. | Afaq Hüseynova<br>495 97 28<br>afag h@yahoo.com |
| D.Əliyeva adına "Qadın hüquqlarının Müdafiəsi" cəmiyyəti | Qadınların, uşaqların və gənclərin hüquqlarının müdafiəsi. | Novella Cəfərova<br>492 91 66, 497 21 08<br>n _jafarova@azeri.com |
| Anaların "Ümid" cəmiyyəti | Zəif qrupların (məs., yaşlıların, uşaqların) maliyyə və xeyriyyə yardımı ilə təmin edilməsi. | Süsən Əhmədova<br>439 29 97, 438 54 20 |
| "Gender və insan haqları" tədqiqat birliyi | Qadınların siyasi proseslərdə iştirakının dəstəklənməsi və irəli çəkilməsi; gender məsələlərinə dair tədqiqatlar. | Rəna Mirzəzadə<br>439 37 47<br>mirrena54@mail.az |

| QHT-nin adı | Fəaliyyət sahəsi | Əlaqələndirici şəxs |
|---|---|---|
| Gender araşdırmaları mərkəzi | Gender probleminə dair tədqiqatlar/treyninqlər, diqqətin gender meinstriminqinə yönəlməsi. | Lidiya Rəsulova<br>492 14 75<br>lidiyarasulova@yahoo.com<br>gencent.wuaz@azeurotel.com |
| “Qadın və inkişaf” mərkəzi | Təhsil və gəlir yaratma kimi sektorlarda qadınların və uşaqların dəstəklə təmin edilməsi. | Pərvin Məmmədova<br>492 79 20<br>elmira@wdc/baku/az |
| Gənc Hüquqşünaslar İttifaqı | Qadın hüquqlarına dair şüurluluğun artırılması kampaniyaları. | Ramil İsgəndərov<br>497 32 47, 449 94 14<br>office@aylu.az |
| Yəhüdi qadınların humanitar assosiasiyası | Qadınlara tibbi və psixoloji yardım göstərilməsi və yəhudi qadınların hüquqlarının qorunması. | Larisa Reyxrudel<br>440 36 27, 495 25 44<br>jwoar@azeurotel/com |
| “Neftçi Qadınlar” cəmiyyəti | Diqqətin neft sənayesində qadınlara, o cümlədən, ətraf mühitlə və reproduktiv sağlamlıqla əlaqədar məsələlərə yönəlməsi. | Solmaz Hacıyeva<br>467 78 42, (050) 357 61 58<br>heftchiqadin@mail.az |
| Azərbaycan Gender İnformasiya mərkəzi | İnformzasiya kampaniyaları, treyninqlər və yardım göstərmək yolu ilə qadınların informasiya texnologiyasından istifadə etmələri məsələsi. | Yelena Qasımova<br>438 99 72<br>info@gender-az.org |
| “Kamillik” qadın xeyriyyə cəmiyyəti | Qaçqınlara və köçkünlərə yardım, o cümlədən, gender bərabərliyi prinsiplərinin və qadın hüquqlarının müdafiəsinin həyata keçirilməsi. | Əsmət Məmmədova<br>455 22 13, 455 24 14 |
| Nəsimi rayonu “Müharibə qurbanı olan analar və uşaqlar” xeyriyyə mərkəzi | Müharibə qurbanlarının ailələrinin xeyriyyə yardımları ilə təmin edilməsi. | Zemfira Tağızadə<br>440 44 43 |
| “Sənsiz” xeyriyyə cəmiyyəti | Ailəyə tək başçılıq edənlərə və məşğulluqdan gəlir götürməyən (işləməyən) ailələrə yardım. | Zemfira Rəhimova<br>474 43 13 |

| QHT-nin adı | Fəaliyyət sahəsi | Əlaqələndirici şəxs |
|---|---|---|
| Qadınların krizis mərkəzi | Zorakılıq qurbanlarını tibbi və psixoloji təcili yardımla təmin edilməsi. | Mətanət Əzizova<br>434 33 76<br>wcc@online/az |
| Azərbaycan feminist qrupu | Vətəndaş cəmiyyətinin gender təhsili və şüurluluq proqramlarının zorakılıq və alver qurbanlarını yardımla təmin etməsi. | Rəna Tahirova<br>492 80 71<br>tamilla@azeurotel.com |
| “Ailə və cəmiyyət” assosiasiyası | Vətəndaş cəmiyyətinin gender təhsili və şüurluluq proqramlarının<br>zorakılıq qurbanlarını yardımla təmin etməsi. | Faizə Əliyeva<br>493 83 73<br>faliyevarep@azeronline.com |
| Ailə krizis mərkəzi | Zorakılıq qurbanlarının, o cümlədən, uşaqların təcili tibbi və psixoloji yardımla təmin edilməsi. | Leyla İsmayılova<br>448 42 32<br>leyla@cpc.az |
| Azərbaycan iqtisadçı qadınlar ittifaqı | Qadın sahibkarlığı məsələsinin irəli çəkilməsi və dəstəklənməsi, gender və iqtisadi məsələlərə dair araşdırmalar , qadınların qanuni hüquqlarının müdafiəsi. | Nəcibə Qəhrəmanova<br>454 11 96<br>nadjiba@hotmail.com |
| “Ekosfera” sosial-ekoloji mərkəzi | Gender və ətraf mühitə dair şüurluluq və himayədarlıq proqramları. | Firuzə Soltanzadə<br>Züleyxa Əliyeva<br>492 43 48, (050) 332 00 34<br>ecosphera@azeurotel.com |
| Əlil qadınlar cəmiyyəti | Əlil qadınların hüquqlarının, o cümlədən, işləmək hüquqlarının müdafiəsi. | Məhluqə Rəhimova<br>Firuzə Babayeva<br>434 99 88, 469 39 49<br>office@oxfam1.baku.az |
| “Həvva” xeyriyyəçilik mərkəzi | Azərbaycan qadınlarına yardım edilməsi, beynəlxalq qadın hərəkatında iştirak. | Solmaz Yusifova<br>493 07 52, 494 15 73 |
| “Hamilə və uşaqlı qadınlara yardım” xeyriyyə cəmiyyəti | Hamilə köçkün və qaçqın qadınlara yardım göstərilməsi. | Müseyib Əliyev<br>432 39 35, 43864 93<br>aliyevmüsejeb@mail.ru |
| Menecer qadınlar assosiasiyası | Qadın sahibkarlığının inkişafına yardım; gender və iqtisadi inkişafa dair araşdırmaların aparılması; biznes planlaşdırılması, idarəçilik və marketinq üzrə treyninqlərin təşkil edilməsi. | Gülnarə Zamanova<br>498 40 27, 447 43 06<br>root@turan3.baku.az |

| QHT-nin adı | Fəaliyyət sahəsi | Əlaqələndirici şəxs |
|---|---|---|
| "Qadınlar və müasir dünya" sosial xeyriyyə mərkəzi | Qadın sahibkarlığının dəstəklənməsi və müdafiə edilməsi; ailə başçısı olan tək qadınlara yardım göstərilməsi. | Südabə Şirəliyeva<br>439 83 26<br>womenmworld@hotmail.com |
| Qadın problemləri üzrə tədqiqat mərkəzi | Vətəndaş cəmiyyəti gender təhsili və şüurluluq proqramlarının hazırlanması, qadınların siyasi proseslərdə iştirak etməyə həvəsləndirilməsi və dəstəklənməsi, qadın liderlərin hazırlığı, qadınların sülh quruculuğu və konfliktlərin həll edilməsində rolunun qeyd edilməsi və dəstəklənməsi. | Sacidə Əbdülvahabova<br>439 66 88, 497 78 42<br>women.institute@azeurotel.com |
| Azərbaycan qadınlar cəmiyyəti | Köçkün və qaçqın qadınlara yardım. | Zemfira Verdiyeva<br>492 74 87 |
| Sosial araşdırmalara dair beynəlxalq məkəz | Qadınların siyasi proseslərdə və gender məsələlərinə dair tədqiqat işində iştirakının təqdir edilməsi və dəstəklənməsi. | Qızılgül Abbasova<br>440 02 38<br>llemb@icsr.inbaku.com |
| "Şəhid anaları" xeyriyyə mərkəzi | Qarabağ müharibəsi qurbanlarının ailələrinə yardım. | Rəfiqə Əskərova<br>441 50 23<br>rafiqaaskerova@mail.ru |
| Vətəndaş hüquqları üzrə "Təmiz dünya" ictimai birliyi | Qadınlara qarşı zorakılıq və insan alveri hallarının qarşısının alınması, qadınların hüquqlarının müdafiə edilməsi; şüurluluğun artırılması kampaniyaları. | Mehriban Zeynalova<br>497 10 58<br>meri@aziner.com |
| "Universitet təhsilli qadınlar" | Qadınlara qarşı zorakılıq və insan alveri hallarının qarşısının alınması, qadınların hüquqlarının müdafiə edilməsi; şüurluluğun artırılması kampaniyaları; qadınların sülh quruculuğu və konfliktlərin həll edilməsində rolunun qeyd edilməsi və dəstəklənməsi. | Tamam Cəfərova<br>492 67 52<br>tjafarova59@mail.ru |
| "Yuva" humanitar mərkəzi | Milli azlıqlara daxil olan qadınlara yardım və müdafiə. | Rəna Tahirova<br>438 70 17, 438 42 58<br>tamilla@azeurotel.com |
| "Şəms" gənc qadınlar mərkəzi (Mingəçevir şəhəri) | Gənc qadınlara yönəlmiş proqramların dəstəklənməsi; Cənubi Qafqazdan olan qadınların təşəbbüslərinin dəstəklənməsi. | Təranə Seyidova<br>(147) 4 74 05, (055) 771 27 88<br>taranaseidova@yahoo.co.uk |
| "Kəndli" (Xaçmaz rayonu) | Səhiyyə və təhsil sektorunda və digər sektorlarda gənc qadınlara yönəlmiş proqramların dəstəklənməsi. | Yeganə Əsədova<br>3 30 25 |

## Asiya İnkişaf Bankı haqqında

Asiya İnkişaf Bankının (AİB) fəaliyyəti Asiya və Sakit Okean regionunda yaşayan yoxsulların, yəni gününə 2 dollardan da az düşən 1,9 milyard adamın maddi rifah halının yaxşılaşdırılmasına yönəlib.Uğurlardan bəhs edən söhbətlərə baxmayaraq, Asiya və Sakit okean dünya yoxsullarının üçdə iki hissəsinin yaşadığı yer olaraq qalır.

47-si bu regiondan, 19-u isə dünyanın digər hissələrindən 66 üzvü olan AİB inkişafın maliyyələşdirlməsi üzrə çoxsahəli müəssisədir. AİB bu regionu yoxsulluqdan azad görmək istəyir. Onun vəzifəsi inkişaf etməkdə olan üzv dövlətlərə yoxsulluğun azaldılmasına və öz yaşayışlarının keyfiyyətini yaxşılaşdırmağa kömək etməkdir.

AİB-nin inkişaf etməkdə olan ölkələrə yardım sahəsində əsas vasitələr əməkdaşlıq, borc vermək, texniki yardım, qrantlar, təminatlar və səhmdar sərmayədə iştirakıdır. AİB-nin borc əməlyyatlarına illik ayırmalarının ümumi həcmi 6 milyard dollardır, bunun 180 milyonu texniki yardım üçün nəzərdə tutulur.

AİB-nin Baş Qərargahı Maniladadır. Onun bütün dünyada 26 ofisi var. Təşkilatın 50-dən çox ölkədə 2000-dən çox əməkdaşı çalışır.

Asiya İnkişaf Bankı
Azərbaycanda Daimi Nümayəndəliyi
Azərbaycan, Bakı Az1010, Nizami küç.96, Landmark, 4-cü mərtəbə
www.adb.org/azrm